**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

---

**YƏHYA BABANLI**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ VƏ DİASPOR FƏALİYYƏTİ

## (1991-2011)

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – 2016**

**Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının 2015-ci il 29 iyun tarixli qərarı ilə (Protokol №10) çap olunmuşdur.**

Məsləhətçi: *f.ü.f.d., prof.* **Novruz Məmmədov**
Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri

Elmi redaktor: *t.ü.e.d., prof.* **Yaqub Mahmudov**

Redaktor: *t.ü.e.d.* **Məryəm Seyidbəyli**

Rəyçilər: *t.ü.e.d. prof.* **Aygün Attar**
*f.ü.f.d., dos.* **Faiq Hüseynov**
*t.ü.f.d.* **Fərhad Cabbarov**
*s.e.ü.f.d.* **Elşad Miraləm**

**Babanlı Yəhya Məmməd oğlu.**
**Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011).**
Bakı: «Elm və təhsil» nəşriyyatı, 2016. -328 s., -16 s. illüstr.

Monoqrafiyada Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonrakı 20 il ərzində diaspor fəaliyyətinin xarici siyasətdə yeri və rolundan bəhs edilir.

Əsərdə miqrasiya proseslərinə, diasporla iş üzrə nəzəri-praktiki məsələlərə, dövlət-diaspor münasibətlərinə, lobbiçilik fəaliyyətinə toxunulub. Azərbaycan diasporunun təşəkkülü və inkişafı tədqiq olunub. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinə diasporun təsiri işıqlandırılıb.

Kitab tarix, sosiologiya, politologiya, beynəlxalq münasibətlər üzrə tədqiqatçılar, ekspertlər, ali məktəb müəllimləri, tələbələri və xarici siyasət, miqrasiya-diaspor-lobbi ilə maraqlanan geniş auditoriya üçün nəzərdə tutulub.

**ISBN 978-9952-8028-4-9**

**© Babanlı Y.M., 2016**

# MİLLİ DƏYƏRLƏR VƏ MÜASİR MEYLLƏR

Hazırda dünyada sivilizasiyalar arasında münasibətlərin yeni formatı yaranır, dəyərlər sisteminin arxitekturasında fundamental dəyişikliklər baş verir, fərqli düşüncə mədəniyyəti formalaşır, qarşılıqlı əlaqələr inkişaf edir. Həmçinin, etnik-milli toqquşmaların çoxalması müşayiət olunur. Belə bir şəraitdə diplomatiyanın əsas ünsürlərdən birinə çevrilən sosial-etnik təmayüllü diasporun əhəmiyyəti danılmazdır. Şübhəsiz ki, bu da Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə təqdim olunmasında, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğində, xalqımıza qarşı ermənilərin məkirli siyasi-ideoloji təxribatının qarşısının alınmasında diaspor fəaliyyətinin şaxələndirilməsinin aktuallığını qabarıq şəkildə göstərir. Məhz buna görə də diaspor quruculuğu Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu nöqteyi-nəzərdən diaspor fəaliyyətinin Azərbaycan Respublikasının xarici siyasətindəki yeri və rolunun milli tarixşünaslıqda elmi tədqiqat obyekti kimi öyrənilməsi təqdirəlayiqdir.

Y.Babanlının «Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011)» adlı monoqrafiyasında diasporun milli dövlətçiliyin möhkəmlənməsində, dünya birliyinə inteqrasiyasında əhəmiyyəti, onun potensialından xarici siyasətdə, dövlətlərarası münasibətlərdə və beynəlxalq əlaqələrdə səmərəli istifadə edilməsi məsələlərinin araşdırılması tədqiqatın əsl mahiyyətini göstərir.

Müəllif Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq diasporun xarici siyasətdə, dövlətlərarası münasibətlərdə, beynəlxalq əlaqələrdə yeri və rolunu geniş şəkildə açıqlamışdır.

Monoqrafiya nəzəri cəhətdən əsaslandırılmış strukturu ilə seçilir və elmi tutumu onun mündəricatında özünü sübuta yetirir. Giriş, 2 fəsil, 6 bölmə, nəticə, biblioqrafiya, xülasələr, ixtisarlar, əlavələr və tədqiqatın yekunlarını əyani şəkildə əks etdirən bir cədvəldən ibarət olan əsərin giriş hissəsində müəllif mövzunun

aktuallığı və elmi əhəmiyyətini əsaslandırmış, Azərbaycan tarixşünaslığında bu vaxta qədər az tədqiq olunan «diaspor» anlayışı, diaspor quruculuğu, dövlətin sözügedən istiqamətdəki siyasətini elmi dövriyyəyə gətirmiş, bu sahədə əvvəlki illərdə tədqiqat aparmış alimlərin adlarını qeyd etmiş, onların tədqiqatlarına dəyər vermişdir. Girişdə, eyni zamanda qarşıya qoyulan məqsəd və vəzifələr, elmə gətirilən yeniliklər, tədqiqatın nəticələrinin tətbiq olunma sahələri müəyyənləşdirilmişdir. Bəhs edilən problemin öyrənilməsində yazılı mənbələrdən və müxtəlif elmi tədqiqat əsərlərindən geniş istifadə olunmuşdur.

Monoqrafiyanın I fəsli «Azərbaycan diasporunun təşəkkülü və inkişafı» adlanır. Müəllif birinci fəsildə diaspor anlayışına və tarixinə ümumi baxışı, xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətlərini və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsini nəzərdən keçirmişdir. Bu fəsildə orta əsrlər dövründən başlayaraq azərbaycanlıların xarici ölkələrə üz tutmalarının səbəbləri araşdırılmış, həmçinin SSRİ dövründə, onun dağılmasından sonra Azərbaycandakı mühitdən, siyasi məsələlərdən, məcburi miqrasiyaya məruz qalan həmyerlilərimizin vətəndən kənardakı vəziyyətindən söz açılmış, elmi mülahizələr yürüdülmüş və nəticələr çıxarılmışdır. Türkiyə, Almaniya, Rusiya, ABŞ və digər ölkələrdə Azərbaycan diasporunun fəaliyyəti haqqında lakonik məlumat verilmişdir.

Monoqrafiyanın II fəsli «Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinə diasporun təsiri» adlanır. Bu fəsildə Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili, diasporumuzun müxtəlif ölkələrin siyasi dairələri ilə əlaqələri və lobbiçiliyə keçid, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diaspor təşkilatlarının əməli işi ön plana çəkilmişdir.

Əsərdə Heydər Əliyevin formalaşdırdığı xarici siyasət strategiyasında diasporun əhəmiyyəti təhlil edilmiş və respublikanın həyatında baş verən proseslərin diaspor vasitəsilə təbliği yolları



araşdırılmışdır. Tədqiqatçı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin diaspor sahəsindəki siyasətini ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ideya və prinsiplərin konseptual istiqamətlərinə əsaslandığını tədqiq etmişdir. Ümummilli liderin müəyyənləşdirdiyi dəst-xəttə uyğun olaraq davam etdirilən kursun, dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsi məqsədi ilə Bakı şəhərində keçirilən Dünya azərbaycanlılarının I, II, III qurultaylarının mahiyyəti açıqlanmışdır. Bundan əlavə, Azərbaycan diasporunun təşkilatlanma və təkmilləşmə prosesi üçün dövlətimizin gördüyü işlərə diqqət yetirilir və lobbiçiliyə keçid mərhələsi geniş işıqlandırılır. Faktlar göstərir ki, Azərbaycan diasporunun fəaliyyəti siyasiləşir, ermənilərin cəfəng təbliğatı qarşısında öz sözünü deyə bilən lobbimiz formalaşır.

Müəllif tarixşünaslıqda nisbətən yeni olan bu istiqamət üzrə mövcud ədəbiyyatı təhlil edərək konkret vəzifələr müəyyənləşdirmiş və onları uğurla həll etmişdir. Azərbaycan diasporunun inkişaf yolunu ardıcıllıqla izləmiş və haqlı olaraq belə qənaətə gəlmişdir ki, bu proses ölkəmiz müstəqillik qazandıqdan sonra öz təşəkkülünün sonuncu mərhələsinə qədəm qoymuşdur. Onun tədqiqat dövründən sonrakı illəri də nəzərdən keçirməsi və Dünya azərbaycanlılarının IV qurultayını da diqqətdə saxlaması bunu deməyə bir daha əsas verir.

Y.M.Babanlı qarşısına qoyduğu elmi məqsədə nail olmuş, elmi dövriyyəyə cəlb etdiyi faktlar və sənədlər əsasında diaspor fəaliyyətinin Azərbaycan Respublikasının xarici siyasətində yeri və rolu, qazanılan təcrübə barədə təhlillər aparmış, gəldiyi elmi nəticələrini, təklif və tövsiyələrini təqdim etmişdir.

Bütün bu məsələlərə yanaşma və qiymətləndirmə metodologiyası dəqiq, dolğun, əsaslı və əhəmiyyətlidir.

**Y.M.Mahmudov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru,
Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı,
AMEA-nın müxbir üzvü, t.ü.e.d., prof.

# GİRİŞ

XX əsrdə baş verən elmi-texniki tərəqqi, geosiyasi hadisələr və yeni dünya nizamının yaranması miqrasiya proseslərinin intensivləşməsinə səbəb oldu. Bu da yeni milli icmaların, etnik qrupların, ictimai birliklərin, sosial cəmiyyətlərin, diaspor təşkilatlarının təşəkkülünə, təşkilatlanmasına, formalaşmasına, genişlənməsinə və inkişafına zəmin yaratdı. Həmin dövr ərzində insanların kütləvi şəkildə yerdəyişməsi nəinki sosial-mədəni, hətta iqtisadi və siyasi dəyişikliklər fonunda həyata keçirilmişdir. Miqrasiya (**Latınca:** *migratio* – «köçmək» insanların bir ölkədən digər ölkəyə həmişəlik və ya uzun müddətə köçməsi.)[1] dalğalarının güclənməsi və genişlənməsi müasir dövrün səciyyəvi xüsusiyyəti hesab edilə bilər. Qloballaşma xalqlar və dövlətlər arasındakı «məsafələri» qısaldır, milyonlarla insanın daha da yaxşı həyat axtarışı üçün öz vətənlərini tərk edərək digər ölkələrə köçməsinə şərait yaradır. Beynəlxalq miqrantların sayı son 50 ildə təqribən 3 dəfə artmışdır. Əgər, 1910-cu ildə dünya üzrə öz doğulduğu ölkədən kənarda yaşayan insanların sayı 75,5 milyon nəfər idisə, 2009-cu ildə bu rəqəm 213,9 milyon nəfər təşkil etmişdir. BMT ekspertlərinin hesablamalarına görə, hazırda Yer kürəsində hər 35 nəfərdən biri (bu isə 175 milyon nəfər, yəni dünya əhalisinin 2,9 %-i deməkdir), inkişaf etmiş ölkələrdə isə hər 10 nəfərdən biri xarici miqrantdır.[2] Müqayisə

[1] Qasımov C., Nağıyev N. İzahlı Siyasi Terminlər Lüğəti. Bakı: 2007, s. 117.
[2]https://az.wikipedia.org/wiki/Miqrasiya.;http://www.in.org./esa/population/publications/migration/;Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər). // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2006, №7.;Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin ölkənin sərhəd buraxılış məntəqələrində keçirdiyi «Miqrasiya proseslərinin öyrənilməsinə dair» seçmə statistik müayinə. 2010, mart.;http://apa.az/sosial_xeberler/azerbaycanda-miqrasiya-prosesleri ninoyrenil mesine-dair -statistik-muayine-kecirilib.html

onlarla qarşılıqlı faydalı əməkdaşlıq yaratmasında böyük əhəmiyyətə malikdir».[1]

Heydər Əliyevin diaspor quruculuğunun öyrənilməsi zərurəti də tədqiqatın aktuallığını şərtləndirən ən ümdə məsələlərdən biridir. Ona görə ki, H.Əliyevin həyata keçirdiyi diaspor siyasəti ilk növbədə dövlətin milli strategiyası ilə bağlıdır. O, daim Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi və qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsinin vacibliyini ön plana çəkirdi. H.Əliyev öz nitqlərinin birində bu məsələni belə xarakterizə edirdi: «Azərbaycan dövlətinin vəzifəsi bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərmək, onların həyatı ilə maraqlanmaq və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirməkdən ibarətdir».[2]

Heydər Əliyevin xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onları müstəqil respublikamızda baş verən mütərəqqi proseslərdə və hadisələrdə yaxından iştiraka dəvət etməsi, eyni zamanda, diaspor təşkilatlarının Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında fəallıq göstərməsi məsələsinin öyrənilməsi də mühüm aktuallıq kəsb edir. Hazırda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən yeni mərhələdə həyata keçirilən diaspor siyasəti də ümummilli lider H.Əliyevin milli birlik və həmrəylik prinsiplərinə söykənir. H.Əliyevin Dünya azərbaycanlılarının I, İ.Əliyevin II və III qurultaylarındakı çıxışlarından irəli gələn konseptual yanaşma Azərbaycan dövlətinin diaspor sahəsində siyasətinin əsasını təşkil edir. İ.Əliyev Dünya azərbaycanlılarının II qurultayındakı (2006, mart) çıxışı zamanı bildirmişdir ki, «Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya

[1] Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: «Letterpress» Nəşriyyat Evi, 2011, s. 71.
[2] Azərbaycan diasporuna dövlət qayğısı. Heydər Əliyevin çıxışları. Bakı: Çaşıoğlu, 2003, 301 s.



əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, həm də azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir. ...Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək».[1]

Olduqca orijinal olan bu fikir tamamilə həqiqəti əks etdirir. Ə.Əhmədovun məntiqli yanaşmasında deyildiyi kimi, «Azərbaycanlılar dünyada hansı ölkədə yaşamasından asılı olmayaraq, nə qədər möhkəm tellərlə bir-birinə bağlansalar, təşkilatı baxımından nə qədər mütəşəkkil olsalar diaspor təşkilatlarımızın gücü o qədər artar və bu güc artımı bütövlükdə Azərbaycanın gücünə müsbət təsir edər. 50 milyondan çox azərbaycanlı milli birliyini rəqəmə uyğun səviyyədə ifadə edə bilsə, Azərbaycanın gücü və qüdrəti daha çox artar».[2]

Mədəniyyətlərarası dialoqun yeni arxitekturasının yarandığı, sivilizasiyalararası qarşıdurmanın genişləndiyi, multikulturalizmin gerçək tələbə çevrildiyi və milli dövlətin etno-mədəni diasporlar dövləti ilə əvəzolunması meylindən doğan narahatlığın gücləndiyi müasir şəraitdə diaspor fəaliyyətinin xarici siyasətdə bəzi aspektlərinin mahiyyətini tədqiq etmək mühüm əhəmiyyət daşıyır.

Hal-hazırda dünyada inteqrasiya prosesi sürətlə gedir. Bu prosesdə diasporların da öz payı olduğu üçün onların kompleks halda öyrənilməsinə ciddi ehtiyac vardır. Bununla belə, diaspor fəaliyyətinin Azərbaycan Respublikasının xarici siyasətdəki yeri və rolu elmi tədqiqat obyekti kimi bu vaxta qədər lazımi səviyyədə araşdırılmamışdır.

[1] Əliyev İ. Dünya Azərbaycanlılarının II qurultayında nitq // Azərbaycan qəzeti, 2006, 17 mart, №58.
[2] http://sia.az/az/news/politics/156954-eli-ehmedov

Tədqiqatın zəruriliyini şərtləndirən əsas məsələlərdən biri də Azərbaycan Respublikasının müstəqillik dövründə digər sahələrlə yanaşı, diasporla iş sahəsində qazandığı təcrübənin təhlilinə ehtiyacın yaranmasıdır. Milli dövlətçiliyin inkişafında, onun dünya birliyinə inteqrasiyasında diaspor potensialından maksimum və səmərəli istifadə edilməsi vacibliyi də tədqiqatın əhəmiyyətini bir daha göstərir. Bu illər ərzində dünya azərbaycanlılarının həmrəyliyi və birliyi məqsədilə görülən işlər içərisində «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası»nın qəbul edilməsi mühüm strateji əhəmiyyətə malikdir. Məhz bu Xartiyanın əsas istiqamətlərindən bəhs edən «Xarici ölkələrdə yaşayan azərbaycanlıların birliyinin təmin olunması və təşkilatlanması» adlanan üçüncü bölməsində göstərilir ki, «Müasir dövrdə xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında milli-mənəvi birliyin möhkəmləndirilməsi, soydaşlarımızın təşkilatlanması prosesi keyfiyyətcə yeni məzmun kəsb etməkdədir. Bu, Azərbaycan diaspor quruculuğu işinə xarici ölkələrdə yaşayan azərbaycanlı ziyalıların, gənclərin və qadınların daha geniş şəkildə cəlb olunması, eləcə də Azərbaycanda yaşayan digər xalqların xarici ölkələrə köçmüş nümayəndələrinin cəlb olunması zərurəti ilə bağlıdır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətlərindən biri xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında siyasi-ideoloji, sosial-iqtisadi maddi-mədəni və mənəvi amillərə əsaslanan birliyin təmin olunmasına səy göstərilməsi, azərbaycanlılar arasında milli həmrəylik və birlik ideyalarını təbliğ etmək olmalıdır».[1]

Göründüyü kimi, burada diaspor fəaliyyətinə diplomatik yöndə kompleks milli baxış keçirilmişdir.

Azərbaycan diasporunun təşəkkülü və inkişafı tədqiq edilərək diaspor anlayışına və tarixinə ümumi baxışın, dünya diasporları ilə yanaşı, xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətlərinin, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra milli diasporun mövcud

[1] Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Bakı: 2009, avqust.



potensialı və müasir inkişaf səviyyəsinin öyrənilməsinin də nə dərəcədə vacib olduğunu göstərir.

Eləcə də Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinə diasporun təsiri imkanlarına diqqət yetirilərək Azərbaycan Respublikasının xarici siyasətində diaspor amilinə, Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələrinə və diaspor quruculuğundan lobbiçiliyə doğru təkamül prosesi nəticəsində müvafiq təşkilatların ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinin araşdırılması zərurəti də mövzunun vacib lazımlılığını sübut edir. Bildiyimiz kimi, xaricdə məskunlaşmış soydaşlarımızın hüquqlarının müdafiəsi, onların yaşadıqları cəmiyyətlərdə Azərbaycan haqqında aydın təsəvvürün yaradılması, ölkəmizin təbliği və Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, Dağlıq Qarabağ münaqişəsi kimi məsələlərdə onun ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasındakı rolunun araşdırılması da xüsusi əhəmiyyətə malikdir.

Tədqiqat işi Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsindən sonrakı 20 illik tarixi dövrü əhatə edir. Problem xronoloji çərçivəsinə uyğun araşdırılmış və tədqiq edilmişdir. Bu müddət ərzində ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi, diaspor quruculuğu sahəsində də mühüm uğurlar əldə edilmiş və geniş təcrübə qazanılmışdır. Bu təcrübənin ümumiləşdirilməsi tədqiqatın əsas qayəsini təşkil edir.

Diaspor problemi tədqiqatçıların diqqətini ötən əsrin sonlarından cəlb etməyə başlamışdı. Məhz bu dövrdə bir çox ölkələrdə, əsasən də ABŞ-da diasporlaşma ilə əlaqədar yaranmış problemlərin təhlilinə həsr edilmiş bir sıra əsərlər yazılmışdı. Keçmiş SSRİ-də uzun zaman «diaspor» (həmçinin lobbi) mövzusu bu və ya digər formada ayrıca tədqiqat obyekti olmamışdır. Ona görə ki, xalqları «vahid sovet xalqı» adı altında birləşdirmək ideyasını təbliğ edən dövlət üçün bu mövzu bir növ yasaq sayılırdı. Hətta Sovetlər dönəmində çapdan çıxmış müvafiq sahə ədəbiyyatlarında, ensiklopediyalarında, lüğətlərində belə bu ter-

minin tam obyektiv izahına rast gəlmək mümkün deyildir.

Müxtəlif zamanlarda diasporun tarixi, onun yaranma səbəbləri, qarşılaşdığı problemlər, eləcə də sosial-mədəni sferaya təsir imkanları və ictimai-siyasi sahədəki mahiyyəti bu və ya digər dərəcədə tədqiq edilmişdir. Lakin diasporun mövcud olduğu və təmsil etdiyi xalqlarla qarşılıqlı əlaqələrdə yeri və onun dövlətlərarası münasibətlərin inkişafında rolunun öyrənilməsi, bir sözlə, dəqiq forma və düzgün məzmunu hələ də obyektiv tədqiqini gözləyən vacib bir problem olaraq qalır.

XX əsrin sonlarında bir sıra ölkələrin (Rusiya, Almaniya, Fransa, İngiltərə, ABŞ və b.) alimləri tərəfindən «diaspor» anlayışı ilə əlaqədar tədqiqatlar genişlənməyə başladı. Ötən əsrin 90-cı illərindən başlayaraq postsovet məkanında, Avropa ölkələrində və ABŞ-da diasporçuluğun, lobbiçiliyin müxtəlif aspektləri, forma və məzmunu, meydana gəlmə səbəbləri, ümumi və xüsusi cəhətləri barədə bir sıra elmi əsərlər meydana gəldi. Bu məsələnin elmi təhlili dünya tarixşünaslığında A.İ.Armstronq, A.V.Konner, A.Brah, T.Svedenburq, H.Karim, E.Flipp, P.Vhite, V.Şafren, G.Şeffer, E.Skimmer, M.Esmon, P.Florenski, R.Cohen, R.Brubaker və digər alimlərin tədqiqatlarında müəyyən şəkildə öz ifadəsini tapmışdır. R.Brubakerin vurğuladığı kimi, əgər 1970-ci illərdə «diaspor» sözünə və ona uyğun sözlərə dissertasiyalarda ildə bir-iki dəfə rast gəlinirdisə, 1980-ci illərdə 13 dəfə, 2001-ci ildə 130 dəfə rast gəlinmişdi.[1] Bu mövzuya maraq təkcə akademik tədqiqatlarla məhdudlaşmayaraq çap və elektron kütləvi informasiya vasitələrində də geniş yayılmağa başlayır. Məsələn, «Google» axtarış sistemində indi diaspor sözünə milyondan çox istinad vardır.[2]

2011-ci ildə bu say azı 4-5 dəfə çoxalmışdır. Çox güman ki, bu tendensiya belə də davam edəcəkdir.

[1] Brubaker R. The «diaspora» diaspora//Ethnic and racial studies. N.Y. 2005, Vol. 28, №1, p. 1.

[2] Cohen R. Global Diasporas An Introduction, Seattle /Global diasporas/ Ed. by. R.Cohen. -Second edition. New York: 2008.



Türkiyədə də diaspor quruculuğu probleminin araşdırılmasına son dövrlər diqqət artırılmışdır. Bu baxımdan, K.Şenolun «Ermeni Lobbisi: ABD'de Ermeni Diasporasının Oluşması ve Lobbi Faaliyetleri»,[1] A.Dindarın «Yaponya Türk-Tatar Diasporası»,[2] A.Tayyarın «Amerika'da Siyasal Yapı, Lobiler ve Dış Politika»[3] və əsərləri də maraq doğurur. Hər üç müəllif müasir dünyada diasporların milli və bəşəri proseslərdə fəal iştirakını və düzgün qurulan fəaliyyətinin diplomatiya sahəsində, dövlətlərarası münasibətlərin inkişafında xüsusi yeri olduğunu qeyd edir.

SSRİ-nin süqutundan sonra keçmiş sovet respublikaları alimlərinin tədqiqatlarında bu mövzu önəmli yer tutmağa başladı. MDB məkanında miqrasiya, diaspor, lobbiçilik probleminin öyrənilməsinə və bu amillərin xarici siyasətdə, beynəlxalq əlaqələrdə roluna dair N.Lebedeva,[4] V.Tişkov,[5] T.Poloskova,[6] V.Şnirelman,[7] V.Dyatlov,[8] S.Arutyunov,[9] A.Vişnevski,[1] Z.Levin,[2] Y.Platonov,[3]

[1] Şenol K. Ermeni Lobisi: ABD'de Ermeni Diasporası'nın Oluşması ve Lobi Faaliyetleri//Ermeni Araştırmaları Dergisi, mayıs, 2001, s. 139-169.

[2] Dindar A. Japonya Türk-Tatar Diasporası // Modern Türklük Araştırmaları Dergisi, kasım, 2004, s. 75-89.

[3] Tayyar A. Amerika'da Siyasal Yapı, Lobiler ve Dış Politika. İstanbul: Alfa Yay, 2009, s. 327.

[4] Лебедева Н. Новая русская диаспора: социально-психологический анализ. Москва: Наука, 1995, 172 с.

[5] Тишков В. Миграция и новые диаспоры в постсоветских государствах. Москва: Наука, 1996, 118 с.; yenə onun. Исторический феномен диаспоры // Этнографическое обозрение, 2000, №2, с.45-53.

[6] Полоскова Т. Диаспоры в системе международных связей. Москва: 1998, 199 с.; yenə onun. Современные диаспоры. Внутриполитические и международные аспекты. Москва: 1999, 252 с.; yenə onun. Диаспора: фактор конфликта или сближения? // Дружба Народов, 2000, №3, 152-169 с.

[7] Шнирельман В. Мифы диаспоры // «Диаспоры», 1999, №2,3, с. 6-33.

[8] Дятлов В. Диаспора: попытка определиться в понятиях // «Диаспоры», 1999, №1, с. 8-23.; yenə onun. Диаспора: экспансия термина в общественную практику современной России // «Диаспоры», 2004, №3, с. 126-138.

[9] Арутюнов С. Диаспора - это процесс // Этнографическое обозрение. Москва: 2000, №2, с. 74-78.

nov,[3] V.Popkov,[4] U.Safran[5] kimi müəlliflərin dəyərli araşdırmaları tədqiq etdiyimiz mövzunun ayrı-ayrı detallarının öyrənilməsində mühüm yer tutmaqdadır.

Son illərdə Rusiyada işıq üzü görmüş bir sıra fundamental kollektiv əsərlərdə, ayrı-ayrı məqalələr və internet saytlarında da diasporların dünya siyasətindəki əhəmiyyəti, lobbiçilik fəaliyyətləri və s. məsələlər öz əksini tapmışdır.[6]

XXI əsrin əvvəllərindən başlayaraq, Azərbaycan alimləri də bu mövzuda maraqlı araşdırmalar aparmağa başlamışlar. Y.M.Mahmudovun və M.H.Seyidbəylinin elmi redaktorluğu ilə buraxılmış «Azərbaycan diasporu: tarix və nəzəriyyə» adlı kitabı bu sahənin öyrənilməsinə layiqli töhfədir.[7]

R.Mehdiyevin «Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə»[8] monoqrafiyasında millətlərarası münasibətlərin nəzəri və siyasi məsələləri nəzərdən keçirilmiş və göstərilmişdir ki, xarici

---

1 Вишневский А. Распад СССР: этнические миграции и проблема диаспор // Общественные науки и современность. 2000, №3. с. 115-130.

2 Левин З. Менталитет диаспоры (системный и социокультурный анализ): Москва: 2001, 170 с.

3 Платонов Ю. Этнический фактор. Геополитика и психология. Санкт-Петербург: Речь, 2002, 519 с.

4 Попков В. Феномен этнических диаспор. РАН. Институт социологии. Москва: 2003, с. 6.

5 Сафран У. Сравнительный анализ диаспор. Размышления о книге Робина Коэна «Мировые диаспоры» // «Диаспоры», 2004, №4, с. 138-162.

6 Сионизм - теория и практика. Минц И.И. (рук. кол.) Москва: Политиздат, 1973, 240 с.; Международный сионизм на службе империалистической реакции. Москва: 1984, 173 с.; Стратегия развития диаспоры // НГ-Содружество. 1998, №5. Международный опыт защиты соотечественников за рубежом. Мировая и отечественная практика. Москва: Классикс стиль, 2003, 125 с.; Международный опыт институционального оформления отношения между государством и национальной диаспорой за рубежом - http//noravank.am/ru/

7 Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış // red. Y.Mahmudov, elmi red. M.Seyidbəyli/. Bakı: «Astroliqraf LTD» MMC, 2005, 89 s.

8 Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı: 2006, 622 s.



- 22022 -

siyasətdə müdafiə konsepsiyasından hücum konsepsiyasına keçmək, ölkə üçün əhəmiyyətli olan bir sıra məsələlərə və problemlərə beynəlxalq təşkilatların biganəliyini aradan qaldırmaq vacibdir. Müəllif həmçinin göstərir ki, ölkənin mənafeləri daim diaspor quruculuğu, lobbiçilik və ümummilli məsələlər ətrafında birləşməlidir.

Ə.Həsənovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti»[1] adlı əsərinin də diaspor quruculuğunun mahiyyətinin tədqiqində çəkisi böyükdür. Müəllif kitabda haqlı olaraq yazır ki, ölkəmizin bir sıra dövlətlərlə münasibətlər qurmasında diasporun xüsusi çəkisi vardır. Kitabda Azərbaycan-ABŞ əlaqələrini şərh edərkən müstəqilliyimizin ilk illərində hökumətin passiv xarici siyasətinin səriştəsizliyinə və erməni diaspor-lobbisinin saxtakarlığına toxunaraq, Heydər Əliyevin səbatlı milli mövqeyinin onların məkirli niyyətlərinin puça çıxmasına gətirib çıxarmasını göstərmişdir. «...Ermənilər bu dövrdə istədiklərinə qismən nail olsalar da, Azərbaycanda 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklər və bunun nəticəsində Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması onların çirkin əməllərinin qarşısına sipər çəkdi. Ermənistanın anti-azərbaycan siyasətinə qarşı Azərbaycan rəhbərliyinin daha uzaqgörən və çevik siyasəti qoyuldu».[2]

Bu gün Azərbaycanda diaspor quruculuğu sahəsində məqsədyönlü işin aparılması da məhz ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə bağlıdır. Hazırda müvafiq siyasi xətti Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi layiqincə davam etdirir.

N.Məmmədovun «Geosiyasətə giriş»[3] adlı iki cildlik kitabı

---

1 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.

2 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. s. 233.

3 Məmmədov N. Geosiyasətə giriş. I cild: Geosiyasətin nəzəri əsasları. Bakı: Azərbaycan nəşriyyatı, 2011, 576 s. II cild: Müasir geosiyasi proseslər. Bakı: Azərbaycan nəşriyyatı, 2011, 416 s.



PREZİDENT KİTABXANASI

da mövzunun öyrənilməsində olduqca əhəmiyyətlidir. Əsərdə regional kontekstdə təqdim edilmiş müasir geosiyasi hadisələr və Azərbaycana həsr olunmuş fəsil xüsusilə maraq doğurur. Burada ölkəmizin müstəqillik illərində keçdiyi yol sistemli şəkildə təhlil edilir, XX əsrin sonu – XXI əsrin əvvəlində dünyada baş verən geosiyasi dəyişikliklər şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülü və inkişafının əsas meyilləri göstərilir, müəllifin özünün qeyd etdiyi kimi, «...İlk növbədə ölkənin milli maraqlarının formalaşması və təmin edilməsi ilə əlaqədar olan» əsas inkişaf prioritetlərindən bəhs olunur. Burada, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin geosiyasi aspektlərinə məxsusi yanaşma da olduqca maraq kəsb edir. Azərbaycanın milli təhlükəsizliyinə ən böyük təhlükə mənbəyi olan bu münaqişənin tarixi, onun tənzimlənməsi prosesi barədə ətraflı söhbət açılır, Azərbaycanın iqtisadi və hərbi qüdrətinin artması, bütün sahələrdə güclənməsi və Ermənistan rəhbərliyinin həyata keçirdiyi işğalçı, monoetnik (təkmillətli) siyasətin girovuna çevrilən bu ölkənin getdikcə zəifləməsi ilə müşayiət olunan yeni geosiyasi şərait təhlil edilir.

Nəzərə alsaq ki, erməni diasporu da bu real və potensial təhdid üçün alətə çevrilib, onda sözügedən əsərin nə dərəcədə dəyərli olduğu bəlli olacaqdır.

M.Seyidbəyli Azərbaycan diasporunun tarixi, coğrafiyası və demoqrafiyası ilə bağlı fundamental araşdırmalar aparmışdır. Onun rus dilində çapdan çıxmış «Rusiyada Azərbaycan diasporu: xüsusiyyətlər və tendensiyalar, formalaşma və inkişaf (1988-2007-ci illər)»[1] adlı monoqrafiyası azərbaycanlıların sıx məskunlaşdığı Rusiya Federasiyasında milli diasporun fəaliyyətini öyrənməkdə ən yaxşı mənbələrdən biri kimi mühüm əhəmiyyətə malikdir. Əsərdə miqrasiya proseslərinin Azərbaycan diasporunun formalaşmasında əsas rol oynamasına xüsusi diqqət yetirilmişdir. Burada azərbaycanlıların miqrasiyasının yeni mərhələ-

[1] Сеидбейли М. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития. Баку: Элм, 2009, 396 с.



sindən, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan dərhal sonra və Sovet dövründə milli diasporun vəziyyətindən söhbət açılır, SSRİ-nin dağılması ərəfəsində və Azərbaycanın müstəqillik əldə etdikdən sonra ölkədəki ictimai-siyasi və sosial-iqtisadi şərait, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-Rusiya münasibətlərinin hazırkı vəziyyəti, azərbaycanlıların Rusiyaya miqrasiyası və Rusiyadakı Azərbaycan icması məsələləri ətraflı təhlil edir. Monoqrafiyada Rusiya Federasiyasında demoqrafiya şəraiti ilə əlaqədar Azərbaycan diasporunun etno-mədəni institutlaşması, milli diasporun etnik-mədəni özünüidarəsində Ümumrusiya Azərbaycanlıları Konqresinin rolu araşdırılmış, türk və yunan diasporları Azərbaycan diasporu ilə əlaqəli şəkildə öyrənilmişdir. Bütün bunlarla bərabər monoqrafiyada adından göründüyü kimi, daha çox Azərbaycan diasporunun Rusiya Federasiyasındakı fəaliyyətinə geniş yer verilmiş, digər ölkələrdə milli diasporun işi az araşdırılmışdır.

M.Qasımlının «Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər)»[1] monoqrafiyasında H.Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşması, azərbaycanlıların birliyinə nail olunması, milli kadrların hazırlanması, tarixi-mədəni, milli-mənəvi dəyərlərin mühafizəsi və inkişaf etdirilməsi, ədəbi irsə və ədəbiyyata qayğı, milli incəsənətin tərəqqisinə, ana dilinə diqqət, demoqrafik inkişaf, hərbi kadrların hazırlanması və hərbi vətənpərvərlik tərbiyəsi, H.Əliyev və Cənubi Azərbaycan, H.Əliyev və türk dünyası məsələləri geniş işıqlandırılmaqla yanaşı, əsassız erməni iddialarına qarşı mübarizə, Azərbaycanın beynəlxalq aləmdə tanınması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin möhkəmlənməsi kimi məsələlər də geniş şərh edilmişdir.

«Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıları şimallılara və cənublulara ayırmır, onları vəhdətdə görür, ana dilini, Azərbaycan tarixi və mədəniyyətini unutmaları üçün ciddi əməli işlər

[1] Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: BDU, 2006, 608 s.

həyata keçirir, maddi və mənəvi yardımlar edirdi».[1] Əsərdə göstərilir ki, H.Əliyevin 1969-cu il 14 iyul tarixdə birinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra xaricdə yaşayan həmyerlilərimizin ilk dəfə siyahısı tərtib olundu və sayı təxmini də olsa, müəyyənləşdirildi. Müəllif yazır ki, «...70-80-ci illərdə xarici ölkələrdə yaşayan həmvətənlərimizlə iş aparılması təcrübəsi əsasında Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra diasporun yaradılması sahəsindəki fəaliyyətini sürətləndirdi».[2]

H.Əliyevin həyat və fəaliyyətini öyrənmək baxımından çox qiymətli bir əsər olan bu monoqrafiyada diaspor fəaliyyətinin bəzi məqamları müəyyən dərəcədə araşdırılsa da, tədqiq olunan mövzu tam mənada əhatə edilmir.

V.Həbiboğlunun «Heydər Əliyev və Azərbaycan diasporu» və «Azərbaycan diasporu yeni mərhələdə»[3] monoqrafiyalarında araşdırılan problemin bir sıra aspektlərinə toxunulsa da, tədqiq etdiyimiz mövzunun məqsəd və vəzifələri öz əksini tapmamışdır.

V.Arzumanlının «Azərbaycan diasporu»[4] kitabında milli diasporun aktual problemləri nəzərdən keçirilmiş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın sosial-mədəni, ictimai-siyasi həyatı barədə maraqlı məlumatlar verilmişdir. Əsərin giriş hissəsində dünya azərbaycanlılarının ötən əsrin tarixinə qısaca nəzər salınır. «Dünyaya səpələnmiş soydaşlarımız» adlanan birinci fəsildə Azərbaycan diasporunun fəaliyyət üfüqlərindən bəhs edilir. Rusiya Federasiyası və MDB-yə üzv digər dövlətlərdə, Avropa ölkələri, Türkiyə, ABŞ, Kanada, Avstraliya və

[1] Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). s. 413-442.

[2] Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). s. 442.

[3] Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 358 s.; yenə onun. Azərbaycan diasporu yeni mərhələdə. Bakı: Elm, 2006, 260 s.

[4] Arzumanlı V. Azərbaycan Diasporu: reallıq, qayğılar, problemlər. Bakı: Qartal, 2001, 800 s.



Yeni Zelandiyada mövcud olan Azərbaycan diasporunun fəaliyyəti işıqlandırılır, dünya azərbaycanlılarının birliyinin yeni mərhələsinin mahiyyəti açıqlanır, Dünya Azərbaycanlıları Konqresi, Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası, Ümumrusiya Azərbaycanlıları Konqresi və Ukrayna Azərbaycanlıları Konqresinin fəaliyyətindən geniş məlumat verilir. Bu əsər dünya azərbaycanlılarının birliyi və həmrəyliyi naminə görülən işləri, Azərbaycan diasporunun tarixini öyrənmək də qiymətli tədqiqatdır. Lakin bu monoqrafiyada məsələlər ümumi şəkildə işıqlandırılmış, konkret tədqiqat mövzusu kimi işlənməmişdir.

Tədqiqat zamanı Q.Paşayevanın «Azərbaycan dövlətinin xarici siyasətində diaspora problemi»[1] mövzusunda müdafiə etdiyi dissertasiya işinə də nəzər yetirilmişdir. İşdə diaspor probleminə nəzəri yanaşmalar, diaspor fenomeninin mahiyyəti haqqında fikirlər söylənilmiş, Azərbaycan diasporunun formalaşması mərhələləri, Azərbaycanın xarici siyasətində milli diaspor quruculuğu amili, türkdilli diasporlarla əməkdaşlıq kimi problemlər təhlil edilmişdir. O cümlədən, Z.Əliyevin «Beynəlxalq münasibətlərdə diasporların rolu», «Dünya diasporları», «Diaspor: izahlı sözlük və məlumat kitabı», «Türkdilli xalqların diasporları» adlı əsərlərində[2] diasporçuluğun bir çox prinsipial məsələləri tədqiq edilmişdir. N.Rizvanın «Azərbaycan diaspo-

[1] Paşayeva Q. Azərbaycan dövlətinin xarici siyasətində diaspora problemi. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2009.

[2] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, 150 s.; yenə onun. Dünya diasporları. Bakı: Qismət, 2005, 349 s.; yenə onun. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: «Yurd» NPB, 2007, 376 s.; yenə onun. Türkdilli xalqların diasporları. Bakı: Adiloğlu, 2009, 296 s.; yenə onun. Almaniyada Azərbaycan diasporu // AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. «Sosial-siyasi problemlər» jurnalı, XIII Buraxılış. Bakı: «Qismət» mətbəəsi, 2005, s. 162-171.; Amerikada yəhudi diasporu və təşkilatları // http://zaur. azeriblog.com/; Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporu // Azərbaycan Diasporu: tarix və nəzəriyyə. I buraxılış, Bakı: 2005, s. 44-54.

rası tarixindən»[1] adlı arxiv sənədlərinə söykənən kitabında və G.Novruzovanın «Rusiya Federasiyasında Azərbaycan diasporu: tarixi demoqrafiya problemləri (1989-2000-ci illər)»[2] adlı əsərində də araşdırdığımız problemin müəyyən cəhətlərinin tədqiqinə yer ayrılmışdır. Tədqiqat zamanı X.İbrahimlinin «Azərbaycan siyasi mühacirəti»,[3] A.Tahirlinin «Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri»[4] əsərlərinə də müraciət olunmuşdur. A.Həşimovanın «XX əsrin I yarısında Azərbaycan mühacirəti»[5] əsərində mövzu ilə bağlı bir çox maraqlı məlumatlara rast gəlinir. F.Sadıqovun, M.Sərdarovun, A.Şahinoğlunun və başqalarının məqalələrində[6] diaspor probleminin bir sıra məsələlərinə, o cümlədən dövlətin xarici siyasətində diasporun yeri və roluna müəyyən nəzər salınmışdır.

Son dövrlərdə müxtəlif ölkələrdə Azərbaycan diaspor təşkilatlarının gördüyü işləri əks etdirən bir çox internet resursları yaradılmışdır. Onlardakı milli diasporun çoxcəhətli fəaliyyətini işıqlandıran zəngin materiallar tədqiqatın yazılmasında mühüm rol oynamışdır. Bu monoqrafiyanın müəllifinin[7]

[1] Rizvan N. Azərbaycan diasporası tarixindən: I cild. Bakı: Borçalı NPM, 2002, 208 s.

[2] Новрузова Г. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг.). Автореферат диссертации доктора философии по истории. Баку: 2010, 28 с.

[3] İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm və təhsil, 2012, 371 s.

[4] Tahirli A. Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri. Bakı: Tural-Ə NPM, 2001, 344 s.

[5] Həşimova A. XX əsrin I yarısında Azərbaycan mühacirəti. Bakı: Birlik, 1992, 169 s.

[6] Sadıqov F. Xarici lobbizm və dövlətlərin maraqları //Məşvərət, 2000, №27.; Sərdarov M. Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsində miqrasiya proseslərinin tənzimlənməsinin rolu // Dirçəliş XXI əsr, 2004, №76-77.; Şahinoğlu A. Azərbaycan Fransa ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir // Yeni Azərbaycan qəzeti, 2011, 16 fevral, №29.

[7] Babanlı Y. Heydər Əliyev və Azərbaycan diasporu // İki sahil qəzeti, 2009, 13 iyun, №109.; yenə onun. Müasir tarixdə lobbi amili // Palitra qəzeti, 2009, 22 dekabr, №139.; yenə onun. İlham Əliyev və Azərbaycan diasporu // Respublika qəzeti, 2009, 30 dekabr, №291.; yenə onun. Xalqların köçü və



bir sıra yerli və beynəlxalq nəşrlərdə sözügedən sahə ilə bağlı məqalələri dərc edilmişdir.

Göründüyü kimi, Azərbaycan diasporu ilə bağlı bir sıra tədqiqatlar aparılsa da, onun beynəlxalq fəaliyyət prinsipləri, xarici siyasətdə yeri, dövlətlərarası münasibətlərin inkişafında rolu sistemli şəkildə araşdırılmamışdır. Bu baxımdan, tədqiq etdiyimiz problem qeyd edilən mövzuda sistemli-müqayisəli-kompleks yanaşma metodu ilə işlənmiş ilk monoqrafiya hesab oluna bilər.

Monoqrafiyada diaspor amili milli və bəşəri səpgidə təhlil olunmuş, Azərbaycan diasporunun fəaliyyəti dövlətin xarici siyasətində müqayisəli şəkildə və geniş faktlar əsasında tədqiq edilmişdir.

Monoqrafiyanın yazılması üçün mənbə bazasını ilk növbədə Azərbaycan Respublikasının Prezidentləri H.Əliyevin[1] (1993-2003) və İ.Əliyevin[2] (2003-hal/hazırda) diaspor quruculuğu ilə əlaqədar qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar

ya miqrasiya // H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin Elmi Əsərlər Məcmuəsi, 2010, №2, s. 14-21.; yenə onun. Dövlətlərarası münasibətlərin inkişafında diaspor amili // H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin Elmi Əsərlər Məcmuəsi, 2011, №1, 16-19.; Бабанлы Я. Влияние восстановления государственной независимости Азербайджанской Республики на формирование и развитие диаспор // «Gileya» (scientific bulletin). Kiyev: 2013, №42, с. 124-126.

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 1993-2003-cü illər.; yenə onun. Azərbaycançılıq - birliyimizin əsasıdır. 2001-ci il noyabrın 9-10-da keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayında və «Gülüstan» sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı: Azərbaycan nəşriyyatı, 2002, 34 s.

[2] Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 2003-2011-cü illər.; yenə onun. Dünya Azərbaycanlılarının II qurultayında nitq // Azərbaycan qəzeti, 2006, 17 mart, №58.; yenə onun. Dünya Azərbaycanlılarının III qurultayında nitq // Azərbaycan qəzeti, 2011, 6 iyul, №144.

təşkil edir. Bu qrupa dair sənədlər H.Əliyevin və İ.Əliyevin həm nitqləri, çıxışları, müsahibələri, müraciətləri və bəyanatlarından ibarət külliyyatlarda həm də Azərbaycan diasporu da daxil olmaqla hazırlanmış ayrı-ayrı toplularda[1] öz əksini tapmışdır.

Həmçinin, istinad qrupuna xaricdə yaşayan soydaşlarımızla əlaqədar Azərbaycan Respublikasının rəsmi dövlət sənədləri, Diasporla İş üzrə Dövlət Komitəsinin müxtəlif illərə dair hesabatları, nəşrləri, təklif və tövsiyələri daxildir.[2] 2001, 2006, 2011-ci illərdə Bakı şəhərində keçirilmiş dünya azərbaycanlılarının birinci, ikinci və üçüncü qurultaylarının materialları, DAK-ın (Dünya Azərbaycanlıları Konqresi) sənədləri də tədqiqatın əsas mənbə bazasını təşkil edir.[3] Bununla yanaşı, xaricdəki Azərbaycan icmalarının, diaspor təşkilatlarının fəaliyyətləri ilə bağlı dərgilərdən, habelə dövri mətbuatda dərc edilmiş statistik məlumatlardan, internet resurslarından da faydalanmağa çalışılmışdır.

---

[1] Azərbaycan beynəlxalq aləmdə // http://files.preslib.az/projects/azerbaijan/g9.pdf; Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu. Bakı: «Səs» MMC, 2012, 654 s.; «Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (13 iyul 2004-cü il, №94) // Azərbaycan Respublikası Qanunvericilik toplusu. 2004, №7.; Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər). // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2006, №7.

[2] Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 dekabr 2002-ci il; Azərbaycan diasporuna dövlət qayğısı. Heydər Əliyevin çıxışları. Bakı: Çaşıoğlu, 2003, 301 s.; Azərbaycan diasporu: böyük yolun başlanğıcı /tərtib edən N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, 208 s.; Azərbaycan diasporuna dövlət qayğısı. İkinci nəşr. Bakı: Çaşıoğlu, 2006, 301 s.; Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ /tərtibçi N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, 171 s.; Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi sahəsində görülmüş işlər haqqında məlumat. XÖYAİDK. Bakı «Yurd» NPB, 2006, 62 s.; Azərbaycan diasporuna dövlət qayğısı /burax. məsul, ön söz N.İbrahimov; tərtibçilər: N.Qurbanov, E.Mirələm/ Bakı: Adiloğlu, 2009, 284 s.; Xaricdə yaşayan azərbaycanlılar üçün yaddaş /Məlumat kitabı/. Bakı: Adiloğlu, 2009, 440 s.

[3] Dünya Azərbaycanlıları Konqresi // http://www.azerbaijans-congress.com



Mövzu tədqiq edilərkən xarici ölkələrin və Azərbaycan alimlərinin bu sahə ilə bağlı yazılmış əsərləri, yerli və beynəlxalq səviyyəli nüfuzlu dövri mətbuat orqanlarının məlumatları, miqrasiya, diaspor və lobbi məsələləri ilə məşğul olan dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının sənədləri də nəzərdən keçirilmiş, bu sahəni əhatə edən digər materiallardan da əsas baza kimi istifadə edilmişdir.

1991-2011-ci illərdə Azərbaycan Respublikasının xarici siyasətində diaspor fəaliyyəti əsərin ana xəttini təşkil edir. Azərbaycan diasporunun təşəkkülü və inkişafı, diaspor anlayışına və yaranması tarixinə ümumi baxış, xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətləri, Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi, beynəlxalq əlaqələrə diasporun təsiri, Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili, Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələri, diaspordan lobbiçiliyə doğru tərəqqi prosesində ölkəmizin dünyada mövqeyinin dəstəklənməsi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diaspor təşkilatlarının fəaliyyətinin öyrənilməsi tədqiqat işinin mahiyyəti və predmetini təşkil edir.

Problemin araşdırılmasının əsas məqsədi Azərbaycan kontekstində diaspor fəaliyyətinin xarici siyasətdə yeri və rolunun doğru-düzgün elmi mənzərəsini yaratmaqdır. Qarşıya qoyulan məqsədin həlli ilə bağlı aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- **Azərbaycan diasporunun təşəkkülü və inkişafının araşdırılması;**
- ***diaspor anlayışına və tarixinə ümumi baxışın* öyrənilməsi;**
- **xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətlərinin tədqiqi;**
- **Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa**

**etdikdən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsinin təhlili;**

- **beynəlxalq əlaqələrə diasporun təsirinin işıqlandırılması;**
- **Azərbaycan Respublikasının xarici siyasətində diaspor amilinin nəzərdən keçirilməsi;**
- **Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələrinə diqqətin yetirilməsi;**
- **diaspordan lobbiçiliyə doğru: Azərbaycan diasporunun *ölkəmizin təbliği və Ermənistan-Azərbaycan* Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinə yeni elmi metodla yanaşmasından ibarətdir.**

Monoqrafiyada Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Azərbaycan Respublikasının xarici siyasətində diaspor fəaliyyəti tarixi baxımdan kompleks halda işıqlandırılmış, geniş şəkildə tədqiq və təhlil olunmuş, əldə edilən nəticələr əsasında müvafiq sahəyə dair bir sıra tövsiyələr və təkliflər verilmişdir.



# I FƏSİL

# AZƏRBAYCAN DİASPORUNUN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

## 1.1. Diaspor anlayışına və tarixinə ümumi baxış

Müasir tarixi dünya siyasətində və beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklər dövrü kimi səciyyələndirmək mümkündür. Bunların sırasında ən mühümü siyasi proseslərə və diplomatik əlaqələrə yeni qüvvələr spektrinin cəlb olunmasıdır. Onlar da dövlətlərin daxili və xarici siyasətlərinin əhəmiyyətli subyektinə çevrilməklə yanaşı, yerli, regional və beynəlxalq təşkilatların funksiyalarını da həyata keçirməyə başlamışdı. Bir çox tədqiqatçılar hazırki dünya mənzərəsində siyasi təsisat kimi dövlətin artıq öz rolunu itirdiyini, onun öz milli strateji xəttini həyata keçirərkən etnik-tarixi, mədəni-dini, sosial-iqtisadi və s. əməkdaşlıq və maraqlar əsasında yaranmış qeyri-dövlət strukturları ilə sıx təmasa girmək zərurətində olduqlarını qeyd edirlər.

Çağdaş zamanın siyasi tarixində ənənəvi faktorların, ilk növbədə milli dövlətlərin və beynəlxalq təşkilatların roluna iddia edən, həm lokal, həm də qlobal sahədə onların maraqlarını ifadə etmək və yerinə yetirmək vasitəsi ola biləcək nisbətən yeni ünsürlərdən biri də diaspordur.

İnsan cəmiyyətinin təkamülü prosesində meydana gələn «diaspor» məfhumu indiki vaxtda daha çox aktuallıq kəsb edir. Hazırda diaspor xarici siyasətdə, dövlətlərarası münasibətlərdə və beynəlxalq əlaqələrdə özünəməxsus elementə çevrilməklə öz funksiyasını daha da artırmaqdadır. Doğma vətənindən miqrasiya edib kənarda yaşayan hər bir xalq, yəni mənşə, dil, sivilizasiya və tarixi keçmiş ümumiliyi ilə bir-birinə bağlı olan insan toplumu bu amilləri yaşatmaq və gələcək nəsillərə ötürmək üçün müxtəlif icmalarda birləşirlər. Bu tip insan birliklərindən biri də diaspordur. Diaspor miqrasiyanın nəticəsidir və onun kökündə səpələnmə, yayılma və dağılma vardır.

Dünya təcrübəsində «diaspor» anlayışına münasibətdə ikili baxış mövcuddur.

**Birinci** halda bu baxış diasporun mənşəyi, hərfi tərcüməsi və etimoloji mənası baxımından şərh olunur. Bu mənada, diaspor İsrail çarlığının süqutundan sonra yəhudilərin bütün məskənləri-

nin məcmusu, sonralar isə Fələstindən kənarda dünya ölkələrində yəhudilərin cəmləşdiyi yer kimi başa düşülür.

**İkinci** qrupa aid olan baxışlar sistemi isə diasporu geniş mənada öz doğma etnik ərazisindən ayrı düşmüş etnik qrupların yayılma məkanı, öz ölkəsinin (dövlətinin) və xalqının (millətinin) köklü milli-ictimai, sosial-siyasi, mənəvi-mədəni, iqtisadi maraq və mənafelərinə ardıcıl şəkildə xidmət edən sosial-iqtisadi-mədəni güc (qüvvə) faktoru kimi, hərəkətdə və fəaliyyətdə olan siyasi-iqtisadi və sosial-mədəni institut və qurumlar (şəbəkəsi) kimi təsəvvür edir.[1]

Fikirləşirik ki, etnik və milli xarakter daşıyan «diaspor» anlayışı sosial, mədəni, iqtisadi, siyasi miqrasiya nəticəsində özünün tarixi vətənini tərk etmiş və dünyanın müxtəlif yerlərinə səpələnmiş, etnik kimliyini, mədəni özünəməxsusluğunu qorumağı fəaliyyət istiqaməti seçən və tarixi vətəninin mənafelərini gerçəkləşdirən bir qrup şəxsə, millətə və etnik qrupa aid olunur.

Bəşər tarixinin ilk dövrlərindən ictimai, sosial-mədəni, iqtisadi-siyasi proseslərin inkişafı insan miqrasiyasının meydana gəlməsinə və hər dövrün tələbinə uyğun şəkildə yetişməsinə təkan vermişdir. Xüsusən də, son iki yüzillikdə miqrasiya proseslərinin formaları ciddi dəyişikliklərə məruz qalmışdı. Milli dövlətlərin və vətəndaş cəmiyyətlərinin təşəkkül tapması, insan hüquq və azadlıqlarının ön plana çıxması «emiqrasiya» və «immiqrasiya» məfhumlarına diqqətin artmasına səbəb oldu. Qloballaşan dünyada miqrasiya mühüm vasitəyə və problemə çevrilməkdədir. Miqrantların əməyi yaşadıqları ölkələrin sosial-iqtisadi inkişafına səbəb olur. Onların qazandıqları pullar öz vətənlərində də bir sıra ailələrin güzəranın yaxşılaşdırılması üçün maddi mənbə olmaqla yoxsulluğun və digər problemlərinin həll edilməsinə müsbət təsir göstərir.

Eyni zamanda, miqrasiyanın müsbət saldosu sayəsində ölkələrin siması dəyişir, multimədəni cəmiyyətlər təşəkkül tap-

[1] Cəfərov F. Azərbaycan diasporu aktual problem və nəhəng qüvvə kimi // Dirçəliş XXI əsr, 1999, №8-9. s. 11.



mağa başlayır, bu isə öz növbəsində ciddi sosial-etnik dəyişiklərə yol açır. Bir sıra inkişaf etmiş ölkələrdə əhalinin həyat tərzinin dəyişməsi, demoqrafik təkrar istehsalda mənfi saldonun sürətlənməsi, yoxsul ölkələrdə isə əksinə, əhalinin sürətlə artması prosesləri gedir. Belə şəraitdə ölkələrin birgə əməkdaşlığı tələb olunur. Yalnız, bütün cəmiyyətin ümumi səyi ilə yeni dünya nizamının diktə etdiyi çağırışlara cavab verə biləcək birgə fəaliyyət strategiyasını işləyib hazırlamaq olar. Qeyd etdiyimiz kimi, tarixi vətənindən uzaqlaşmaq məcburiyyətində qalan insanlar milli varlıqlarını, tarixini, dilini, adət-ənənələrini və mədəniyyətlərini yad ölkədə assimilyasiyadan qorumaq üçün öz aralarında icmalar yaratmalı olurdular ki, bu da hazırda «diaspor» dediyimiz fəaliyyətin əsası idi. Kapitalizm dövründə iqtisadi inteqrasiyanın sürətlənməsi müstəqil dövlətlərin diplomatik imkanlarının genişlənməsi üçün yeni imkanlar açdı. Nəticədə, xarici siyasətdə diasporun subyekt kimi rolu əhəmiyyətli dərəcədə artmağa başladı.

Qloballaşmanın ikinci fazaya daxil olması ilə həm xalqlararası, həm də dövlətlərarası münasibətlərdə mahiyyətcə və keyfiyyətcə yeni dövr başlandı. Elmi-texniki nailiyyətlər miqrasiya vektorlarının əhatə dairəsinin böyüməsinə gətirib çıxardı. Vətənlərinin sərhədləri xaricində, yəni başqa dövlətin ərazisində yaşayan insanlar diaspor vasitəsilə tarixi yurdları ilə sıx əlaqələr yaratmaq imkanını əldə edirlər. Bununla ərazisində yaşadıqları dövlətlərlə mənsub olduqları dövlət arasındakı münasibətlərin inkişafında xüsusi rol oynayırlar.

Müasir dövrdə yeni xarakter alaraq yaratdığı və həllinə böyük ehtiyac duyulan ən aktual və etnik təmayüllü problemlərdən biri də diaspor məsələsidir. «Diaspor» termini ayrı-ayrı tədqiqatçılar tərəfindən müxtəlif prizmalardan şərh olunur. Siyasi xarakterli lüğətlərdə bu anlayış (**Qədim yunanca**: *διασπορά* – «diaspora» səpələnmə, bir xalqın kompakt yaşadığı ölkədən kənarda yaşayan, lakin həmin xalqa mənsub olan insanları ifadə etmək üçün

işlədilən anlayış.)[1] «dia» sözönü ilə «speirein» sözünün birləşməsindən əmələ gəlib, «səpilmə» – «yayılma» – «dağılma», xalqın və ya etnik birliyin xeyli hissəsinin yaşadığı ölkədən xaricdə olması mənasını ifadə edir. Diaspor fenomeninə çoxsaylı tədqiqatlar həsr olunmuşdur. Buna baxmayaraq, «diaspor» anlayışı səlis ifadə olunmuş definisiyaya malik deyildir və müxtəlif mövqelərdən izah edilir. Bu onunla əlaqədardır ki, diaspor ən müxtəlif elm sahələrinin – tarixşünaslığın, sosiologiyanın, politologiyanın və s. tədqiqat predmetinə daxildir. Antik yunan əsatirlərində, Herodot[2] və Sofoklun[3] əsərlərində rast gəlinən «diaspor» termini əvvəllər pulu səpələmək, ordunu yaymaq anlamında işlənmiş, sonralar isə daha geniş məna kəsb etmişdir. Bu termin ilk dəfə İudaizmin müqəddəs kitabı «Tövrat»ın yunan dilinə tərcüməsində insanların, etnik qrupların səpələnməsi mənasında işlənmişdir. Bu anlayış ərəbcə «cəlayi-vətən» adlanır, vətənini tərk edən, öz el-obasından kənarda məskunlaşan anlamını daşıyır. «Diaspor» məfhumunu azərbaycanca isə **«qürbət»** – **«qərib»** sözləri ilə ifadə etmək olar ki, bu da vətəndən kənar, yad ölkədə yurd salmaq mənasını verir. Diaspor əsasən məcburi miqrasiya, genosid təhlükəsi, coğrafi kataklizmlərin və iqtisadi amillərin təsiri nəticəsində yaranmışdır. «Diaspor» anlayışı ilk dəfə e.ə. VI əsrin əvvəllərində yəhudilərin Babilistan padşahı II Navuxodonosor və sonralar isə bizim eranın I-II əsrlərində romalılar tərəfindən qovulub Fələstindən kənarda yaşamaları ilə əlaqədar istifadə olunmuşdur. Belə ki, e.ə. 586-cı ildə babillilər Yəhudi çarlığını işğal etdilər. Məbədin dağıdılması (b.e.ə.586-cı il) və bunun ardınca sürgün yəhudi diasporunun başlanğıcını göstərir. Elə o vaxtdan da İsrail torpağından kənarda İudaizm dini sistem və həyat tərzi kimi inkişaf etməyə başlamışdı. Bununla da Babilistan əsarəti yəhudi dövlətçiliyinin birinci mərhələsinə son qoydu, amma yəhudi xalqı İsrail torpağı ilə əlaqəsini kəsmədi. Yəhudilər doğma torpaqlarını

[1] Qasımov C., Nağıyev N. İzahlı Siyasi Terminlər Lüğəti. Bakı: 2007, s. 48.
[2] Herodot. Tarix. Bakı: Azərnəşr, 1998, 329 s.
[3] Софокл. Трагедии. / Пер. С.В.Шервинского, ред. и примеч. Ф.А.Петровского. Москва: Гослитиздат, 1954, 472 с.



yaddan çıxarmamağa and içdilər: *«Əgər mən səni unutsam, Yerusəlim, qoy mənim sağ əlim qurusun, əgər, Yerusəlimi öz sevincimin zirvəsinə yüksəltməsəm: qoy dilim qırtlağıma yapışsın».*[1]

Göründüyü kimi, «diaspor» termininin yaranması yəhudilərin dünyaya səpələnməsi ilə əlaqələndirilmiş və bu termin sonralar tədricən digər dini və etnik qruplara da aid edilməyə başlanmışdır. Britannika Ensiklopediyasında bu anlayış müstəsna hal kimi yəhudi xalqının həyatı və tarixi ilə əlaqələndirilir[2] və A.Brah[3] da müvafiq mövqenin daşıyıcısı kimi göstərilir.

Hazırda öz doğulduqları ölkələri müxtəlif səbəblərdən tərk edərək başqa ölkələrdə yaşayan istənilən etnik qruplar diaspor adlandırılır. Bu isə diaspor termininin ənənəvi anlamda izahından bir qədər imtina edilməsinə, xüsusi ədəbiyyatda «yeni» və ya «müasir» diaspor terminlərinin işlədilməsinə gətirib çıxarmışdır. Tədqiqatçılar diasporların müxtəlif tiplərini vurğulayır və onları təsnifləşdirməyə çalışırlar. Məsələn, diasporları İ.Armstronq[4] «klassik», «modern», «mobil», «proletar», G.Şeffer[5] «səpələnmiş», «kompakt», «mürgüləyən», «evsiz», «gənc», R.Brubaker[6] «kataklizm», «fəlakət», «dağıntı», R.Kohen[7] isə «əmək diasporu», «imperiya diasporu» və s. kateqoriyalar üzrə bölür və ya adlandırırlar. Diasporların digər funksional təyinatlarına görə bir çox təsnifat tipləri də mövcuddur.

[1] Государство Израиль. Становление и развитие: пер. с иврит. отв. ред. Ицхак Орен; сост. Н.Прат, А.Финкельберг. Иерусалим: Библиотека-Алия, 1991, 1-308 с.
[2] Diaspora//Encyclopedia Britannica, 2006; http://www.britannica.com/EB checkcal/topic/161756//Diaspora
[3] Brah A. Cartographies of Diaspora. Contesting Identities, London and New-York, 1993.
[4] Armstrong S. Mobilized and proletarian diasporas // American political Science review - Wash. 1976. Vol. 70, №2, p. 393-408.
[5] Sheffer G. Diaspora politics: At home abroad. Cambridge. 2003, 208 p.
[6] Brubaker R. The «diaspora» diaspora//Ethnic and racial studies. N.Y. 2005, Vol. 28, №1, p. 1
[7] Cohen R. Global Diasporas An Introduction, Seattle: /Global diasporas/ Ed. by R. Cohen. -Second edition. N Y. 2008, 219 p.

N.Lebedeva «diaspor» termininin çərçivəsini genişləndirərək yazır ki, «diaspor» anlayışı qədim zamanlardan mövcuddur. Bu termin təzyiq nəticəsində dünyaya səpələnmiş insanlara, köçürülmüş xalqlara (yəhudi və Afrika qulları), ticarətlə məşğul olanlara (Cənub-Şərqi Asiyaya İslamı gətirən ərəblər) və əməkçi miqrantlara (Böyük Britaniya imperiyasının hindliləri) aiddir. Sonralar miqrasiya proseslərinə yeni yanaşma «diaspor» anlamının klassik formasını rədd etdi və yeni, müasir «diaspor» anlamı yarandı. Eyni zamanda, alim müasir formanın varlığını xarakterizə etmək üçün öz tədqiqatında «diaspor» termini ilə yanaşı «beynəlxalq icma» terminini də işlətməyi təklif edir.[1] «Diaspor» amilinin tədqiqatçılarından olan V.Tişkova görə isə, «diaspor xidmət, müqavimət və intiqamın siyasi missiyasıdır. Diaspor əsasən mənşə ölkəsinin donorluğu hesabına yaranır. Ölkədən çıxış yoxdursa, deməli diaspor da yaranmayacaq». O qeyd edir ki, «diaspor hər şeydən əvvəl siyasi, eyni zamanda, sosial miqrasiyadır. Diasporun yaranmasının əsas açarı isə etnik icma deyil, milli dövlətdir. Başqa sözlə, diaspor etnik qruplardan fərqli olaraq özündə təkcə etnik mədəniyyəti deyil, həm də etnik siyasi məzmunu da daşıyır».[2] Diaspor kontekstində tez-tez rast gələnən məsələlərdən biri də müəyyən bir ölkə üçün əcnəbi olsa da, uzun bir dövr ərzində həmin ölkədə yaşayan xalqlardır. Bunlara yəhudi, polyak, alman və s. xalqların nümayəndələrini aid etmək olar. Bununla bağlı, V.Tişkovun fikirləri yenə də böyük maraq doğurur. O yazır: «Ölkənin diasporlaşması prosesi mütləq dayandırılmalıdır. Ölkədə yaşayan və onun vətəndaşları sayılanlar diaspor ola bilməz. Məsələn, Moskvadakı tatar və çeçen icmaları diaspor sayıla bilməz».[3] Zənnimizcə, tarixən bir ərazidə yaşayan, aborigen etnosun diaspor fəaliyyətinə sövq edilməsi

[1] Лебедева Н. Новая русская диаспора. Социально-психологический анализ. Москва: Наука, 1995, 299 с.

[2] Тишков В. Миграция и новые диаспоры в постсоветских государствах. Москва: Наука, 1996, 240 с.

[3] Yenə onun. Исторический феномен диаспоры // Этнографическое обозрение, 2000, №2, с. 45-53.



dövlətçilik baxımından qəbulolunmazdır.

Bəzi tədqiqatçıların yanaşmalarında, müasir elmi ədəbiyyatda sosial-etnik müxtəlifliyi çeşidləyərkən diasporu həmçinin «milli azlıq», «yerli» və «gəlmə» kimi anlayışlarla eyniləşdirirlər. Bunlar əsas etibarilə öz millətinin ərazisindən kənarda yaşayan milli (sosial-etnik) qrupları nəzərdə tutur. Məsələn, Rusiyada yaşayan azərbaycanlılar, beloruslar, gürcülər və s. Bu qrupların öz daxili tərkibində bir neçə kateqoriyanı ayırmaq olar (onları həmçinin diaspora da adlandırırlar):

1. Daxili diaspora (öz respublikalarından kənarda yaşayanlar).
2. Yaxın diaspora (tarixi vətəni keçmiş sovet respublikaları olan sosial-etnik qruplar).
3. Uzaq diaspora (tarixi vətəni uzaq xarici dövlətlər olanlar).
4. Milli – ərazi qurumları olmayan diasporalar (kürdlər, qaraçılar və s.).

Bu və ya digər sosial-etnik birliyin tərkibində olan etnoqrafik qruplar özünəməxsusluğu ilə seçilir. Onlar əhalinin əsas hissəsindən mədəniyyətlərinin, dillərinin (ləhcə, danışıq tərzi) xüsusiyyətləri ilə fərqlənirlər.[1]

Bunlar isə onları yaşadıqları ənənəvi mühitdə yadlaşdırır, müəyyən mənada assimilyasiya tendensiyası ilə üz-üzə qoyur. Bununla əlaqədar qeyd edə bilərik ki, İran (Cənubi Azərbaycan), Dağıstan (Dərbənd) və Gürcüstan (Borçalı mahalı) ərazilərində yaşayan azərbaycanlılar diaspor sayıla bilməz, ona görə ki, onlar bu ərazilərə köçməmiş, bura onların etnik-tarixi, ata-baba yurdlarıdır. Diaspor siyasətində bir strateji məsələyə xüsusi diqqət yetirmək vacibdir. Tarix boyu bir ərazidə məskunlaşmış etnik xalqların diasporlaşması yolverilməzdir. Maraqlı qüvvələr, hər hansı əks fikirli etnik qrup, xalq və dövlət bundan istifadə edərək milli birliyə, həmrəyliyə, təhlükəsizliyə və münasibətlərə

[1] Vahidov F.Q., Ağayev T.B. Sosiologiya: Ali məktəblər üçün dərslik. Bakı: «Təknur» nəşriyyatı, 2008, s. 62.

zərbə vura bilər.

T.Poloskova «diaspor» konsepsiyası üzrə aşağıdakı əlamətləri səciyyəvi cəhətlər kimi irəli sürür:

- etnik identiklik;
- mədəni dəyərlər;
- etnik-mədəni antitezanın milli və sosial kimlikdə əks olunması;
- tarixi vətənlə əlaqə.[1]

Zənn edirik ki, bu əlamətlərin hər biri özü-özlüyündə geniş tədqiqat obyekti ola bilər ki, nəticədə «diasporologiya»nın nəzəri-praktiki məsələlərində yeni konsepsiyanın işlənib hazırlanmasını asanlaşdırar. «Diaspor» konsepsiyası üçün zəruri olan amillərdən biri də diasporların genezisinin təhlilidir. Bütün bu cəhətlərin məcmusu belə bir fikirə əsas verir: «Diaspor mədəni fakt kimi şəxsiyyət və sosioloji mövqedən yaranır». Deməli, diaspora iki istiqamətdən yanaşmaq daha da məntiqli olar:

**1. xüsusi tarixi fenomen kimi;**

**2. ümumi həyat tərzinin seçimi kimi.**

Lakin burada fərqləri unutmaq olmaz. Təcrübədə «endo-diaspor» və «ekzo-diaspor» anlayışları mövcuddur ki, endo-diaspor ölkədən köç etmiş insanlar, ekzo-diaspor isə heç bir zaman vətənində yaşamayanlar anlayışını ifadə edir. Endo-diaspor ilk vaxtlar mühacirət edən və ölkəsi ilə əlaqəni itirməyən insanların nəvə-nəticələridir. Bu fərqlər isə hər iki – endo və ekzo diasporlar arasında olan qurumlar və təşkilatlar arasında da özünü büruzə verir.[2]

Tədqiqat göstərir ki, insan cəmiyyətinə xas olan birinci nəsil, ikinci nəsil, hətta üçüncü nəsil fərq Azərbaycan diasporu üçün də xarakterikdir.

V.Şnirelman «Diaspor mifləri» adlı məqaləsində «diaspor» anlayışını belə xarakterizə etmişdir: «Diaspor anlayışını mən

[1] Полоскова Т. Диаспоры в системе международных связей. Москва: 1998, 199 с.

[2] Yenə onun. Современные диаспоры. Внутриполитические и международные аспекты. Москва: 1999, с. 26.



insanların xoşagəlməz şərait – müharibə, aclıq, zorakı deportasiyalar nəticəsində səpələnməsi kimi başa düşürəm. Bu proses insanlarda milli hisslərin tapdanması, utancaqlıq, təhqir olunma ilə müşayiət olunur və onlara psixoloji baxımdan ağır zərbə vurur».[1] Təəssüflər olsun ki, adı çəkilən müəllif erməni lobbisinin (**İngiliscə:** *lobbi* «foye» – «dəhliz» – «keçid» deməkdir. Lobbiçilik geniş mənada hakimiyyət orqanları ilə qeyri-formal ünsiyyətdən istifadə etməklə bu və ya digər qərarların qəbul edilməsinə nail olmaq üçün maraqlı tərəflərin fəaliyyəti.)[2] təsiri ilə bir sıra əsərlərində subyektivliyə və saxtakarlığa yol verməklə, Azərbaycanın milli maraqlarına zərbə vurmağa çalışır.

XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq Rusiyada işıq üzü görən, bu sahənin inkişafında uğurlu fəaliyyət göstərən «Диаспоры» (Diaspora) jurnalı diaspor anlayışının sosial-fəlsəfi məzmunu ilə bağlı maraqlı yazılar dərc edir. Bu terminin «universallığı» ilə bağlı araşdırmalar aparan A.Militaryev haqlı olaraq qeyd edir ki, müasir ədəbiyyatda bu termindən həddindən çox müxtəlif proseslərin izahında istifadə olunur.[3] Digər müəllif, B.Popkova görə isə «diaspor» termini heç vaxt elmi cəhətdən araşdırılmamış və yalnız emosional təzahürləri ifadə etmişdir.[4] Bizə görə, tədqiqatçının bu fikiri obyektivlikdən uzaqdır, çünki bu anlayışın bir çox aspektləri rusdilli elmi tədqiqatlarda öz əksini tapmışdır. T.Poloskovanın diaspor nəzəriyyəsində «üç üstəgəl üç» modeli əsas götürülür. Birinci üçlük – təşkilatçılıq, elm və liderin siyasi mədəniyyətidir. İkinci üçlük – qeyri-vətənpərvər, həmvətənlərin azadlığı və hüquqlarının müdafiəsi və paternalist (diasporun potensialından milli maraqların müdafiəsi və dövlətlərarası münasibətlərin inkişafında istifadə etmək)

[1] Шнирельман В. Мифы диаспоры // «Диаспоры», 1999. №2,3, с. 6-33.

[2] Qasımov C., Nağıyev N. İzahlı Siyasi Terminlər Lüğəti. Bakı: 2007, s. 111.

[3] Милитарев А. О содержании термина «диаспора» (к разработке дефиниции) // «Диаспоры», 1999, №1, с. 24-33.

[4] Попков В. Феномен этнических диаспор. РАН. Институт социологии. Москва: 2003, с. 30.

yanaşmadır. Üçüncü üçlük – cinsi, etnik və dövlət amildir ki, o, bunları əsas məqam kimi göstərir və mütləq nəzərə alınmalı olduğunu bildirir.[1]

Bu məsələlər milli-strateji baxımdan mühüm əhəmiyyət kəsb etdiyi üçün onların təhlilinə geniş yer veriləcəkdir.

Müasiri olduğumuz əsrdə ictimai həyatda və xarici siyasətdə prioritet sayılan diaspor fəaliyyəti planetin hər yerində aktual məsələlərdən birinə çevrilmişdir. Diaspora, vətəndən kənarda yaşayan hər bir xalqın **«könüllü ordusu»** desək, yanılmarıq. Bu fenomen bir dövlətin digər dövlətlə əlaqələrinə təsir edən vasitədir. «Diaspor» sözünün «dispersiya» ilə sinonimlik çalarına baxmayaraq, «yayılma», «səpələnmə», «dağılma» mənasını verən «dispersiya» anlayışı ilə «diaspor» termini arasında məna fərqləri nəzərə çarpandır. «Diaspor» anlayışı daha geniş məna daşıyaraq sosial, mədəni, iqtisadi və siyasi sahələri də əhatə edir. M.V.Kuybışev, V.A.Kolosov, T.A.Qalkina öz tədqiqatlarında «diaspor» terminini aşağıdakı məfhumlarla bağlı şəkildə izah edirlər:

- mühacirət – insanların könüllü olaraq bir ölkədən başqa bir ölkəyə miqrasiya etməsi və ya məcburən köçürülməsi;
- koloniya – bir dövlətin vətəndaşlarının digər ölkələrdə yaşaması;
- icma – xüsusi mənada təbii və qan qohumluğu əlaqələri əsasında yaradılmış sosial təsisatın ilkin forması;
- dövlət sərhədləri ilə iki hissəyə bölünmüş xalq;
- dövlət quruluşuna malik olmayan xalq;
- səpələnmə halında yaşayaraq, qarşılarında dövlət qurmaq məqsədlərini qoymayan xalq (qaraçılar);
- tarixi vətənləri ilə tamamilə əlaqələrini itirən xalq və ya etnik qrup.

Araşdırmalar sübut edir ki, diasporun yaranması və formalaşması üçün mütləq etnik qrupun və xalqın tarixi vətənlərinin

[1] Полоскова Т. Современные диаспоры. Внутриполитические и международные аспекты. Москва: 1999, с. 20-25.



olması vacib şərtlərdən biridir. Qeyd edək ki, sağlam xarakterli diaspor həm sosial baxımdan mövcud olduğu – ikinci vətən seçdiyi ölkənin vətəndaşları, həm də özü kimi orada mühacirət həyatı yaşayan digər millətlərin nümayəndələri ilə münasibətlər qurmalı, ictimai mübadilə zəminində mədəniyyətləri qovuşdurmalı, dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verməlidir. Tarixi şəraitdən asılı olduğu üçün diasporun hüquqi təyinatı olmur. Lakin diaspor icmalarının hamısı etno-mədəni rabitə rolunu oynayan xüsusi statusa malik birliklərdir. Özözlüyündə diaspor nə uzaqlaşma, münaqişə, nə də yaxınlaşma, münasibət faktoru ola bilməz. Birbaşa, ideyası milli-mənəvi nostalgiyadan doğur. Dolayısıyla, diaspor qarşısına qoyduğu məqsəddən asılı olaraq ya iqtisadi marağı olan nüfuzlu şəxslər, ya da siyasi liderlər tərəfindən qurulur. Onların hər ikisi çalışır ki, öz etnik qrupuna mədəniyyəti, dilini qoruyub saxlamaqda, inkişaf etdirməkdə kömək etsin, yaxud da öz şəxsi maraqlarını güdərək başçılıq etdiyi diasporun köməkliyi ilə istəklərinə nail olsun. Diaspor siyasi nöqteyi-nəzərdən diplomatik əlaqələrə müəyyən düzən verən, bu xüsusda müvafiq missiya daşıyan və imic yaradan effektiv bir vasitədir. Dünya praktikasında diaspor fəaliyyətinə ikili yanaşma vardır:

**Birincisi**, diaspor anlayışını onun mənşəyi və hərfi tərcüməsi baxımından qəbul edir və şərh verir.

**İkincisi**, diaspor potensialını öz ölkəsinin, xalqının maraq və mənafelərinə ardıcıl şəkildə xidmət göstərən qüvvə faktoru, hərəkətdə və fəaliyyətdə olan institut və qurumlar şəbəkəsi kimi qəbul edir və şərh verir.

Dünya ölkələrinin əksəriyyətində bir çox xalqların müxtəlif kəmiyyət və keyfiyyətə malik diaspor qurumları mövcuddur. Belə diasporların fəaliyyət dairəsi çox vaxt məskun olduqları dövlətin xarici və daxili siyasətinə müvafiq çərçivədən kənara çıxmır. Lakin güclü sosial bazaya və instituta malik olan qurumlar da vardır ki, yaşadıqları ölkənin nəinki ictimai-siyasi həyatına təsir göstərir, həmçinin beynəlxalq hüququn subyekti kimi yüksək beynəlxalq təşkilatlarda söz və səs sahibi kimi çıxış edir-

lər. Məhz, yəhudi, yunan, erməni, çin icmalarının diaspor qurumları bu qəbildəndir.

XX əsrin sonunda dünyanın siyasi xəritəsinin dəyişməsi və yenilənməsi, beynəlxalq miqrasiyanın məzmun və formasının fərqli şəkil alması, etnik-dini meyllərinin artması nəticəsində yeni milli və ictimai institutlar yaradıldı. «Diaspor» fenomeni etnik orqanizmin həyatiliyini təmin edən mədəni özünəməxsusluğa əsaslanır. Tarixi vətənlərinin hüdudlarından kənarda yaşayanlar vətən ayrılığını yad mühitdə öz milli mədəniyyətlərini qorumaq, vətənlərinin inkişafına kömək etmək, labüd assimilyasiyaya müqavimət göstərmək hesabına kompensasiya edirlər. Bütün etnik qruplar diaspor rolunda çıxış etmiş milli birliyin müəyyən inkişaf mərhələsi olub, onlar arasında həmrəyliyin yüksək səviyyəsi, həyat funksiyalarının səmərəli təşkili formaları, öz üzvlərinin özünümüdafiəsi və özünüaŋlatması ilə fərqlənirlər. Diasporun yaranmasının, mövcudluğunun və təkamülünün əsasını kollektiv etnik-mədəni identiklik və beynəlmiləl sosial-ictimai prosesdə fəal iştirak təşkil edir.

Beləliklə, yaşadığımız dövrün reallıqları bir çox digər məsələlər kimi, «diaspor» məfhumunun cəmiyyətdə yerinə və roluna da yenidən baxmağı tələb edir. Çünki, diaspor təkcə klassik və müasir ənənələrin daşıyıcısı olan tarixi-etnik, sosial-mədəni birliklərin mövcudluq forması və mexanizmi deyil, eləcə də xarici siyasətin aparıcı aktoru, dövlətlərarası münasibətlərin inkişafında mühüm iqtisadi-siyasi vasitədir. Bu isə beynəlxalq əlaqələrin subyekti kimi diasporun fəaliyyətinin müvafiq aspektlərini müəyyənləşdirməyi zəruri edir.



**1.2. Xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətləri**

XX əsrin sonlarında beynəlxalq təhlükəsizlik mühitinin dəyişməsi bir sıra yeniliklərə gətirib çıxartdı. Yer kürəsinin quru hissəsinin $^{1}/_{6}$-ni əhatə edən, dünyada əhalisinin sayına görə 3-cü yerdə olan totalitar rejimli Sovet Sosialist Respublikaları İttifaqı kimi nəhəng imperiyanın dağılması milli məfkurəli suveren dövlətlərin meydana gəlməsinə rəvac verdi. Nəticədə, postsovet məkanında xalqların öz soy-kökünə qayıdışı başlandı. İstiqlaliyyət əldə etmiş yeni dövlətlərdə baş verən sosial-iqtisadi hadisələr miqrasiya proseslərinin sürətlənməsinə səbəb oldu, bu da yeni diasporların təşəkkülünü və inkişafını şərtləndirdi. Bütün bunlar isə həmin sahənin əhəmiyyətini ön plana çəkərək elmi ictimaiyyətin əsas tədqiqat obyektlərindən birinə çevirdi. Öz dövlət müstəqilliyini bərpa edən Azərbaycanda da «diaspor» milli anlam kimi gündəmə gəldi və tarixin müxtəlif dövrlərdə baş vermiş köç prosesləri zamanı yaranmış diaspor potensialının öyrənilməsi və tədqiq edilməsi zərurəti meydana çıxdı. Azərbaycanın beş minillik dövlətçilik ənənələrinin olmasına, məxsusi dəyərlərə malik xalqımızın bəşər tarixinin ayrı-ayrı dövrlərində dünyanın ayrı-ayrı bölgələrinə səpələnməsinə və məskunlaşmasına baxmayaraq, diaspor sahəsi ilə bağlı məsələlər son illərə qədər dərindən öyrənilməmiş və lazımınca dəyərləndirilməmişdir.

«Azərbaycan diasporunun tarixi kifayət qədər qədim və zəngindir. Dəqiq sayı barədə konkret rəqəm söyləmək mümkün olmasa da, dünyada təqribən 50 milyon nəfər olan azərbaycanlıların 10 milyondan çoxu hazırda tarixi vətənlərindən kənarda yaşayır. Planetin beş qitəsində məskunlaşan soydaşlarımızın sosial-mədəni və iqtisadi-siyasi fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlif meyarlarla sıx əlaqədardır. Azərbaycan Respublikası suverenliyinə qovuşduqdan sonra milli diasporumuzun tarixinin, onun yayılma coğrafiyasının araşdırılması və soydaşlarımızın sayının dəqiqləş-

dirilməsi aktuallıq kəsb edən məsələyə çevrilmişdir. İlk insan məskənlərindən olan Azərbaycanın əlverişli coğrafi mövqeyi, e. ə. II əsrdən mövcud olmuş Böyük İpək Yolunun onun ərazisindən keçməsi diasporumuzun tarixinin kifayət qədər qədim köklərə söykəndiyi fikirini yürütməyə əsas verir. İpək yolu vasitəsilə zaman-zaman ticarət və səyahət məqsədilə dünyanın fərqli bölgələrinə səpələnən azərbaycanlılar **«diasporumuzun ilk şaxələri»** hesab oluna bilər. Bəşəri inkişafla yanaşı addımlayan Azərbaycan diasporu tarixin müxtəlif mərhələlərində qarşısına müəyyən məqsədlər üçün – elm öyrənmək, təhsil almaq, sənətkarlıqla məşğul olmaq, müqəddəs yerləri ziyarət etmək və s. üçün miqrasiya etmişlər. Lakin özlərinə ikinci vətən seçən soydaşlarımız tarixi vətənləri ilə yaşamağı, böyüməyi, şaxələnməyi özlərinə mənəvi borc hesab etmiş və doğma yurdlarının təmsilçisinə çevrilmişlər. Ərəblər, səlcuqlar, monqollar, teymurilər buraya yürüş etdikləri zaman Azərbaycanın elm adamları və sənətkarlarının potensialından yararlanmaq məqsədilə onları özləri ilə aparmışdılar. Sonradan bu şəxslər diasporumuzun formalaşmasına öz təsirini göstərmişdir. Bundan sonrakı dövrlərdə daha çox siyasi amillərlə əlaqədar mühacirət etməklə bərabər, təhsillərini, ixtisas dərəcələrini artırmaq məqsədi daşıyan miqrasiya prosesləri də baş vermişdir ki, bu da diasporumuzun daha da sıx formalaşmasına səbəb olmuşdur».[1]

Norveçli səyyah, tədqiqatçı və alim Tur Heyerdalın fikrincə, dünya tarixində geniş sürətdə səpələnmə, yayılma prosesi öz tarixini türklərdən götürür. Məşhur səyyah 1981-ci ildə Azərbaycana səfəri zamanı Qobustan qayalarında aşkar etdiyi qayıq rəsmlərini ən qədim dövrlərdə «dünya səyahətinə çıxılan qayıq» növünə aid etmişdi. Görkəmli alim öz tədqiqatlarında azərbaycanlıların dünya boyu yayılması fikirini dönə-dönə söyləməklə «diaspor» termininin yəhudi başlanğıcını şübhə altına almışdı. T.Heyerdal bu qənaətlərini «Azərbaycan

[1] Бабанлы Я. Влияние восстановления государственной независимости Азербайджанской Республики на формирование и развитие диаспор // Gileya (scientific bulletin). Kiyev: 2013, №42, c. 124-126.



qafqazlıların yayım mərkəzidir» adlı məqaləsində göstərmiş və elmi arqumentlərə söykənərək Skandinaviya xalqlarının, xüsusən də norveçlilərin soy-kökündə məhz bu tayfaların olduğunu sübut etməyə çalışmışdır.[1] Həmçinin, V.Veliçko,[2] L.Qumilyov[3] da öz «Passionarlıq» nəzəriyyəsinə əsaslanaraq türklərin böyük bir məkanda miqrasiya etməsi fikirini irəli sürmüşdür. Bu tayfalar yeni sivilizasiya yaradaraq Qərbdən Şərqə və sonra isə əks istiqamətdə köç edərək dünya xalqlarının mədəniyyətinin, dilinin, adət-ənənəsinin və musiqisinin formalaşmasında əhəmiyyətli rol oynamışdılar.

Azərbaycan ərazisi hələ qədim dövrlərdən müxtəlif yolların keçdiyi və birləşdiyi məkan olmuşdur. Azərbaycanın böyük bir hissəsini kəsib keçən – əvvəl «Yun yolu», e.ə. II əsirdən sonra isə «İpək yolu» adlandırılan bu tranzit XV əsrə qədər həm Şərq, həm də Qərbin sosial-mədəni, ticari-iqtisadi həyatında mühüm rol oynamışdır. Vaxtilə Makedoniyalı İsgəndər bu ticarət yolunun strateji əhəmiyyətini dərk edərək, onu öz nəzarəti altına almağı məqsəd kimi qarşısına qoymuş, lakin vaxtsız vəfatı buna imkan verməmişdi. E.ə. 385-382-ci illərdə Selevkilər dövründə Kaspi dənizi tədqiq edilmişdi. Yunan və Roma müəllifləri Strabon, Pliniy, Qay Solin Orta Asiya mallarının Oks (Amu-Dərya) çayı vasitəsilə Kaspi (Xəzər) dənizinə, oradan da Kür çayı vasitəsilə beş gün getdikdən sonra Riort (Kivilli), Fasis çayları ilə Pont dənizinə çatdırılması haqqında məlumat vermişlər. Məlumdur ki, Azərbaycanın zəngin tarixi, mədəniyyəti, coğrafi vəziyyəti, relyef müxtəlifliyi, iqlim şəraiti, iqtisadi potensialı və digər özəl xüsusiyyətləri bu yerlərə həmişə böyük marağa səbəb olmuşdur. Hələ qədim dövrlərdən köçlərin, axınların, yerdəyişmələrin, məskunlaşmaların, münaqişələrin və müharibələrin səhnəsinə çevirmişdir.

[1] Heyerdal T. Azərbaycan qafqazlıların yayılma mərkəzidir // Yeni fikir qəzeti, 1981, 8 avqust, 5 sentyabr.

[2] Величко В. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 224 с.

[3] Гумилев Л. Древние тюрки. Москва: Наука, 1967, 560 с.

«Əslində Azərbaycan diasporunun formalaşması prosesinin tarixi kifayət qədər dərin köklərə malikdir. Tarixi mənbələrə əsasən isə bu prosesin VII əsrin sonu – VIII əsrin əvvəllərindən başlandığı fikiri söylənilir. Həmin dövrdə Ərəb Xilafəti ordularının Azərbaycana yürüşü ilə əlaqədar ərəbdilli, farsdilli elm və mədəniyyətin inkişafı, ticarət əlaqələrinin genişlənməsi, eyni zamanda, azərbaycanlı mütəfəkkirlərin Yaxın və Orta Şərqin müxtəlif şəhərlərinə mühacirəti diasporun təməlini qoymuşdur. Azərbaycan Ərəb Xilafətinin tərkibinə daxil olduqdan sonra islam sivilizasiyasının və mədəniyyətinin təşəkkül tapmasında və inkişafında mühüm rol oynamağa başlamışdır. Xilafətin müxtəlif şəhərlərində azərbaycanlılar təhsil almaqla yanaşı ədəbiyyatın, incəsənətin inkişaf etdirilməsində fəal iştirak edirdilər. IX əsrin məlumatına görə, Mədinə şəhərində Azərbaycandan bir çox şair yaşamışdır».[1]

Ərəb Xilafəti ilə yanaşı, eyni zamanda Azərbaycana şimaldan xəzərlərin, alanların, slavyanların, sonra isə Mərkəzi Asiyada yaşayan oğuz türklərinin yürüşləri buranın etnik mənzərəsinin ciddi şəkildə dəyişilməsi ilə nəticələndi. Bu dövrdə Azərbaycan ərazilərinə kütləvi surətdə fars və ərəb mənşəli əhali köçürülmüş və hərbi-strateji mahiyyət kəsb edən torpaqlarda yerləşdirilmişdir. Əlavə olaraq, monqol yürüşləri azərbaycanlıların bir qisminin yaxın və uzaq ölkələrə miqrasiyasına (əksər hallarda məcburi) səbəb olmuş, bu da həmin yerlərdə Azərbaycan mənşəli etnik-milli icmaların yaranmasına gətirib çıxarmışdır.

X-XIX əsrlərdə Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində əslən Azərbaycandan olan yüzlərlə alim və tələbənin biliklərə yiyələnməsi və milli təfəkkürümüzün inikası region xalqlarının intibahında böyük rol oynaması da azərbaycanlıların xaricdə məskunlaşmasına rəvac vermişdir.

Dünyanın müxtəlif ölkələrini özlərinə ikinci vətən seçən soydaşlarımız bəşəri inkişafa xidmət etmişlər. Azərbaycan diasporunun tarixinə öz adlarını qızıl hərflərlə həkk etmişlər, həmin görkəmli şəxsiyyətlər – Baba Kuhi Bakuvi, Xətib Təbrizi, Səfiəddin Urməvi, Əbdürrəşid Əl-Bakuvi, Oruc bəy Bayat, Mirzə Cəfər Topcubaşov, Mirzə Kazım bəy, Cəlaləddin Əfqani, Fərəc bəy Ağayev, Mehralı Məmli, Sadıqbəy Ağabəyzadə, Əlimərdan bəy Topcubaşov, Əlibəy Hüseynzadə, Hacı Zeynalabdin Şirvani, Xəlilbəy Xasməmmədov, Rüstəmxan Xoyski, Məmməd Əli Rəsulzadə, Nağı bəy Şeyxzamanlı, Məmməd Əmin Rəsulzadə, Səid Əlizadə, Teymur Mustafayev, Cahangir Kazımbəyli, Ceyhun Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Səməd bəy Rəfibəyli, Şəfi bəy Rüstəmbəyli, Əziz Şərif, Mirzə Bala Məmmədzadə, Hüseyn Baykara, Ümmülbanu, Sürəyya Ağaoğlu, Sabit Orucov, İren Məlikoff, Kərim Kərimov, Lütfi-Zadə, Mstislav Leopoldoviç Rostropoviç, Tahir Salahov, Fərman Salmanov, Toğrul Nərimanbəyov, Züleyxa Əsədullayeva, Müslüm Maqomayev və başqalarıdır.

XIX əsr Azərbaycan diasporunun tarixində xüsusi mərhələ olmuşdur. Bu əsrin I yarısında bədnam Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələrinin imzalanmasından sonra Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə razılaşmayan yüzlərlə azərbaycanlı xarici ölkələrə üz tutdu. XIX əsrin 50-70-ci illərində Şimali Azərbaycan və Dağıstan əhalisinin böyük hissəsi (2-3 milyon nəfərə qədər) əsasən İran və Osmanlı imperiyası ərazilərinə miqrasiya etdi.[1] Çarizmin yeritdiyi müstəmləkəçilik siyasətinin əsasında işğal edilmiş ərazilərin ruslaşdırılması və xristianlaşdırılması, burada özünün etnik-siyasi dayaqlarının yaradılması məqsədi dururdu. Buna görə də çarizm işğalın ilk dövrlərindən başlayaraq, Şimali Azərbaycana kütləvi surətdə erməniləri, rusları və almanları köçürməyə başladı. Eyni zamanda etnik ayrı-seçkiliyə və milli-mənəvi zülmə məruz qalan xeyli sayda azərbaycanlılar da öz doğma vətənlərini tərk etdilər. Məlumdur ki, XX əsrin əvvəllərinədək əhalinin miqrasiyası davam etmişdir. 1901-ci ildə

[1] Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu. Bakı: «Səs» MMC, 2012, s. 205.



[1] Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu. Bakı: «Səs» MMC, 2012, s. 205.

Bakı quberniyasının Cavad qəzasının Ərəb-Baloğlan kəndinin sakinləri öz el-obasını qoyaraq Osmanlı imperiyası ərazisinə kütləvi miqrasiya etmiş və orada məskunlaşmışlar.[1]

Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsi həmçinin azərbaycanlıların imperiyanın digər ərazilərinə, iri sənaye, ticarət, elm mərkəzlərinə köçərək məskunlaşmasına təkan verdi. Ümumiyyətlə, rus geosiyasətçiləri Qafqaza Rusiya üçün həyati vacib məkan kimi baxırlar. «Qafqaza nəzarət ilk növbədə isti dənizlərə çıxış açır və sərhədlərin cənuba (və yaxud şimala) hər bir irəliləyişi tellurokratiyanın – bütün kontinental gücün əhəmiyyətli qələbəsini (və ya məğlubiyyətini) ifadə edir».[2]

Onu da etiraf edək ki, Rusiyanın Qafqazı işğal etməsi regionun məcburi inteqrasiyasının müxtəlif bəlaları ilə yanaşı, azərbaycanlıların bu ölkənin müxtəlif vilayətlərində məskunlaşması ilə diaspor potensialının yaranmasına və onlar arasında görkəmli elm və mədəniyyət adamlarının, hərbi və dövlət xadimlərinin yetişməsinə də şərait yaratmışdır. Mənşəcə azərbaycanlı olan elm və mədəniyyət xadimləri Rusiya elminə və mədəniyyətinə mühüm töhfələr vermişdir. Bu xüsusda, Kazan və Sankt-Peterburq Universitetlərinin professorları Mirzə Cəfər Topçubaşov və Mirzə Kazım bəyin elmi fəaliyyətini göstərmək olar. XIX əsrin əvvəllərindən etibarən Rusiya Xarici İşlər Nazirliyində xeyli azərbaycanlı diplomat çalışırdı. Çar ordusunda xidmət edən yüzlərlə azərbaycanlı əsgər və zabitlər (sıravidən generaladək) Azərbaycan diasporunun ən görkəmli nümayəndələri kimi tarixdə yer qazanmışlar. Onlardan Mirzə Nəsirov, Əbu Turab Vəzirov, Mirzə Abdulla Vəzirov, Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, İsgəndər xan Xoyski, Mirzə Fətəli Axundzadə, Hüseyn xan Naxçıvanski, Əliağa Şıxlinski, İbrahim ağa Usubov, Cəmşid xan Naxçıvanski və başqalarının adlarını çəkmək olar. Həmin dövrdə digər

[1] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi // http://presarchive.gov.az/az-multimedia/image-12.html

[2] Hacıyev R. Azərbaycanın geopolitik təhlükəsizliyi Rusiyanın Qafqaz maraqları kontekstində // Qanun, 1999, №4 (60), s. 18.



ölkələrdə də yüksək vəzifələrdə çalışan və böyük nüfuz qazanan soydaşlarımız olmuşdur ki, onlar xalqımızın dünya miqyasında tanınmasında mühüm rol oynamışlar.

XX əsrin əvvəllərində azərbaycanlıların xaricə axını daha geniş vüsət almağa başlamışdır. Qafqazda Çar Rusiyasının antiislam və antitürk siyasəti məqsədli şəkildə regionda azərbaycanlı əhalinin üstün mövqeyinin zəiflədilməsinə xidmət edirdi. 1905-1906-cı illərdə, habelə 1918-ci ildə ermənilərin törətdiyi məqsədli qırğınlar, soyqırım, etnik təmizləmə siyasəti nəticəsində minlərlə soydaşımız qətlə yetirilmiş və azərbaycanlılar tarixi torpaqlarını tərk etməyə məcbur olmuşlar.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə xaricə axının miqyası xeyli azaldı, lakin 1920-ci ildə Xalq Cümhuriyyətinin süqutu onun qurucuları və tərəfdarlarının bolşeviklərin ciddi təqib və təzyiqlərə məruz qalmasına səbəb oldu. Onlar ölkəni tərk etmək məcburiyyətində qaldılar. Təsadüfi deyildir ki, bu dövr azərbaycanlıların kütləvi miqrasiyası dövrü kimi tarixə düşmüşdür.

XX əsrin əvvəllərində bolşeviklərin təqiblərindən qurtulmaq üçün mühacirət edən nüfuzlu ziyalılarımız Azərbaycan diasporunun təşkilatlanması prosesinin əsasını qoymuş oldular.

Miqrasiya etmiş azərbaycanlıların əksəriyyəti İran, Türkiyə, Qərbi Avropa ölkələrində və ABŞ-da məskunlaşmağa məcbur oldular. Mühacirət edənlərin içərisində AXC-nin dövlət, ictimai-siyasi xadimləri, Müsavat və digər partiyaların üzvləri, iri sahibkarlar, onların övladları var idi. Azərbaycan milli hərəkatının görkəmli nümayəndələri Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Xəlil bəy Xasməmmədov, Behbud xan Cavanşir, Xosrov bəy Sultanov, Mirzə Bala Məmmədzadə, Məmməd Əmin Rəsulzadə, Nağı bəy Şeyxzamanlı, Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyov və digərləri dünyanın müxtəlif dövlətlərində Azərbaycan siyasi mühacirətinin əsasını qoyaraq milli istiqlal və dövlətçilik düşüncəsinin gələcək nəsillərə ötürülməsində və milli mentalitetimizin yaşadılmasında müstəsna xidmət göstərmişdilər.

Azərbaycanın siyasi mühacirətinin geniş fəaliyyət göstərdiyi ölkələrdən biri də Fransa idi. Bu ölkədə azərbaycanlılar «Azərbaycan Mühacirləri Assosiasiyası»nı yaratmış, qəzet və jurnallar, kitablar çap edərək Azərbaycanı təbliğ etmişdilər. 1926-cı ildə buradakı Femina teatrında Üzeyir Hacıbəylinin «Arşın mal alan» operettası tamaşaya qoyulmuş, 1933-cü ildə isə Üzeyir bəyin qardaşı Ceyhun Hacıbəylinin «Qarabağın folkloru və dialekti» adlı əsəri Fransada çap olunmuşdur.

Azərbaycan Xalq Cumhuriyyətinin süqutundan sonra Avropaya miqrasiya edənlər arasında sonralar dünya ədəbiyyatına öz əvəzsiz töhfələrini vermiş azərbaycanlılar da var idi. Bunlardan xüsusilə, AXC-nin nazirlərindən biri Mirzə Əsədullayevin qızı, məşhur Azərbaycan milyonçuları Şəmsi Əsədullayevin və Musa Nağıyevin nəvəsi, Fransada yaşayıb-yaratmış Ümmülbanu (Banin) və mültikulturalizm cərəyanının banilərindən biri, jurnalist-yazıçı Məhəmməd Əsəd bəy fərqlənirdilər. M.Əsəd bəyin «Əli və Nino» əsəri Avropa oxucuları arasında çox böyük rəğbət və şöhrət qazanmışdı. Bir sözlə, Azərbaycan mühacirləri yaşadıqları ölkələrdə çoxşaxəli fəaliyyət göstərərək, həmin ölkələrin dövlət, siyasi, ictimai dairələri ilə də yaxın əlaqələr qurmuş, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında səmərəli xidmət göstərmişlər. Onlar say etibarı ilə çox olmasalar da, Azərbaycan ziyalılığının təcəssümü olmuş və diasporumuzun formalaşması və inkişafı işində həlledici rol oynamışdılar.[1]

XX əsrin 20-30-cu illərində sovet rejimi azərbaycanlıları yeni təqib və sürgünlərə məruz qoydu. Bir tərəfdən sovet hökumətinin qərarı ilə minlərlə cənublu soydaşımız Sovet Azərbaycanından İrana və Mərkəzi Asiyaya deportasiya olundu. Digər tərəfdən on minlərlə həmvətənimiz Azərbaycan SSR-dən Qazaxıstana və Mərkəzi Asiyaya sürgün edildilər. İkinci dünya müharibəsi deportasiya siyasətinin növbəti, daha faciəli mərhələsi

[1] Siyasi tarix: Mühazirə kursu /Müəlliflər kollektivinin rəhbəri və elmi red. S.Qəndilov; Bakı: ADPU, 1993, s. 209.



oldu. 1944-cü ildə Tiflis şəhərindən 3140 azərbaycanlı və kürdün deportasiyası, Gürcüstan SSR ərazisindən Ahısqa (Məshəti) türklərinin Mərkəzi Asiyaya sürgünü bu faciənin unudulmaz səhifələrindəndir. İkinci dünya müharibəsi illərində almanlar tərəfindən əsir götürülmüş və sovet cəza maşınının ölüm xofundan Vətəninə dönə bilməyən azərbaycanlılardan ibarət icmaların yaranması Azərbaycan diasporunun formalaşmasının növbəti mərhələsi kimi səciyyələndirilə bilər.

Müharibə dövründə Azərbaycanın həlak olan, əsir düşən və geri qayıtmayan vətəndaşlarının ümumi sayı 300 min nəfərdən çox idi (bəzi mənbələrə görə, əsir düşmüş azərbaycanlıların sayı 150 min nəfər idi).[1] Əsir düşərək geri qayıtmayanların bir qismi İran, Türkiyə, Almaniya, Fransa, ABŞ və digər ölkələrdə məskunlaşmışdı. 1948-1953-cü illərdə ermənilərin təhriki, SSRİ hökumətinin qərarı ilə Ermənistan SSR ərazisindən 100 min nəfərdən çox azərbaycanlı deportasiya olundu. İkinci dünya müharibəsindən bir neçə il sonra Sovet hökumətinin tətbiq etdiyi sərt sərhəd rejimi SSRİ-dən xaricə axını məhdudlaşdırsa da, dissident hərəkatı əvvəlki illərlə müqayisədə daha kütləvi xarakter almışdı. Təbii ki, sovet respublikası olan Azərbaycanda azad fikirli ziyalılar, vətənpərvər qüvvələr üçün real təhlükə var idi. SSRİ-də dissident hərəkatının, sərbəst düşüncənin genişləndiyi bir dövrdə, 1969-cu ildə H.Əliyev Azərbaycana rəhbərlik etməyə başladı. O, respublikanın həyatında ictimai şüurun, milli özünüdərkin təşəkkülündə yeni bir mərhələnin özülünü qoydu və ölkənin ictimai həyatının bütün sahələrində sürətli inkişafa aparan köklü islahatlara yol açdı. Azərbaycan qısa vaxt ərzində insanların intellektual potensialına və ölkənin iqtisadi göstəricilərinə görə SSRİ miqyasında ön sıralara çıxdı. H.Əliyevin ardıcıl surətdə apardığı islahatlar yalnız iqtisadi sahəni əhatə etmirdi. Bu köklü dəyişikliklər elm və təhsildə, mədəniyyətdə də böyük uğurlarla nəticələndi. Azərbaycanda elmin inkişafının

[1] Siyasi tarix: Mühazirə kursu /Müəlliflər kollektivinin rəhbəri və elmi red. S.Qəndilov; s. 212.

stimullaşdırılması istiqamətində bir çox mühüm addımlar atıldı. O, mədəniyyətə, elmə, ədəbiyyata xüsusi diqqət və qayğı göstərirdi ki, bu da Azərbaycanın bir çox elm və mədəniyyət xadimlərinin, ədib və şairlərinin həyat və yaradıcılığının, istedadının üzə çıxmasına stimul verdi, sərbəst düşüncəli ziyalıların təqibinə birdəfəlik son qoydu. Təsadüfi deyildir ki, H.Əliyevin ziyası sayəsində 1969-cu ildən Sovet İttifaqı dağılana kimi Azərbaycan SSR-də bir nəfər də dissident qismində qeydə alınmamışdır. O, təbiətən demokratik ruhlu bir şəxsiyyət olduğundan ayrı-ayrı bədii əsərlərdə, elmi monoqrafiyalarda sovet quruluşunun ünvanına yönəldilmiş tənqidlərə obyektiv münasibət bəsləyir və cəmiyyətin müxtəlif sahələrində təzahür edən çatışmazlıqların üzə çıxarılmasına əlverişli imkan yaradırdı. Xüsusilə, xalqın milli-mənəvi dəyərlərinin qorunmasını, Azərbaycan tarixinin obyektiv araşdırılmasını, həqiqəti ortaya çıxaran əsərlərin yaradılmasını daha çox diqqət mərkəzində saxlayır və təqdir edirdi. Bəxtiyar Vahabzadənin «Latın dili» şeri və «Gülüstan» poeması, İsmayıl Şıxlının «Dəli Kür» romanı, «Dədə Qorqud», «Babək», «Bir cənub şəhərində», «İstintaq» filmləri, «Şəhərin yay günləri» tamaşası məhz 70-ci illərin məhsuludur. «Qobustan» ədəbi-publisistik incəsənət toplusunun nəşri bu baxımdan çox önəmlidir və H.Əliyevin vətənpərvərliyinin, xalq təəssübkeşliyinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir. XX əsrin 70-ci illərinin əvvəllərindən başlayan iqtisadiyyat, mədəniyyət, elm və təhsil sahələrindəki inkişaf, mənəvi mühitin sağlamlaşdırılması bütövlükdə ölkədə milli özünüdərk prosesinin təkamülünə böyük təkan verdi. Heydər Əliyev 70-80-ci illərdə müdriklik, qətiyyət və cəsarətini xalqın tarixi yaddaşının qorunmasına, mədəniyyətimizin təbliğinə, Azərbaycanın dünyada tanınmasına yönəltmişdi. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək imkandan hər vasitə ilə istifadə edilirdi. 1946-cı ildə Bakıda xaricdə yaşayan həmvətənlərlə mədəni əlaqələrin



qurulması, bədii tərcümə işinin genişlənməsi məqsədi ilə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin («Vətən» cəmiyyəti) yaradılan qurumun fəaliyyətinin genişləndirilməsi soydaşlarımızın birliyinə və vətənlə ayrılmaz tellərlə bağlanması işinə doğru atılan mühüm addımlardan biri idi.

«...Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti beynəlxalq mədəni mübadilədə müsbət rol oynamışdır. XX əsrin 60-70-ci illərində bu cəmiyyət dünyanın 118 ölkəsinin 720-dən çox təşkilatı ilə əlaqələr yaratmışdı. Bu cəmiyyətin üzvləri xarici ölkələrin mədəniyyət xadimləri və SSRİ-nin diplomatik münasibətlər qurduğu ölkələrin dostluq və mədəni əlaqələr cəmiyyətlərinin nümayəndələri ilə daimi yazışmalar aparırdılar. 1969-cu ildən başlayaraq respublikadakı cəmiyyət 7 dildə «Azərbaycan bu gün» jurnalının nəşrinə başladı. Jurnalın səhifələrində Azərbaycanın iqtisadi, elmi, mədəni və sosial həyatını əks etdirən materiallar yer alırdı. Jurnal dünyanın 120 ölkəsindəki 860 ünvana göndərilirdi».[1]

«Heydər Əliyev Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin fəaliyyətinə şəxsən nəzarət edirdi. Azərbaycan KP MK-nın Cəmiyyətlə daimi yazışmaları da bu deyilənləri əyani şəkildə sübut edir. Cəmiyyətin əməkdaşları xaricdə informasiya-təbliğat işinin aparılmasına dair kompleks perspektivlər planını təsdiq üçün KP-nın Mərkəzi Komitəsinə təqdim edirdilər. Azərbaycan KP MK-nın və şəxsən birinci katib H.Ə.Əliyevin dəstəyi ilə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin fəaliyyəti yeni formalar qazandı. Xarici nümayəndə heyətlərinin qəbulu, Azərbaycan zəhmətkeşlərinin dünya xalqlarının həyatı və mədəniyyəti ilə tanışlıq tədbirləri, xarici tələbələrlə, turistlərə iş, təbliğat materiallarının göndərilməsi ilə yanaşı, cəmiyyət xarici ölkələrdə kompleks tədbirlər – Mədəniyyət günləri, həftələri, dekadaları (ongünlük) təşkil edirdi».[2]

H.Əliyev bu məsələnin milli təfəkkür və düşüncə baxımdan

---

[1] Саядов С. Азербайджан: международные связи и взаимопонимание. Баку: 1991, с. 121.

[2] Azərbaycan Respublikası Dövlət Arxivi, f.2693, siy.1, iş 132, v.49.

nə dərəcədə əhəmiyyətli olduğunu bildiyi üçün sözügedən istiqamətin hüquqi çərçivəyə salınması üçün əməli işlər görülmüşdür. «Moskvanın Azərbaycanda «Vətən» cəmiyyətinin yaradılmasına etiraz etməsinə baxmayaraq, H.Əliyev bu sahədə fəaliyyətini dayandırmadı. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK Bürosunun 1976-cı il 5 oktyabr tarixli iclasında xarici ölkələrdə dostluq və mədəni əlaqələr cəmiyyətinin işini yaxşılaşdırmaq tədbirləri haqqında qəbul edilən qərarın V bəndində deyilirdi: «Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti xaricdəki həmvətənlərlə aparılan işi canlandırsın. Türkiyədə yaşayan mütərəqqi həmvətənlərin sırasından elm və mədəniyyət xadimlərinin SSRİ-yə dəvət olunması və onların sovet hakimiyyəti illərində Azərbaycan xalqının nailiyyətləri ilə tanış edilməsi praktikasını tətbiq etmək. Azərbaycan mühacirət təşkilatları və rəhbərlərinin fəaliyyətinə ...təsirin güclənməsinə nail olmaq. Azərbaycan millətinin kompakt əhalisinin olduğu ölkələrdəki sovet səfirliklərinə, dostluq və mədəni əlaqələr cəmiyyətinin mədəniyyət mərkəzlərinə 1976-1980-cı illərdə göndərmək üçün hazırlansın və buraxılsın:

**a)** uyğunlaşdırılmış ədəbiyyat və Azərbaycan xalq nağılları yazılmış disklər;

**b)** Azərbaycan dilini öyrənmək üçün Azərbaycan dilində dərsliklər, lüğətlər, imla məcmuələri və digər əyani vəsaitlər. Materialların hazırlanması Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinə, Maarif Nazirliyinə və respublika Elmlər Akademiyasına, nəşri isə Azərbaycan SSR Dövlətnəşrkoma tapşırılsın».[1]

H.Əliyev Azərbaycan xalqının elmi və intellektual potensialının gücləndirilməsinə həmişə böyük diqqətlə yanaşırdı. Bu qayğının sayəsində yüzlərlə azərbaycanlı gənc SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almaq imkanı qazanmışdı. Belə ki, keçmiş SSRİ məkanının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağında elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələri əhatə edən və Azərbaycanda zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 17 mindən çox mütəxəssis hazırlanmışdı. Bu kadrların bir çoxu yenidən Azərbaycana qayıdıb respublikanın inkişafına öz töhfələrini versə də, onların bir qismi təhsil aldıqları şəhərlərdə yerləşmişdirlər. 1970-1980-ci illərdə sovet dövlətində gedən respublikalararası inteqrasiya prosesləri, gənclərin Azərbaycandan kənarda – digər sovet respublikalarında təhsil almaq imkanı azərbaycanlıların təbii miqrasiyasına təkan vermişdir. Respublikamızdan kənarda əmək fəaliyyətinə başlayan belə mütəxəssislər bir tərəfdən vətəndən kənarda soydaşlarımızın birləşməsinə, mütəşəkkilliyinə, digər tərəfdən isə elm və mədəniyyətimizin inkişafına əhəmiyyətli yardım göstərmişdilər. Məhz H.Əliyev Sovet İttifaqının rəhbərlərindən biri kimi öz milliyönlü fəaliyyəti ilə o zamandan dünyanın müxtəlif qitələrində yaşayan azərbaycanlılar arasında **«etnik düşüncə»**nin bərpası və güclənməsində müstəsna rol oynamışdır.

Bu gün xaricdə «azərbaycanlı» adını şərəf və ləyaqətlə daşıyan neçə-neçə dünya şöhrətli alimlər – ziyalılar, mədəniyyət, incəsənət xadimləri, sahibkarlar vardır. Onlar yaşadıqları ölkələrin bütün sahələrinin inkişafında, ictimai həyatında yaxından iştirak edirlər. Hər bir azərbaycanlı əfsanəvi neft kəşfiyyatçısı, geoloq Fərman Salmanovun, kosmik raket texnikasının inkişafında xidməti olmuş hərbiçi-alim Kərim Kərimovun, elm aləmində «Zadə» soyadı ilə tanınmış alim Lütfi-Zadənin (Lütfəli Rəhimoğlu Əsgərzadə), məşhur violonçel ifaçısı Mstislav Leopoldoviç Rostropoviçin, müğənni-bəstəkar Müslüm Maqomayevin, kinodramaturq, «Oskar» mükafatı laureatı Rüstəm İbrahimbəyovun, dünya şöhrətli rəssam Tahir Salahovun, mahir təyyarəçi Teymur Mustafayevin, görkəmli natürmort ustası, rəssam Toğrul Nərimanbəyovun adları ilə fəxr edir, qürur duyur.

Ötən əsrin 80-ci illərinin sonlarında SSRİ-də cərəyan edən geosiyasi hadisələr sovet rejiminin iflasa doğru məsafəsini azaltdı. Demokratik düşüncə tərzinin genişlənməsinə və milli-azadlıq hərəkatlarının güclənməsinə şərait yaratdı. Azərbaycan

---

[1] Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 1, siy, 63, iş 86, pr, №20, & 5, м. 13-18.; Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: BDU, 2006, s. 430-431.

həmin dövrdə digər sovet respublikalarından fərqli olaraq ümumi böhran içərisində olmaqla bərabər daha mürəkkəb hadisələrin də cərəyan etdiyi bir səhnəyə çevrilmişdir. Bəlkə də bu, dağılmaqda olan SSRİ-nin gizli fitnə maşınının hər tərəfdən sərfəli olan bir müstəmləkənin itirilməsini əngəlləmək, azadlıq səsini boğmaq üçün əl atdığı və forpostu Ermənistan vasitəsi ilə həyata keçirməyi bacardığı ən müdhiş təfriqələrindən biri idi. Başqa xalqlar kimi, Azərbaycan xalqının da qarşısında Sovetlər imperiyasının caynağından qurtarmaq və öz azadlığına, istiqlaliyyətinə qovuşmaq *məqsədi dururdu. Yalnız, «erməni xisləti»* nəticəsində azərbaycanlıların boynuna böyük yük düşmüş və mənfur ermənilərin «əsassız ərazi iddiaları»na qarşı addım atmaq məcburiyyəti də qoyulmuşdu. «Fikiri başqa istiqamətə yönəltmək» üçün çox güclü səbəb lazım idi, çünki, Azərbaycanda *milli dirçəliş hərəkatı qarşısı alınmaz bir vüsətlə* inkişaf edirdi. SSRİ məkanında cərəyan edən hadisələr imperiyanın sərhədləri çərçivəsində demokratik düşüncə tərzinin genişlənməsinə və milli azadlıq hərəkatının güclənməsinə zəmin yaratmış oldu. Əsaslı milli oyanış Azərbaycanda daha geniş vüsət almışdır. Erməni seperatçıları ölkəmizin ayrılmaz hissəsi – Dağlıq Qarabağ ərazisinin qəsb edilməsinə yönəldilmiş terror-təxribat aksiyaları xalqımızın milli özünüifadə və özünümüdafiə hissinin güclənməsinə təkan verdi. Məhz elə buna görə də 1988-89-cu illərdə BMT tərəfindən Azərbaycan xalqı «dünyanın ən mübariz xalqı»[1] adına layiq görülmüşdür. Erməni işğalçılarının Dağlıq Qarabağ ərazisinin qəsb edilməsinə yönəldilmiş terror-təxribat aksiyaları xalqımızın milli özünüdərk hissinin artmasına yol açdı. 1990-cı il 20 Yanvar faciəsi Azərbaycan xalqının bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk oldu və milli heysiyyəti tapdanmış azərbaycanlıları vahid qüvvəyə çevrilməsi yolunda şanlı səhifə açdı. H.Əliyev belə bir mürəkkəb vəziyyətdə vətəndaş mövqeyi və vətən təəssübkeşliyi nümayiş etdirərək bu qırğınla bağlı

[1] http://www.azerbaycanli.org/?page=167&lang=aze



Moskvada etiraz səsini ucaltdı, dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini bəyan etdi. Dünya azərbaycanlılarının bir millət kimi mütəşəkkilliyinə təkan verən bu bəyanatla ölkənin, xalqın taleyi üçün tarixi məsuliyyət daşımaq qüdrətində olan yeganə *siyasi xadim və milli lider kimi* həmvətənlərimizi öz ətrafında birləşdirdi. Lakin həmin məqamda respublikamızda bu imkandan istifadə edilmədi və nəticədə mövcud problemlər daha da dərinləşdi. XX əsrin sonlarında Azərbaycan xalqının tarixi təkamülü və mübarizliyi sayəsində dövlət müstəqilliyimiz yenidən bərqərar olmuş və dönməz, daimi xarakter almışdır. Bu yalnız Azərbaycan vətəndaşlarının deyil, xaricdə yaşayan bütün soydaşlarımızın milli təfəkküründə əsaslı dönüşün nəticəsi idi.

Ötən əsrin müxtəlif vaxtlarında İranda baş verən ictimai-siyasi proseslərin təsiri altında buradan (Cənubi Azərbaycandan) on minlərlə azərbaycanlının əsasən Qərb ölkələrinə və ABŞ-a mühacirət etməsi Azərbaycan diasporunun genişlənməsi ilə nəticələnmişdir. Nəhayət, 20-ci yüzilliyin axırlarında, 1987-ci ilin iyun ayının 25-də SovİKP MK-nın plenumu «перестройка» (perestroyka/yenidənqurma) haqqında qərar qəbul edir. Sov.İKP MK-nin Baş katibi Mixail Qorbaçovun elan etdiyi yeniləşmə kursu, ilk növbədə, sosial-iqtisadi islahatları nəzərdə tutsa da, tezliklə siyasi və ideoloji sahəni də əhatə etdi. Sovet İttifaqında (o cümlədən, Azərbaycanda) söz azadlığı, aşkarlıq, milli hərəkatlar prosesi başlandı. «Yenidənqurma» siyasəti dörd il sonra SSRİ-nin süqutu ilə nəticələndi.[1] Bununla da yenicə müstəqillik qazanan Azərbaycandan yüzlərlə soydaşımız Avropa ölkələrində miqrasiya etmiş və orada məskunlaşmışdı. Bu, Azərbaycan diasporunun təşəkkülünün sonuncu mərhələsi kimi qəbul olunur.

Nikpur Cabbarlının araşdırmalarına görə, «...Azərbaycan siyasi mühacirətinin tarixi kökləri daha əvvəllərə – XIX əsrin ilk rübünə gedib çıxır. Lakin əvvəlki araşdırmalarımızda da vurğuladığımız kimi, istər XIX əsrin, istərsə də XX əsrin əvvəllərinin

[1] http://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_SSR_tarixi

Azərbaycan mühaciratı təşkilatlanmış toplum deyildi, ideoloji mübarizə vasitələrinə, mətbuata, nəşriyyata malik deyildi; onun fəaliyyəti heç bir siyasi qurum tərəfindən istiqamətləndirilmirdi».[1]

Azərbaycanla Türkiyə arasındakı tarixi köklər, etnik mənsubiyyət birliyi, sosial, mədəni, iqtisadi, siyasi bağlılıq tarix boyu bu ölkəni soydaşlarımızın ilk pənah apardığı və sığınacaq tapdığı ikinci vətənə çevirmişdir. İran və Rusiyanın Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanı parçalayaraq işğalının rəsmiləşdirdiyi zaman mövcud rejimin qadağaları ilə razılaşmayaraq doğma yurdlarını tərk etmək məcburiyyətində qalanlar Türkiyədə məskunlaşmışdılar. Məhz Şərqdə ilk hüquqi-demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ən yaxın müttəfiqi Osmanlı Türkiyəsi olmuş, mötəbər ali məclislərdə, xüsusən də iştirak etdiyi Paris sülh konfransında (1919-cu il) onun haqq səsini müdafiə etmişdi. 1949-cu il fevralın 1-də Ankarada M.Ə.Rəsulzadənin və bir qrup mühacirin təşəbbüsü ilə yaradılmış Azərbaycan Kültür Dərnəyi azərbaycanlıların diaspor potensialının artırılmasında xüsusi əhəmiyyət kəsb edirdi. İlk rəhbəri Həmid Atanan olan dərnəyin fəaliyyəti yalnız bu ölkədə yaşayan həmvətənlərimiz tərəfindən deyil, eləcə də Türkiyə ictimaiyyəti tərəfindən razılıqla qarşılanmışdı.[2] Azərbaycan diasporunun şaxələnməsində ciddi fəallıq göstərmiş bu dərnəyin təşkil etdiyi mədəni-kütləvi tədbirlərdə Azərbaycan tarixinin və mədəniyyətinin təbliği məsələlərinə xüsusi yer verilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan xalqının ən ali təbəqəsi, ziyalı-elitası Vətənin xoşbəxtliyini, müstəqil gələcəyini təmin etmək əzmində və qabiliyyətində olan ziyalıları heç olmasa sağ qalıb nə isə etmək ümidi ilə Türkiyəyə mühacirət etməli olmuşdular. Bunların sırasında, Əhməd bəy Ağaoğlu, Xəlil bəy Xasməmmədov, Behbud xan Cavanşir, Xosrov bəy Sultanov, Mirzə Bala Məmmədzadə, Məmməd Əmin Rəsulzadə,

[1] Cabbarlı N. Azərbaycan mühacirət nəsri. Bakı, «Elm və təhsil», 2011. s. 19.
[2] Arzumanlı V. Azərbaycan diasporu: reallıq, qayğılar, problemlər. Bakı: Qartal, 2001, s. 197.



Nağı bəy Şeyxzamanlı, Şəfi bəy Rüstəmbəyov və bu kimi bir çox zəka sahiblərimizi Türkiyə öz qoynuna alaraq təqiblərdən və ölümün pəncəsindən qurtarmışdı. İkinci dünya müharibəsində Almaniyaya əsir aparılmış soydaşlarımızın çoxu da Türkiyədə özlərinə sığınacaq tapmışlar. Türkiyədə diasporumuzun ilkin özəyi olan Azərbaycan Kültür Dərnəyinin fəaliyyətinin genişlənməsində bu mühacirlərin əvəzsiz xidmətləri olmuşdur. Dərnəyin uğurlu fəaliyyəti nəticəsində keçən əsrin 40-cı illərinin sonunda Antalya, Aydın, Bursa, İstanbul, İzmir, Kayseri, Manisa və digər şəhərlərində onun yerli şöbələri açılmışdı.[1]

Hazırda Azərbaycan və Türkiyə bütün sahələrdə olduğu kimi, diaspor işində də birgə əməkdaşlığın yeni mərhələsinə qədəm qoymuşlar. Hər iki xalq diaspor potensialını birləşdirərək birgə fəaliyyət göstərirlər. 2007-ci ildə keçirilən Azərbaycan-türk diaspor təşkilatları rəhbərlərinin I forumunun Bakı Bəyannaməsində qeyd olunduğu kimi, bu əlaqələr tarixi əhəmiyyət kəsb edir: «Qloballaşan dünyanın müasir reallıqları bütün türk xalqlarının qarşısında mühüm və taleyüklü vəzifələr qoymuşdur. Dövlətlər və xalqlar arasında gedən inteqrasiya prosesləri, planetin siyasi landşaftında baş vermiş köklü dəyişikliklər bəşər sivilizasiyasının yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Türk dünyasının bu mürəkkəb və ziddiyyətli mərhələdən müvəffəqiyyətlə çıxması eyni tarixi köklərə malik olan xalqlarımız arasında birliyin və həmrəyliyin səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Bu sahədə bütün türk dövlətlərinin, xüsusilə də Azərbaycan və Türkiyənin üzərinə böyük məsuliyyət düşür. Tarixi müttəfiqlik xarakteri daşıyan Azərbaycan-Türkiyə münasibətləri zamanın tələblərinə uyğun olaraq günü-gündən möhkəmlənməkdə və inkişaf etməkdədir. Çoxəsrlik etnik-mədəni dəyərlərə söykənən, ortaq dil, din, qan qardaşlığına, bu münasibətlər ölkələrimizin qloballaşan dünyaya inteqrasiyasının ən mühüm dayaqlarından birini təşkil edir».[2]

[1] Arzumanlı V. Azərbaycan diasporu: reallıq, qayğılar, problemlər, s. 198.
[2] Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası. Bakı: Adiloğlu, 2009, 42 s.; http://www.mfa.gov.az/files/file/Azerbaycan_-

Araşdırma apardığımız illərdə bir çox məsələlərin həllində, təşkilatlanma hazırlığında Azərbaycan diasporu ilə Türkiyə diasporu birgə fəaliyyət göstərməsini müşahidə etdik. Erməni və yunan diasporlarının ölkələrimizə qarşı fitnəkar çıxışları, «erməni soyqırımı» uydurması, Kipr problemi, kürd separatizmi, «907-ci düzəliş» saxtakarlığı gündəmə gələndə Azərbaycan və türk diasporları birləşib bu problemlərə layiqli cavab verirdilər. Bununla əlaqədar onlar etiraz səslərini ucaldır və müraciətlər qəbul edirdilər.

Tarixinin qədimliyinə, mədəniyyətinin zənginliyinə, iqtisadi potensialına, yüksək həyat tərzinə görə Avropanın aparıcı dövləti hesab olunan Almaniyada Azərbaycan diasporunun tarixi uzaq keçmişə, erkən orta əsrlərə gedib çıxır. Hələ XV əsrin 70-ci illərində Ağqoyunlu hökmdarı Uzun Həsən alman imperatoru Fridrix Habsburqla məktublaşaraq iki dövlət arasında mehriban münasibətlər qurmuşdu. XIX əsrdə bu əlaqələr daha da möhkəmlənmiş, almanlar Azərbaycanda məskunlaşmağa başlamışdılar. Ədəbiyyat tariximiz alman xalqı ilə münasibətlərimizin maraqlı məqamlarını özündə yaşatmaqdadır. XIX əsr alman ziyalılarından olan Fridrix Bodenştedt Qafqazda yaşadığı illərdə Tiflis gimnaziyasında Mirzə Şəfi Vazeh ilə birlikdə işləmişdir. O, şairdən fars dili dərsləri almaqla yanaşı, Şərq poeziyasının sirlərini də öyrənmişdir. Mirzə Şəfinin rəhbərlik etdiyi «Divani-Hikmət» poetik məclisində iştirak edən alman ziyalısı burada A.A.Bakıxanovla da tanış olmuşdur. Sonralar «Mirzə Şəfi haqqında xatirələr» əsərində o, müəlliminə ehtiram əlaməti olaraq Mirzə Şəfinin ona bağışladığı «Hikmətlərin açarı» şeir dəftərini alman dilinə tərcümə edərək «Mirzə Şəfinin nəğmələri» adı ilə çap etdirdiyini qeyd etmişdir. Bu nümunələr öz lətifliyi ilə nəinki Almaniyada – Avropada, Rusiyada belə böyük şöhrət qazanmışdı.

XIX əsrin əvvəllərində yaşamış böyük alman şairi V.Q.Höte Şərq poeziyasına pərəstişlə qələmə aldığı «Şərq-Qərb Divanı»

_Turkiye_munasibetleri_17.09.2014.pdf



əsərində N.Gəncəvinin bir neçə qəzəlini tərcümə etməklə yanaşı, ona şeir də həsr etmişdir. Həmin əsərində Höte eləcə də F.fon Ditsin «Kitabi-Dədə Qorqud» dastanından sətri tərcümə etdiyi «Basatın Təpəgözü öldürməsi» boyundan parçalara da yer ayırmışdır.

XX əsrin əvvəllərində Azərbaycan-Almaniya münasibətləri daha da genişlənmişdir. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Almaniyanın Hamburq, Leypsiq, Münhen, Reyn və başqa şəhərlərindəki universitetlərdə təhsil almaq üçün 50 nəfər azərbaycanlı göndərilmişdir. AXC-nin süqutundan sonra siyasi təqiblərə məruz qalan vətənsevərlərin bir qismi Almaniyaya mühacirət etmişdi. Bunlardan biri çarizmə qarşı M.Ə.Rəsulzadə ilə çiyin-çiyinə mübarizə aparmış, Moskvada Hərbi Akademiyada təhsil alan, mayor rütbəsi daşıyan Əbdüləli bəy Fətəlibəyli-Düdənginski olmuşdur. M.Əmrahov Düdənginskinin gərgin və mənalı ömür yolu haqqında belə yazır: «O, Finlandiya ilə müharibədə iştirak etmiş və «Qırmızı ulduz» ordeni ilə təltif edilmişdi. Sonralar Böyük Vətən müharibəsi zamanı könüllü əsir düşmüşdü. Müharibə qurtardıqdan sonra Münhendə işə başlamış, «Azadlıq» radiostansiyasının Azərbaycan şöbəsinə rəhbərlik etmişdi. Düdənginskinin rəhbərlik etdiyi və 1944-cü ilin qışınadək mövcud olan «Mühacir Azərbaycan hökuməti» alman hökuməti tərəfindən tanınmışdı».[1] 1943-cü ildə Ə.F.Düdənginskinin təşəbbüsü ilə Berlin şəhərində keçirilən Milli Azərbaycan qurultayı Almaniyada Azərbaycan diasporunun təşəkkülündə və təşkilatlanmasında böyük rol oynamışdır.

İkinci dünya müharibəsindən Azərbaycan da kənarda qalmamış və bir sıra azərbaycanlı döyüşçülər keçmiş Sovet Ordusu sıralarında Almaniyaya qarşı vuruşaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Hələ, müharibənin əvvəlində faşist ordusu 2 milyon sovet əsgərini əsir almışdı ki, bunların da iki yüz minə yaxını azərbaycanlı idi. Osmanlı ordusunun generalı

[1] Əmrahov M. İkinci dünya müharibəsi: 1939-1945. Bakı: Mütərcim, 2010, 525 s.

Nuru Paşa tərəfindən türk-tatar əsirlərindən ibarət legionlar yaratmaq təşəbbüsü irəli sürülsə də, Adolf Hitler əvvəl buna razı olmamış, lakin onun yaxın silahdaşı, Nasional Sosialist Alman Fəhlə Partiyasının (NSDAP) rəhbərlərindən biri Alfred Rozenberq Hitleri bunun vacibliyinə inandırdıqdan sonra 1941-ci ilin noyabrında buna icazə vermişdi. A.Hitler üçün Cənubi Qafqaz, Bakı neftinə, Batumi isə coğrafi mövqeyinə görə əhəmiyyətli idi. Məhz bu məsələ ilə əlaqədar faşist hökumətinin Şərq nazirliyi təşkil edilmişdi. Şərq nazirliyinin işinə 1941-ci ildə Məmməd Əmin Rəsulzadə dəvət olunmuşdu. Onu fon Monde hörmətlə qarşılamış və onunla birgə işləmək istəkləri təklifini çatdırmışdı. Lakin AXC-nin lideri, yüksək siyasi biliyə və zəngin təcrübəyə malik olan M.Ə.Rəsulzadə bu işə ancaq və ancaq Almaniyanın Azərbaycanın müstəqilliyini tanıması şərtilə razı olacağını bildirmişdir.

1941-ci ilin dekabr ayının 22-də A.Hitlerin göstərişi ilə başqa milli hərbi hissələrlə yanaşı Qafqaz müsəlmanlarından da ibarət xüsusi hərbi dəstələrin yaradılması barədə əmr verilmişdi. Müsəlmanlardan təşkil olunmuş bu hərbi hissə iki yerə – Azərbaycan və Şimali Qafqaz legionlarına bölünmüşdü. Əsir düşmüş Qafqaz müsəlmanlarından «Vətən», «Dönməz», «Qorxmaz», «Aslan» və başqa döyüş legionları təşkil edilmişdir.[1] 1942-ci ilin yanvarında 1-ci Türküstan Legionu yaradılmışdır. Bu taburda müəyyən sayda azərbaycanlılar da var idi. Taburun yaradıcısı və birinci komandiri mayor A.Mayer-Mader idi. Tabur müxtəlif döyüşlərdə iştirak etmiş, lakin Mayer-Maderin ölümündən sonra zəifləmişdi.[2]

M.Ə.Rəsulzadə legionların yaradılmasının əleyhinə çıxmamışdı. O, bilirdi ki, legionların yaradılması azərbaycanlıların bir yerə cəmləşdirilərək məhvi deməkdir. 1942-ci ildə alman ordusunda Azərbaycan legionerlərinin sayı 70-100 min nəfərə yaxın idi. Lakin Azərbaycan icması alman rəsmiləri ilə

[1] Yaqublu N. Azərbaycan legionerləri. Bakı: Çıraq, 2005, s. 14-72.
[2] Yenə orada.



Azərbaycanın sonrakı taleyi barədə razılığa gələ bilmirdi. 1943-cü il noyabrın 6-da Berlində M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Milli Azərbaycan Komitəsinin qurultayı keçirilmişdir. Həmin qurultayda faşistlər tərəfindən işğal edilən şərq torpaqlarının idarəsinə rəhbərlik edən A.Rozenberq və Qüds müftisi Əl-Hüseyn də iştirak etmişdi. Qurultay Almaniya ilə yanaşı, Avropa ölkələrində yaşayan azərbaycanlıların da fəaliyyətində dəyişiklik yaratdı. Azərbaycan mühacirlər icmasının fəaliyyəti İkinci dünya müharibəsi illərində azərbaycanlı hərbi əsirlərin qətlə yetirilməsinin qarşısını almaqla yanaşı, Avropada yaşayan azərbaycanlıların da birləşməsinə şərait yaratdı. 1945-ci il martın 17-də Almaniya Azərbaycanın dövlət müstəqilliyini tanıdı. İkinci dünya müharibəsindən sonra sağ qalmış azərbaycanlı legionerlər və müxtəlif illərdə Avropanın digər ölkələrinə mühacirət etmiş, səpələnmiş soydaşlarımız 1951-ci ildə Almaniyanın Münhen[1] və 1952-ci ildə Ştranberq şəhərlərində keçirilən konfranslara fəal sürətdə qatılmışlar.[2]

XX əsrin sonu – XXI əsrin əvvəlləri dünya tarixində bir sıra qlobal hadisələrlə səciyyələnir. Bunların sırasında keçmiş SSRİ-nin dağılması, Almaniyanın birləşməsi, Azərbaycan xalqının öz milli müqəddəratını təyin edərək ikinci dəfə tarixi istiqlaliyyətini əldə etməsi Azərbaycan-Almaniya münasibətlərində də yeni mərhələnin başlanmasında böyük önəm daşıyır. Müstəqil respublikamızla hərtərəfli əlaqələr quran Almaniya dövlətimizin maddi-mədəni inkişafı üçün əsas tərəfdaşa çevrildi. Azərbaycanlı tələbələrin digər ölkələrlə yanaşı, Almaniyada da təhsil almağa göndərilməsi müstəqilliyimizin bəhrələrindən biri hesab edilə bilər.

Z.Əliyev Almaniyada yaşayan azərbaycanlılardan bəhs edərkən onları əsasən üç qrupa bölür:

1. İran vətəndaşlığı olan azərbaycanlılar;
2. Rusdilli Azərbaycan vətəndaşları;
3. Anadilli azərbaycanlılar.

[1] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. // http://presarchive.gov.az/az-multimedia/image-12.html
[2] Yaqublu N. Azərbaycan legionerləri.

Qruplar arasında prinsipial fərqləri də araşdıran tədqiqatçı göstərir ki, «Rusdilli Azərbaycan vətəndaşı ilə İran vətəndaşı olan soydaşlarımız ictimai-siyasi fəaliyyətləri və təşkilatlanma işinə görə anadilli azərbaycanlılardan seçilirlər. Anadilli soydaşlarımız sosial cəhətdən az inkişaf etmiş təbəqəyə aid olduqlarından gündəlik çörək pulu və qazanc dalınca qaçırlar. Bu isə görülən işləri ləngidən əsas amildir».[1] Yeri gəlmişkən, Z.Əliyevin «Anadilli azərbaycanlılar» ifadəsi sual doğura bilər. Azərbaycanda müxtəlif və çoxlu sayda xalqların və millətlərin nümayəndələri yaşayır, hər bir nümayəndənin də milli mənsubiyyəti və ona müvafiq dilinin adı var. «Ana dilli» deyəndə, ifadənin heç olmasa dil baxımından dəqiq ünvanı bilinməlidir, digər tərəfdən «Anadilli soydaşlarımız sosial cəhətdən az inkişaf etmiş təbəqəyə aid olduqlarından» ifadəsi də «nə üçün?» sualını doğurur. Tədqiq etdiyimiz dövrdə Almaniyada diasporumuz tərəfindən «Anadili» qəzeti, «21 Azər», «Savalan», «Körpü», «Xəzər» və s. jurnallar nəşr edilirdi və bu ölkədə «Ocaq» (1968), «Azərbaycan Almaniya Birliyi» (1986), «Azərbaycan Kültür Cəmiyyəti» (1990), «Azərbaycan Kültür və Dayanışma Cəmiyyəti» (1990), «Xəzər» (1990), «Alman-Azərbaycan Cəmiyyəti» (1991) «Bakılı» (1992), «Maynts-Azərbaycan Cəmiyyəti» (1993), «Azərbaycan Cəmiyyətləri Federasiyası» (1996), «Azərbaycan Türklərinin Mədəniyyət Mərkəzi» (1997), «Azərbaycan-Türk Mədəniyyət Mərkəzi» (2000), «Azərbaycan Dostlar Birliyi» (2003), «Odlar yurdu» (2003), «Nizami Gəncəvi adına Mədəniyyət İnstitutu» (2004) və s. təşkilatlar fəaliyyət göstərirdi. Onu da qeyd edək ki, 1996-cı ildə Almaniyadakı Azərbaycan cəmiyyətləri vahid strukturda – «Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası»nda (AACF) birləşmişlər. Federasiyanın əsas məqsədi diaspor təşkilatları arasında əlaqələri daha da gücləndirməkdir. 1999-cu il avqustun 21-22-də AACF-nin Bonnda 1-ci qurultayı keçirilmişdir. Eyni

[1] Əliyev Z. Almaniyada Azərbaycan diaspor // AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. «Sosial-siyasi problemlər» jurnalı, XIII Buraxılış. Bakı: «Qismət» mətbəəsi, 2005, s. 162-171.



zamanda, alman və Azərbaycan dili kursları açılmış, milli musiqi dərsləri keçirilməyə başlamışdır.

Azərbaycan diasporunun çoxsaylı və genişmiqyaslı fəaliyyət göstərdiyi, sosial-mədəni və iqtisadi-siyasi sahədə böyük rol oynadığı ölkələrdən biri Rusiya Federasiyasıdır. 1989-cu ildə SSRİ-də aparılmış sonuncu siyahıya alınmaya görə RSFSR-də yaşayan azərbaycanlıların sayı 335,889 nəfər olmuşdur.[1] Onlardan 221,500 nəfərini kişilər, 114,389 nəfərini isə qadınlar təşkil edirdi. 1989-cu ildə Azərbaycan SSR-dən RSFSR-ə 50.526 nəfər miqrasiya etmişdi.[2] Rusiya Federasiyasında əhalinin tam şəkildə siyahıya alınması 2002-ci ildə həyata keçirilmiş, onun nəticələrinə görə ümumi əhalinin sayı 145 166 731 nəfər təşkil etmişdir. Azərbaycanlı əhalinin sayı isə 1989-cu il siyahıya alınması ilə nisbətdə 335,889 nəfərdən artaraq 621,840 nəfərə çatmışdı.[3] Araşdırma apardığımız illərdə qeyri-rəsmi statistikaya görə, Rusiyada 2 milyondan çox azərbaycanlı yaşayırdı.

X əsrdən ruslar Azərbaycana özlərinə məxsus maraq göstərməyə başlamışdılar. Nəhayət, bu maraqlar Rusiya tərəfindən XIX yüzillikdə Azərbaycanın şimal hissəsini ilhaq edilməsinə gətirib çıxarmışdır. N.Rizvanın araşdırmasına görə Böyük Moskva knyazı III Vasili (1440-1505), İvan Qroznı (1530-1584) və I Pyotrun (1672-1725) hakimiyyəti illərində Rusiyaya köçən azərbaycanlı sənətkarlar, tacirlər, elm xadimləri Kazan, Sankt-

[1] Демографический ежегодник СССР, 1990 год. Москва: Финансы и статистика, 1990; Национальной состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г., Москва: Республиканский информационно-издательский центр, 1990.; Национальный состав населения // Национальный состав населения и владения языками гражданство/ Книга 1. Том. 4. Итоги Всероссийской переписи населения 2002 года в 14 томах. Москва: ИИЦ Статистика России, 2004.

[2] Международный опыт институционального оформления отношения между государством и национальной диаспорой за рубежом // http//noravank.am/ru/

[3] Назаров Б. Азербайджанская диаспора важный фактор международной политики // http//1news.az/analytics/20110709120633214.html

Peterburq, Moskva ətrafı ərazilərdə məskunlaşmışdılar.[1]

1828-1991-ci illər ərzində Rusiyaya axını səciyyələndirən mühacirət proseslərini isə şərti olaraq dörd dövrə bölmək olar:

I. **1828-1918-ci illər:** Bu dövr ərzində bir çox tanınmış azərbaycanlılar imperiyanın sayılıb-seçilən ziyalılarından olmaqla, Rusiya elminə qiymətli töhfələr vermişlər.

II. **1920-1960-cı illər:** AXC-nin süqutundan sonra bolşevik ideologiyasının tərəfdarları olan Azərbaycan fəhlə-kəndli sinfi Rusiyaya köçməyə başlamışdır. İkinci dünya müharibəsi illərində və müharibədən sonrakı illərdə bir sıra soydaşlarımız rus qadınları ilə ailə qurub orada həyatlarını davam etdirmişlər.

III. **1960-1980-cı illər:** Bu dövrün miqrasiyası sosial-iqtisadi səbəblərlə bağlı olmuşdu. Belə ki, Rusiyanın ayrı-ayrı yerlərində aparılan quruculuq-abadlıq işlərində, yeni şəhərlərin salınması, yeni neft yataqlarının istismarında işləmək (məsələn, Sibirdə «Baykal-Amur Magistralı»nın tikintisində, Volqaboyunda, Tümendə neft kəşfiyyatı işlərində və s.) məqsədilə oraya köçərək daimi məskən salan soydaşlarımızın əksəriyyəti buranı özlərinə ikinci vətən seçmişlər. Həmçinin, 1970-ci ildən etibarən Rusiyaya elm-təhsil almaq dalınca gedib geri qayıtmayan azərbaycanlılar da diasporun ziyalı qanadını təmsil etmişlər.

IV. **1991-ci ildən bu günə qədər** davam edən miqrasiya prosesi də əsasən sosial-iqtisadi səbəblərlə bağlı olmuşdur.[2]

1991-ci ildən sonra başlanan mühacirət prosesi barədə E.Kərimli qeyd edir ki, «bu şəxslər Rusiyanın müxtəlif şəhər və rayonlarında məskunlaşdıqdan sonra təşkilatlanma strukturu diasporun formalaşdırılması zərurəti meydana çıxmışdır».[3]

---

[1] Rizvan N. Azərbaycan diasporası tarixindən: I cild. Bakı: Borçalı NPM, 2002, 208 s.

[2] http://diaspora.gov.az/index.php?options=content&id=86; Rizvan N. Azərbaycan diasporası tarixindən: I cild. 208 s.

[3] http://diaspora.gov.az/index.php?options=content&id=86; Kərimli E. Azər-



Yuxarıda sadaladığımız kimi, 3 milyona yaxın soydaşımız Rusiya Federasiyasının 85 subyektində məskunlaşmışdır. Azərbaycanlıların Rusiyada məskunlaşmasının və Rusiya-Azərbaycan münasibətlərinin qədim tarixə malik olmasına baxmayaraq,[1] Rusiya dövlətinin ərazisində Azərbaycan diasporu gəncdir. Rusiya ərazisində soydaşlarımızın nə qədər və hansı zamandan məskunlaşmasına baxmayaraq, bu ölkədə diasporumuzun formalaşması 1991-ci ildən sonra götürülür. Diasporçuluğun vacib prinsiplərinə cavab verən, tam formalaşmış Azərbaycan diaspor təşkilatlarının tədqiq edilən illərdə Rusiyanın bir çox ərazilərində, xüsusən də Moskva və Sankt-Peterburqda fəaliyyəti daha da aydın nəzərə çarpırdı. Hələ, 1987-ci ildə Rusiyada Azərbaycan diasporunun əsas özəklərindən olan «Azərbaycan Cəmiyyətlərinin Koordinasiya Şurası» yaradılmışdı. Sonrakı illərdə erməni diasporunun yeritdiyi antiazərbaycan siyasəti nəticəsində Şuranın fəaliyyəti dondurulmuşdu. G.Novruzova Rusiya Federasiyasında Azərbaycan diasporunun tarixi ilə bağlı bildirir ki, «Sovet dövründə azərbaycanlıların Azərbaycandan kənarda yaratdıqları təşkilatlar sırasında 1989-cu ilin oktyabr ayının 3-də rəsmi qeydiyyatdan keçmiş və Moskvada təşkil olunmuş Azərbaycan Mədəni Cəmiyyəti olan «Ocaq» Cəmiyyəti də vardır».[2]

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Rusiyada yaşayan azərbaycanlıların təşkilatlanması və diasporlaşması prosesinə dəstək sürətlənmişdi. 1992-ci il aprelin 4-də Rusiya-Azərbaycan diplomatik münasibətləri qurulduqdan sonra ən vacib məsələlərdən biri də məhz Rusiya Federasiyası ərazisindəki soydaşlarımızla bağlı fəaliyyət

---

baycan diasporu: nəzəriyyə və praktika. Bakı: Şuşa, 2001, s. 18.; Rusiyada Azərbaycan diasporunun formalaşma tarixi. Olaylar qəzeti, 2014, 29 may, №92.; http://files.preslib.az/site/diaspora/gl17.pdf

[1] Тихканен А. Эмиграция в свете статистики. // Спектр, 2004, 3 октября.

[2] Новрузова Г. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг). Автореферат диссертации на соискание ученой степени доктора философии по истории. Баку: 2010, 28 с.

proqramının hazırlanması olmuşdu.

Rusiya ilə Azərbaycan arasında (1991-2003-cü illərarası) münasibətlərin tez-tez və müxtəlif müstəvilərdə dəyişməsi buradakı Azərbaycan diasporuna da təsirsiz ötüşməmişdi. Yəqin elə buna görədir ki, Rusiyada Azərbaycan diasporunun fəaliyyəti, tədqiqatçılar və analitiklərin rəyinə görə nisbətən ləng hesab olunurdu. Bununla belə, araşdırma apardığımız illərin sonunda Rusiya-Azərbaycan dövlətləri arasında əməkdaşlığın inkişafında diasporların rolunun artdığını xüsusi qeyd etmək vacibdir. Azərbaycanla Rusiya arasında diasporlar səviyyəsində humanitar, sosial-mədəni, iqtisadi-siyasi əlaqələrin qurulması, həmvətənlərimizin Rusiyada incidilməsinin qarşısının alınması *H.Əliyevin adı ilə bağlıdır.*

H.Əliyev hələ o dövrdə «etnik separatizmin katalizatoru» sayılan Rusiyanın paytaxtı Moskvadan etiraz səsini bütün dünyaya ucaltdı, soydaşları ilə bərabər olduğunu, Vətəninə, millətinə edilən bu zülmün yerdə qalmayacağını, cinayətkarların layiqli cəzasını alacağını bəyan etdi. O, məlum qırğınla əlaqədar ailə üzvləri ilə (oğlu İlham Əliyev) birgə 1990-cı il yanvarın 20-də Moskvadakı Azərbaycan nümayəndəliyinin qarşısına toplanmış izdihama qatıldı və öz xalqının bir nümayəndəsi kimi əsl vətəndaş olduğunu sübut etməklə bütün dünyaya cəsarət örnəyi oldu.

1993-cü il oktyabrın 3-də H.Əliyev ikinci dəfə Azərbaycan Respublikasına siyasi hakimiyyətə gələndən sonra isə tarixi reallıqlar kontekstində ictimai və siyasi sabitliyi möhkəmlətmək üçün ilk xarici səfərlərindən birini Rusiyaya etdi. O, burada yaşayan çoxsaylı soydaşlarımızın incidilməməsi, dinc yaşayışı naminə bu böyük ölkə ilə əlaqələri hərtərəfli yaxşılaşdırmağa xüsusi önəm verirdi. Əvvəlcə, münasibətləri bərpasına sosial-mədəni sferadan başlanıldı. 1994-cü ildə böyük azərbaycanlı şair M.Füzulinin yubileyi Moskvada, görkəmli rus şairi S.Yeseninin yubileyi Bakıda təntənəli şəkildə qeyd edildi.

Rusiyada mədəni-sosial istiqamətdə Azərbaycan diasporunun «Ocaq» Mədəniyyət Cəmiyyəti fəaliyyət göstərir. Araşdırma apardığımız illərdə Rusiyada Azərbaycan diasporuna məxsus «Azəri», «AzərRos», «Azərbaycanın səsi», «Azərbaycan Konqresi», «*Millətin qəzeti*», «*Son variant*», «*Turan*», «*Vətən*» və s. kimi qəzetlər nəşr olunurdu. Bəşir Səfəroğlu, Nəsibə Zeynalova, Rüstəm İbrahimbəyovun adını daşıyan teatrlarımız Rusiyanın mədəni-kütləvi tədbirlərində fəal iştirak edirdi. Azərbaycan-Rusiya arasında sosial-mədəni sahədə uğurlu münasibətlərin qurulmasında Azərbaycan Mədəniyyətinin İnkişafı və Dirçəlişi Fondu (AMİDF) böyük rol oynamışdı.[1] Fondun Rusiya nümayəndəliyi 1996-2001-ci illər ərzində aşağıdakı istiqamətlərdə iş aparmışdı:

- Azərbaycan cəmiyyətləri və soydaşlarımızla əlaqələrin qurulması;
- dövlət hakimiyyətinin müxtəlif qolları, hüquq-mühafizə orqanları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın yaradılması;
- mədəni-kütləvi tədbirlərin və xeyriyyə aksiyalarının keçirilməsi.

AMİDF 1997-ci ilin ilk aylarından Moskva şəhərində fəaliyyət göstərən bütün real və potensial imkana malik diaspor qruplarını bir araya gətirməyi qarşısına məqsəd və vəzifə kimi qoymuşdu. Bu istiqamətdə konkret fəaliyyət proqramı təsdiq edib işə başlamışdı. Fondun rəsmi nümayəndəliyi diaspor qrupları ilə əməkdaşlığı gücləndirməklə yanaşı, Rusiyada yaşayan ayrı-ayrı tanınmış elm, mədəniyyət, incəsənət xadimləri ilə də təmasları daim diqqət mərkəzində saxlayırdı. 1997-ci ildə nümayəndəliyin növbəti konfransının qərarı ilə fondun Ağsaqqallar Şurası yaradılmışdı. Konfransdan keçən müddət ərzində məşhur azərbaycanlı həmvətənlərimizlə aparılan görüşlər və danışıqlar nəticəsində «Вопросы истории» (Voprosı istorii) jurnalının baş redaktoru, akademik Ə.İsgəndərov, Rusiya Baş Prokurorluğunun məsləhətçisi, akademik C.Kərimov, Fəlsəfə İnstitutunda şöbə müdiri, professor R.Qurbanov, yazıçı, Moskva Dövlət Universitetində «XIX əsr rus ədəbiyyatı» kafedrasının baş müəllimi,

[1] http://vakrf.ru/

professor Ç.Hüseynov, Rusiya Prezident Aparatı yanında Dövlət İdarəetmə Akademiyasının müəllimi, professor Q.Kərimov və başqaları «Ağsaqqallar Şurası»nın üzvləri olmuşlar.[1] Fond 1996-2001-ci illər ərzində bir sıra dövlət əhəmiyyətli mədəni-kütləvi tədbirlərin keçirilməsində iştirak etmişdi. «Qoskonsertin» 2 aprel 1996-cı il tarixli məktubuna əsasən London şəhərinin rəhbərliyi SSRİ xalq artisti Rəşid Behbudovun anadan olmasının «80 illik yubileyi»nə həsr edilmiş təntənəli gecənin təşkilat qrupuna daxil edilmişdi. Fond tərəfindən 1998-ci il mayın 8-də Azərbaycan Respublikasının xalq artisti Afaq Bəşirqızının və onun rəhbərlik etdiyi «Bəşir teatrı»nın Dmitrov şəhərinə qastrol səfəri təşkil olunmuşdu.

Hal-hazırda Moskva şəhərində Azərbaycan diasporu üç əsas təşkilatda birləşib:

1) XX əsrin 90-cı illərində Rusiyanın ədliyyə orqanlarında qeydiyyatdan keçmiş Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti;
2) 2001-ci il mart ayının 5-də təsis qurultayı keçirilmiş Ümumrusiya Azərbaycanlıları Konqresi (rəsmi məlumatlara görə, bu təşkilat Rusiyanın 45-dən çox regionunu əhatə edir. Onun ətrafında tanınmış ziyalılarımızdan Tahir Salahov, Arif Məlikov və mərhum Fərman Salmanov, Kərim Kərimov, Müslüm Maqomayev və başqaları toplanmışdır);
3) 2009-cu il aprel ayının 18-də Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin təşəbbüsü ilə yaradılan və 100-dən çox təşkilatı öz ətrafında birləşdirən Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı.[2]

Bütün sadalanan amillər tədqiq edilən dövrdə diaspor və lobbi quruculuğunun genişlənməsi və inkişafına rəvac versə də, bu sahədə hələki görüləsi işlər çoxdur və sözügedən məsələ hər

[1] Rusiyada Azərbaycan diasporu / Z. Əliyev // Euro Xəbər qəzeti, 2008, 15 iyul, 30 iyul. №13.; Национальной состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г.

[2] http://vakrf.ru/



bir diaspor nümayəndəsinin qarşısında başlıca məram kimi durmalıdır.

Azərbaycan diasporu bu dövrdə Rusiyanın nüfuzlu siyasi partiyaları ilə də əməkdaşlıq edir. Rusiyanın Arxangelsk vilayətinin Ustyanskiy rayonunda fəaliyyət göstərən Azərbaycan diasporunun nəzdində Rusiyanın hakim partiyası olan «Единая Россия» (Yedinaya Rossiya) partiyasının özəyinin yaradılmasını Azərbaycan diasporunun böyük siyasi nailiyyəti kimi qiymətləndirmək və bunu lobbi fəaliyyətinə aid etmək olar. İlk partiya təşkilatı kimi fəaliyyət göstərəcək bu özəkdə əsasən azərbaycanlılar toplaşsa da, quruma ruslar da daxildir. Ustyanski rayonundakı Azərbaycan diasporunun sədri, eləcə də Arxangelsk vilayəti Administrasiyası rəhbərinin Milli məsələlər üzrə köməkçisi Yusif Süleymanov Diasporla İş üzrə Dövlət Komitəsinə bildirmişdi ki, «belə bir təşəbbüsün irəli sürülməsində və reallaşdırılmasında əsas məqsəd bu bölgədəki soydaşlarımızın siyasi fəallığını artırmaq, cəmiyyətə inteqrasiyasını sürətləndirmək, seçkilərdə fəal iştirakını təmin etmək və gələcəkdə yerli seçkili orqanlarda aktiv təmsil olunmalarına yardım göstərməkdir».[1] Bütün bunlar bir daha sübut edir ki, diaspor dövlətlər arasında sosial-mədəni əlaqələrin təcəssümü olmaqla yanaşı, həm siyasi, həm də iqtisadi əhəmiyyətə malikdir. Belə ki, azərbaycanlıların Rusiyada ticarətlə məşğul olmalarından qazanılan maliyyənin Azərbaycanda dövriyyədə olması ölkə iqtisadiyyatının inkişafına dəstək olan amillərdən biridir. Eləcə də azərbaycanlıların müvafiq seçkilərdə fəallığı və dəstəklədiyi namizədlərin qələbəsi onların siyasi dairələrə çıxışlarının yaranmasına, Azərbaycan və Rusiya arasındakı münasibətlərin inkişafına müsbət təsir edir.

Rusiya ilə Azərbaycan arasında hərtərəfli əlaqələrin yaranması və inkişafı H.Əliyevin bəsirəti və gərgin əməyinin nəticəsi idi. 2000-ci ilin yazında Bakıda dahi rus şairi A.S.Puşkinin heykəlinin açılışı Azərbaycan və Rus xalqları arasında olan

[1] http://azertag.az/xeber/ARXANGELSKDAKI_AZARBAYCAN_DIASPORUNUN_UZVLARI_RUSIYANIN_HAKIM_EDINAYA_ROSSIYA_PARTIYASININ_ILK_TASKILATINI_YARATMISLAR-481235

əlaqələrin tarixiliyinin və müasirliyinin ən bariz göstəricisinə çevrilmişdi. Bu əlaqələrin yüksələn xətlə inkişafında, iki xalqın tarixi-mədəni irsinin qorunması və təbliğ olunmasında, Azərbaycan həqiqətlərinin cəmiyyətə çatdırılmasında 2001-ci ildə yaradılan Ümumrusiya Azərbaycanlıları Konqresi mühüm rol oynamışdı. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi Ümumrusiya Azərbaycanlıları Konqresi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 avqust tarixli Sərəncamına əsasən 2005-ci ildə Rusiya Federasiyasında «Azərbaycan Respublikası ili»nin keçirilməsi ilə əlaqədar xüsusi tədbirlər planı hazırlamışdı. Həmin planda «Rusiyada Azərbaycan ili»nin və «Azərbaycanda Rusiya ili»nin keçirilməsi də nəzərdə tutulurdu».[1]

Hal-hazırda Rusiya ilə Azərbaycan arasındakı mövcud əməkdaşlıq güclənərək yeni mərhələyə daxil olmuşdur. Azərbaycanın dövlət başçısı İ.Əliyev dəfələrlə vurğulamışdır ki, Rusiya ilə əlaqələrin daha da inkişaf etdirilməsi üçün ölkəmizdə böyük potensial var. Bu mənada, 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun həmkarı, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təşəbbüsü, Rusiya və Azərbaycan ictimaiyyətinin sifarişi, diaspor təşkilatlarının səyi ilə Bakıda Humanitar Əməkdaşlıq üzrə I Azərbaycan-Rusiya Forumunun keçirilməsi[2], 2011-ci ildə Bakı şəhərində Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin[3] və Moskva şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin[4] açılması iki ölkə arasında uğurla inkişaf edən münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən, sosial sahədə də genişləndirilməsi üçün əlverişli zəmin yaratdı. Rusiyada Bəşir Səfəroğlunun adını daşıyan Moskva Musiqili Miniatür Teatrı, «İbrus» teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrının fəaliyyəti, Moskva Dövlət Universitetinin Bakı filialının açılması və tədrisin rus dilində aparıldığı 300-dən çox orta məktəbin fəaliyyəti qarşılıqlı əlaqələrin göstəricisi kimi qiymətləndirilir.

*Qeyd: 2015-ci il 15 may tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı yaradılmışdır.*

Bakıda keçirilən Beynəlxalq Humanitar Forum Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsinə, ölkələr arasında çoxtərəfli əməkdaşlığın, mədəniyyətlərarası və konfessiyalararası dialoqun güclənməsinə öz töhfəsini verir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu əməkdaşlığın daha da yüksəldilməsinin vacibliyini belə ifadə edir: «Beynəlxalq mədəni sərhədləri dövlətlər çəkir, mədəni qarşılıqlı əlaqələr isə onları genişləndirir. Xalqların bir-birini daha yaxşı başa düşməsi çox vacibdir. Bunun üçün hər iki ölkənin ziyalıları tez-tez görüşməli, problemləri həll etməli, gələcək layihələr barədə razılığa gəlməlidirlər».[1] Bu çağırış təkcə region ölkələri üçün deyil, qlobal kontekstdə olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasının tarixdə ikinci dəfə dövlət müstəqilliyinin bərpasından sonra ictimai-siyasi və sosial-iqtisadi səbəblər üzündən mühacirət edənlərin istiqaməti Avropa ölkələri ilə yanaşı, ABŞ-a da yönəlmişdi. Əvvəlcə bura üz tutanlar elita nümayəndələri, ziyalılar, elm, mədəniyyət xadimləri, eyni zamanda, iş tapmaq ümüdi ilə gələnlər idi. Ölkədə baş verən məlum proseslər əlbəttə, Amerikadakı Azərbaycan diasporunun fəaliyyətinə təsir göstərirdi. ABŞ-dakı diasporumuz ilk növbədə, Bakıda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu tərəfindən törədilən «Qara Yanvar» hadisəsinə etiraz səsini ucaltmışdı. Daha sonra, Dağlıq Qarabağa və ətraf rayonlara qarşı Ermənistanın təcavüzkarlıq siyasətinə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər). http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2004.

[2] http://bakuforum.az/az/

[3] http://aze.embrus-az.com/rikc_opening.html

[4] http://www.gomap.az/info/Detailed_News.aspx?id=451

[1] Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 2003-2011-cü illər.

edərkən, etnik azərbaycanlılara qarşı törədilən ötən əsrin ən qanlı faciəsi – Xocalı soyqırımının baş verməsinə və BMT-nin qəbul etdiyi qətnamələrə əməl edilməməsinə qəti şəkildə narazılıqlarını bildirmişlər. 1997-ci ildə mütəşəkkil lobbimizin olmaması ucbatından Azərbaycan ayrı-seçkiliyə məruz qalmışdır. ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi «Azadlığa dəstək aktı»na Azərbaycana hər cür yardımın göstərilməsini qadağan edən məntiqsiz və ədalətsiz «907-ci düzəliş»ə qarşı Amerika azərbaycanlılarının etiraz çıxışı başlasa da, heç bir nəticə verməmişdir.

Əsası H.Əliyev tərəfindən qoyulan, «azərbaycançılıq» məfkurəsinə söykənən məqsədyönlü diaspor siyasəti sonrakı dövrlərdə xaricdəki diaspor təşkilatları arasındakı pərakəndəliyin aradan qaldırılmasında mühüm rol oynamışdı. 1997-ci il avqustun 7-də Azərbaycan prezidenti Heydər Əliyevlə ABŞ prezidenti Bill Klinton arasında Ağ evdə keçirilən görüşdən sonra «Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat»ın imzalanması xüsusi əhəmiyyət kəsb etmişdi. Bu bəyanat Amerikadakı azərbaycanlıların həyat və fəaliyyətində ciddi dəyişikliklərin başlanması demək idi. Eyni zamanda, Amerikaya hər səfərində H.Əliyevin burada yaşayan azərbaycanlılarla görüşlər keçirməsi, onlara: «Vacibdir ki, istər Amerika, Almaniya, istərsə də Fransada – hər yerdə və hər yanda azərbaycanlılar olsunlar. Azərbaycanlı sadəcə vətəndaş olmamalıdır, o kəs olmalıdır ki, onun sinəsində Azərbaycan yüksəlməli, ölkəmizin bayrağı ucalarda dalğalanmalıdır»[1] kimi fikirlər aşılaması onların birliyinə və həmrəyliyinə təkan verirdi. Eləcə də ABŞ-da özlərini Azərbaycan diasporunun tərkib hissəsi bilən bakılı yəhudilərin və Dağ yəhudilərinin fəaliyyəti daha diqqətəlayiq və təqdirəlayiqdir. Ölkəmizin rifahı naminə görülən işləri yüksək qiymətləndirən Azərbaycan yəhudiləri «Evreyskiy mir», «Veçerniy Nyu-York», «Russkaya reklama», «Nevstay»,

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 1993-2003-cü illər.



«New Yorker» mətbuat orqanlarında çıxış edərkən Azərbaycanı daim dəstəkləyirdilər.[1]

Müstəqillik illərində dövlət səviyyəsində Azərbaycan diasporunun fəaliyyətinə ciddi fikir verilmişdir. Şübhəsiz ki, bu fakt Amerikadakı Azərbaycan diasporuna da öz müsbət təsirini göstərmişdir. Nəticədə okeanın o tayında diasporumuzun fəaliyyəti xeyli güclənmiş və əhatə dairəsi genişlənmişdi. İndi ABŞ-da Azərbaycan diasporunun bir neçə qanadı mövcuddur (qadınlar, gənclər və s.). Son illərin məlumatlarına görə, burada azərbaycanlılara məxsus təşkilatlar, icma şuraları, assambleyalar, fondlar, bir neçə kütləvi informasiya vasitələri, qəzet, jurnal, saytlar, radiostansiya və s. fəaliyyət göstərmiş və yaxud da göstərir. «Dirilik» qəzeti, «Azerbaijan International», «Caspian Grossords» jurnalları, «US Azeris Network» – USAN şəbəkəsi və digər elektron-mətbuat orqanları buna bariz nümunədir. 1997-ci il iyunun 27-dən 29-dək ABŞ-da keçirilən Dünya Azərbaycanlıları Konqresinin (DAK) təsis toplantısı mühüm tarixi hadisə sayıla bilər. Konqresdə Şimali və Cənubi Azərbaycanın problemləri birgə müzakirə olunmuşdur. Təqribən 660 nümayəndənin iştirakı ilə keçirilən konqres siyasi fəaliyyətin mühüm qolu olan lobbiçilik mexanizminin işlənib hazırlanmasını əsas məqsəd kimi qarşıya qoydu. 1997-ci ildən 2007-ci ilədək (iyun ayınadək) DAK-ın doqquz (IX) qurultayı keçirilmişdir. Hər bir qurultayda əsas müzakirə obyekti Dağlıq Qarabağ və ətraf rayonların erməni işğalından azad edilməsi üçün diaspor təşkilatlarının əlbir fəaliyyətinə müvəffəq olmaq məsələsi idi. Qurultayda eyni zamanda Azərbaycan lobbisinin formalaşdırılması, «Azadlığa dəstək aktı»na 907-ci düzəlişin ləğvinə nail olunması, cənubi soydaşlarımızın hüquqlarının qorunması və azadlıq uğrunda apardıqları mübarizənin dəstəklənməsi işi də diqqətdə saxlanılmışdır. Türk dünyası və onun diasporları ilə əlaqələrin genişləndirilməsi, dünya ictimaiyyəti

[1] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, s. 47-50.

qarşısında uydurma «erməni soyqırımı» məsələsinin ifşası və başqa bu kimi məsələlər də müzakirə edilmişdi. DAK-ın I qurultayı ABŞ-ın Los Anceles, II qurultayı Vaşinqton (1998, 30-31 may), III qurultayı Almaniyanın Köln (1999, 2-3 oktyabr), IV qurultayı Fransanın Strasburq (2000, 21-22 oktyabr), V qurultayı İsveçin Malmö (2002, 10-12 avqust), VI qurultayı Niderland Krallığının Haaqa (2002, 11-13 oktyabr), VII qurultayı Almaniyanın Köln (2004, 22-29 fevral), VIII qurultayı İsveçin Stokholm (2005, 20-22 may), IX qurultayı yenə də Almaniyanın Köln (2007, 7-8 iyul) şəhərlərində keçirilmişdir.[1] Konqresin qurultaylarının ABŞ və Avropanın şəhərlərində keçirilməsində əsas məqsəd ayrı-ayrı ölkələrdə formalaşan diasporlar arasında əlaqələr qurmaq, həmçinin Dağlıq Qarabağ münaqişəsində Ermənistanın təcavüzkar mövqeyini dünya ictimaiyyətinə çatdırmaq olmuşdur.

Tədqiq etdiyimiz dövrdə Azərbaycan diaspor təşkilatları tərəfindən yeni kütləvi informasiya vasitələri (KİV) təsis edilmiş, eyni zamanda ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-lərdə Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində bir çox tədbirlər həyata keçirilmişdir. 1991-2011-ci illər ərzində hər il Amerika Azərbaycanlıları Şəbəkəsinin təşəbbüsü ilə ABŞ-ın KİV-lərində Azərbaycana həsr olunmuş 70-dən çox məqalə dərc edilmişdir.[2]

Azərbaycanlılar bəzi xalqlar kimi Amerikada təzyiqlərə məruz qalmırlar. 2001-ci il 11 sentyabr hadisələri zamanı azərbaycanlıların amerikalılara bacardıqları şəkildə dəstək olmaları diasporumuzun mövqeyini gücləndirmişdi. Amerika ictimaiyyətinin tanınmış nümayəndələri, rəsmi dairələri və siyasiləşmiş lobbi institutlarının Azərbaycan diasporunu dəstəkləməsi azərbaycanlıların öz mübarizələrində haqlı olduqlarını sübut edirdi. Araşdırma apardığımız illərdə okeanın o tayında Azərbaycan

[1] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. s. 47-50.

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər). http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.



diasporunun fəallaşması və Amerika hökuməti tərəfindən dəstəklənməsi açıq-aşkar hiss olunurdu. Bu da çox güman ki, aşağıdakı səbəblərlə bağlı idi:

- Azərbaycana Ağ evin geosiyasi və geostrateji maraqlarının artması;
- Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi və zəngin təbii resurslara malik olması;
- Azərbaycanın həyata keçirdiyi qlobal layihələrdə Amerika kapitalının üstünlük təşkil etməsi.[1]

Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporu barədə məlumatlar onun 1999 və 2002-ci illər üzrə statistik göstəricilərində kifayət qədər öz əksini tapmışdır. 1999-cu ilin göstəricilərinə görə, Amerikada yaşayan azərbaycanlıların 91%-ni Azərbaycanın cənubundan, 9%-ni isə şimalından olanlar təşkil etmiş, siyasi mənsubiyyətinə görə 55%-i demokrat, 40%-i isə respublikaçılar idi.[2]

Tədqiqat apardığımız dövrdə amerikalı soydaşlarımızın çox hissəsi Cənubi Azərbaycan əsillilər idi. 2002-ci il statistikasının göstəriciləri isə Azərbaycan diasporunun şimal qanadının getdikcə artdığını sübut edir: həmin statistikaya görə, ABŞ-dakı azərbaycanlıların 60%-i Azərbaycanın cənubundan, 35%-i şimalından, 5%-i Türkiyədən olanlar idi.[3]

ABŞ-ın Nyu-Cersi ştatında 1957-ci ildə yaradılan «Azərbaycan-Amerika Cəmiyyəti» bu gün də müstəqil Azərbaycan Respublikasının milli dövlətçiliyini, tarixini, mədəniyyətini layiqincə tanıdır və təbliğ edirdi. Lakin qeyd etmək lazımdır ki, ABŞ-a gələn ilk azərbaycanlı 1912-ci ildə Mirzə Əli Əkbər olmuşdur. O, 1912-ci ilin 7 iyun tarixində Böyük Britaniyanın Liverpul dəniz limanından «Mauretania» gəmisi ilə Ellis adasına gəlmişdir.[4] Yəqin ki, o dövr üçün diaspor məsələsi bizim gün-

[1] Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporu // Azərbaycan Diasporu: tarix və nəzəriyyə. I buraxılış, Bakı: 2005, s. 44-54.

[2] http://blogs.voanews.com/azerbaijani/azerbaijanidiaspora/tag/amerikaaz%C9%99rbaycan-c%C9%99miyy%C9%99ti/

[3] https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_diasporu

[4] https://az.wikipedia.org/wiki/AB%C5%9E_az%C9%99rbaycanl%C4%B1lar

dəmimizdə olmadığı üçün bu fəaliyyət bir qədər sonra həyata keçirilmişdir.

XXI əsrin ilk onilliyində birinci nəsil amerikalı azərbaycanlılardan və «Azərbaycan-Amerika Cəmiyyəti»nin yaradıcılarından biri olmuş Nağı bəy Şeyxzamanlının nəvəsi Tomris Azərinin rəhbərliyi ilə cəmiyyət fəaliyyət göstərir. Onlar yarım əsrdən çoxdur. Azərbaycanın haqq səsini Amerika ictimaiyyətinə çatdırır. Müasir dövrün meyllərinə uyğun yeni təşkilatlar yaradılır. Bunlar sırasında, yaşadığımız əsrdə internetin və sosial şəbəkələrin aktuallaşdığını nəzərə alsaq, ABŞ Azərbaycanlılar Şəbəkəsinin (USAN – U.S. Azeris Network) fəaliyyətini yüksək dəyərləndirə bilərik. Çünki, cəmiyyətlə bərabər dəyişməyə və inkişaf etməyə məhkumuq desək yanılmarıq.

Düşünürük ki, Amerikada Azərbaycan diaspor fəaliyyətinin genişləndirilməsi ilə bağlı aşağıdakı işlərin görülməsi məqsədəmüvafiqdir:

- **İdeoloji sahədə ciddi işin aparılması, bu istiqamətdə ilk növbədə cənub və şimal qanadı arasında tədbirlərin görülməsi. Hər iki qanad arasında sosial-mədəni əlaqələrin gücləndirilməsinə xüsusi fikir verilməsi.**
- **Amerikada yaşayan azərbaycanlılar barədə ətraflı və dolğun informasiya bazasının formalaşdırılması. Azərbaycan diaspor təşkilatlarına cəmiyyətdə nüfuzu olan şəxslər cəlb edilməsi. Həmin şəxslərin potensialından yararlanaraq bütün azərbaycanlılarla əlaqələr yaradılması, onlar arasında görüşlər təşkil edilməsi, düzgün informasiya şəbəkəsinin qurulması və mövcud problemlər təhlil edilərək onların həlli üçün mexanizmin qurulması.**
- **Türk xalqlarının diasporları ilə rabitənin gücləndirilməsi və vahid strategiyanın müəyyənləşdirilməsi. Bu diasporların sosial-mədəni, iqtisadi-siyasi imkanlarının birləşdirilməsi və birgə lobbi mexanizminin yaradılması.**
- **Yəhudi, ərəb, fars və tarixi əlaqələrimiz olan digər xalqların icmaları ilə münasibətlərin inkişaf etdirilməsi.**
- **Yerli əhali ilə sıx yaxınlığın qurulması, onlarda Azərbaycana qarşı marağın oyadılması. Buradakı ingilis, rus, fransız və başqa millətlərin diasporları ilə əməkdaşlıq edilməsi.**

%C4%B1



XX əsrin əvvəllərinə xaricə mühacirət edən azərbaycanlıların pasportunda «rus təbəəsi» yazılması onların milliyyətinin də «rus» kimi təqdim edilməsi ilə nəticələnmişdi. O dövrlərdə qonşu Rusiyaya köçən azərbaycanlılar «tatar», Türkiyədə məskunlaşanlar isə «Azərbaycan türkü» kimi tanınır və qeydə alınırdı. Müasir İran ərazisində yaşayan azərbaycanlılar isə «İran təbəəsi» adlandırılmışdır.[1]

Milli ideologiyanın olmaması belə absurd və arzuolunmaz vəziyyəti yaratmış və xarici ölkələrdə yaşayan azərbaycanlıların rus, tatar və fars diasporlarının tərkib hissəsi kimi qəbul edilməsinə səbəb olmuş, nəticədə azərbaycanlılar başqa xalqların diasporları içərisində assimilyasiya olunmaq təhlükəsi ilə üzləşmişdilər. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini saxlamağı bacarmışlar. Bir faktı qeyd etmək kifayət edər ki, dövlət müstəqilliyimizi bəyan etdiyimiz zaman (1991, oktyabr) dünyanın ayrı-ayrı ölkələrində 150-dən çox Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərirdi.

Elmi-texniki imkanların genişləndiyi, informasiya axınının sürətləndiyi və dominanta çevrildiyi bir vaxtda soydaşlarımızın kompakt yaşadığı ölkələrdə yeni dövrün çağırışlara çavab verən təsisatlar yaratmaq və kütləvi informasiya vasitələrinin imkanlarından maksimum dərəcədə istifadə etmək lazımi məsələlərdən biri olmuşdur. Beynəlxalq səviyyəyə keçmək, tarixi əlaqələrimiz olan xalqların diasporları ilə əməkdaşlıq etmək və birgə fəaliyyət haqqında razılığa gəlmək vacibdir. Lobbi institutları

[1] http://www.azerbaijan.az/_Sosiety/_Diaspora/diaspora_03_a.html

təsis edilməli, proqramlar hazırlanmalı və icra mexanizmi yaradılmalıdır. Diaspor sahəsində lider məktəbləri aşılmalı, bu təşkilatlara rəhbərlik etmək istəyində olan şəxslərin hazırlanması, onlarda təşkilatçılıq qabiliyyətinin və siyasi mədəniyyətin yüksəldilməsi məqsədilə treninqlər təşkil edilməlidir. Akademik dairələr, habelə qeyri-hökumət təşkilatları bu işə cəlb olunmalıdır. Xarici ölkələrin dərslik və dərs vəsaitlərində Azərbaycanla bağlı materiallar yerləşdirilməlidir. Azərbaycanlı alimlərin iştirakı ilə elm-təhsil müəssisələrində Azərbaycan günləri keçirilməli, mühazirə və seminarlar təşkil olunmalıdır. Azərbaycanlıların müəllif olduğu kitablar tərcümə edilərək kitabxanalara paylanılmalı və universitetlərdə müvafiq sərgilər təşkil edilməlidir. Muzeylərdə ölkəmizin tarixini, mədəniyyətini əks etdirən milli eksponatlardan ibarət guşələr yaradılması istiqamətində addımlar atılmalıdır. Azərbaycanlıların elm və təhsil ocaqlarında, radio və televiziyada işləmələrinə, seçkili orqanlarda iştirakına dəstək verilməlidir. Bütün bunlar milliliyi qorumaqla bəşəri inkişafa töhfə vermək məqsədi daşımalıdır, çünki, əsl vətəndaşlıq milli təəssübkeşliklə bəşəri ruhun birləşməsindən yaranır.

Azərbaycan diasporunun yeniləşməsinin mühüm mərhələlərindən biri də əvvəl qeyd etdiyimiz kimi, ötən əsrin sonlarında İranda baş verən ictimai-siyasi proseslərlə əlaqədar idi. Bu ölkədən on minlərlə azərbaycanlının müxtəlif vaxtlarda Qərb ölkələrinə mühacirəti olmuşdu. SSRİ-nin süqutundan sonra Avropa ölkələrində azərbaycanlıların yeni nəsillərinin məskunlaşması diasporun təşəkkülünün son mərhələsi kimi qiymətləndirilə bilərdi. Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarına uyğun olaraq «Xaricdə yaşayan azərbaycanlılar» anlayışı Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş, lakin hazırda xarici ölkələrdə məskunlaşan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edənlərə aid edilir. Araşdırma apardığımız illərdə azərbaycanlıların 10 milyondan çoxu öz tarixi vətənindən kənarda məskunlaşmışdı. Onların sosial, mədəni, iqtisadi və siyasi fəaliyyətləri yaşadıqları ölkələrin şəraitinə uyğun olaraq müxtəlif idi.



Azərbaycanlıların ilk köç etdiyi və böyük bir arealda məskunlaşdığı, diasporun sayına görə birinci yerdə olan qitə Asiyadır. İraq, Əfqanıstan, Hindistan, Pakistan, Banqladeş, İordaniya və Mərkəzi Asiya respublikalarında yüz minlərlə, Çin, İndoneziya, Yəmən Ərəb Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Səudiyyə Ərəbistanı və Suriyada on minlərlə azərbaycanlı yaşamaqdadır.

Azərbaycanlıların ictimai mənşəyinə görə rəngarəng kateqoriyaya malik, yayılma coğrafiyası geniş olduğu və diasporunun sayının çoxluq təşkil etdiyi ikinci qitə Avropadır. Statistik göstəricilərə əsasən, azərbaycanlıların sayı Türkiyə və Rusiyada milyonlarla, Ukrayna, Belarus, Almaniya, Böyük Britaniyada yüz minlərlə, Macarıstan, Norveç, Danimarka, İsveç, Fransa və İtaliyada on minlərlə, Polşa, İspaniya, Avstriya, Albaniya, Finlandiya və Portuqaliyada on min nəfərdən çox göstərilirdi. Digər Qərb ölkələrində məskunlaşmış azərbaycanlıların sayı müvafiq olaraq 2-10 min nəfər arasındadır. Belçika, İsveçrə, Hollandiya, Danimarka və Almaniyada yaşayan soydaşlarımızın əksəriyyəti Türkiyədən köçmüş azərbaycanlılardır. Rusiya, Ukrayna, Belarus, Moldova, Estoniya, Polşa, Çexiya, Slovakiya, Avstriya, Fransa və Böyük Britaniyadakı soydaşlarımız isə İrandan və Azərbaycan Respublikasından köçənlərdir. İranda (Cənubi Azərbaycan) – öz tarixi torpaqlarında 30 milyona yaxın azərbaycanlı yaşayırdı.

İntellektual imkanları və zəka potensialı ilə seçilən azərbaycanlıların kompakt halda yaşadığı üçüncü qitə Amerikadır. Azərbaycanlılar Amerika qitəsinin mərkəz, cənub və şimal hissəsində daha çox məskunlaşmışdılar. Azərbaycanlıların Amerika qitəsində sayı ABŞ-da 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə

27 minə çatır. Amerika qitəsinin digər ölkələrində də soydaşlarımız yaşayır. Burada məskunlaşan azərbaycanlıların əksəriyyəti müxtəlif vaxtlarda İrandan miqrasiya etmişlər. Azərbaycanlıların 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan bu qitəyə axını Azərbaycan diasporunun demoqrafiq vəziyyətinə, sosial tərkibinə və fəaliyyətinin genişlənməsinə öz təsirini göstərmişdir.

İş qurmaq və biznes fəaliyyətini genişləndirmək üçün azərbaycanlıların məskunlaşdığı dördüncü qitə Afrikadır. Misir və Əlcəzairdə 100 min nəfərdən çox, Sudanda 17 min nəfər azərbaycanlı yaşayır. Son zamanlar aparılan araşdırmalar nəticəsində Cənubi Afrika Respublikası və Zairdə də azərbaycanlıların məskunlaşdığı müəyyən edilmişdi.

Azərbaycanlıların bir qismi təhsillərini artırmaq məqsədilə və ya əcnəbilələrlə nikaha girərək özlərinə ikinci vətən seçdikləri beşinci qitə Avstraliyadır. Avstraliya və Yeni Zelandiyada təxminən 10 minə yaxın azərbaycanlının yaşadığı barədə məlumatlar vardır. Avstraliyada «Azərbaycanlılar Cəmiyyəti» (1996, Sidney) və «Avstraliya-Azərbaycan Cəmiyyəti» (2003, Sidney), Yeni Zelandiyada isə «Azərbaycan-Yeni Zelandiya Dostluq Cəmiyyəti» (2004, Oklend) fəaliyyət göstərir. Azərbaycanlıların əksəriyyəti İran və Türkiyədən köçmüş mühacirlərdir.[1]

Planetin digər ərazilərində yaşayan azərbaycanlıların təqribi statistikası belədir: Türkiyəyə (3 000 000 nəfər), Asiya qitəsinə (3 250 000 nəfər), Avropa qitəsinə (1 500 000 nəfər), Amerika qitəsinə (1 300 000 nəfər), Afrika qitəsinə (1 200 000 nəfər), Avstraliya qitəsinə və Okeaniyaya (10 000 nəfər) müxtəlif zamanlarda köç etmiş soydaşların sayı 10 milyondan artıqdır və bu rəqəm ekspertlərin rəyinə görə, Azərbaycan diasporunun ümumi sayı kimi qəbul edilə bilər.[2]

Öz suverenliyini əldə etdikdən sonra Azərbaycan Respublikasının qarşısında duran əsas məqsəd və vəzifələrdən biri də

[1] http://www.azerbaijans.com/content_1713_az.html
[2] Yenə orada.



xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkənin ümummilli maraqlarının müdafiəsi işinə cəlb edilməsi oldu. Azərbaycan Respublikasının rəhbərliyi dövlət səviyyəsində diaspor quruculuğuna start verdi. Bu diqqət və qayğı nəticəsində reallaşdırılan müvafiq siyasət müstəqil Azərbaycanı dünyada yaşayan azərbaycanlıların, özünü azərbaycanlı hesab edən hər bir kəsin doğma vətəninə çevirdi. İ.Əliyev bu məsələ ilə bağlı öz fikirini belə izah etmişdir: «Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər».

Müstəqil Azərbaycan dövləti dilimizin qorunub saxlanılmasına, dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin öz tarixi köklərinə mənəvi-psixoloji bağlılığının möhkəmləndirilməsinə də həssaslıqla yanaşmağa çalışır. Bu məqsədlə azərbaycanlıların kompakt halda yaşadığı ərazilərdə ana dilimizin tədris olunduğu məktəblər açılır, onlar dərs vəsaiti ilə təmin olunur. Təhsil ocaqları arasında xaricdə yaşayan soydaşlarımızın övladlarına Azərbaycan dili və mədəniyyətini, tarixi və ənənələrini tədris edən «Bazar günü məktəbləri» açılmışdı. Rusiyada Ümumrusiya Azərbaycanlıları Konqresi 10, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti (AzərRos) 8, Ukraynada yaşayan azərbaycanlılar tərəfindən müxtəlif böl-

[1] Əliyev İ. Dünya Azərbaycanlılarının II qurultayında nitq // Azərbaycan qəzeti, 2006, 17 mart, №58.

gələrdə 6 «Bazar günü məktəbi» açılmışdı. Belarus Azərbaycanlıları Konqresi də belə məktəblər təsis etmişdi. Bunlarla yanaşı, Qazaxıstanda 9, Özbəkistanda 2, Qırğızıstanda 1, o cümlədən Baltikyanı ölkələrdə də müvafiq məktəblərin yaradılmasına nail olunmuşdur. Ötən dövr ərzində Qazaxıstanın Almatı, Astana, Karaqanda, Petropavlovsk, Taldı-Kurqan, Qırğızıstanın Kant, İsveçin Stokholm, Höteborq, Almaniyanın Berlin, Essen, Moldovanın Kişinyov şəhərlərində yeni «Bazar günü məktəbləri» yaradılmışdır.[1]

Moskvada uzun illərdir ki, fəaliyyət göstərən «157 saylı etno-mədəni təmayüllü ümumtəhsil məktəbi» burada yaşayan həmvətənlərimizin ana dilində təhsil almasına imkan yaratmaqla xaricdəki soydaşlarımızın milli dəyərlərimizə bağlılığının artırılmasına xidmət edən gözəl nümunəyə çevrilmişdir. Bu yeni tipli, müasir məktəblərin açılması istiqamətində Azərbaycan icma və birlikləri fəal iş aparmışdı. Ümumrusiya Azərbaycanlıları Konqresi belə məktəblərin sayının artırılmasına nail olmağa çalışmışdı.

Dünyanın bir sıra mötəbər təhsil ocaqlarında Azərbaycan dilinin tədrisi istiqamətində də mühüm işlər həyata keçirilmişdir. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, Kiyev Milli Universitetində, Fransa Şərq Mədəniyyətləri və Dilləri İnstitutunda (İNALKO) və digər məşhur elm-təhsil mərkəzlərində Azərbaycan dilini tədris edən xüsusi bölmələr fəaliyyət göstərirdi.[2]

Araşdırmalarımız bir daha təsdiq edir ki, dünyanın müxtəlif ölkələrində azərbaycanlılardan ibarət mütəşəkkil diaspor təşkilatları formalaşmışdı. Hal-hazırda, Azərbaycan diasporu yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Belə ki, xaricdə Azərbaycanın mədəniyyət və ticarət evlərinin yaradılması, tariximizi əks etdirən eksponatların sərgisinin keçirilməsi, milli brend məhsullardan ibarət yarmarkaların təşkil edilməsi və bu kimi digər tədbirlərin reallaşdırılması mühüm əhəmiyyətə malik idi. Bunlarla bərabər, bu sahənin inkişafı üçün elmi potensialdan, kütləvi informasiya vasitələrinin və müasir texnologiyanın imkanlarından yetərincə yararlanmaq da vacib məsələlər kimi qarşıdakı perspektivlərdə nəzərə alınmalıdı. Ən başlıcası, xaricdə yaşayan hər bir azərbaycanlıda **«diaspor şüuru»**nun formalaşması üçün ciddi işlər aparılmalı, bununla onlar, mövcud olduqları cəmiyyətə inteqrasiya etməklə öz milli xüsusiyyətlərini, dilini qoruyub saxlayacaq və öz vətənini gündəlik həyatında təmsil edəcəkdir.

Qeyd edək ki, araşdırma apardığımız dövrdə diaspora akademik yanaşma mühüm əhəmiyyətə malik idi. Xarici ölkələrin informasiya vasitələrində ölkəmizlə bağlı məlumatların verilməsi və ya təhsil ocaqlarında azərbaycanlı mütəxəssislərin iştirakı ilə dərs saatlarının keçirilməsi effektiv metod hesab edilirdi. Nəzərə alınmalıdır ki, diaspor çox mürəkkəb təyinata malik olduğundan maraqlı qüvvələr ondan öz məqsədlərinə çatmaq üçün alət kimi istifadə edə bilərlər. Bunun baş verməməsinə görə də müvafiq işlərin aparılmasına ciddi ehtiyac var. Məhz, bu strategiya elə qurulmalıdır ki, diaspordan abstrakt məqsəd üçün yox, konkret vəzifə kimi istifadə edilsin. Azərbaycan diaspor fəaliyyətinin normal inkişafı üçün dövlət səviyyəsində azərbaycanlıların olduğu ölkələrin, həm etnik vətənlərinin, həm də beynəlxalq təşkilatların qayda-qanunlarına uyğun proqram işləyib hazırlanmalıdır. İndiki dövrdə lokal deyil, qlobal təşkilatlarda təmsil olunaraq qitələrarası birliklərin yaradılması da zəruri bir məsələyə çevrilmişdi. Azərbaycanlılarla yanaşı, başqa xalqların diaspor nümayəndələrini də bu işə cəlb etməyin böyük səmərə verə biləcəyi müşahidə olunmaqdadır. Xaricdə yaşayan azərbaycanlı ailələr diaspor fəaliyyətinə təşviq olunmalı, bu kontingentin ictimai mənşəyi, demoqrafik vəziyyəti, miqrasiya səbəbləri və əmək vərdişləri nəzərə alınaraq stimullaşdırıcı tədbirlər görülməlidir. İstənilən diaspor nümayəndəsinin sosial-ictimai mənşəyindən asılı olmayaraq, tarixi

---

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2004.

[2] Yenə orada.

vətəni, aidiyyəti üzrə dövlət qurumları ilə asan əlaqə qurmaq imkanının yaradılmasına çalışılmalıdır.

Bu sahədə aparılan işi daha da gücləndirmək üçün aşağıdakı amillərin nəzərə alınmasını da məsləhət bilirik:

1) **diasporla iş sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi məqsədilə elmi potensialın yaradılması və təşkilatçılıq qabiliyyətinə malik şəxslərin hazırlanması;**
2) **azərbaycanlıların miqrasiyası ilə bağlı yeni qanunun qəbul edilməsi, ölkəmizdən həmişəlik köçən şəxslərlə görüşlərin keçirilməsi və onlara müvafiq tövsiyələrin verilməsi;**
3) **gündəlik qəzetlərin nəşr etdirilməsi, radio-televiziya verlişlərinin hazırlanması, elektron portalların yaradılması və digər kütləvi informasiya vasitələrinin sayının artırılması;**
4) **xaricdə yaşayan azərbaycanlıların, xüsusilə gənclərin və onların ətrafında olan şəxslərin Azərbaycana ekskursiyalarının təşkil edilməsi;**
5) **xaricə təhsil almaq üçün göndərilən gənclərlə fərdi və kollektiv söhbətlərin aparılması və onların təlimatlandırılması;**
6) **nikah məsələlərinin nəzərə alınması, qarışıq nikahlı ailələrin və onların övladlarının bu işə cəlb edilməsi.**

Bunlarla bərabər, xaricdə ölkəmizin siyasi və iqtisadi maraqlarını təmin etmək məqsədilə lobbiçilik fəaliyyətinin genişləndirilməsinə də diqqət yetirilməlidir. Bu xüsusda, lobbiçiliklə məşğul olan institutların yaradılması, milli qanunvericiliyin qəbul edilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi üçün mexanizmin yaradılması işinə səy göstərilməlidir. Azərbaycan diasporunun inkişafına dəstək olmaq və bu istiqamət üzrə fəaliyyət göstərən təşkilatların maddi-texniki bazasını gücləndirmək, respublikamızın tanınması və təbliği ilə bağlı həyata keçirilən yerli, regional və beynəlxalq layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirmək, bu sahədə seminar,



treninq, nəzəri-praktiki konfrans, simpoziumlar və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək yönündə diaspor fondunun təsis edilməsi istiqamətində iş aparılmalıdır. Yəhudi Milli Fondu Azərbaycan diasporu üçün bu və ya digər formada nümunə ola bilər. «Yəhudi Milli Fondu (Keren xa-Kayemet) 1901-ci ildə Fələstində torpaqların alınması üçün təşkil edilmişdir. Dövlətin əsası qoyulduğu zaman (1948) fond tərəfindən satın alınmış torpaqların ümumi sahəsi 24 000 akr (960000 ha) təşkil edirdi. Hal-hazırda Yəhudi Milli Fondu geriyə dönən yəhudi vətəndaşları üçün torpaqların əldə edilməsi və s. ilə məşğuldur».[1]

Göründüyü kimi, Azərbaycanda və ətraf ərazilərdə tarixin müxtəlif dövrlərində baş verən ciddi etno-demoqrafik dəyişikliklər Azərbaycan xalqının məskunlaşma prosesinə də öz təsirini göstərmiş, xalqımızın müxtəlif ölkələrdə milli icmaları təşəkkül tapmışdı. Bu baxımdan diasporun təşəkkül prosesini şərti olaraq altı mərhələyə bölmək mümkündür:

**I mərhələ** – Qədim və orta əsrlər;

**II mərhələ** – Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə başlayan və təqribən 1918-ci ilə qədərki dövr;

**III mərhələ** – Sovet rejiminin bərqərar olduğu və siyasi mühacirətin genişləndiyi 1920-1930-cu illər;

**IV mərhələ** – İkinci dünya müharibəsi nəticəsində əsir düşmüş azərbaycanlıların həmin yerlərdə məskunlaşması;

**V mərhələ** – 1945-1991-ci illərdə azərbaycanlıların inzibati-amirlik, sosial-iqtisadi amillərin təsiri altında Sovet respublikalarına köçməsi;

**VI mərhələ** – Müstəqillik dövründə azərbaycanlıların ictimai-siyasi, sosial-iqtisadi səbəblərdən xarici ölkələrə üz tutması.

Beləliklə, xarici ölkələrdə Azərbaycan icmalarının yaranması uzun tarixi proses olsa da, birliklərin, təşkilatların, cəmiyyətlərin, konqreslərin mütəşəkkil qaydada fəaliyyət göstərməsi,

[1] Əlisoy N. Yəhudi xalqı və yəhudi lobbisi // «Qanun» jurnalı, 1998, №5, s. 54-55.

onların potensialının artması və real qüvvəyə çevrilməsi yalnız Azərbaycan Respublikası dövlət müstəqilliyin bərpa etdikdən sonra mümkün olmuşdu.

Bu gün Azərbaycan Respublikasının beynəlxalq aləmdə layiqli yer tutmasında diasporun da öz çəkisi vardır. Diaspor milli dövlətçilik üçün olduqca həyati vacib əhəmiyyət kəsb etdiyindən hər bir azərbaycanlıda milli mənlik düşüncəsinin, diaspor şüurunun formalaşmasına xüsusi diqqət yetirilməlidir.

Məlum olduğu kimi, XXI yüzillikdə qloballaşma hər bir sahədə özünü açıq-aşkar göstərməkdədir. Ona görə də diaspor işinə daha da ciddi fikir verilməli və bu potensialdan Azərbaycanın inkişafında, sivil dünyaya inteqrasiyasında, onun haqq səsinin cəmiyyətə doğru-düzgün çatdırılmasında maksimum şəkildə istifadə olunması mühüm bir məsələ kimi qarşıda durur. Xarici ölkələrdə poloetnik (çoxmillətli) Azərbaycan icmalarının yaranması və onların stratifikasiyasının (təbəqələşmə) səciyyəvi xüsusiyyət kimi araşdırılması və müəyyən edilməsi zəruridir. Bu kimi incəliklərin diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində, xarici ölkələrdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi təşkilatların fəaliyyətində nəzərə alınması bir tərəfdən Azərbaycan diasporunun mütəşəkkilliyinin güclənməsinə, digər tərəfdən isə dünyada mövqeyinin möhkəmlənməsinə əsaslı motiv yaradır.



### 1.3. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi: diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi

SSRİ-də aparılan yenidənqurma siyasəti 70 il imperialist rejimin məngənəsində sıxılmış və dünyadan təcrid olunmuş xalqlarda milli oyanışa səbəb oldu. Nəticədə, bu illər ərzində özünü sovet vətəndaşı psixologiyası ilə məcburi kökləyən insanlar öz milli kimliklərinə sahib çıxmaq və öz milli köklərindən olan soydaşları ilə əlaqələr yaratmaq imkanı əldə etdilər. «Sovetlər ailəsi»nin bir üzvü kimi biz də əsarətdən istiqlal və hürriyyətə yiyələnərək xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmağa başladıq.

Dünya azərbaycanlılarının özünüdərk və özünüifadə prosesində ən əlamətdar hadisələrdən biri Türkiyədə «Azərbaycan Kültür və Dayanışma Dərnəyi»nin təşkilatçılığı ilə 1990-cı il noyabrın 3-dən 6-dək İstanbul şəhərində Birinci Millətlərarası Azərbaycan Türk Dərnəkləri qurultayının keçirilməsi oldu. Dünyanın müxtəlif ölkələrdən olan nümayəndələrin iştirakı ilə keçirilən qurultay yüksək səviyyədə baş tutdu. Qurultayın gördüyü mühüm işlərdən biri də Azərbaycanda baş verən hadisələri obyektiv və operativ surətdə dünya ictimaiyyətinə çatdırılması oldu. Azərbaycanlılar arasında əlaqələrin güclənməsi məqsədilə «Dünya Azərbaycan-Türk Dərnəkləri Birliyi»nin Nizamnaməsi təsdiq edildi. Qurultayın qəbul etdiyi qərarlar sırasına Bakıda «Həmvətənlərimiz» adlanan muzeyin yaradılması, informasiya işinin gücləndirilməsi, Azərbaycan təşkilatlarının bir mərkəz ətrafında birləşdirilməsi, konqresin işçi qrupunun yaradılması və s. daxil idi. Həmçinin, Dağlıq Qarabağ məsələsində lobbiçilik etmək, beynəlxalq təşkilatlara mütəmadi müraciətlər ünvanlamaq da qəbul edilən qərarlar sırasında yer aldı.

Sovetlər Birliyinin çökdüyü ərəfədə hər bir sahədə olduğu kimi, xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsi, mənəvi bağların möhkəmləndirilməsi və onların hüquqlarının

təmin etməsi məqsədilə bir sıra əməli addımlar atılmışdır.

1991-ci ilin yanvar ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti «Ayrı-ayrı respublikalarda yaşayan azərbaycanlılarla əlaqələri möhkəmləndirmək, milli mədəniyyətin, doğma dilin və ənənələrin inkişafında onlara kömək göstərmək tədbirləri haqqında» qərar qəbul etmişdir.

1991-ci ilin iyun ayında isə Zuğulbada (Bakı) keçmiş SSRİ-nin müxtəlif şəhərlərində fəaliyyət göstərən Azərbaycan milli mədəniyyət mərkəzləri və cəmiyyətləri nümayəndələrinin konfransı keçirilmişdir.

1992-ci ildə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla əlaqələr davam etdirilmişdir. Belə ki, həmin ilin aprel ayında Bakıda xaricdəki Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətlərinin əlaqələndirilməsi mərkəzi yaradılmış, avqustunda isə Bakı konfransı baş tutmuşdur. Yeni yaradılmış «Yurddaş» Cəmiyyəti bu işdə xüsusi fəallıq göstərmişdir.[1]

Xüsusilə, 1993-cü ildə H.Əliyevin Azərbaycan Respublikasında siyasi hakimiyyətə qayıdışından sonra dünya azərbaycanlılarına diqqət və qayğı artırılmış, xarici siyasətdə diaspor fəaliyyətindən istifadənin səmərəsi özünü büruzə verməyə başlamışdı. Bu sahədə vahid dövlət siyasətinin prioritet istiqamətləri müəyyənləşdirilmiş, diaspor quruculuğu işi planetin mövcud siyasi mənzərəsinə uyğun, ardıcıl və sistemli şəkildə həyata keçirilmişdir. Hələ, H.Əliyev Azərbaycan Respublikası Naxçıvan MR-nın Ali Məclisinə sədrlik etdiyi illərdə (1991-1993) xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və diaspor potensialının yaradılması istiqamətində konkret işlər görmüşdür. Doğma vətəndən kənarda yaşayan soydaşlarımızın aqibəti daim H.Əliyevi düşündürmüş, o, azərbaycanlıların birliyinin təmin edilməsində, təşkilatlanmasında, milli təməllər üzərində bir qüvvə kimi formalaşmasında mükəmməl diaspor qurumlarının yaradılmasını taleyüklü bir məsələ kimi ön planda saxlamışdır. Diaspor fəaliyyətinin Azərbaycan xalqı üçün

[1] Arzumanlı V. Azərbaycan diasporu.; http://anl.az/el/a/az_unv.pdf



strateji mahiyyət kəsb etdiyini yaxşı bilən H.Əliyev deyirdi: «Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin bölgələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətini itirməsinlər».[1] Onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da «31 dekabr» tarixinin Dünya azərbaycanlılarının həmrəylik və milli birlik günü kimi qeyd olunması haqqında Naxçıvan MR Ali Məclisində qərar qəbul edilmişdi. Qərarın II bəndində nəzərə alınmışdır ki, «31 dekabrın – Dünya azərbaycanlılarının birlik və həmrəylik günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif verilsin».[2]

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının birliyinin yaranmasında bu dövrdə iki ən başlıca amil mühüm rol oynamışdı. Bunlardan birincisi, «milli həmrəylik günü»nün təsis olunması, ikincisi isə «azərbaycançılıq» məfkurəsinin yaradılması idi. Yaşadığı yerindən, şəraitindən asılı olmayaraq hər bir azərbaycanlı tərəfindən «31 dekabr» ana vətən günü – milli mənlik günü kimi qeyd olunmağa başlanıldı. Adət-ənənəyə bağlı olan azərbaycanlı psixologiyası üçün bu həm nəsildən-nəslə ötürüləcək bir milli dəyər günü, həm də birliyin, həmrəyliyin təntənəsi günü oldu. Dünyanın müxtəlif xalqlarına qoşulub Yeni ili qarşılayan hər bir azərbaycanlı, həmin ildən öz soydaşını milli bütövlüyü və milli həmfikirliyi özündə təzahür etdirən bu gün münasibətilə də təbrik edir. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasında və birliyinin yaradılmasında çox mühüm rol oynayırdı. Dünya azərbaycanlılarının həmrəylik gününün qeyd edilməsi indi yer

[1] Azərbaycan diasporu: böyük yolun başlanğıcı //tərtib edən N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, s. 46.

[2] 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı. Naxçıvan şəhəri, 16 dekabr 1991-ci il.; Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: Qismət, 2002, 310 s.

kürəsinin dörd bir tərəfində yaşayan soydaşlarımızın mənəvi ehtiyacına çevrilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xarici əlaqələr şöbəsinin müdiri N.Məmmədovun qənaətinə görə, Heydər Əliyevin xarici siyasət kursunda diaspor və lobbi quruculuğuna xüsusi diqqət göstərməsi onun yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətlərindən qaynaqlanır: «Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsi prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında mühüm yer tutmuşdur. O, özünəməxsus uzaqgörənlik və müdrikliklə xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasiri olduğumuz dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir. Ermənistanın həmin tarixi mərhələdə getdikcə genişlənən işğalçılıq siyasətini, erməni lobbisinin beynəlxalq ictimaiyyəti riyakarlıqla çaşdırmaq cəhdlərini ciddiliklə nəzərə alan ulu öndərimiz xarici ölkələrdə Azərbaycan diasporu və lobbisinin formalaşdırılması məsələsini mühüm



dövlət siyasəti səviyyəsinə qaldırmışdır».[1]

H.Əliyev tərəfindən irəli sürülən «azərbaycançılıq» ideologiyasına gəldikdə isə, bu müstəvidə azərbaycançılıq dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinə xidmət etməklə Vətənimizin dünəni, bu günü, sabahı üçün, milli və strateji inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycançılıq Azərbaycan dövlətinin ana xətlərindən birinə çevrilərək müstəqil dövlətçiliyin qorunmasına və ölkəmizin dünya birliyinə inteqrasiyasına xidmət edirdi. H.Əliyevin özü azərbaycançılıq məfkurəsini belə səciyyələndirirdi: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».[2]

H.Əliyev mahir strateq kimi iyirminci əsr ziyalılarının əsərlərində milli ideya kimi gündəmə gətirilən türkçülüyü daha da zənginləşdirmək yolunu tutaraq, azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə saldı. Nəticədə, azərbaycançılıq dünya azərbaycanlılarının milli məfkurəsinə, milli həmrəylik və milli birlik təliminə çevrildi.

H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra diaspor işini prioritet hesab edərək bütün xarici səfərləri zamanı Azərbaycan icmasının nümayəndələri ilə görüşmüş və onlara bu sahədə təşkilatlanmaqla bağlı tövsiyələrini vermişdi. H.Əliyev həmin görüşlərdən birində bu sahəni dərindən təhlil edərək belə vurğulamışdır: «Biz Azərbaycanı bütün dünyaya tanıtmalıyıq. ...Mən o vaxt, hələ Sovetlər İttifaqının tərkibində olan Azərbaycana rəhbərlik edəndə də Azərbaycanı dünyaya tanıtmağa çalışmışdım. İndi də çalışmaq lazımdır. Siz də çalışmalısınız, biz də çalışmalıyıq. Əminəm ki,

[1] Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli // Xalq qəzeti, 2010, 9 may, №100.

[2] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 1993-2003-cü illər.

Azərbaycanın gözəl, xoşbəxt gələcəyi var. Ona da əminəm ki, Azərbaycanın sərhədlərindən kənarda yaşayan soydaşlarımız da öz səviyyələrini yüksəldərək, təhsillərini artıracaq, yaşadıqları ölkələrdə biznesdə, başqa sahələrdə yaxşı yer tutacaq və Azərbaycana layiq olacaqlar».[1]

Bu xüsusda, Ə.Həsənov Ermənistanın xarici siyasətində diaspor fəaliyyətinin əhəmiyyətli rol oynadığını və bunu nəzərə alınmalı olduğunu belə ifadə edir: «Öz addımını yüz dəfə ölçüb-biçib atan, güclü erməni diasporuna malik bu ölkəni müvafiq qərara gəlməyə sövq etmək üçün Heydər Əliyev diplomatiyasına, Azərbaycanın hərtərəfli düşünülmüş, uzaqgörən siyasətinə ciddi ehtiyac duyulduğu bir daha qabarıq şəkildə sübut olundu».[2]

1994-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunda dünya ölkələrində Azərbaycan diasporunun müasir problemlərini, fəaliyyət tarixini dərindən və hərtərəfli tədqiq etmək məqsədi ilə «Azərbaycan diasporu şöbəsi» və 1997-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi məsələlər şöbəsi nəzdində «Xaricdə yaşayan soydaşlarla və beynəlxalq təşkilatlarla iş» sektoru (hal-hazırda Xaricdə yaşayan azərbaycanlılarla iş sektoru) yaradılmışdır. 1999-cu ilin mart ayının 9-da AMEA-da Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı «Xaricdə yaşayan soydaşlarımızın problemləri və milli özünüdərk prosesi» mövzusunda seminar keçirmişdir. 2000-ci ilin oktyabr ayının 25-də AMEA Rəyasət Heyəti «Azərbaycan diasporuna kömək haqqında» xüsusi qərar qəbul etmişdir.[3] Bütün sadalanan tədbirlər və görülən əməli işlər bu sahəyə dövlət səviyyəsində göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bu sahədə atılan ən mühüm addımlardan biri isə 2001-ci il

[1] Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ //tərtibçi N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, 171 s.

[2] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. s. 236.

[3] Arzumanlı V. Azərbaycan diasporu.



noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının birinci qurultayının keçirilməsi idi. Bu milli dövlətçilik və etnik azərbaycançılıq prinsiplərini müəyyən etməklə təşkilatçılıq məsələlərinin güclənməsinə və diasporun inkişafına təkan verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanı – Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. «Elə həmin il Komitənin təşəbbüsü ilə həmvətənlərimizin təşkilatlanması, icma və birliklər arasında əlaqələrin yaradılması sahəsində vahid konsepsiyanın işlənməsi, diaspor qurumlarının fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı məsələləri müzakirə etmək məqsədilə Dünya azərbaycanlılarının I qurultayına həsr edilmiş «Azərbaycan diasporu: reallıqlar və perspektivlər» mövzusunda konfrans keçirilmişdir».[1] (Bu qarşıdakı illərdə ənənə halını almışdır. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Dövlət Komitəsinin adı dəyişdirilərək Diasporla İş üzrə Dövlət Komitəsi adlandırılmışdır.[2]) 2002-ci il dekabrın 27-də isə «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» qanun qəbul edilmişdir.[3] Görülən məqsədyönlü işlərin əyani təzahürüdür ki, araşdırmalar apardığımız illərdə dünyanın əksər ölkələ-

[1] Azərbaycan diasporu: böyük yolun başlanğıcı /tərtib edən N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, s. 44.

[2] http://azerbaijan.az/portal/StatePower/Committee/committeeConcern_06_a.html; Azərbaycan diasporuna dövlət qayğısı /burax. məsul, ön söz N.İbrahimov; tərtibçilər: N.Qurbanov, E.Miraləm/. Bakı: Adiloğlu, 2009, 284 s.

[3] Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 dekabr 2002-ci il, №413-IIQ.

rində fəaliyyət göstərən diaspor təşkilatları ilə qarşılıqlı əlaqələr yaradılmış, həmvətənlərimizin məskunlaşdıqları dövlətlərdə iş aparan təşkilatların rəhbərləri ilə faydalı görüşlər keçirilmiş, bir sıra konkret problemlər müzakirə edilmiş, gələcək fəaliyyətin istiqamətləri müəyyənləşdirilmişdir.

Azərbaycan diasporunu koordinasiya edən, mütəşəkkil qaydada əlaqələndirən vahid mərkəz, milli həmrəyliyin və birliyin təminatçısı və dünya azərbaycanlılarının hüquqi ünvanın müstəqil Azərbaycan Respublikasının olduğu şəksiz idi. Bunu Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin 2004-cü ilin yekunlarına dair hesabatında göstərilən faktlar da sübut edir: «Hazırda dünyanın əksər ölkəsində 300-ə yaxın azərbaycanlı icma və birlikləri fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir. Hələ Dövlət Komitəsi yaradılmamışdan əvvəl formalaşmış və ayrı-ayrılıqda fəaliyyət göstərən çoxsaylı cəmiyyət və birliklər tarixi Vətən naminə bir araya gələrək Azərbaycan federal birlikləri yaratmağa başladılar».[1]

Məhz düşünülmüş və gələcəyə hesablanmış diaspor siyasətinin nəticəsi idi ki, tədqiq edilən dövrdə dünya azərbaycanlılarının konsolidasiyası, müştərək hərəkət etməsi, vahid ideya və maraqlar uğrunda mübarizə aparan qüvvəyə çevrilməsi və ümumi məqsəd naminə birləşməsi istiqamətində dövlət siyasəti uğurla davam etdirilərək yeni müstəviyə qədəm qoymuşdur. Dövlət Komitəsi yaradıldıqdan sonra dünyanın bir sıra ölkələrində yeni icmalar yaranmış və onların birliyinə nail olunmuşdur. 2003-cü ilin aprel ayında Almaniya Federativ Respublikasının Mayns şəhərində Dünya Azərbaycanlıları diaspor təşkilatları rəhbərlərinin I Forumu çağırıldı. Belə ki, 29 ölkədən 170 nümayəndənin qatıldığı forumda Azərbaycanla bağlı əhatəli fikir mübadiləsi aparılmış, bir ölkə daxilində ayrı-ayrılıqda fəaliyyət göstərən Azərbaycan icma və təşkilatlarının ümumvətən mənafeyi naminə vahid federasiyada, konqresdə, bir mərkəzdə birləşməsi təqdirəlayiq hesab edilmişdir. Forumda səslənmiş əsas təkliflərdən biri Avropa məkanında fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin vahid bir təşkilatda birləşdirilməsi ilə bağlı idi. Bunun da nəticəsi olaraq forum çərçivəsində MDB məkanındakı diaspor təşkilatı rəhbərlərinin təşəbbüsü ilə bu regionda məskunlaşmış həmvətənlərimizin ölkəmizlə əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət edən «MDB Ölkələri ilə Azərbaycan İctimai Birliklərinin Əlaqələndirmə Şurası» yaradıldı və beləliklə, bu yöndə ilk addım atılmış oldu.[1]

Tarixən müxtəlif səbəblər üzündən azərbaycanlıların könüllü və ya məcburi miqrasiya etdiyi və məskunlaşdığı məkanlardan biri də Mərkəzi Asiya ölkələridir. 1991-2011-ci illərə nəzər salsaq görərik ki, bu coğrafiyada təşkilatlanma prosesi sürətlə getmiş, bir çox diaspor təşkilatları yaranmış və təkmilləşmə davam etdirilmişdir. Rəsmi məlumatlara görə, Qazaxıstanda təqribən 106 min azərbaycanlı yaşayır. Onlar, əsasən Cambul, Çimkənd, Taldı-Kurqan, Almatı vilayətlərində yerləşmişlər. «Turan» Azərbaycan Mədəniyyəti Cəmiyyətinin (1993) təşəbbüsü ilə Almatıda «Ozan» Mədəniyyət Cəmiyyəti, digər vilayətlərdə (Cambul, Taldı-Kurqan, Kustanay, Petropavlovsk) diaspor təşkilatları yaradılmışdır. 1992-ci ildən Qazaxıstan dövlət radiosunda Azərbaycan dilində «Dostluq» proqramı, 2002-ci ildən azərbaycanlıların «Bazar günü məktəbi» fəaliyyət göstərir. «Turan» Qazaxıstan ərazisində fəaliyyət göstərən 17 Azərbaycan cəmiyyəti («Qobustan» – Almatı, «Dostluq» – Aktyubinsk vilayəti, «Novruz» – Atırausk vilayəti, «Azəri» – Cambul vilayəti, «Vətən» və «Azərbaycan» – Pavlodar vilayəti və s.) ilə birlikdə öz işini qurmuşdur.

Qırğızıstan Respublikasında yaşayan azərbaycanlıların «Azəri» ictimai təşkilatı 1992-ci ildə yaradılmışdır. Ölkədə təqribən 20 min azərbaycanlı yaşayır. Onların böyük əksəriyyəti XX əsrin 30-cu illərindəki repressiyalar zamanı sürgün edilmiş Azər-

---

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2004.



[1] http://diaspora.gov.az/index.php?options=content&id=706

baycan vətəndaşları idi. «Azəri» cəmiyyəti yarandığı gündən qarşısına həmvətənlərin hüquqlarını qorumaq, Qırğızıstanın ictimai həyatında yaxından iştirak etmək, tarixi vətənlə mütəmadi əlaqələr saxlamaq məqsədini qoymuşdur. Qırğızıstan Milli Teleradio Şirkəti nəzdində «Azəri» şöbəsi, Bişkek şəhərində azərbaycanlı uşaqlar üçün «Bazar günü məktəbi» açılmış, «Ulduzlar» folklor özfəaliyyət ansamblı yaradılmışdır.

2003-cü ilin yanvarında Özbəkistan Respublikasında «Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası» təsis edilmişdi. Araşdırma apardığımız illərdə fəaliyyət göstərən assosiasiyanın nəzdində «Azəri» qızlar rəqs ansamblı da vardır. Elə 2003-cü ildə ansambl bu ölkədə keçirilən «Dostluq və mədəniyyət festivalı»nın laureatı olmuşdur. O cümlədən, Daşkənd şəhərində «Qardaşlıq» Azərbaycan Mədəniyyəti Mərkəzi, «Azərbaycan Evi» kimi qurumlar da vardır. «Azərbaycan Evi»ndə ana dili və kompyuter üzrə siniflər, güləş zalı, kitabxana, Heydər Əliyev adına muzey, «Azərbaycan xalqına qarşı genosid» ekspozisiyası mövcuddur.[1]

2004-cü il aprelin 17-də Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində Avropa Azərbaycanlıları Konqresinin (AAK) təsis konfransı keçirilmişdir. AAK-ın yaradılması yalnız Avropa azərbaycanlılarının vahid təşkilatda birləşdirilməsini təsbit edən qərarların qəbulu ilə deyil, həm də Azərbaycan həqiqətlərinin, respublikamızın qarşılaşdığı problemlərlə bağlı reallıqların bütün Avropa ictimaiyyətinə çatdırılması ilə də yadda qaldı. Təsis konfransında AAK-ın nizamnaməsi qəbul edildi və qurumun rəhbər orqanları seçildi. AAK-ın başlıca məqsədi Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan icmalarının mütəşəkkilliyinə xidmət etmək idi. Bu regionda məskunlaşmış azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi-hüquqi maraqlarını təmin etmək AAK-ın əsas vəzifələrindən biri kimi təsbit edilmişdir. Bunları həyata keçirmək üçün AAK-ın dövri nəşrlərdə, elektron kütləvi informasiya

[1] http://www.azerbaijans.com/content_495_az.html



vasitələrində fəal təbliğat işi aparmasının vacibliyi qeyd edildi. Bundan başqa, AAK qarşısına Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi tədqiqat işlərini dəstəkləmək, tədqiqat institutları, kitabxanalar, arxivlər və fondlar təsis etmək vəzifələrini də qoydu. Xüsusi tapşırıqların icrasını təmin etmək məqsədilə AAK öz nəzdində mətbuat bölməsi və komitələr yaratmaq səlahiyyəti daşıyır. Müxtəlif mövzularda konfranslar, seminarlar, diskussiyalar, məruzələr, sərgilər, musiqili tədbirlər, təhsillə əlaqəli kurslar, səfərlər və mətbuat üçün brifinqlər təşkili imkanına malikdir.

XX əsrdə Azərbaycan xalqının yaşadığı faciələr, məruz qaldığı soyqırım aktları, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri, torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və digər faktların Avropa ictimaiyyətinə, burada fəaliyyət göstərən müxtəlif təşkilatlara obyektiv şəkildə çatdırılması Avropa Azərbaycanlıları Konqresinin fəaliyyətində prioritet məsələlər sırasında dayanırdı.[1]

Tədqiqatın əhatə etdiyi iyirmi il ərzində (1991-2011) Azərbaycan diasporunun fəaliyyətinin ildən-ilə genişləndiyini inkişafını görmək olar. Təkcə 2005-ci il ərzində İsveçrədə «İsveçrə-Azərbaycan Dostluq» cəmiyyəti, İsveçdə «Azərbaycan naminə» dərnəyi, «İsveç-Azərbaycan Gənclər Federasiyası», «Azərbaycan-İsveç Kültür və Humanitar Dərnəyi», Hollandiyanın Rotterdam şəhərində «Azeriunited» cəmiyyəti, İngiltərənin paytaxtı Londonda «Azərbaycan Gənclər Klubu», «London İqtisad və Siyasi Elmlər Məktəbi» nəzdində «Azərbaycan» cəmiyyəti, Almaniyanın Berlin şəhərində «Azərbaycan Evi», Maqdeburq şəhərində «Azərbaycanın Dostları» cəmiyyəti, Fransada «Azərbaycan Evi», Estoniyada «İRS» Gənclər Təşkilatı, Çexiyada təhsil alan azərbaycanlı tələbələrin Assambleyası, Belarus Azərbaycan İcmaları Konqresinin Mogilyov Regional Təşkilatı, Ukrayna Azərbaycanlıları Konqresinin nəzdində Gənclər Ko-

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2004.

mitəsi və s. təşkilatlar yaradılmışdır. Təşkilatlanma prosesi yalnız Avropa ölkələrini əhatə etməmişdir. Eləcə də Orta Asiya ölkələrində bir sıra yeni Azərbaycan diaspor təşkilatları (Özbəkistanda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası nəzdində Azərbaycan Gənclər Mərkəzi və Azərbaycan Qadınlar Şurası, Qazaxıstanda Azərbaycanlı Gənclər Təşkilatı, Qırğızıstan Respublikasında «Türkdilli Ölkələrin Siyasətinə Dəstək Fondu» və «Türkel» ictimai təşkilatı təsis edilmişdir.[1]

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il 23 may tarixli Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətlənmişdir.

Həmin ilin noyabr ayının 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil olmuşdur. I qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur.

Dünya azərbaycanlılarının I qurultayı xaricdəki soydaşlarımızın ümumi mənafe, vahid ideya ətrafında birləşməsi yolunda böyük addım, gələcəyə istiqamətlənmiş önəmli tədbirlərdən idi. Qurultayda milli ideologiyamız olan «azərbaycançılıq» ətrafında dünya azərbaycanlılarının həmrəyliyi nümayiş olundu. Qurultayda xaricdəki soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək, həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi. Onun «Mən fəxr edirəm ki, azərbaycanlıyam» çağırışının əsas şüarı olduğu I qurultay dünya azərbaycanlılarının mütəşəkkilliyi prosesində əhəmiyyətli dönüşə aparan yolda müstəsna addım oldu.[1]

Dünya Azərbaycanlılarının II (16-17 mart 2006) və III (5-6 iyul 2011) qurultaylarında müasir dövrdə milli diasporun qarşısında duran məqsədləri müəyyən edilmiş və xaricdə yaşayan azərbaycanlıların birliyi ideyasının dünyanın müasir mənzərəsinin reallıqları kontekstində həyata keçirilməsinin əsas vəzifələri təyin olunmuşdur. Diaspor quruculuğu işi konkret bir dövrlə məhdudlaşmayan, uzunmüddətli proses olduğundan bu sahədə qarşıya çıxan problemləri, həllini gözləyən məsələləri vaxtaşırı müzakirə etməyə ehtiyac yaranırdı. Bu mənada, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2006-cı ilin fevral ayının 8-də imzaladığı «Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında» Sərəncamı tarixi əhəmiyyət kəsb edirdi. Qurultay dünya azərbaycanlılarının təşkilatlanması işinin keyfiyyətcə yeni müstəviyə qaldırılması sahəsində önəmli hadisələrdən biri kimi tarixə düşmüşdür.[2] Bu Sərəncama uyğun olaraq ciddi hazırlıq işləri aparılmış, ikinci qurultayın yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə Təşkilat Komitəsi yaradılmış, işçi qrupları təşkil edilmiş və digər müvafiq tədbirlər görülmüşdür. Qurultaya nümayəndələr seçmək üçün Təşkilat Komitəsi tərəfindən dünyanın müxtəlif ölkələrində fəaliyyət

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2005.



[1] Dünya Azərbaycanlılarının I Qurultayı: Bakı şəhəri, 9-10 noyabr 2001-ci il / bur. məsul R. Ə. Mehdiyev; tərt. Ə. M. Həsənov./ Bakı: Azərbaycan nəşriyyatı, 2002, 351 s.

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2006.

göstərən Azərbaycan icmalarına müraciət olunmuş, tədbirdə iştirak edəcək rəsmi qonaqların siyahısı dəqiqləşdirilmişdir.

Bir qayda olaraq qurultay qabağı xarici ölkələrdəki diaspor təşkilatlarımız tərəfindən toplantılar keçirilmiş, milli diasporumuzun çağdaş durumu, əsası H.Əliyev tərəfindən qoyulmuş xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin başlıca istiqamətləri, onun reallaşması üçün görülmüş işlər ətraflı müzakirə olunmuş, müvafiq təkliflər irəli sürülmüşdür. Azərbaycan icmaları ölkəmizdə gedən ictimai-siyasi proseslərin, həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli istiqamətində atılmış addımlarla bağlı səmərəli fikir mübadiləsi aparmışdılar. Bu toplantılarda Azərbaycan Respublikası Prezidentinin daxili və xarici siyasətinin ölkənin milli maraqlarına uyğun gerçəkləşdirilməsinə xidmət etdiyi xüsusi vurğulanmış və dəstəklənmişdir. Dünya azərbaycanlılarının ikinci qurultayının çağırılması Azərbaycan diasporunun həyatında əlamətdar hadisə kimi qiymətləndirilmişdir.

Dünya azərbaycanlılarının II Qurultayı tarixi mahiyyətinə və ictimai əhəmiyyətinə görə I Qurultaydan bir çox cəhətləri ilə seçilirdi. Bu fərqlərdən birincisi, Azərbaycanın müstəqil dövlət olaraq keçdiyi inkişaf yolu ilə bağlı idi. 2001-ci ildən ötən dövr ərzində Azərbaycan Respublikası siyasi rıçaqlarını daha da möhkəmləndirmiş və ciddi iqtisadi nailiyyətlərə imza atmışdı. Faktiki olaraq, beynəlxalq münasibətlər sisteminin forma və məzmunu dəyişmiş, strukturu təkmilləşmiş və dünya birliyinə inteqrasiya sürətlənmişdir. Birinci qurultaydan keçən dövr ərzində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icmaları arasında möhkəm əlaqələrin yaradılmasında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında onların rolunun artırılması sahəsində ciddi addımlar atılmışdır. Soydaşlarımızın təşkilatlanması prosesinin təkmilləşdirilməsi, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, gənclərin diaspor quruculuğu işinə fəal cəlb olunması sahəsində bir sıra uğurlar qazanılmışdır.



Eləcə də dünya azərbaycanlılarının vahid ideya və prinsip ətrafında birləşməsi, mütəşəkkil və çevik diasporun, güclü lobbinin yaradılması üçün ötən dövr ərzində görülmüş tədbirlər azərbaycançılıq ideologiyasının uğurla həyata keçirilməsinə stimul yaratmışdır. Azərbaycan Respublikası dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımızın təşkilatlanaraq tək amal uğrunda həmrəyliyinin səbəbkarı olmaqla qazanılmış nailiyyətlərin təminatçısı qismində çıxış etmişdir. Məhz bu uğurların nəticəsində azərbaycançılıq ideologiyası ümummilli məna kəsb etməyə başlamış, bütöv bir xalqın milli inkişafının konseptual əsaslarını müəyyənləşdirən məfkurəyə çevrilmişdir.

Dünya azərbaycanlılarının II qurultayına dünyanın müxtəlif ölkələrindən ümumilikdə 1231 nümayəndə seçilmişdir. Qurultaya 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq qatılmışdır. Qurultayda Azərbaycan Respublikasının 27 dövlət və hökumət qurumundan, ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət müəssisələri və yaradıcı təşkilatlardan, siyasi partiyalardan 638 nümayəndə və 625 qonaq təmsil olunmuşdur. Qurultayda həmçinin xarici ölkələrin (Türkiyə, Ukrayna, Moldova, Litva, Latviya, Estoniya, Avstriya, İsveçrə, Belçika, Kanada) ali qanunvericilik orqanlarının üzvlərindən ibarət 64 nəfər nümayəndə qonaq qismində iştirak etmişdir.

Tədbirdə Dünya azərbaycanlılarının II Qurultayının Qətnaməsi, Dünya azərbaycanlılarının II qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidentinə, Dünya azərbaycanlılarına, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatına (YUNESKO), Azərbaycan və türk diaspor təşkilatlarına müraciətlər qəbul olunmuşdur.

Qurultay 109 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının və 23 nəfərdən ibarət İdarə Heyətinin yeni tərkibini təsdiqləmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yekdilliklə Dünya Azərbaycanlılarını Əlaqə-

ləndirmə Şurasının sədri seçilmişdir. İ.Əliyevin qurultaydakı nitqi xaricdəki azərbaycanlı icmalarının təkmilləşdirilməsində və diaspor quruculuğu sahəsində indiki vaxtda qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Dövlət başçısının nitqindəki tapşırıq və tövsiyələr Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etməklə yanaşı, dünya azərbaycanlılarının birliyinin konseptual əsaslarının milli dövlətçilik ideologiyası müstəvisində formalaşmasının tarixi-siyasi əhəmiyyətini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dünya azərbaycanlılarının həmrəyliyi sahəsindəki xidmətlərinə görə bir qrup diaspor fəalı «Şöhrət» ordeni və «Tərəqqi» medalı ilə təltif edilmişdir. Dünya azərbaycanlılarının II Qurultayının yüksək səviyyədə təşkili və bu tədbirin ictimaiyyət arasında doğurduğu rezonans, toplantıda qəbul olunmuş qərarlar diasporumuzun yeni pilləyə qədəm qoyduğunu əminliklə söyləməyə əsas vermişdir. İkinci qurultay dünya azərbaycanlılarının müstəqil Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini əyani olaraq sübut etmişdir. Qəbul edilmiş qərarların mahiyyəti və müzakirələrin yekun nəticəsi «azərbaycançılıq ideologiyası»nın bütün azərbaycanlıları öz ətrafında birləşdirə bilən ümummilli konsepsiya kimi böyük təsir gücünə malik olduğunu bir daha təsdiqləmişdir.

Qurultayda Azərbaycan və türk diasporlarının birgə fəaliyyət strategiyasının müəyyənləşdirilməsi məsələsinin geniş müzakirəyə çıxarılması və Qətnaməyə bununla əlaqədar xüsusi müddəanın daxil edilməsi böyük uğur kimi dəyərləndirilməlidir. Azərbaycan və türk diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, bu sahədə əməkdaşlığın sistemli şəkildə həyata keçirilməsi müasir dövrün əsas vəzifələrindən biridir. 2007-ci il martın 9-da keçirilmiş Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda qəbul edilmiş «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»[1] hər iki diasporun ayrı-ayrılıqda və birgə inkişafına təkan vermişdi. Bu strategiya 2006-cı il iyunun 5-də Türkiyənin Antalya şəhərində Dünya azərbaycanlıları ziyalılarının öz işinə başlamış I forumu, iyun ayının 7-də Türkiyə Respublikasının Antalya şəhərində keçirilmiş Azərbaycan və türk diaspor təşkilatlarının birgə konfransında imzalanmış Razılıq Protokolu əsasında hazırlanmışdır. Strategiya preambula hissəsində öz məramını belə izah edir: «Bir millət, iki dövlət olan Azərbaycan və türk xalqlarının dərin tarixi köklərə, ortaq milli-mədəni və mənəvi dəyərlərə, zəngin adət-ənənələrə söykənən qardaşlığı əsrlərin ağır sınaqlarından uğurla çıxaraq, müasir dövrümüzdə yeni ictimai-siyasi əhəmiyyət kəsb etməkdədir. Dostluq, qarşılıqlı əməkdaşlıq üzərində köklənən bu münasibətlərin fəlsəfəsi öz mənbəyini qədim, bəşər sivilizasiyasına layiqli töhfələr verən vahid və təkrarolunmaz etno-mədəni xəzinədən götürür».[1]

Dünya azərbaycanlılarının II Qurultayı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində bütün dünya azərbaycanlılarının yekdil mövqedən çıxış etdiyini göstərmişdir. Qəbul olunmuş qərarlarda və çıxışlarda dünya azərbaycanlılarının İ.Əliyevin bu münaqişənin həlli, işğal olunmuş ərazilərin geri qaytarılması istiqamətində fəaliyyətini birmənalı şəkildə dəstəklədikləri bir daha vurğulanmışdır.[2]

H.Əliyevin xalqımızın monolitliyi məqsədilə meydana gətirdiyi azərbaycançılıq ideyasının qısa bir zamanda strateji və əməli yollarını tədqiq edən alimlər onun layihələrinin strukturunun səciyyəvi cəhətlərini müəyyənləşdirib həyata keçirmək üçün hazırladılar və bu ideyanın əsasında ilk növbədə azərbaycanşünaslığın (Azərbaycanın etno-genezisi, tarixi, dili, mədəniyyəti, coğrafi şəraiti və s. bir məcmu kimi öyrənən elm) dayandığını, «azərbaycançılıq» fəlsəfəsinin bir ideologiya kimi mühüm rol oynadığını sübuta yetirdilər. Azərbaycançılıq ideyası haqqında

[1] Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası. Bakı: Adiloğlu, 2009, 42 s.



[1] Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası.
[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2006.

«Azərbaycanşünaslığa giriş» əsərində N.Cəfərov yazır: «Azərbaycan xalqının birliyi onun milli tarixi ideyalarının həyata keçirilməsinin əsas şərtidir ki, bu birliyə nail olmaq üçün aşağıdakı səviyyələrdə ardıcıl çalışmaq, ideoloji baxımdan əsaslandırılmış şəkildə mübarizə aparmaq məqsədəuyğundur:

**birincisi,** hər şeydən əvvəl Azərbaycan Respublikası, yəni, müstəqil Azərbaycan dövləti səviyyəsində;

**ikincisi,** müxtəlif dövlətlərin (İran – Cənubi Azərbaycan, Rusiya – Dərbənd şəhəri, Gürcüstan – Borçalı mahalı və s.) ərazilərinə parçalanmış azərbaycanlıların tarixi vətənləri səviyyəsində;

**üçüncüsü,** ümumdünya səviyyəsində.

Heç şübhəsiz, həmin səviyyələrin etno-coğrafi iyerarxiyası mövcuddur ki, onu azərbaycanlıların Yer üzündəki məskunlaşma tarixi müəyyənləşdirmişdir.

... Azərbaycan xalqı – azərbaycanlılar dünyanın harasında yaşamalarından asılı olmayaraq, bütöv, kifayət qədər mükəmməl (və geniş inkişaf potensialı olan) bir xalqdır. Onun müxtəlif siyasi-ideoloji şəraitlərdə yaşaması genetik birliyini, eyni etnokulturoloji sistemə mənsubluğunu inkar etmir. Azərbaycanlıların birləşməsi, müstəqil dövlət qurması, dünyada sosial-mədəni nüfuz qazanması üçün daha geniş imkanlar açılır. Həmin imkanların ən mühüm (və konkret!) təzahürlərindən biri tarixin azərbaycanlılara bəxş etdiyi milli dövlətinin – Azərbaycan dövlətinin, ikincisi, milli liderinin olmasıdır (Heydər Əliyevdir!)».[1]

Bu iki amil milli diasporun fəaliyyətinin daha da gücləndirilməsinə, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətləri parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılmasına təkan vermişdir. Bunlar, eyni zamanda diaspor fəaliyyətlərini koordinasiya edən Diasporla İş üzrə Dövlət Komitəsinin diqqət yetirdiyi əsas məsələlərdən biri zamanla uzlaşmaq olmuş və onun fəaliyyətinə yeni istiqamət verən elementə çevrilmişdir.

[1] Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: Bakı Universiteti, 2001, s. 101.



Bu, Dövlət Komitəsinin 2007-ci ilə dair hesabatında öz əksini aşağıdakı kimi tapmışdır: «Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan icmalarının strukturunun təkmilləşdirilməsi və onların fəaliyyətinin koordinasiya edilməsi işinin keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirilmişdir».[1]

Təsadüfi deyil ki, H.Əliyevin adının Azərbaycandan kənarda da əbədiləşdirilməsi xarici siyasətimizin mühüm bir qoludur. Azərbaycan xalqının tarixində faciəli hadisələr, fəlakətlər çox olsa da, həyatı və fəaliyyəti, zəkası, vətənpərvərliyi və bütün bunlarla yanaşı, xalqının səciyyəvi xüsusiyyətlərini çox yaxşı bilərək, onun gələcək perspektivləri üçün doğru, düzgün yol seçməyi bacarmaq qabiliyyəti ilə xalqlara, millətlərə örnək olası lideri də olmuşdur. Buna görə də onun şəxsiyyəti Azərbaycanın fəxri özəllikləri sırasında ali sərvət nümunəsi kimi bütün dünyada təbliğ olunmalıdır. Tədqiq edilən dövrdə diaspor təşkilatlarımızın bu sahədə fəal və məqsədyönlü iş prinsipi təqdirəlayiqdir ki, H.Əliyevin anadan olmasının ildönümü və vəfatı ilə əlaqədar anım tədbirlərinin hər il dünyanın müxtəlif ölkələrində qeyd olunması bunun nəticəsi idi.

2008-ci il dekabrın 18-19-da Bakı şəhərində Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısı keçirilmişdir. Toplantıda Azərbaycan həqiqətlərinin təbliği, lobbi quruculuğu, soydaşlarımızın yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiyası, ictimai-siyasi proseslərdə daha fəal iştirakının təmin olunması ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Toplantı çərçivəsində «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası»nın layihəsi də geniş müzakirə edilmiş, rəy və təkliflər nəzərə alınmaqla əsas kimi qəbul olunmuşdur.[2]

Xartiya preambuladan, 4 bölmə və 25 maddədən ibarət aidiyyəti üzrə konseptual sənəddir. Ümumilikdə, Azərbaycan

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2007.
[2] Yenə orada, 2008.

diasporu üçün mühüm əhəmiyyət daşımaqla milli dövlətçilik nöqteyi-nəzərində bir çox nüansları özündə cəmləşdirir. Xartiya öz mahiyyətini belə izah edir: «Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarının müdafiəsində dünya azərbaycanlılarının fəal iştirakını təmin etməyi qarşıya məqsəd qoyan, xarici ölkələrdə yaşayan azərbaycanlıların tarixi vətənin mənafeləri naminə vahid amal ətrafında birləşmək əzmini və iradəsini ifadə edən, bu birliyin ideoloji, sosial-fəlsəfi, siyasi və mənəvi aspektlərini müəyyənləşdirən, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyllərini özündə birləşdirən ideoloji konsepsiyadır».[1]

Azərbaycan diasporu üçün mühüm hadisələrindən biri Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması olmuşdu. Bu onun göstəricisidir ki, artıq dünya azərbaycanlılarının təşkilatlanması mərhələsi başa çatmışdı. Diaspor tablosu çəkilmişdi. Diaspor quruculuğu istiqamətində mürəkkəb və differensial bir işin başlanğıcına qədəm qoyulmuşdu. Yeni adda və funksiyada Dövlət Komitəsinin yaradılması digər xalqların diaspor qurumları və müxtəlif ölkələrin bilavasitə bu sahəyə məsul olan dövlət orqanları ilə birbaşa əməkdaşlığın qurulması imkanlarını genişləndirdi. «Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» Sərəncam dövlət səviyyəsində Azərbaycan Respublikasının diaspor quruculuğu işinə verdiyi önəmin daha bir parlaq təzahürü kimi qiymətləndirilməyə layiq idi. Dövlət Komitəsinin əsasnaməsində öz iş prinsipi belə xarakterizə olunur: «Xaricdə yaşayan azərbaycanlıların, eləcə də onların təsis etdiyi diaspor təşkilatlarının, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporlarının Azərbaycan Respublikasının dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə əlaqələr qurmalarına və inkişaf etdirmələrinə, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında düz-

[1] Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Bakı: 2009, avqust.



gün informasiya almalarına şərait yaradır».[1]

Dövlət Komitəsinin 2009-cu il üzrə hesabatında göstərildiyi kimi, «xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir».[2]

2011-ci ilə qədər dünyada 416 Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərirdi ki, onlardan da 80-ni Dünya azərbaycanlılarının II qurultayından sonra yaradılmışdı. Hələ, Dövlət Komitəsi yaradılmamışdan əvvəl formalaşan və ayrı-ayrılıqda fəaliyyət göstərən çoxsaylı icma və cəmiyyətlər tarixi Vətən naminə bir araya gələrək Azərbaycan federal birliklərini yaratmağa başladılar. Onların sırasında Ukrayna Azərbaycanlıları Konqresi, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti, Ümumrusiya Azərbaycanlıları Konqresi, Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyası, İsveç-Azərbaycan Federasiyası, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Azərbaycanlılarının «Turan» Konqresini və digərlərini qeyd etmək olar.

Bu dövrdə Diasporla İş üzrə Dövlətlər Komitəsi yeni cəmiyyət və birliklərin yaradılmasına diqqət yetirirdi. Dövlət Komitəsinin 2010-cu il üzrə hesabatında göstərilmişdir ki, «Müvafiq qanunvericilik aktlarına uyğun olaraq il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər

[1] Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə. Bakı: 2009, 14 may.; http://azerbaijan.az/portal/ StatePower /Committee/committeeConcern_06_a.html

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2009.

həyata keçirilmişdir».[1]

Dünya Azərbaycanlılarının II Qurultayı, Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin Forumu, Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı, Dünya azərbaycanlılarının III qurultayı, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantıları və digər dövlət və beynəlxalq əhəmiyyətli tədbirlərdə müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak ediblər. Azərbaycan hökumətinin dəstəyi ilə keçirilmiş bu tədbirlər ölkəmizin beynəlxalq aləmdə təbliğinə mühüm töhfələr verib, dünyanın bir sıra nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlığın inkişafında önəmli rol oynayıb.

Bu illər ərzində Azərbaycan diasporu tərəfindən keçirilmiş 2200-ə yaxın tədbirdən təqribən yarısı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədinə xidmət edib. Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması prioritet məsələ olub.

Bundan başqa, Azərbaycanın diaspor təşkilatları tərəfindən yeni kütləvi informasiya vasitələri təsis edilib, eyni zamanda ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-də Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində tədbirlər həyata keçirilib.

Ötən müddət ərzində «Xocalı soyqırımı», «20 Yanvar» faciəsi, «31 mart – Azərbaycanlıların soyqırımı günü» ilə bağlı Amerika, Avropa, Asiya ölkələrində Azərbaycan icmaları tərəfindən anım mərasimləri, foto və rəsm sərgiləri, təbliğat kampaniyaları, elmi-praktik konfranslar və digər tədbirlər təşkil olunub.[2]

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2010.

[2] http://www.diaspora.az/



Azərbaycan Respublikasının diasporla iş sahəsində dövlət siyasətini həyata keçirən və müvafiq təşkilatların fəaliyyətini koordinasiya edən Dövlət Komitəsinin dəqiqliklə və həssaslıqla yanaşdığı başqa bir məsələ Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması olmuşdu. Araşdırmalar apardığımız illərdə «20 Yanvar faciəsi», «Xocalı soyqırımı» və «31 mart – Azərbaycanlıların soyqırımı günü» ilə əlaqədar Böyük Britaniya, Niderland Krallığı, Belçika, İsveç, İsveçrə, Norveç, Finlandiya, Almaniya, Fransa, Latviya, Litva, Estoniya, Rusiya Federasiyası, Ukrayna, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Gürcüstan, Bolqarıstan, Macarıstan, Çexiya, Rumıniya, Türkiyə, Misir, Cənubi Koreya, Yaponiya, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və s. ölkələrdə müxtəlif formatlı tədbirlər təşkil edilmişdir. Məsələn, 20 Yanvar faciəsinin 21-ci ildönümü ilə bağlı Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) anım mərasimi təşkil etmiş və ABŞ Konqresinə və yerli mətbuata müraciət ünvanlayaraq, bu qanlı hadisələrin səbəbləri və nəticələri barədə məlumat vermişdir. Müraciət Nyu-Cersi, Nyu-York və Pensilvaniya ştatlarının qəzetlərində nəşr olunmuşdur. Tədbir Texas ştatından olan dövlət məmuru Con Zervas tərəfindən keçirilmişdir. Hər il Almaniyanın paytaxtı Berlin şəhərində Almaniya Azərbaycanlıları Koordinasiya Mərkəzi «Azərbaycan evi»nin təşkilatçılığı ilə 20 Yanvar faciəsinə həsr olunmuş «Azadlığa aparan yol» adlı anım mərasimi keçirilmişdir. 2011-ci ildə Saxsen-Anhalt vilayəti üzrə Alman-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə Maqdeburq şəhərində 130 təşkilatın iştirakı ilə «Demokratiyanın yolları» adlı ənənəvi tədbir keçirilmişdir. Burada Azərbaycan icmasını «Saxsen-Anhalt Alman-Azərbaycan mədəniyyət cəmiyyəti» təmsil etmişdir. 10 mindən çox insanın iştirakı ilə keçirilən tədbirdə 20 Yanvarda baş verən hadisələrdən bəhs edən sənədli film nümayiş etdirilmişdir.[1]

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

Belə tədbirlər təkcə hüzn günlərində deyil, ölkə üçün əlamətdar günlərdə də keçirilir. 2011-ci il fevralın 20-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı tədbirlər planına uyğun olaraq, Almaniyanın Koblenz şəhərində yerləşən Namedy qəsrində «Azərbaycan özünü təqdim edir – Azərbaycana ədəbi və musiqi ilə səyahət» adlı ədəbi-bədii və musiqili tədbir keçirilmişdir. Tədbirdə yerli ictimaiyyət nümayəndələri və şəhər meriyasının təmsilçiləri iştirak etmişdilər. Tədbir çərçivəsində Azərbaycan tarixinə və mədəniyyətinə dair qonaqlara məlumat verilmiş, incəsənət ustalarının konserti təşkil edilmişdir. Berlində fəaliyyət göstərən Azərbaycan Kültür Ocağında «Beynəlxalq Ana Dili Günü» çərçivəsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, maarifçi-pedaqoq, vətənpərvər yazıçı Abdulla Şaiqin anadan olmasının 130 illiyinə həsr edilmiş «Uşaqların və gənclərin sevimli yazıçısı» adlı tədbir keçirilmişdir. Tədbirdə A.Şaiqin əsərlərinin bədii və tərbiyəvi əhəmiyyəti barədə məlumat verilmiş, romantik səciyyəsi təhlil edilmiş, tədbir əsnasında türk dilinin və mədəniyyətinin tarixi haqqında maraqlı müzakirələr aparılmışdır.[1]

Milli-mənəvi dəyərlərimizin yaşadılması və təbliği işində Azərbaycan icmalarının da rolu xüsusi qeyd olunmalıdır. Azərbaycan-Avstraliya-Türk Dostluq Cəmiyyəti tərəfindən Türk Dayanışma Dərnəyində hər il Novruz bayramı münasibətilə təntənəli tədbir təşkil olunurdu. Azərbaycan və Türkiyə diasporlarının nümayəndələri, o cümlədən Avstraliyada təhsil alan azərbaycanlı tələbələrin qatıldığı bayram şənliyində Yeni Cənubi Uels ştatı parlamentinin üzvləri, yerli hakimiyyət orqanlarının təmsilçiləri və diplomatlar iştirak etmişdilər. Tədbirdə iştirakçılara Azərbaycan musiqisi və milli mətbəxinin nümunələri təqdim olunmuşdu.

Tədqiq edilən dövrdə «Azərbaycan-İsrail» Beynəlxalq Assosiasiyası da hər il Netanya şəhərində Novruz bayramı münasibətilə tədbirlər təşkil edirdi. Tədbirlərin birində «Azərbaycan milli geyiminin elementləri» mövzusunda viktorina keçirilmiş, qaliblərə Heydər Əliyev Fondu tərəfindən müxtəlif çap məhsulları, kitab və disklər verilmişdir. Həmçinin, Azərbaycan rəqslərinin ən yaxşı ifaçısı müsabiqəsi keçirilmiş və qaliblər mükafatlandırılmışdı.

İkinci dünya müharibəsinin bəşəriyyət üçün yaşatdığı fəlakətlər Azərbaycandan da yan keçməmişdir. Neçə-neçə qəhrəman oğullarımızın cəbhədə göstərdiyi şücaətlər tarixə yazıldı, qanları, canları bahasına qoruduğu ərazilərin, şəhərlərin adları «qəhrəman şəhər» adıyla şərəfləndirildi. Lakin qələbəni SSRİ-yə bəxş edən, hərbi döyüş texnikasının daimi hərəkətini tənzimləmək üçün gecə-gündüz neft hasil edib cəbhəyə yollayan Bakının adı nə üçünsə SSRİ-nin qəhrəman şəhərləri sırasında rəsmiləşdirilmədi. Bütün bunlara baxmayaraq, müxtəlif faciələr yaşamış və hər bir ailədən, nəsildən itkilər vermiş azərbaycanlıların qələbənin qazanılmasındakı böyük xidmətlərini tarixdən silmək mümkün deyil. Necə olursa-olsun, biz də bu müharibənin sınağından bir millət kimi alnı açıq, şərəfli adla çıxmışıq. Böyük Vətən müharibəsi azərbaycanlıların da vicdan tarixçəsidir. Odur ki, ölkəmizdə olduğu kimi, diasporumuzun fəaliyyətində 9 May – Qələbə günü xüsusi əhəmiyyət kəsb etmiş və bu münasibətlə bir sıra tədbirlər keçirilmişdir. 2011-ci ilin may ayında Rusiya Federasiyasının Rostov vilayətindəki ən böyük abidə olan «Sambek memorialı» önündə Qələbə gününə həsr olunmuş mitinq keçirilmişdir. Mitinqi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGT), Rusiya Azərbaycanlıları Konqresinin Rostov regional təşkilatı və «Mir na Zemle» millətlərarası təşkilatı təşkil etmişdi.[1]

2011-ci ildə Dnepropetrovsk vilayətinin Sarıcansk rayonunda Böyük Vətən müharibəsi zamanı Ukraynanın alman faşizmindən azad olunmasında şərəfli döyüş yolu keçən Sovet İttifaqı Qəhrəmanı Mikayıl Ələkbərovun abidəsinin açılışı olmuşdu.

[1] http://azertag.az/xeber/Azerbaycan_Kultur_Ocaginda_Beynelxalq_Ana_Dili_Gunune_hesr_edilmis_tedbir_kechirilmisdir-514723



[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

Tədbirə Dnepropetrovsk vilayəti Administrasiyası rəsmiləri, Azərbaycan Respublikasının Ukraynadakı səfirliyinin, yerli hakimiyyət və diaspor nümayəndələri qatılmışlar.

Qazaxıstandakı Azərbaycan diasporunun təşəbbüsü ilə Azərbaycanın repressiyaya məruz qalmış qadınlarının xatirəsinə Astana şəhərinin yaxınlığındakı Akmola qəsəbəsində memorial abidə ucaldılmışdır. Astana şəhər «Xəzər» Mədəniyyət Mərkəzi ilə Qazaxıstan Azərbaycanlıları Mədəniyyət Mərkəzləri İttifaqının təşəbbüsü ilə ucaldılan abidə ötən əsrin 30-40-cı illərində Akmolada siyasi repressiyalara məruz qalmış şəxslərin həyat yoldaşları düşərgəsinin yerləşdiyi ərazidə qoyulmuşdur.

2009-cu ilin noyabr ayında Avropadakı Azərbaycanlı Qadın Təşkilatları Birliyinin Təşəbbüs Qrupu yaradılmışdır. Belə bir qurumun yaradılması ideyası Avropada yaşayan azərbaycanlı xanımları daha da fəallaşdırmaq məqsədilə irəli sürülmüşdür. Bu birlik azərbaycanlı qadınların, eləcə də qadın təşkilatlarının arasında qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək, onları bir-biri ilə daha sıx ünsiyyətdə və əlaqədə olmasını təmin etmək məqsədini daşıyırdı.

Azərbaycan-Fransa Gənclik Assosiasiyası (AFGA) ölkənin bir sıra şəhərlərində Azərbaycan mədəniyyəti günləri çərçivəsində tədbirlər keçirmişdir. Azərbaycan Respublikasının milli bayramı «28 may - Respublika günü» dünyanın müxtəlif ölkələrində qeyd olunmuşdur. 1918-ci ildə müsəlman şərqində ilk demokratik dövlət – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 93-cü ildönümü münasibətilə Rusiya Federasiyasının Moskva, Sankt-Peterburq və digər şəhərlərində Ümumrusiya Azərbaycanlıları Konqresi, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının və Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin təşkilatçılığı ilə müxtəlif tədbir və konfranslar keçirilmişdir. Tədbir çərçivəsində «Müasir Azərbaycan» mövzusunda konfrans keçirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən foto-sərgi təşkil olunmuşdur. Tədbir iştirakçılarına Azərbaycana həsr olunmuş



kitablar, qəzetlər və jurnallar paylanmışdır. Respublika günü münasibəti ilə Moskvadakı «Bakı» kino-konsert kompleksində məşhur müğənni-bəstəkar Emin Ağalarovun xeyriyyə konserti olmuşdur. Konsert Ümumrusiya Azərbaycanlıları Konqresinin Moskva regional bölməsi ilə birgə təşkil olunmuşdur.[1]

İsveçin Malmö şəhərində Azərbaycan diasporunun təşkilatçılığı ilə «28 may – Respublika günü» münasibətilə sərgi təşkil olunmuşdur. «Xəzər» Malmö Cəmiyyətinin təşkil etdiyi sərgidə Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, eləcə də kulinariyasına aid kitablar və digər sənət əsərləri nümayiş etdirilmişdir. Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Azərbaycan Mədəniyyət Mərkəzi «Respublika günü» ilə əlaqədar Azərbaycan Gecəsi təşkil etmişdir. Azərbaycandan Gənclik Təşəbbüsləri İctimai Birliyi və ŞKTC-dən Kipr Türk Mücahidlər Dərnəyinin dəstəyi və Yaxın Doğu Universitetinin sponsorluğu ilə keçirilmiş tədbir ŞKTC-in dövlət kanalı olan BRT TV və Azərbaycanın İctimai Televiziyası ilə canlı yayımlanmışdır. Tədbirdə Azərbaycan musiqiçiləri də iştirak etmişdilər.

Latviyada fəaliyyət göstərən «Ocaq» Latviya-Azərbaycan Mədəniyyət Mərkəzinin, Estoniyada isə «Aydan» Eston-Azərbaycan Mərkəzinin Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi ilə birgə keçirdiyi tədbirlərdə AXC-nin mövcud olduğu 23 ay ərzində əldə edilmiş nailiyyətlərindən bəhs olunmuşdur.[2]

Almaniyanın Maqdeburq şəhərində «Respublika günü» ilə əlaqədar Alman-Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Sashsen-Anhalt vilayətində fəaliyyət göstərən müxtəlif diaspor təşkilatlarının nümayəndələri iştirak etmişlər. Tədbirdə Azərbaycanın müstəqillik tarixi ərzində əldə etdiyi nailiyyətlər, respublikada həyata keçirilən iqtisadi və siyasi islahatlar haqqında iştirakçılara məlumatlar

[1] http://www.diaspora.gov.az/index.php?options=news&id=11&news id=1080

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

verilmişdir. 2011-ci il mayın 28-də Finlandiyanın paytaxtı Helsinkidə bu ölkədə yaşayan azərbaycanlıları birləşdirən «Dostluq» cəmiyyəti «Respublika günü»nə həsr olunmuş «Anam doğma Vətənim – Azərbaycan» adlı mədəni-kütləvi tədbir keçirmişdir. Tədbirdə Azərbaycan və türk diasporlarının, fin ictimaiyyətinin, bu ölkədə yaşayan digər milli azlıqların nümayəndələri də iştirak etmişdir. Tədbir zamanı toplaşanlara Azərbaycan Respublikasının keçdiyi müstəqillik yolu, ölkədəki dinamik iqtisadi inkişaf, Ermənistanın Azərbaycana qarşı təcavüzü, əsassız torpaq iddiaları və Azərbaycanın tarixi ərazilərinin Ermənistan tərəfindən işğalı barədə məlumat verilmişdir.

Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyi və Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndəliyi tərəfindən paytaxt Berlində Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin təşkilati dəstəyi ilə «Təhsil: perspektivlər və uğurlar» adlı konfrans keçirilmişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə və Almaniyada təhsil alan gənclərə həsr olunmuş tədbirdə müstəqil Azərbaycan gənclərinin gələcəyindən söhbət açılmış və Almaniyada təhsil alan azərbaycanlı tələbələrin təhsili, müasir dövrə uyğun şəbəkələnməsi və onların alman cəmiyyətinə inteqrasiyası müzakirə edilmişdir.

Almaniyanın Blankenheim şəhərində fəaliyyət göstərən «Alte Kanzlay» cəmiyyətinin təşəbbüsü ilə Azərbaycanın müstəqilliyinin 20-ci ildönümünə həsr edilmiş «Azərbaycana ədəbi və musiqili səyahət» adlı ədəbi-bədii və musiqili tədbir keçirilmişdir. Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi (AAKM) və Alman-Azərbaycan Forumunun (AAF) birgə əməkdaşlığı ilə təşkil edilmiş gecədə «Alte Kanzlay» Cəmiyyətinin sədri Frider Füllers iştirak etmiş, Azərbaycan haqqında qonaqlara ətraflı məlumat verilmiş, xalqımızın qədim tarixi və zəngin mədəni irsi ilə bağlı faktlar diqqətə çatdırılmışdı.

Araşdırılan illərdə dünyanın müxtəlif dövlətlərindəki Azərbaycan diasporunun fəal və planlı iş proqramları ölkəmizin tarixinin, mədəniyyətinin, incəsənətinin, turizm imkanlarını, ictimai-siyasi durumunun tanıdılması və təbliğinə çox böyük töhfələr vermişdir. Qeyd etmək yerinə düşər ki, diasporumuzun fəaliyyət intensivliyi aid olduqları ölkələrin geosiyasi vəziyyətindən asılı olaraq dəyişir. Türkiyədə, Almaniyada, Rusiyada və ABŞ-da təşkilatlanmış diasporumuzun fəaliyyət səviyyəsi bir çox məqamlarda digər ölkələrdəkindən gözə çarpacaq dərəcədə yüksəkdir. Lakin son vaxtlar beynəlxalq aləmdə Azərbaycan naminə bütün uğurlu təbliğat işlərinin nəticəsidir ki, artıq respublikamız dünyada yetərincə tanınmış və beynəlxalq aləmin rəğbətini qazanmağa nail olmuşdur. Azərbaycanın nəinki yuxarıda sadaladığımız özəllikləri, geostrateji mövqeyi və sosial-iqtisadi potensialı, habelə karbohidrogen və tranzit imkanları da dünyanın maraq mərkəzlərindədir. Azərbaycanın dünya bazarlarına çıxardığı məhsulların idxal və ixrac proseslərinin uğurla həyata keçirilməsi bir çox məqamlarda düzgün və layiqli təqdimatdan çox asılı olur ki, bu sahədə də diasporumuzun rolu danılmazdır.

Yeni Zelandiyada yaşayan azərbaycanlılar və bu ölkədə təhsil alan azərbaycanlı gənclər Vellinqtonda keçirilən ənənəvi sərgidə «Azərbaycan məhsulları» kataloqunu təqdim etmişlər. Qeyd edək ki, kataloqda Azərbaycanda istehsal olunan qeyri-neft məhsulları barədə məlumatlar öz əksini tapmışdır.[1]

2011-ci il iyunun 6-dan 10-dək Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birliyin təşəbbüsü ilə Maastrixt şəhərində «Azərbaycan mədəniyyəti həftəsi» keçirilmişdir. Tədbirdə Azərbaycan səfirliyinin əməkdaşları, Azərbaycan-Holland dostluq təşkilatının nümayəndələri, jurnalistlər və digər rəsmi qonaqlar iştirak etmişlər.[2]

Diaspor təşkilatları Diasporla İş üzrə Dövlət Komitəsinin

[1] http://www.diaspora.gov.az/index.php?options=news&id=11&news_id=1080; www.diaspora.gov.az/files/news/new1338272143290512.doc

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

vasitəsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyini silsilə tədbirlər proqramları ilə qeyd etmişlər. Azərbaycan-Avstraliya-Türk Dostluq Cəmiyyəti tərəfindən dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Sidney şəhərində «Azərbaycan dünən və bu gün» adlı tədbir keçirilmişdir. Konfransın məqsədi Azərbaycanın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini təbliğ etmək, müstəqillik dövründə Azərbaycanın iqtisadi, siyasi və sosial sahədə əldə etdiyi nailiyyətləri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı və Dağlıq Qarabağ münaqişəsi nəticəsində tarixi Azərbaycan torpaqlarının işğalı haqqında ictimaiyyəti məlumatlandırmaq olmuşdur.

2011-ci il 29 oktyabr tarixində İsveç Krallığının paytaxtı Stokholm şəhərində «İsveç-Azərbaycan Federasiyası»nın (İAF) dəstəyi ilə Azərbaycan daxil, Türkiyə, Finlandiya, Almaniya və İsveçin müxtəlif şəhərlərindən olan ictimai fəal qadınların iştirakı ilə «Dünya Azərbaycanlı Qadınlarının I Qurultayı» keçirilmişdir. Qurultayda çıxış edənlər Azərbaycan qadının tarix boyu rolu, indiki vaxtda qarşıda duran problemləri və onların həlli yolları, Azərbaycan dövlətinin qadınlara göstərdiyi diqqət, anaların vəzifələri və digər mövzularda nitq söyləmişdilər. Qurultay Ermənistanın Azərbaycana təcavüzünü kəskin qınayan bəyanat qəbul etmişdir. Qurultayın yekunu olaraq, Azərbaycan Qadınları Federasiyasının yaradılması barədə qərar qəbul olunmuşdur.[1]

2011-ci il oktyabr ayının 30-da Türkiyənin Kocaelidə Derince Bələdiyyəsi tərəfindən ayrılmış ərazidə Heydər Əliyev parkının açılış mərasimi olmuşdur. Mərasimdə millət vəkilləri, diplomatlar, ictimai xadimlər və KİV nümayəndələri də iştirak etmişlər. Diasporla İş üzrə Dövlət Komitəsi adından hazırlanmış 4 ədəd təşəkkür plakatı İstanbul Böyük şəhər, Qartəpə, Dərincə və İzmit Bələdiyyələrinin Başçılarına təqdim edilmişdir. Yüksək səviyyədə təşkil olunmuş mərasimdə 1400-dən çox qonaq iştirak etmişdir.

Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO) Nor-

---

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.



veçin Stavanger və Oslo şəhərlərində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə və NAYO-nun yaranmasının 5 illiyinə həsr olunmuş «Norveçdə Azərbaycan 20 il sonra» adlı mədəniyyət proqramını həyata keçirmişdir.[1]

2011-ci il oktyabrın 12-də Heydər Əliyev Fondunun Rumıniya Nümayəndəliyində Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən tərtib edilmiş «İrəvan xanlığı» kitabının rumın dilinə tərcüməsinin təqdimat mərasimi keçirilmişdir. Kitab Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyinin təşəbbüsü və maliyyə dəstəyi əsasında çapdan çıxmışdır. Mərasimdə «Lider» Televiziyasının «Azərbaycan» redaksiyasının istehsalı olan «İrəvan və irəvanlılar» filmi nümayiş etdirilmişdir. Kitabın nüsxələri Rumıniyanın dövlət orqanları, nazirlikləri, kitabxanaları və Rumıniyada akkreditə olunmuş xarici ölkələrin diplomatik missiyaları nümayəndəliklərinə təqdim olunmuşdur.[2]

2011-ci ilin avqust ayının 28-də Gürcüstanın Batumi şəhərində Azərbaycan və Gürcüstanın dövlət və hökumət rəsmilərinin və diaspor nümayəndələrinin iştirakı ilə «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü»nə həsr olunmuş konfrans keçirilmişdir.[3]

Belə tədbirlərin mütəmadi keçirilməsi milli istək və arzudan qaynaqlanmasından, iki ölkə arasında əməkdaşlığın strateji məqamlara söykənməsindən xəbər verir. Bunlar da dövlətlərarası və xalqlararası münasibətlərin yaxınlaşmasına və sıx əlaqələrin qurulmasında öz töhfəsini verir. Gürcüstanda abori-

---

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.; http://www.mfa.gov.az/

[2] http://www.mfa.gov.az/

[3] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

gen xalq olan azərbaycanlılardan başqa burada sonradan məskunlaşan soydaşlarımızın olduğunu nəzərə alsaq bunun diaspor fəaliyyətində əhəmiyyətli rol oynadığını vurğulaya bilərik.

Latviyada fəaliyyət göstərən «Ocaq» Mədəniyyət Mərkəzi tərəfindən Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) dəstəyi ilə Riqa şəhərində «Azərbaycan beynəlxalq münasibətlər sistemində» mövzusunda konfrans keçirilmiş, həmçinin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş sərgi açılmışdır.

İsveçdə fəaliyyət göstərən «Xəzər» Azərbaycan-İsveç Dostluq cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş seminar keçirilmişdir. Seminar çərçivəsində «Mən fəxr edirəm ki, azərbaycanlıyam» filmi nümayiş etdirilmiş, daha sonra isə tədbir vətənpərvər ruhda söylənən şerlərdən ibarət «Şərq gecəsi» ilə davam etmişdir.[1] 2011-ci ilin oktyabrın 15-də İsveç Krallığının paytaxtı Stokholmda Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Federasiyası İsveç təşkilatı tərəfindən Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş bayram tədbiri keçirilmişdir. Azərbaycanın İsveçdəki fövqəladə və səlahiyyətli səfiri, Türkiyənin bu ölkədəki səfirliyinin əməkdaşları, Azərbaycan və türk diasporunun nümayəndələri daxil olmaqla tədbirdə ümumilikdə 500-dək insan iştirak etmişdir.[2] Danimarkada yaşayan azərbaycan-lılar isə Müstəqillik Gününü oktyabrın 14-də «Azad Azərbay-can» adlı bədii gecənin keçirilməsi ilə qeyd etmişlər. Danimarkada fəaliyyət göstərən «Vətən» cəmiyyətinin təşkil etdiyi tədbirdə Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatının inkişafı barədə kitab və broşürlər, sənədli film nümayiş olunmuşdur.

---

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

[2] http://www.mfa.gov.az/



Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü Kanadanın Ontario vilayətinin London şəhərində də xüsusi qeyd olunmuşdur. Azərbaycan-Kanada-Türk Assosiasiyasının təşkilatçılığı ilə keçirilən tədbirə Azərbaycan və türk diasporlarının nümayəndələri ilə yanaşı, yerli ictimaiyyətin nümayəndələri də dəvət alınışdılar. Yeri gəlmişkən, Kanadada Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyası, Azərbaycan Təhsil və Mədəniyyət Mərkəzi, Kanada-Azərbaycan Qadınlar Assosiasiyası, Azərbaycan-Kanada Dostluq Cəmiyyəti, Kvebek Azərbaycanlıları Assosiasiyası, Ontario Azərbaycanlıları Cəmiyyəti və Kanada Azərbaycan Alyansı fəaliyyət göstərir. 2005-ci il aprelin 16-da Toronto şəhərində Azərbaycan Təşkilatları Federasiyası təsis edilmişdir.[1]

Litva Respublikası Seymində Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibəti ilə beynəlxalq konfrans keçirilmişdir. Konfransda Litva Respublikası Seymi sədrinin xüsusi nümayəndəsi, Litva-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, millət vəkilləri, o cümlədən ölkədə fəaliyyət göstərən yəhudi, alman, rus, belarus, ukraynalı, latış, eston, rumın, macar, qazax, özbək, çeçen, karaim, qaraçı və digər milli icmaların liderləri, Litva KİV-nin əməkdaşları, iş adamları, Azərbaycan və türk icmalarının üzvləri, eləcə də digər şəxslər iştirak etmişdilər. Estoniyada fəaliyyət göstərən və Azərbaycanın tanıdılması işində çox önəmli mövqe tutan «Aydan» Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Tallin Ratuşasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20 illiyinə həsr olunmuş təntənəli tədbir təşkil olunmuşdur. Tədbirdə Estoniyanın keçmiş prezidenti Arnold Ryuytel, Riyqikoqunun (Estoniya parlamenti) deputatları, diplomatik korpusun və Azərbaycan icmasının nümayəndələri, nazirlik və departamentlərin əməkdaşları, sahibkarlar, KİV nümayəndələri iştirak etmişdilər.

2011-ci il noyabr ayının 25-də Budapeştdə «Azərbaycan-

---

[1] http://www.azerbaijans.com/content_495_az.html

Macarıstan: mədəniyyətlərin dialoqu» silsiləsindən iki günlük beynəlxalq elmi konfrans işini başa çatdırmışdır. «Üçüncü respublikanın 20 illiyi» adı altında keçirilmiş konfrans Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuşdur. Azərbaycanın Macarıstandakı səfirliyinin təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) iştirakı ilə keçirilmiş konfransda Azərbaycan, Macarıstan və Böyük Britaniyadan 23 alim iştirak etmişdir.[1]

Polşada yaşayan azərbaycanlıların «Birlik» cəmiyyətinin təşkilatçılığı ilə Varşavada Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş tədbirdə müstəqillik illərində Azərbaycanın sürətlə inkişaf etdiyi və Cənubi Qafqaz regionunun liderinə çevrildiyi qeyd olunmuşdur.[2]

İtaliyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Assosiasiyası Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə Florensiyanın «Auditorium al Duomo» sərgi və tamaşa zalında Türksoyun rəsm sərgisini təşkil etmişdir.[3]

2011-ci il 7 dekabrda İsveçrənin Bazel Universitetində Azərbaycana həsr olunmuş tədbirdə Azərbaycana dair təqdimat keçirilmiş, toplaşanlara Azərbaycanla bağlı videomateriallar nümayiş etdirilmiş, universitetdə təhsil alan yerli və əcnəbi tələbələrə Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri və s. barədə məlumat verilmişdir, onların sualları cavablandırılmışdır.[4]

Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən «Azərbaycan» cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə keçirilən tədbirdə ölkənin nüfuzlu mətbu orqanlarından biri olan

[1] http://www.mfa.gov.az/
[2] http://diaspora.gov.az/index.php?options=news&id=11&news_id=1223
[3] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.
[4] Yenə orada.



«Əl-Bayan» qəzetinin əməkdaşları iştirak etmiş, sonra bu qəzetdə Azərbaycana dair məqalə dərc edilmişdir.[1]

Azərbaycan Respublikasının dövlət müstəqilliyi günü ABŞ, Kanada və Meksikada yaşayan azərbaycanlılar tərəfindən də qeyd olunmuş, ABŞ-ın Vaşinqton, Nyu-York, Hyuston şəhərlərində USAN, Amerika-Azərbaycan Gənclər Təşkilatının təşkilatçılığı ilə toplantı və seminarlar keçirilmişdir. 2010-cu il oktyabrın 25-də ABŞ-ın Hyuston şəhərinin meriyasında da Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyası tərəfindən Azərbaycanın müstəqilliyinin bərpasının 20 illiyinə həsr olunmuş tədbirdə Azərbaycanın keçdiyi inkişaf yolu, nailiyyətləri və qarşılaşdığı problemlər barədə iştirakçılara məlumat verilmişdir. ABŞ-ın Nyu-York şəhərində Amerikadakı ilk Azərbaycan teatrının əsası qoyulmuşdur. Azərbaycan Nyu-York Assosiasiyasının nəzdində fəaliyyət göstərməyə başlayan Nyu-York Azərbaycan Teatrı Mirzə Fətəli Axundzadənin «Müsyo Jordan və dərviş Məstəli şah» tamaşasını səhnəyə qoymuşdur.[2]

Hazırda, dünya azərbaycanlılarının həmrəylik günü elan edildiyi 31 dekabr tarixi Azərbaycan diasporu tərəfindən layiqincə qeyd olunmaqdadır.

Araşdırdığımız illər ərzində keçirilmiş tədbirlərdə 31 dekabr gününün tarixi və milli əhəmiyyəti, dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin olunması sahəsində ötən müddətdə görülən işlər və Azərbaycan diasporunun qarşısında duran vəzifələr müzakirə olunmuşdur. Nəzərə çatdırdığımız bütün bu faktlar dünyanın müxtəlif ərazilərində yaradılmış diaspor təşkilatlarımızın ildən-ilə fəaliyyət dairələrinin genişləndiyini, dövlətimizin birbaşa dəstəyi ilə güclü ictimai-siyasi lobbi səviyyəsinə çatdığını bir daha sübut edirdi.

Dünya azərbaycanlılarının II və III qurultaylarından sonra diasporumuz uğurlu inkişaf yolu keçmişdir. Azərbaycan Res-

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.
[2] Yenə orada.

publikasının Prezidenti İlham Əliyevin Dünya azərbaycanlılarının III qurultayında çıxışı zamanı qeyd etdiyi kimi, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşmışdır. «Birinci qurultaydan keçən dövrdə, yəni 10 il ərzində böyük işlər görülmüş, təşkilatların sayı artmışdır. Beş il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatmışdır».[1]

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı dünyanın əksər ölkələrində keçirilən tədbirlər bir daha deməyə əsas verir ki, diaspor təşkilatlarımızın təkcə kəmiyyəti deyil, keyfiyyəti də artmış, onların fəaliyyəti məqsədyönlü və təsirli xarakter almışdır: «Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikirini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilərlər. Bu, çox mühüm amildir. Mən çox şadam ki, bu gün dünyada fəaliyyət göstərən diaspor təşkilatları yeni səviyyəyə qalxıbdır. Bu təşkilatlar arasında koordinasiya işlərinin aparılması əlbəttə ki, onların fəaliyyətini daha da gücləndirir». İ.Əliyev yuxarıdakı və aşağıdakı sözləri ilə tövsiyə edirdi ki, diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə bütün Azərbaycan icmasını birləşdirməlidir: «İdeal variant ondan ibarət ola bilər ki, hər bir azərbaycanlı diaspor təşkilatlarına üzv olsun, onların tədbirlərində iştirak etsin, öz dəstəyini versin, öz köməyini göstərsin və eyni zamanda, diaspor təşkilatları tərəfindən də lazım olanda kömək görsün. Bunu etmək üçün bu təşkilatlar daha da güclü olmalıdır».[2] Azərbaycan Respublikası Prezidentinin qeyd etdiyi kimi, ən həssas məqamlardan və vacib amillərdən biri diaspor təşkilatlarının mütəşəkkilliyi məsələsidir. Bəzi hallarda bir ölkədə bir neçə diaspor təşkilatı fəaliyyət göstərir, böyük ölkələr-

[1] Əliyev İ. Dünya Azərbaycanlılarının III qurultayında nitq // Azərbaycan qəzeti, 2011, 6 iyul, №144.

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.



də, əlbəttə ki, onların sayı onlarladır. Əksər hallarda cəmiyyətlər arasında əlaqələr sağlamdır. Ancaq elə hallar var ki, orada müəyyən ziddiyyətlər, müəyyən problemlər, anlaşılmazlıq ortaya çıxır. İ.Əliyev belə hallara son qoyulmasını tələb edərək göstərirdi: «Biz ölkə daxilində də, xaricdə də bir yerdə olmalıyıq. Birlik bizi gücləndirir. Birlik olmasa, biz güclü ola bilmərik. Bu aksiomadır. Ona görə hesab edirəm ki, diaspor təşkilatlarının fəaliyyətinin inkişafı üçün biz birliyi tam şəkildə təmin etməliyik».[1]

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının dünyadakı diplomatik nümayəndəliklərinin sayı artmışdır. Müqayisə üçün qeyd edək ki, əgər birinci qurultaya qədərki dövrdə ölkəmizin 46 səfirliyi və konsulluğu var idisə, üçüncü qurultay ərəfəsində onların sayı 65-ə çatmışdır. Bu ilk növbədə müstəqil Azərbaycan dövlətinin qüdrətini göstərirdi. Üçüncü qurultaydakı çıxışında İ.Əliyev bildirmişdir ki, yaxın gələcəkdə daha 8 ölkədə səfirliyin açılması nəzərdə tutulur. Bunlar da onu göstərir ki, Azərbaycan müstəqil dövlət olaraq bütün dünya ilə əməkdaşlıq edir və beynəlxalq miqyasda milli kontekstdə elə vacib əhəmiyyətli ölkə qalmayacaq ki, orada onun diplomatik korpusu olmasın. Lakin bəzi hallarda səfirliklərlə diaspor təşkilatları arasında ziddiyyətlərin olması xoşagəlməz hallardandır. Buna yol vermək olmaz. Hər iki təşkilat öz iş prinsipini düzgün qurmalıdır ki, bir-birinin fəaliyyətinə maneçilik törətməsin. Hərəsi öz nizamnaməsinə, vəzifə təlimatına uyğun hərəkət etməlidir. Bilinməlidir ki, səfirlik Azərbaycan dövlətinin bir parçasıdır, Azərbaycan dövlətinin rəsmi nümayəndəliyidir, Azərbaycan dövlətinin xarici ölkələrdə elçisidir. Buna görə də səfirliklərlə diaspor təşkilatları arasında daim mehriban, səmimi və məqsədyönlü münasibətlər olmalıdır. Hər hansı bir problem, anlaşılmazlıq, yaxud da ki, narazılıq dərhal öz həllini tapmalıdır. Vətənin hüdudlarından kənarda

[1] Əliyev İ. Dünya Azərbaycanlılarının III qurultayında nitq // Azərbaycan qəzeti, 2011, 6 iyul, №144.

yaşayan hər bir azərbaycanlı bilməlidir ki, onun üzərinə ikiqat məsuliyyət düşür. O, özü ilə yanaşı, vətənini, xalqını təmsil edir, çünki, xarici ölkə vətəndaşları görsələr ki, azərbaycanlılar xaricdə bir-biri ilə yola getmirlər, yaxud da ki, bir-birinin əleyhinə iş aparırlar, istər-istəməz onlarda Azərbaycan xalqı, dövləti haqqında həqiqətə uyğun olmayan təəssürat yarana bilər. Belə heysiyyatsız məsələlərə son qoymaq vacibdir. Hər bir vicdanlı insan təkcə öz şəxsi marağından deyil, ümummilli maraqdan da çıxış etməlidir. Onda tarixi Vətəni naminə diaspor şüuru formalaşmalıdır. İ.Əliyev səfirliklərlə diaspor təşkilatları arasındakı ən həssas və strateji məqama diqqəti cəlb edərək vurğulamışdır ki, «Səfirliklərlə diaspor təşkilatları arasındakı əməkdaşlıq daha da güclü, daha da məqsədyönlü olmalıdır. Mən bu alqışları eşidirəm və görürəm ki, nə demək istədiyimi siz də yaxşı başa düşürsünüz. Mən çox dərinə getmək istəməzdim, amma bəzi hallarda səfirliklərlə diaspor təşkilatları arasında olan ziddiyyətlər məni çox incidir. Biz buna yol verməməliyik. Səfirlik Azərbaycan dövlətinin bir parçasıdır, Azərbaycan dövlətinin rəsmi nümayəndəliyidir, Azərbaycan dövlətinin xarici ölkələrdə milli ornamentidir. Biz elə etməliyik ki, səfirliklərlə diaspor təşkilatları arasında daim mehriban münasibətlər olsun. Əgər, hər hansı bir problem, anlaşılmazlıq, yaxud da ki, narazılıq varsa, o, dərhal öz həllini tapmalıdır. Yəni, hərə bir tərəfə, öz küncünə çəkilməməlidir ki, biz sonra müdaxilə edək və vəziyyəti normallaşdırmağa çalışaq. Onlar özləri bir-birinə hörmətlə yanaşmalıdırlar, bir-birinin fəaliyyətini dəstəkləməlidirlər, çünki bizim bir Vətənimiz var – Azərbaycan dövləti».[1]

*Qeyd: «Hazırda ümumilikdə 92 diplomatik nümayəndəliyimiz, 60 səfirliyimiz vardır».*[2]

Yeni dünya nizamında diaspor beynəlxalq aləmdə aktuallıq kəsb etməklə diplomatiyanın vacib elementinə çevrilmişdir. Halhazırda diaspor məsələsi böyük təşkilatlar və dövlətlər tərəfindən diqqətdə saxlanılır. BMT yanında Yəhudi Konqresinin

[1] Əliyev İ. Dünya Azərbaycanlılarının III qurultayında nitq // Azərbaycan qəzeti, 2011, 6 iyul, №144.

[2] http://president.az/articles/20167



rəsmi statusa yiyələnməsi və ya ABŞ-da Qlobal Diaspor Forumunun keçirilməsinin ənənəvi hal alması bunlara bariz nümunədir. 2011-ci ildə *«Vətənə kömək edərək irəliyə getmək»* şüarı ilə keçirilən və artıq ənənəvi şəkil alan Forumda ABŞ-ın eks dövlət katibi Hillari Klinton öz nitqində: «Birləşmiş Ştatlarda diaspor icmalarının nümayəndələrinin ya özləri fərdi qaydada, ya da Amerika hökuməti ilə tərəfdaşlıq əsasında vətənlərində problemlərin həllinə kömək edə biləcəyinə inandığını, Suriya diaspor üzvlərinə dəstək və tövsiyənin onların vətənində baş verənlərə qarşı məsələlərdə körpü rolu oynayacağını»[1] qeyd etməsi diasporun xarici siyasətdə böyük əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir. Belə demək mümkündürsə, müasir sosial-mədəni aləmdə milli mənliyi olan və yad ölkədə uyğunlaşmanın lazımi mərhələlərini keçən insanların diaspor adı altında birləşmələrinin əsas məqsədi və missiyası sabit həyat tərzi qazanmaq, öz milli genofondunu qorumaq və gələcək inkişaflarını təmin etməkdir.

Keçmişdə olduğu kimi, indiki zamanda da miqrasiya yeniləşmənin və qloballaşmanın əsas tendensiyalarından biri sayılmaqla yanaşı, diasporların yaranmasına rəvac verən başlıca amillərdən hesab olunur. Məhz bu sahədə elə mexanizm qurulmalıdır ki, təsis edilən birliklər, cəmiyyətlər, konqreslər və digər təşkilatlanmaların məqsədi və vəzifəsi milli və bəşəri maraqlara cavab versin, eyni zamanda, ümumi tərəqqiyə xidmət etsin.

Yəqin edirik ki, hər bir dövlətin mövcud diaspor potensialı və onun müasir inkişaf səviyyəsi xaricdə yaşayan zümrəsinin konsolidasiyasında ən həssas və vacib məqamlardan biri kimi, bütünlükdə etnosun elmi-mədəni, sosial-iqtisadi, ictimai-siyasi, bir sözlə, hərtərəfli yüksəlişində mühüm əhəmiyyətə malikdir.

[1] http://www.diasporaalliance.org/2011-global-diaspora-forum/; http://arxiv.az/az/az.apa.az/438806/Hillari+Klinton+diaspor+uzvlerini+vetenlerine+komek+etmeye+cagirib

## II FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ƏLAQƏLƏRİNƏ DİASPORUN TƏSİRİ

## 2.1. Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili

XXI əsrdə dünyada baş verən sürətli dəyişikliklər nəticəsində beynəlxalq səviyyədə yeni tələblər ortaya çıxdı və yeni faktorlar yarandı. Bunların içərisində ikitərəfli və çoxtərəfli əməkdaşlıqda yeni metodların yaranmasının zəruriliyi, milli və bəşəri mənada «xalq diplomatiyası», «beynəlxalq icma» funksiyası daşıyan diaspor amilindən istifadə mühüm yer tuturdu. Diaspor fəaliyyətindən müxtəlif dövrlərdə ayrı-ayrı məqsədlər üçün istifadə edilmişdir. Diaspor fəaliyyətinin düzgün istiqamətdə yönəldilməsi xalqlar və dövlətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərir. Düzgün olmayan strategiya isə öz növbəsində milli, dini ayrı-seçkiliyin yaranmasına gətirib çıxara və nəticədə sosial-etnik partlayışa səbəb ola bilər. Deməli, dövlətin düşünülmüş diaspor siyasəti öz xalqının milli təhlükəsizliyinin, dünyanın müxtəlif regionlarında məskunlaşan soydaşlarının hüquq və azadlıqlarının qarantıdır. «Diaspor» problemi bütövlükdə xalqın, dövlətin problemidir. Başqa sosial-etnik anlayışlardan fərqli olaraq diaspor konkret xarakterə malikdir. Açıq-aydın şəkildə milli mahiyyət kəsb edir. Etnosun bir hissəsinin başqa dövlətin ərazisinə köçməsi və oranı özünə ikinci vətən seçməsi «diasporlaşma» prosesidir. Diasporlaşma prosesi şəxslərin ilk yaşayış yerindən, vətənindən köç edərək digər ölkədə məskunlaşması, orada özünə yurd salmasıdır. Bir vaxt miqrasiya etmiş şəxslər, diasporlar milli və federativ münasibətlərin inkişafında etnik qrupun xüsusi amili kimi fərqləndiyi üçün milli şüurun yetişdiyi bir zamanda real qarşılıqlı əməkdaşlıq zəminində nizamlanmalıdır. Diasporlar qloballaşan dünyada sivilizasiyalararası dialoqda əlaqələndirici missiyanın daşıyıcıları olmalı, onların fəaliyyətləri cəmiyyətin inkişafına öz töhfəsini verməli, xalqlararası əlaqələrin yaranmasında, dövlətlərarası münasibətlərin inkişafında körpü rolunu oynamalıdır. Diasporun təşkilatlanması bir tərəfdən etnik birliyin varlığını, ənənəvi formalarını reallaşdırır, digər tərəfdən isə diaspor mədəniyyətin ənənəvi sub-

yektindən hüququn və siyasətin obyektinə çevrilməyə çalışaraq öz funksiyalarını dərinləşdirir və genişləndirir.

İ.Əliyev Sankt-Peterburqdakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdəki çıxışında dövlət-diaspor münasibətlərinin avantajını belə izah etmişdir: «Bu, müstəqil Azərbaycanın potensialını gücləndirir. Çünki başqa ölkələrdə yaşayan azərbaycanlılar doğma vətən üçün çalışırlar, əlindən gələni edirlər. Öz əməkləri ilə, öz bacarıqları ilə ümumi işimizə böyük töhfələr verirlər. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin güclənməsi xaricdə yaşayan azərbaycanlılara da müsbət təsir göstərir. Yəni bu, qarşılıqlı bir prosesdir və mən çox şadam ki, hər iki istiqamətdə gedən işlər çox yüksək səviyyədədir».[1]

Ə.Həsənov beynəlxalq münasibətlərin xarakterik xüsusiyyətləri sırasına diasporun da aid edildiyini bildirərək bu sahədəki mövcud mənzərəni belə açıqlayır: «...beynəlxalq münasibətlərin tərkibinin mürəkkəbləşməsi, ənənəvi dövlət və hökumətlərarası təşkilatlarla yanaşı bu əlaqələrə qeyri-hökumət qurumlarının, transmilli korporasiyaların, kütləvi informasiya vasitələrinin, firmaların, bankların, maliyyə qurumlarının, həmkarlar ittifaqlarının, destruktiv qüvvələrin, etnik elementlərin, dini, milli təşkilatların, diasporların və s. qoşulması».[2]

Bəşəriyyət inkişaf etdikcə ictimai-siyasi proseslər dəyişir və dayanmadan təkamül edir. Yaşadığımız dövrdə dövlət idarəçilik üsullarının təkmilləşməsi beynəlxalq münasibətlər sistemində də yeni metodların yaranmasını şərtləndirir. Dünyada baş verən qloballaşma mədəniyyətlərarası dialoqun genişlənməsinə, sivilizasiyalararası əlaqələrin inkişafına da müsbət təsir göstərir. Bu proses də hər bir iştirakçının sosial-mədəni tərəqqisinə zəmin yaradır. Tarix sübut edir ki, sivilizasiyalararası dialoqda, mədəniyyətlərarası əməkdaşlıqda iştirak etməyən, **«Dünya içində özünə başqa bir dünya quran»** dövlətlər məhvə məhkum olmuşlar. Yeni dünya nizamında insan resursunun ön plana keçməsi müasir tələblərin

---

[1] http://azleadersays.com/az/razdel/30_Diaspora-haqqinda/page_2

[2] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. s. 17.



meydana gəlməsini bir zərurətə çevirir. Zamanın tələbinə uyğun olaraq cəmiyyətdə coğrafi məkanın, etnik mənşənin, dini mənsubiyyətin, siyasi dünyagörüşün fərdi və fərqli xüsusiyyətləri qabarıq şəkildə təzahür edir və yeni beynəlmiləl metodlar ortaya çıxır.

Qloballaşmanın geniş vüsət aldığı, miqrasiya proseslərinin intensivləşdiyi bir şəraitdə diasporun və lobbinin funksiyası daha qabarıq şəkildə özünü göstərir. Bu terminlər yaşadığımız dövrdə xarici əlaqələrin yaranmasında və dövlətlərarası münasibətlərin inkişafında vacib elementə çevrilmişdir. Dünya siyasətində inteqrasiya proseslərinin genişləndiyi bir vaxtda diaspor (lobbi) fəaliyyəti həm sivilizasiyalararası dinamik inkişafın sürətlənməsində, ortaq mədəniyyətin formalaşmasında, həm də dünyada sülh və əmin-amanlığın yaranmasında əlaqələndirici rol oynamağa başlamışdır.

Araşdırma apardığımız illərdə diasporlar təmsil etdikləri dövlətlərin xarici siyasətində artıq mühüm yer tutmağa və dövlətlərarası münasibətlərin inkişafına təsir göstərməklə, güc mərkəzi rolunu oynamaqla beynəlxalq aləmdə əsas atributlardan biri hesab olunmağa başlamışdır. Məhz Azərbaycan diasporunun da milli tariximizin, mədəni irsimizin təbliğində xüsusi rolu vardır. Z.Əliyev bu kontekstdə diaspor amilinin aktuallığını aşağıdakı kimi əsaslandırır:

«**Birinci** səbəb odur ki, hər bir dövlət yarandığı ilk gündən etibarən təkcə öz vətəndaşlarının deyil, ümumiyyətlə, vətəndən kənarda məskunlaşan xalqın yeganə milli varlıq simvolu, etibarlı istinad mərkəzi, himayədarı və milli-siyasi mövcudluq vasitəsi kimi çıxış edir.

**İkincisi,** hər bir dövlət diasporla qarşılıqlı, faydalı intensiv əlaqələr qurmaqda, açıq əməkdaşlıq etməkdə maraqlıdır.

**Üçüncü isə**, hər bir dövlətin daxili problemləri mövcuddur və o, həmin problemlərin həll edilməsinə ehtiyac duyur. Buna görə də, diaspor ilə əlaqə yaradaraq inkişaf etmiş dövlətlərdən humanitar, iqtisadi və hərbi yardım alırlar.

**Dördüncü,** diaspor ayrı-ayrı ölkələrlə öz dövləti arasında faydalı dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında və

mövcud münasibətlərin genişləndirilməsində pozitiv, hətta bəzən müstəsna rol oynayan stimul kimi çıxış edə bilər.

**Beşinci,** ən mühüm səbəblərdən biri də budur ki, diasporlar öz tarixi vətənlərinin mənafeyi naminə geniş təbliğatçılıq işi apararaq dövlətlərinin lobbisinin formalaşmasında «qızıl açar» rolunu oynamaq və vasitəçi olmaq imkanlarına malikdirlər.

**Altıncısı isə,** belə əlaqələr həm də diasporun özünün sağlamlaşmasına, daha da milliləşməsinə, ciddi milli-siyasi güc kimi təşkilatlanmasına nail olmaq baxımından zəruri və təxirəsalınmaz sayılır».[1]

Müasir dünya təcrübəsində artıq mahiyyətini sübut etmiş diasporları mütəxəssislər müxtəlif şəkildə təsnif edirlər. Göstərdiyimiz kimi, T.Poloskova diasporun üç modeli haqqında fikir irəli sürür:

**I) Qeyri-vətənpərvər.** Bu ilkin mərhələ üçün xarakterikdir. Əksər müstəmləkəçi dövlətlər protektoratlarını itirməmək üçün bu təcrübədən istifadə edirlər. Məsələn, Fransa öz dəniz arxası müstəmləkələrini saxlamaqdan ötrü bu təcrübəyə keçdi. Hətta, İsrail bu modeli seçdi. Sionizm ideologiyası bunu yüksəkdən deməyə imkan vermir, ancaq təcrübədə dövlət hər şeyi edir ki, yəhudilər yaşadıqları yerdə qalsınlar, öz mədəniyyət və ideologiyalarının daşıyıcıları olsunlar.

**II) Həmvətənlərin azadlığı və hüquqlarının müdafiəsi.** Bu sahədə macarların geniş təcrübəsi var. Bu onlarda Konstitusiyada da nəzərə alınıb, onlar xaricdən edilən təsirlərə çox az diqqət verirlər. Beynəlxalq təşkilatların fikirlərini nəzərə alsalar da, öz fikirlərini həyata keçirirlər.

**III) Ön planda olan paternalist yanaşma.** Bu modeldə diasporun potensialı milli maraqların müdafiəsi və dövlətlərarası münasibətlərin inkişafına yönəldilir. Bu modeldən Çin və Yaponiya geniş istifadə edir. Hindistan və Braziliya da artıq bu konsepsiyanı qəbul etmişdir.[2]

[1] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, s. 5-6.

[2] Полоскова Т. Диаспора: фактор конфликта или сближения? //



Bu üç modelin hər biri diaspor nəzəriyyəsində mövcuddur və tendensiya əsasən üçüncünün xeyrinə inkişaf edir. Azərbaycan diasporu üçüncü modelə yaxın olsa da, onun özünün spesifik strategiyası vardır. Bu tarixi soy-kökü, adət-ənənələri, maddi-mənəvi dəyərləri ilə dünya mədəniyyətini zənginləşdirən, sivilizasiyalararası dialoqun yaradılması istiqamətində birlik və həmrəylik nümayiş etdirən milliliyin və bəşəriliyin vəhdətidir. Həmçinin onu planetdə baş verən qloballaşma prosesində fəal iştirak edən, dünyada geniş vüsət alan etnik münaqişələrin həllində sülhməramlı missiyanın daşıyıcısı kimi xarakterizə etmək olar.

Hazırda, Çində Dövlət Kargüzarlığında ictimai (diaspor) təşkilat və fondları istiqamətləndirən xüsusi struktur, Macarıstan XİN-də isə böyük Departament vardır. Azərbaycanda isə diasporla işləyən Dövlət Komitəsi fəaliyyət göstərir. Belə demək mümkündürsə, dünyanın əksər inkişaf etmiş ölkələrində diaspor prioritet sahə hesab edilir. Yəni sxem belədir: dövlət idarələri üstəgəl diaspor təşkilatları. Ancaq dövlət orqanları ilə yanaşı, qeyri-hökumət sektorunu da bu istiqamətə yönəltmək vacibdir. T.Poloskova rus diasporunun qeyri-mütəşəkkilliyinə, vahid mərkəzdən idarə olunmamasına heyfsilənərək göstərir ki, «Moskvada diasporla məşğul olan 100-ə yaxın fond var. Bəzilərini çıxmaq şərtilə, onların, həqiqətən, nə ilə məşğul olmalarını ancaq «fala baxmaq» ilə bilmək olar». O, diasporlaşmanın əleyhinə olan siyasətə etiraz edərək qeyd edir ki, «biz «müdafiə» siyasətinin bir növ hökmranlığını rədd etməliyik. Onun mövcudluğunun real imkanları yoxdur, eləcə də baxaq görək ki, həmvətənlərimiz bizim onları müdafiə etməyimizi istəyirlərmi? Çoxları bunu istəmir. İndi elə nəsil yetişib ki, öz ölkələrində yaşamaq istəmirlər, bizdə isə heç istəməzlər. Məsələn, Baltikyanı ölkələrdə çoxu Almaniyaya, İsveçrəyə, Moldovadan isə İtaliyaya, İspaniyaya, ən pis halda Rumıniyaya getmək arzusundadırlar».[1] Diaspor müasir dünyanın ayrılmaz atributu hesab

Дружба Народов, №3, 2000, 152-169 с.

[1] Полоскова Т. Диаспора: фактор конфликта или сближения? // Дружба Народов, №3, 2000, 152-169 с.

olunur. T.Poloskova qeyd edir ki, diaspora maddi və ya mənəvi maraq obyekti kimi deyil, çoxfunksiyalı strateji faktor kimi baxılmalıdır. Bu baxımdan tədqiqatçı diaspor fəaliyyətini üç kateqoriyaya bölür:

1. beynəlxalq proseslərə təsir göstərən beynəlxalq diasporlar (yəhudi, yunan, erməni, çin);
2. regional məsələlərdə rol oynayan regional diasporlar (Cənub-Şərqi Asiyadakı hindlilər, Şimali Afrikada ərəblər);
3. dövlətlərarası münasibətlərdə böyük rol oynayan sərhədyanı azlıqlar, yəni ikitərəfli diasporlar (Danimarka ilə həmsərhəd Almaniyada yaşayan danimarkalılar... və s.).[1]

Düşünürük ki, yuxarıda göstərilən bu üç kateqoriya ilə diferensial şəkildə işləmək lazımdır.

Beləliklə, diaspor fəaliyyətində birinci məsələ təşkilatçılıq-idarəetmə, ikinci, elmi-fundamental yanaşma, üçüncü, diasporun liderlərində dünyagörüşün, siyasi mədəniyyətin olmasıdır. Sadalanan prinsiplər daim diqqət mərkəzində olarsa, onda effektli nəticə əldə oluna bilər. Sadalananlar belə qənaətə gəlməyə imkan verir ki, «diaspor» termininin araşdırılması hələ də çətinliklərlə üzləşir. Bundan başqa, bu sahədə zəngin olmayan təcrübə daha çox diskussiya doğurur. Ümumiyyətlə, siyasi sahənin mütəxəssisləri diaspor anlayışına aşağıdakı kimi tərif verirlər: «Diaspor dedikdə, bu və ya digər xalqın, etnik birliyin müəyyən bir hissəsinin öz vətənlərindən kənarda yaşaması və onların mənsub olduğu xalqın, vətənin mənafeyi uğrunda fəaliyyəti nəzərdə tutulur».[2] Hər bir halda, **«Diaspor – etnik spesifikanın mühafizəsinin, multikultural dəyərlərin ifadəsinin və sivil bəşəri inkişafın epopeyasıdır».**

SSRİ-nin arxivə qoyulması ilə Azərbaycan Respublikası öz tarixi-mənəvi haqqı olan suverenliyinə qovuşdu. Təqribən

[1] Полоскова Т. Диаспора: фактор конфликта или сближения? // Дружба Народов, №3, 2000, 152-169 с.
[2] Politologiya: izahlı lüğət. (baş red. və ön söz. R.Mehdiyev). Bakı: Şərq-Qərb, 2007, s. 82.



70 ildən sonra azərbaycan xalqının öz müqəddəratını həll etməsi və öz taleyinə sahib çıxması cəmiyyətin həyatında yeni bir dövrün başlanğıcına səbəb oldu. Azərbaycan Respublikası hüquqi, demokratik dövlətçilik quruculuğu yolunda «diaspor» amilinə də yer verməyə başladı. Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması və saxlanılması ən həssas və strateji məsələ kimi gündəmə çıxdı. Bu faktor milli dövlətçilik baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar dövlət səviyyəsində işlərin görülməsi və müasir dövrün xarakterik xüsusiyyətlərinə uyğun strategiyanın müəyyənləşdirilməsi ən aktual məsələlərdən biri idi. Diaspor fəaliyyəti xarici siyasətin tərkib hissəsinə çevrilməli idi ki, həm vətənin hüdudlarından kənarda yaşayan həmvətənlərimiz onları birləşdirən dəyərlərin və hüquqlarını müdafiə edən dövlətlərinin olduğunu bilsinlər, həm də yenicə müstəqillik əldə etmiş dövlətlərini təbliğ, onun inkişafında iştirak etsinlər. Xaricdə yaşayan azərbaycanlılarla iş müstəqil ölkənin xarici siyasətinin vacib elementlərindən birinə çevrildi. Bir faktı qeyd etmək kifayət edər ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Əsasnaməsində vəzifələr və funksiyalar sırasında Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının təmin edilməsi ilə yanaşı, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafı kimi məsələ də nəzərdə tutulmuşdur. Bu da xaricdə yaşayan azərbaycanlıların mənafeyinin və əsas azadlıqlarının təmin edilməsi məsələsinin Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu göstərir.[1]

Təsadüfi deyil ki, milli dövlətçilik üçün vacib əhəmiyyət kəsb edən bütün strateji qərarlarda, sənədlərdə, proqramlarda, konsepsiyalarda bu sahəyə xüsusi yer verilmişdi. 2007-ci il 23 may tarixində təsdiq edilən Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında[2] da xaricdə yaşayan azər-

[1] http://www.mfa.gov.az/files/file/10_10.pdf
[2] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası // Azərbaycan qəzeti, 2007, 24 may, №112.

baycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsi, onların milli özünə-məxsusluğunun və dəyərlərinin qorunub saxlanılması kimi məsələlər öz əksini tapmışdı.

Heydər Əliyevin uzaqgörənliklə *müəyyənləşdirdiyi* və hazırda İlham Əliyevin uğurla davam etdirdiyi milli dövlətçilik strategiyasında diasporla iş ön planda yer almaqla, bu sahə xarici siyasətin ayrılmaz hissəsi kimi prioritet elan edilmişdi. Belə ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının onuncu və iyirminci ildönümü haqqında sərəncamlarda bu məsələ diqqətdə saxlanılmış və dünya azərbaycanlıları ilə əlaqədar tədbirlərin təşkilinə dair müvafiq göstərişlər verilmişdir. Müxtəlif ölkələrdə «Azərbaycan günü»nün keçirilməsi, milli diaspor qurumları vasitəsilə Azərbaycan dövlətinin müstəqillik illərindəki nailiyyətlərini nümayiş etdirmək məqsədilə sərgilərin, konfransların və konsertlərin təşkil olunması, müxtəlif nüfuzlu çap və elektron informasiya vasitələrində müvafiq məlumatların yayılması bu qəbildən idi. Bu bir daha diaspor fəaliyyətinin dövlətin xarici siyasəti səviyyəsində əhəmiyyətinin təzahürüdür. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov bu vacib məsələni belə xarakterizə etmişdir: «Diaspor dünya ictimaiyyətinə Azərbaycan haqqında həqiqətlərin çatdırılması işində mühüm rol oynayır. ...Son illər ərzində Azərbaycan diasporu erməni diasporundan fəal olub və informasiya müharibəsində erməni lobbisini qabaqlayır».[1]

2011-ci ildə Bakı şəhərində keçirilən Dünya azərbaycanlılarının üçüncü qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz nitqində diasporçuluğun xarici siyasətin əsas istiqamətlərindən biri olduğunu bir daha xüsusi olaraq vurğulamışdır: «Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, onun dövləti haqqında müsbət imic formalaşsın, xalqı haqqında reallığı əks etdirən bir təəssürat yaransın. ...Bundan sonra diaspor təşkilatları və səfirliklər bir komanda şəklində, bir yumruq kimi işləməlidirlər və Azərbaycanın nə qədər gözəl ölkə olduğunu

---

[1] http://www.1news.az/politics/20110705022307384.html



yaşadıqları ölkənin vətəndaşlarına birgə çatdırmalıdırlar.[1]

XXI əsr nəinki qütblərin, ideologiyaların, sivilizasiyaların qarşı-qarşıya durduğu, eləcə də arxaik, ənənəvi, müasir dünyagörüşlərin üz-üzə gəldiyi zaman kəsiyi kimi səciyyələnir. Bir çox tədqiqatçılar və siyasətçilər bir məsələdə həmfikirdirlər ki, əgər mütərəqqi yönümlü milli müxtəliflik insanlığın sonrakı inkişafı üçün bir vasitədirsə, onda nəyə görə sosial, mədəni, iqtisadi, siyasi, ekoloji və s. situasiyaların stabilliyi üçün bu vasitədən istifadə olunmasın?! Söhbət diasporun milli və bəşəri dəyərlərin qorunması, ikitərəfli və çoxtərəfli əlaqələrin yaxşılaşdırılmasında, millətlərin və dövlətlərin qarşılaşdığı qlobal problemlərin həllində əsas beynəlxalq faktorlardan biri olmasından gedir. Bu cür yanaşma orijinallığı ilə seçilməsə də, onun səmərə verəcəyi labüddür. Bunun reallığını əks etdirmək üçün öz aralarında bir-biri ilə sıx bağlı olan üç məsələyə diqqət yetirək:

**Birincisi,** diaspor fenomeni istənilən bir xalqın milli mentalitetini qorumaq üçün ideal vasitədir.

**İkincisi,** diaspor potensialı hər bir etnosun dünyəvi özünüifadəsi üçün mühüm vasitədir.

**Üçüncüsü,** diaspor fəaliyyəti xarici siyasətin səmərəliliyinin artırılması üçün əhəmiyyətli vasitədir.

Bu gün dünyada gedən qlobal proseslərdə siyasi amillərlə yanaşı ictimai rəy də çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, gündəmdə olan **«Xalq diplomatiyası»**, **«Beynəlxalq icma»** mahiyyəti daşıyan diaspor fəaliyyəti xalqlararası sosial-mədəni əlaqələrin yaranmasında və dövlətlərarası siyasi-iqtisadi münasibətlərin inkişafında **«vasitəçi»** statusu qazanmışdır. İstər daimi diaspor həyatı yaşayan (digər dövlətdə həmişəlik yaşayanlar, məskunlaşanlar), istərsə də müvəqqəti (digər dövlətlərdə müddətli qalan tələbələr, transmilli korporasiyalarda işləyənlər) bu şəxslər öz vətəndaşlıq məsuliyyətini dərk etməli və tarixi vətəni ilə məskunlaşdığı dövlət arasında xoşməramlı missiyanın

---

[1] Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 2003-2011-cü illər.

daşıyıcısına çevrilməlidir. Nəzərə alsaq ki, xaricdəki tələbələrlə digər ölkələrdən gələn onlarla ölkə vətəndaşı təhsil alır, onların üzərinə nə dərəcədə məsuliyyət düşdüyünü aydın şəkildə görə bilərik. Onların amalı yaranmış münbit şəraitdə vətənini layiqincə təmsil və təbliğ etmək olmalıdır.

Məhz dövlət müstəqilliyin ilk illərində Azərbaycan Respublikasının xarici siyasətinin prioritetləri sırasında bir neçə əsas istiqamətlərdən biri də diaspor idi: «...Dünya siyasətinə təsir imkanı olan böyük dövlətlərlə, beynəlxalq və regional təşkilatlarla, xarici ölkələrdə Azərbaycanın qlobal maraqlarını müdafiə edə biləcək institutlarla, kütləvi informasiya vasitələri ilə, diaspora mərkəzləri və başqa qurumlarla hərtərəfli işin aparılması, Azərbaycanın onlar üçün kəsb edəcəyi əhəmiyyətin anladılması».[1]

Belə qənaətə gələ bilərik ki, bu potensialdan, yəni diaspor amilindən milli özünəməxsusluğun yaşadılmasında, dövlət maraqlarının qorunmasında, xalqın mənafeyinin həyata keçirilməsində, onlar haqqında müsbət imicin formalaşmasında obyektiv vasitə kimi istifadə olunarsa, o, etnik-mədəni müxtəlifliyin qorunub saxlanılmasında, mədəniyyətlərarası əməkdaşlığın möhkəmlənməsində və sivilizasiyalararası dialoqun inkişafında mühüm rol oynaya bilər. Çünki, diasporun əsas missiyası yaşadığı cəmiyyətlərdə, fəaliyyət göstərdiyi ölkələrin qayda və qanunları çərçivəsində düzgün istiqamət götürərək etnik adət-ənənəsini yaşatmaqla bərabər xalqlar arasında sosial əlaqələrin yaranmasına, dövlətlərarası münasibətlərin inkişafına töhfə verməkdən ibarət olmalıdır. Araşdırmamız onu da göstərdi ki, Azərbaycan Respublikasının xarici siyasətində diaspor fəaliyyətindən daha da səmərəli istifadə edilərsə, bu, dövlətimizin beynəlxalq imicinin daha da yüksəlməsinə və xalqımızın milli müdafiəsinin daha da güclənməsinə fayda verə bilər.

[1] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. s. 219-247.



## 2.2. Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələri

Yer kürəsində etnik zəmində baş verən münaqişələrin getdikcə artdığı bir vaxtda sülhün, əmin-amanlığın, dövlətlərin mühafizəsinin, xalqların təhlükəsizliyinin və dostluğunun yaranmasında, formalaşmasında və qorunmasında diasporların qarşısında çox həssas, strateji və əhəmiyyətli fəaliyyət durur.

Araşdırma apardığımız illərdə dövlətlərlə diasporların qarşılıqlı münasibətlərində praqmatizm getdikcə daha da üstünlük təşkil etməyə başlamışdır. Hazırda bu iki siyasi subyektin qarşılıqlı əlaqələri təkcə diasporların dövlətin müəyyənləşdirdiyi siyasi-hüquqi normalar daxilində fəaliyyət göstərməsi ilə məhdudlaşmır, eyni zamanda dövlətlər də diasporların siyasi gücü, potensialı ilə hesablaşmalı olurlar. Belə ki, dövlətlər diasporların imkanlarından həm daxili məsələlərdə, ictimai stabillikdə, seçki marafonlarında, həm də xarici məsələlərdə, onların gəldikləri ölkələrlə (öz tarixi vətənləri ilə) münasibətlərdə, ticarət dövriyyəsinin gücləndirilməsində və s. istifadə edirlər. Əksər ölkələrdə dövlət başçısı səviyyəsində «Millətlərarası Əlaqələr Şurası» yaradılmış, dövlətlərarası protokola diaspor nümayəndələri daxil edilmişdir. Təhlillər göstərir ki, milli nöqteyi-nəzərdən yaranan anlaşılmamazlıqların həll edilməsi üçün də diasporla müvafiq beynəlxalq təşkilatların potensialının birləşdirilməsi öz səmərəsini verə bilər.

Tarixi təcrübə göstərir ki, diaspor nümayəndələrinin müxtəlif dairələrdə nüfuzu və təsiri nə qədər geniş olursa, bu dövlətin siyasətində, qəbul etdiyi qərarlarda həmin etnik qrupun maraqlarının nəzərə alınması imkanları da bir o qədər yüksək olur. Xaricdə yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin güclənməsi və dünya ölkələri ilə münasibətlərin inkişafı naminə mütəşəkkil və məqsədyönlü şəkildə təşkilatlanması olduqca vacib məsələlərdəndir. Bu məsələyə daha çox diqqət və qayğı məhz 1993-cü il iyun ayının 15-də H.Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə

göstərilməyə başlandı. Onun apardığı müdrik və sülhsevər xarici siyasət sayəsində Azərbaycan diasporunun fəaliyyəti təqdirəlayiq mərhələyə çatdı və azərbaycanlıların kompakt yaşadığı ölkələrlə bu istiqamətdə əməkdaşlıq yaradıldı. Xarici ölkələrdə yaşayan azərbaycanlıların sosial-mədəni inteqrasiyasının yaranması, ictimai-siyasi fəallığının artırılması, hüquq və azadlıqlarının qorunması istiqamətində müxtəlif tədbirlər həyata keçirilməyə başladı.

Azərbaycan dövlətinin diaspor vasitəsilə yüksək əlaqələr qurduğu ölkələr sırasında Ukrayna xüsusi yer tutur. Diasporumuzun Azərbaycan-Ukrayna əlaqələrinin mühüm tarixi əhəmiyyəti vardır. Diasporun dövlətlərarası münasibətlərin inkişafında rolunu Azərbaycan-Ukrayna nümunəsində görmək olar. Ukraynada Azərbaycan diasporu XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Azərbaycanlı tələbələrin (Şəfi bəy Rüstəmbəyli, Mir Əbülfət bəy Talışlı, Xəliyulla Yenikeyu) təşkilatçılığı ilə «Azərbaycan Həmyerlilər Cəmiyyəti» (Землячество) fəaliyyət göstərirdi.[1] Buna baxmayaraq, əsrin sonuna doğru bu sahədə işlər daha intensiv xarakter almışdır. Xatırlatmaq yerinə düşər ki, ilk Azərbaycanlılar Konqresi 1999-cu ildə məhz Ukraynada yaradılmışdır. Ukraynanın hər bir vilayətində ayrı-ayrılıqda Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərirdi. Bunun əsas səbəbi Azərbaycanla Ukrayna arasında əvvəllər də münasibətlərin zəngin tarixi keçmişə malik olması idi. Hələ SSRİ dönəmində mövcud olan Azərbaycan-Ukrayna əlaqələri Sovetlər Birliyinin dağılması ilə yeni mərhələyə qədəm qoydu. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də məhz Ukrayna oldu. İki müstəqil ölkə arasında siyasi əlaqələrin əsası 1991-ci ilin noyabrında «Ukrayna və Azərbaycan Respublikaları arasında dövlətlərarası münasibətlərin əsasları haqqında» müqavilənin imzalanması ilə qoyuldu. Azərbaycan-Ukrayna əlaqələrinin inkişafının yüksəlişi bu ölkədə milli diasporun təşkilatlanması

[1] Əliyeva İ. Məsləkinə sadiq böyük mücahid // Azərbaycan qəzeti, 2015, 22 iyul, №154.



işi isə bilavasitə H.Əliyevin adı ilə bağlıdır. Ukrayna Prezidenti Leonid Kuçmanın 1995-ci il iyulun 27-28-də və 2000-ci il martın 16-17-də Azərbaycana rəsmi səfərləri və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci il martın 24-25-də Ukraynaya səfəri ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə geniş zəmin yaratdı. Sonrakı illərdə Azərbaycan-Ukrayna əlaqələri genişlənmiş və dövlətlərarası münasibətlər daha da möhkəmlənmişdir. Azərbaycanın dövlət başçısı İlham Əliyevin 2004-cü ilin iyununda Ukraynaya rəsmi səfəri zamanı iki ölkə arasındakı əməkdaşlığın sonrakı inkişafına yeni istiqamət verdi. Bundan iki il sonra Ukraynanın dövlət başçısı Viktor Yuşşenkonun ölkəmizə gəlişi rəsmi Kiyevin ikitərəfli strateji əməkdaşlığın möhkəmləndirilməsinə verdiyi böyük önəmi bir daha təsdiqlədi. 2010-cu ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Ukraynaya səfərini Ukrayna-Azərbaycan dövlətlərarası əməkdaşlığının zirvəsi hesab etmək olar. Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əməkdaşlığın uğurla həyata keçirilməsində hər iki ölkə başçısı tərəfindən imzalanan «2009-2010-cu illər üçün Azərbaycan-Ukrayna əməkdaşlığına dair tədbirlər» haqqında sənəd görülən işlərin reallaşdırılmasında xüsusi rol oynamışdır. 2011-ci ilin aprel ayının 28-29-da Ukrayna Prezidentinin ölkəmizə səfər etməsi, həmin ildə Davosda Azərbaycan və Ukrayna prezidentləri arasında keçirilən görüş iki ölkə münasibətlərinin dinamik inkişaf səviyyəsinin bariz göstəricisi idi. Hər iki ölkə beynəlxalq arenada daim bir-birini dəstəkləyir. Ukrayna Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq müzakirələrdə hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etmişdi.[1]

Bu dövrdə Azərbaycan-Ukrayna arasındakı ikitərəfli münasibətlərin inkişafında 1999-cu il mart ayının 21-də yaradılmış Ukrayna Azərbaycanlıları Konqresi mühüm əhəmiyyət kəsb et-

[1] Məmmədli H. Azərbaycan-Ukrayna əlaqələri yüksək səviyyədədir // Yeni Azərbaycan qəzeti, 2011, 2 fevral, №19.

mişdi. Bununla yanaşı, Donetsk şəhərində təsis edilmiş Donetsk Vilayəti Azərbaycanlıları Konqresinin fəaliyyətini də xüsusi qeyd etmək vacibdir. 2005-ci il dekabr ayının 2-də yaradılmış Konqresin fəaliyyətində əsas proqram Ukrayna və Azərbaycan xalqlarının humanist ənənələrini təbliğ etmək idi. Bu təşkilat Ukraynadakı Azərbaycan səfirliyi ilə sıx əlaqə qurmaqla «xalq diplomatiyası»nın inkişaf perspektivlərini artırır, dövlətlər arasında ictimai-mədəni, sosial-iqtisadi sahələrin inkişafına öz müsbət təsirini göstərirdi. Konqres bu illər ərzində bir sıra sosial-mədəni tədbirlər həyata keçirmişdi. Azərbaycan xalqının milli bayramlarından olan Novruz bayramı münasibətilə Donetsk vilayətinin Musiqili Dram Teatrında təşkil edilmiş möhtəşəm konsert də bu qəbildən idi. Azərbaycan Respublikasının Ukraynadakı səfirliyindən və Donetsk vilayəti administrasiyasından da nümayəndələrin iştirak etdiyi bu konsertdə Ukrayna və Azərbaycanın tanınmış incəsənət xadimləri, eləcə də türk, yəhudi, yunan, gürcü, tatar diasporunun təmsilçiləri öz folklor nümunələri ilə çıxış etmişdilər. 2006-cı ildən başlayaraq Konqresin təşəbbüsü ilə Donetsk vilayətinin bir sıra şəhərlərində nümayəndəliklər açılmış və həmin ilin dekabr ayının 11-də Konqresin bir illik yubileyi də qeyd olunmuşdur. Mərasimdə iştirak edən Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev Konqresin fəaliyyətini yüksək qiymətləndirərək, Azərbaycan Respublikası adından Konqresin sədri İqbal Mahmudova «Fəxri fərman» təqdim etmişdir. Bu isə Azərbaycan dövlətinin diplomatik nümayəndəlikləri, səfirlikləri ilə diasporun qarşılıqlı əlaqəsinin bariz nümunəsidir.

2007-ci ilin yayında Konqresin təşəbbüsü ilə «Ukraynada Azərbaycan mətbəxi günü» adlı daha bir mədəni-kütləvi tədbir keçirilmiş və Azərbaycan kulinariyasının zənginliyinə və milli mətbəx mədəniyyətinə qonaqlar heyran olduqlarını bildirmişdilər. Həmçinin, 2007-ci ilin oktyabr ayında Konqresin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Respublikasının Ukraynadakı səfiri, Ukrayna Azərbaycanlıları Konqresinin sədri, Ukrayna Ali Radasının xalq deputatları və Ümumdünya Azərbaycanlıları Konqresi nümayəndələrinin iştirakı ilə keçirilən dəyirmi masada müzakirə olunan əsas mövzu azərbaycanlıların vahid Konqresdə birləşdirilməsi və müdafiəsinin təminatı olmuşdur. Elə həmin il Konqresin fəaliyyətinə həsr edilmiş 1750 nüsxədən ibarət «Содружество» (Sodrujestvo) jurnalının birinci nömrəsi nəşr edilmişdi. 2008-ci ildə fəaliyyətini daha da genişləndirən Donetsk Vilayəti Azərbaycanlıları Konqresi nəzdində burada, ümumilikdə Ukraynada yaşayan azərbaycanlı gəncləri bir araya gətirərək, onların milli həmrəyliyinə və birliyinə nail olmaq, etnik kimliklərini qorumaq, yaşadıqları cəmiyyətə inteqrasiya etmələrinə dəstək vermək, milli dəyərlərini təbliğ etmək və ictimaiyyətə çatdırmaq məqsədilə «Gənclər Parlamenti» yaradılmış və «Konqres Azərbaycan»* adlı qəzet nəşrinə başlanılmışdı.[1]

Bunun fonunda 2011-ci il dekabrın 9-da Kiyevdə keçirilən Ukrayna Azərbaycanlı Gənclər Birliyinin 2-ci forumunda Ukraynanın müxtəlif vilayət və şəhərlərindən 500 nəfər gənc iştirak etmişdir.[2]

Azərbaycan və Litva Respublikaları arasında diplomatik münasibətlər 1995-ci ilin dekabr ayında qurulmuşdur. 2007-ci il aprelin 3-də Litvanın Azərbaycanda, həmin il sentyabrın 6-da isə Azərbaycanın Litvada səfirliyi açılmışdır. Hazırda hər iki ölkə arasında «Birgə İqtisadi Komissiya» və «Parlamentlərarası Dostluq Qrupları» fəaliyyət göstərir. 2006-cı il iyun ayının 8-9-da Litva Respublikasının Prezidenti Valdas Adamkus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə öl-

---

**Qeyd:* *«Gənclər Parlamenti» və «Konqres Azərbaycan» qəzeti Yəhya Babanlının təşəbbüsü ilə yaradılmış və nəşr edilmişdir. Y.Babanlı parlamentin ilk sədri və qəzetin baş redaktoru olmuşdur. 2008-ci ilin mart ayında birinci nömrəsi (xüsusi buraxılış) çapdan çıxan «Konqres Azərbaycan» qəzetində dərc edilən və Donetsk Vilayəti Azərbaycanlıları Konqresinin qarşısında perspektiv iş planı kimi qoyulan «VI bəndlik layihə» Ukraynada Azərbaycan diasporu tərəfindən həyata keçirilmişdir. Bunlara öz vətənpərvərliyi ilə seçilən soydaşımız, Donetsk Vilayəti Azərbaycanlıları Konqresinin sədri mərhum İqbal Mehmudov dəstək vermişdir.*

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2008.

[2] Yenə orada, 2012.

kəmizə rəsmi səfərindən sonra iki ölkə arasında münasibətlər daha da yüksək səviyyə çatmışdır. 2007-ci ilin sentyabrında İ.Əliyevin Litvaya rəsmi səfəri Azərbaycan-Litva münasibətlərinin yüksələn xətlə inkişafında perspektivlər açmışdır. Dövlət başçılarının geniş tərkibdə görüşündə İ.Əliyev demişdir: «Biz Litva ilə münasibətlərə xüsusi əhəmiyyət veririk və bu münasibətlər son vaxtlar xeyli inkişaf etmişdir. Litva və Azərbaycan vahid mövqelərdən çıxış edirlər, ölkələrimiz arasında heç bir problem yoxdur və əlaqələrimiz yüksələn xətlə inkişaf edəcəkdir».[1] Dövlətlərarası iqtisadi əməkdaşlığın genişləndirilməsi prosesində Azərbaycan-Litva ticarət mübadiləsinin artırılması və şaxələndirilməsinin aparıcı amil kimi əhəmiyyəti Azərbaycan və Litva arasında imzalanmış «Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında» Bəyannaməsində xüsusi olaraq vurğulamışdır. Bu əməkdaşlıq mədəniyyət, elm, təhsil, səhiyyə və sosial müdafiə sahələrini də əhatə edirdi. Azərbaycan və Litva dillərinin öyrənilməsində və ədəbiyyatının yayılmasında, habelə elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsində əməkdaşlıq hər iki ölkədə yüksək qiymətləndirilirdi. 2011-ci ilin fevral ayının 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Litva Seyminin sədri İrena Dequtbenenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərək iki ölkə arasında siyasi sahədə qarşılıqlı fəaliyyətin yüksək səviyyəsindən razılıq ifadə etmişdir. Parlamentlərarası əlaqələrin önəmini vurğulayan dövlət başçısı ölkəmizin Avropa Parlamenti, Avropa Şurası, ATƏT və NATO-nun Parlament Assambleyaları kimi müxtəlif beynəlxalq təşkilatlarda əməkdaşlıq təcrübəsinə malik olduğunu xatırlatmış və bu əməkdaşlığın artıq ənənəvi xarakter daşıdığını bildirmişdir. Mövcud əlaqələri daha da aktuallaşdıran əsas səbəb Litvanın Avropa İttifaqının və NATO-nun tamhüquqlu üzv olması ilə bağlı idi. Bu ölkə 2011-ci ildə Ermənistan-Azərbaycan Dağlıq

[1] Daşsalahlı R. Azərbaycan-Litva münasibətləri yüksələn xətlə inkişaf edir // Yeni Azərbaycan qəzeti, 2011, 11 fevral, №26.



Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-ə sədrlik edib. Bu baxımdan, Azərbaycan ilə Litva arasında əməkdaşlıq həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm yer tuturdu.

Azərbaycanın Rumıniya ilə XV əsrə təsadüf edən tarixi əlaqələri vardır. Hələ, 1473-cü ildə Ağqoyunlu hökmdarı Uzun Həsənlə rumın hökmdarı Böyük Stefan arasında müttəfiqlik haqqında müqavilə bağlanmışdır. Məhz Azərbaycan öz müstəqilliyini bəyan etdikdən sonra Rumıniya ölkəmizin suverenliyini tanıyan ikinci dövlət olmuş, 1992-ci ilin iyun ayının 21-də iki ölkə arasında diplomatik əlaqələr yaradılmışdır. 1998-ci il noyabrın 3-dən Rumıniyanın Azərbaycanda, 2001-ci il may ayının 19-dan isə Azərbaycanın Rumıniyada səfirlikləri fəaliyyət göstərir. 1999-cu ilin statistik məlumatına görə, Rumıniyada bu dövrdə 45 min nəfər azərbaycanlı yaşayırdı. Azərbaycanla Rumıniya arasında siyasi, iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il oktyabr ayının 12-də Rumıniyaya rəsmi səfəri zamanı Rumıniya-Azərbaycan əlaqələrinə yüksək dəyər verdiyini vurğulamışdır: «Mən əminəm ki, bu gün imzalanmış bütün sənədlər gələcək əməkdaşlığın uğurlu inkişafı üçün də yaxşı əsas yaradır. İkitərəfli münasibətlərin inkişafı üçün çox gözəl imkanlar, çox böyük potensial vardır və biz gələcək illərdə bu potensialdan səmərəli şəkildə istifadə edəcəyik».[1]

Azərbaycan-Fransa dövlətlərarası sosial-mədəni və siyasi-iqtisadi münasibətlərin güclənməsində də diasporun xüsusi yeri vardır. Azərbaycanlıların Fransaya mühacirət tarixi XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf etsə də, Fransanın Azərbaycana olan maraqları XV-XVI əsrlərdən başlayır. Azərbaycan Cümhuriyyəti süqut etdikdən sonra azərbaycanlıların mühacirət etdikləri ölkələr sırasında Fransa xüsusi yer tuturdu. Məhz möv-

[1] Daşsalahlı R. Azərbaycan-Rumıniya arasında strateji tərəfdaşlığın möhkəm təməli qurulub // Yeni Azərbaycan qəzeti, 2011, 19 fevral, №32.

cud rejimin mühacirətə məcbur etdiyi Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli, Ümmül Banu, Yusif Vəzir Çəmənzəminli bu ölkədə sığınacaq tapmışdılar. Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixli aktla müstəqilliyi bərpa edildikdən sonra Fransa ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yaranması bu ölkədə diaspor fəaliyyətimizi gücləndirmişdir. Digər tərəfdən Fransa dövlətinin Dağlıq Qarabağ problemində Ermənistanı dəstəkləməsi Azərbaycan diasporu təmsilçilərini bu ölkədə daha ayıq və ehtiyatlı, ictimai-siyasi fəaliyyətlərində daha əzmli olmağa sövq etmişdir. 1990-cı illərdən başlayaraq Fransada Azərbaycan icmalarının sayı çoxalmağa başlamış və fransızlara Ermənistan-Azərbaycan münaqişəsi haqqında məlumat verilmiş, Azərbaycanın etnik-tarixi ərazisi olan Dağlıq Qarabağ haqqında həqiqətlərin çatdırılması üçün «Dağlıq Qarabağ», «Dağlıq Qarabağın tarixi və ona aid sənədlər», «Qarabağ» (məqalələr toplusu), «Qarabağ tarixi və indiki dövr» və s. adlı kitablar nəşr olunmuşdur. Hazırda Fransanın Paris, Strasburq, Qrenobl şəhərlərində «Azərbaycan evi», «Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti» (1990), «Azərbaycan Kültür Mərkəzi», «Fransada Azərbaycan Tələbələr Assosiasiyası» (1999), «Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyası», «Təhsil və Tədqiqatların inkişafı üzrə Fransa-Azərbaycan Tələbə Assosiasiyası» (2001), «Azəri-Fransız Gənclik Assosiasiyası» (2003) və s. kimi təşkilat və mərkəzlər fəaliyyət göstərməkdədir. Qeyd edək ki, 1992-ci ilin yanvar ayında Fransa Azərbaycanın dövlət müstəqilliyini tanısa da, tərəflər arasında 1993-cü ilə qədər münasibətləri inkişaf etdirmək üçün heç bir irəliləyiş əldə olunmamışdı. Lakin H.Əliyevin təşəbbüsü və iradəsi sayəsində Azərbaycan və Fransa arasında möhkəm təmələ söykənən əməkdaşlıq və dostluq münasibətlərinin əsası qoyulmuş, prezidentin 1993-cü il dekabr ayının 19-dan 22-dək Fransaya etdiyi ilk rəsmi səfəri bu sahədə əvəzsiz rol oynamışdır. Avropa ölkələri ilə əməkdaşlıq siyasətinə Fransadan başlanan bu tarixi səfərlə Azərbaycan Respublikası Fransa Respublikası ilə əlaqələrə nə qədər böyük əhəmiyyət verdiyini bir daha nümayiş etdirmişdir. Görüşdən o da məlum olmuşdur ki



Fransa dövləti və xalqı heç də erməni və ermənipərəst qüvvələrin iddia etdikləri kimi «erməninin dostu, azərbaycanlının düşməni» deyilmiş. O dövrdəki Fransa Prezidenti Fransua Mitteranın «Fransa heç vaxt heç bir dövlətin, o cümlədən, Azərbaycanın dövlət sərhədlərinin dəyişdirilməsi və ərazi bütövlüyünün zorla pozulması ilə razılaşa bilməz» ifadəsi səfəri diqqətlə izləyən Ermənistan və bu ölkədə çox güclü mövqe tutmuş erməni lobbisini sarsıtmışdır. Bu səfər Azərbaycan diasporunu canlandırmaqla onun daha geniş fəaliyyətə başlamasına təkan vermiş və Azərbaycan lobbisinin yaranmasında mühüm rol oynamışdı. H.Əliyev Fransaya səfərləri zamanı burada yaşayan soydaşlarımızla bir sıra mühüm görüşlər keçirərək onların təşkilatlanması və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini, xüsusilə də Xocalı faciəsini törədən ermənilərin vəhşiliyini dünya ictimaiyyətinə çatdırılmasına dair tövsiyələrini vermiş, onları ümumi milli həmrəyliyə çağırmış və daim bu birliyə istinadən hərəkət etməyi nəsihət etmişdir.

XIX əsrdən bünövrəsi qoyulmuş Azərbaycan-Fransa mədəni əlaqələri son dövrlər də daha geniş vüsət almışdır. Keçən əsrin əvvəllərindən, eləcə də Azərbaycanın Sovetlər tərəfindən işğalından sonra doğma vətənini tərk edib Parisdə və digər sənaye şəhərlərində məskunlaşan və Ə.Topçubaşov, C.Hacıbəyov, Y.V.Çəmənzəminli, Ümmülbanu (Banin) və s. kimi əksəriyyəti Azərbaycan elitasının nümayəndələrinin birliyindən, çox kövrək də olsa, azərbaycanlılardan ibarət icma yaranmışdır. Müstəqilliyimizin bərpası və münasibətlərimizin əmin-amanlıq müstəvisində inkişafı ömrünü bu ölkədə başa vurmuş görkəmli həmvətənlərimizin həyat və fəaliyyətinə işıq salmaqla bərabər, tariximizin mühüm səhifələri ilə bağlı arxiv materiallarının üzə çıxmasına, alimlərimizin bu sahədə elmi araşdırmalarına yol açmışdı. Digər tərəfdən, onların fəaliyyəti T.Nərimanbəyov, R.Abutalıbov və başqa elm və incəsənət xadimlərimizin Fransada yaşayaraq işləməsinə, tanınmasına, o cümlədən, Azərbaycanda fransız ədəbiyyatının ən yaxşı tərcüməçilərindən və tədqiqatçılarından biri kimi tanınmış Hamlet Qocanın 2000-ci

ildə tərcüman fəaliyyətinə görə Fransa hökumətinin ali mükafatı «Beynəlxalq İncəsənət və Ədəbiyyat Komandanı Ordeni» ilə təltif olunmasına da şərait yaratmışdı. Əlaqələrimizin müsbət inkişafının dövlətlərimizin mənafeyinə verdiyi töhfələrin sırasını xeyli böyütmək olar. Hər bir sahədə olduğu kimi, elektron kütləvi informasiya vasitələrində də təbliğat işinin düzgün qurulması sahəsində də iş aparılmışdı. Məsələn, Paris şəhərinin «Kuhtuazi» radiosunun efirində Azərbaycan haqqında verilişlər üçün bir saat vaxt ayrılmışdı.[1]

Fransa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçi olan ATƏT-in Minsk qrupunun ABŞ və Rusiya ilə birlikdə həmsədri kimi araşdırılan illərdə bu istiqamətdə işini davam etdirmişdir. Ümummilli lider H.Əliyev tərəfindən müəyyənləşdirilmiş xarici siyasət kursunu yeni müstəvidə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 2004, 2006, 2007-ci illərdə Fransaya səfərlər etmişdir. 2007-ci ildə İ.Əliyev Fransa dövlətinin ali mükafatı «Fəxri Legion ordeni»nin yüksək dərəcəsi ilə, Jak Şirak isə Azərbaycan dövlətinin ali mükafatı «Heydər Əliyev ordeni» ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə 2009-cu ilin noyabrın 8-9-da səfəri zamanı Fransa Respublikasının Prezidenti Nikolya Sarkozi də iki ölkə arasındakı əməkdaşlığın əhəmiyyətini bir daha vurğulamışdır. «Azərbaycan yerləşdiyi regionda ən sabit, sürətlə inkişaf edən və gözəl perspektivləri olan ölkədir. Fransa belə bir dövlətlə əlaqələrini inkişaf etdirməkdə maraqlıdır».[2] Mövcud əlaqələrin güclənməsində iki ölkə arasında yaradılmış Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyanın fəaliyyətini də xüsusi qeyd etmək yerinə düşərdi. 1997-ci ildə yaradılan Komissiyanın tədqiq etdiyimiz dövrdə keçirilmiş 3 iclasında qaldırılan məsələlər ölkələr arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2004.

[2] http://www.mfa.gov.az/files/file/Diplomatiya_Alemi_25.pdf



genişləndirilməsinə, yeni sahələr üzrə münasibətlərin inkişafına səbəb olmuşdur. Bu da dövlətlərarası siyasi və iqtisadi münasibətlərin möhkəmlənməsinə və xarici ticarət dövriyyəsinin yüksəlməsinə təsir göstərmiş, bir neçə illər ərzində ticarət dövriyyəsi 3-4 dəfədən çox artmışdır.

Hələ, 1919-cu ilin yanvarında Əli Mərdan bəy Topçubaşovun başçılığı ilə Azərbaycan Xalq Cumhuriyyəti Nümayəndə Heyətinin çox çətin bir yolu keçərək Paris Sülh Konfransının rəhbərlərindən biri olan ABŞ Prezidenti Vudro Vilsonla görüşmələri və bu zaman ona konfransın Memorandumunu, həmçinin, Azərbaycan haqqında məlumat xarakterli materiallar təqdim etməklə AXC-nin müstəqil iyinin «de-fakto» (faktiki) tanınmasının qəbul edilməsinə nail ola bilmələri uğurlu diplomatik gedişatla bərabər,[1] Azərbaycan lobbiçiliyinin ilk həmləsi kimi dəyərləndirilə bilər.

Lakin sovet dövrünün qadağaları və müstəqilliyin əvvəllərinin anarxiyası xaricdə yaşayan azərbaycanlıların da vəhdətinə mənfi təsir göstərmişdir. Nəticə etibarı ilə erməni diasporu öz məkirli fəaliyyəti ilə məqsədlərini həyata keçirə bilmişlər. Azərbaycana qarşı başqa ölkələrlə yanaşı, ABŞ cəmiyyətində də, yuxarı dairələrində də qərəzli yanaşma formalaşdırmışlar. Bu ölkədə erməni lobbisinin tarixi imkanlarının geniş olması milli mənafeyimiz sarıdan təsirsiz ötüşməmişdir.

«ABŞ-dakı ermənilər siyasi cəhətdən çox fəaldırlar. Onların əksəriyyəti Respublikaçılar Partiyasının üzvüləri və tərəfdarlarıdırlar. ABŞ-ın siyasi tarixində ilk dəfə erməni mənşəli Stevi Derunyan 1952-ci illərdə Nyu-York şəhərində konqresə üzv seçilmişdir. 1978-ci ildə isə Şarl Paşayan adlı bir erməni ABŞ nümayəndələr məclisinin üzvü seçilmişdir. Bu vaxta qədər o, bir müddət orduda strateji informasiya xidmətində çalışmışdır. Həmin dövrlərdən etibarən ermənilər ABŞ dövlət aparatında bir sıra məsul vəzifələr tutmağa başlamışlar. Məsələn, prezident Cimmi Karterin vaxtında Riçard Manukyan adlı bir erməni ən

[1] http://presarchive.gov.az/az-opennews/161.html#.V4NgZvmLRdg

«sadiq» işə, «Əsərləri qoruma» xidmətinin rəhbəri təyin edilmişdi. Erməni lobbisinin ən fəal rəhbərlərindən olan Kaliforniya valisi Corc Dükməcyan səkkiz il bu vəzifədə işləmiş və 1991-ci ildə vəzifədən getmişdir. Kaliforniya ştatı məclisin üzvü Valter Karabyan ABŞ siyasi dairələrində sözü keçən nüfuzlu şəxsiyyət sayılır. Dükməcyan prezident Ronald Reyqanın seçki kompaniyasında yaxından iştirak etmiş, «erməni mənşəli amerikan seçicilər» komitəsinin rəhbəri olmuşdur. Vəzifədən gedən valinin şərəfinə Los-Ancelesdə düzəldilmiş vida ziyafətində erməni mənşəli 600 amerikan iştirak etmişdir. Təntənəli qonaqlıqda Dükməcyan ümidvar olduğunu bildirmişdir ki, bundan əvvəl onunla əl-ələ verib ümumi iş görənlər ruhdan düşməsin. Dükməcyanın səkkiz il ştat valisi olması nəticəsiz qalmamışdır. O, siyasətdə də, vəzifə borcunun icrasında da soydaşlarının rəyi ilə həmişə hesablaşmışdır. Kaliforniyanın indiki ali məhkəməsinin 7 üzvündən ikisi ermənidir: Onlardan biri – Armen Arabyan, ilk dəfə hakim vəzifəsinə 1972-ci ildə ştatın o vaxtkı valisi Reyqan tərəfindən təyin edilmiş, sonra isə ali məhkəmənin tərkibinə düşmüşdür; Marlin Bekster (Dazaryan) valinin yanında 5 il yüksək vəzifədə işləmiş, sonra bu tərkibə daxil olmuşdur. Son illərdə Kaliforniya ştatında erməni icması üzvlərinin artması meyli güclənmişdir. Yeni sakinlər Sovet Ermənistanından olan qaçqınlar, 1988-ci il zəlzələsindən zərər çəkənlər, Amerikanın başqa yerlərindən yırğış edib siyasi cəhətdən daha «qonaqpərvər» olan Kaliforniya ştatına gələnlərdir. Los-Ancelesdə çıxan «Armenian Observer» qəzetinin redaktoru Keşişyanın fikrincə ABŞ-da yaşayan ermənilərin 400 mini bu ştatda yaşayır. Ümumiyyətlə, xaricdə bir şəhərdə kök salmış erməni koloniyaları arasında ən böyük Los-Ancelesdədir, daha doğrusu Hollivuddadır. Ermənilər kino biznesində nəzərə çarpacaq iz qoymuşlar. Onların həvəs göstərdikləri başqa bir sahə isə kənd təsərrüfatıdır. Mərkəzi Kaliforniya fermerləri arasında şöhrət qazanmışlar. İndi kişmiş və qoz istehsalında tam inhisarı öz əllərində saxlayırlar. Ermənilərin tanınmış lobbiçilərindən bir də ABŞ-ın BMT-dəki



daimi nümayəndəsinin sabiq müavini Set Mumcyandır. O, BMT-nin insan hüquqları komissiyasında ABŞ-ı təmsil etmişdir. Eduard Cərəcyan ABŞ-ın Moskvadakı səfirliyində üçüncü katib işləmişdir. 1991-ci ilin yayından isə o, ABŞ dövlət katibinin müavini olmuşdur. 1972-ci ildə prezident Nikson üçün çalışmış Ken Xaçikyan Reyqanın prezident seçkisində «mirzə» vəzifəsində işləmişdir. Ağ evdə humanitar elmlər üzrə milli proqram və siyasət şöbəsinə Armen Taşdikyan adlı bir erməni rəhbərlik edir. O, əvvəllər Ağ evdə sənət və ədəbiyyat şöbəsinin müdiri olmuşdur. ABŞ-ın erməni lobbisinə Amerika erməni məclisi rəhbərlik edir. Məclisin Vaşinqtonda mərkəzi, Los-Ancelesdə şöbəsi var. Sədri Ross Vartanyandır. Mərkəzi Bostonda olan erməni inqilab federasiyası, erməni demokratik liberal partiyası, sosial demokrat «Hnçak» partiyası, Kaliforniya erməni konqresi, erməni tərəqqi partiyası, erməni milli komitəsi kimi partiya və dərnəklər də birbaşa lobbi fəaliyyəti ilə bağlıdır. Ermənilər ABŞ-da 30-dan artıq qəzet və jurnal buraxırlar. Ən əsasları bunlardır: «Hayrenik» («Vətən»), «Armenian Uikli», «Paykar» («Mübarizə»), «Armenian Riporter», «Armenian Observer», «Kaliforniya Kuryer», «Nor Or», «Nor Aşxar» qəzetləri və «Ararat», «Armenian revyu» jurnalları. Bundan başqa ermənicə verlişlər verən iki radio-stansiya fəaliyyət göstərir. ABŞ konqresində ermənipərəst siyasət yürüdən konqresmenlər: Frank Annunsio, Henri Viksman, Ceyms Hovard, Edvard Boland, Berni Frank. Senatorlar: Alan Karaniston, Karl Levin, Pelli, Tom Kalçin, Edvard Kennedi, Far Levin, Qan Koks, Kristofer Daq, Dan Xeyz, Con Kerri, Fren Rozenberq, Roy Liberman, Kliben Telli, Donald Friql. Yeri gəlmişkən, ABŞ-a yayılan güclü informasiya axını erməniləri haqlı göstərir və onlara rəğbət oyadırdı. Bu işdə ermənilərin dini mənsubiyyəti də mühüm rol oynayır».[1]

Bunlara baxmayaraq, 1996-cı ildən başlayaraq ABŞ-da da

[1] Qazıyev Y. Erməni Məsələsi yalanlar və gerçəklər. Bakı: «Nurlar» NPM, 2009, s. 134.

Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti xeyli genişlənmişdir. Yenidən bu məsələyə – «907»yə qayıdaq, həmin ilin noyabr ayının 25-də Senat və Nümayəndələr Palatası «Çarlz Vilson düzəlişi» adlanan layihəni təsdiq etdi. Layihəyə görə Azərbaycan ABŞ-dan birbaşa humanitar yardım ala bilərdi. Noyabr ayının 26-da ABŞ prezidenti layihəni imzaladı. «Vilson düzəlişi» ilə ABŞ-ın Azərbaycana münasibəti dəyişdi. Bu düzəlişə qədər Azərbaycana yalnız xeyriyyəçilik təşkilatları və hökumətlə əlaqəsi olmayan təşkilatlar maddi yardım göstərə bilərdi. 907-ci düzəlişin ləğv edilməsi uğrunda konqresmen R.Livinqson ciddi mübarizə aparırdı. Hətta 1994-cü ildə o, düzəlişin ləğv edilməsinə yaxınlaşmışdır. Lakin Nümayəndələr Palatasında güclü olan erməni lobbisi düzəlişə yeni bir bənd əlavə edilməsinə nail olduğundan düzəliş qüvvədə qalmışdır. Erməni lobbisinin ikinci mühüm qələbəsi Konqresin Erməni Məsələləri üzrə İşçi Qrupunun ermənipərəst həmsədri Con Edvard Porterin 1996-cı ilin iyunun 11-də 1997-ci il üçün xarici əməliyyatlar haqqında qanun layihəsinin qlobal iş planı kimi qüvvəyə mindirməsi olmuşdur.[1]

Bədnam «907-ci düzəliş»in ləğv edilməsi yolunda uğurlu addımlardan biri son illərdə senator Sem Braunbek və Qardon Smitin irəli sürdükləri «İpək yolu» qanunvericilik təşəbbüsü olmuşdur. Bu təşəbbüsün əsas mahiyyətini Mərkəzi Asiya, Qafqaz və Xəzəryanı ərazilərdə ABŞ-ın siyasətinin məqsədləri müəyyən edirdi: «Kim Azərbaycana nəzarət edərsə, o, Qafqaza hakim olar, kim Qafqaza hakim olarsa, o, «Avropa körpüsünə» sahib olar».[2] Göründüyü kimi, Azərbaycanla tərəfdaşlıq bir, iki və çox qütblü dünya uğrunda mübarizədə digər dövlətlərlə yanaşı, Amerikanın da milli mənafeyinə və maraqlarına cavab verən ən

[1] Robert Livinqston: «907-ci düzəlişi ləğv etmək mümkündür»: «907-ci düzəlişin ləğvi təkcə Azərbaycanın deyil, ABŞ-ın da milli maraqlarına cavab verir»: ABŞ Nümayəndələr Palatasının sabiq spikeri Robert Livinqstonun APA-nın ABŞ bürosuna müsahibəsi // 525-ci qəzet, 2009, 20 may, №89.

[2] Hacıyev R. Azərbaycanın geopolitik təhlükəsizliyi Rusiyanın Qafqaz maraqları kontekstində // Qanun, 1999, №4 (60), s. 18.



strateji məsələlərdəndir. Yenə də, «İpək yolu» qanunvericiliyi erməni lobbisinin güclü müqaviməti ilə üzləşdi və antierməni düzəliş kimi qiymətləndirildi. Bunu, ABŞ-ın siyasətçi və media təmsilçiləri «siyasi təbliğat və lobbiçilik nümunəsi» kimi qeyd edirlər. Erməni lobbisinin səyi ilə xarici əməliyyat haqqında qanun layihəsi 907-ci düzəliş qüvvədə qalmaqla qəbul edildi. 907-ci düzəlişin qüvvədə qalması ABŞ-ın araşdırdığımız illərdə də Azərbaycana birbaşa yardım etməsinin qarşısını almışdır. Bu da ABŞ-dakı erməni diasporu və lobbisinin güclü təsir və təzyiq imkanlarına malik olduğunu göstərir. Bildirək ki, «907-ci düzəliş»in ləğvinə yönəlik bir cəhd də Kanzas ştatından olan və «bu maddə mütləq dəyişdirilməlidir» mövqeyində dayanan Respublikaçı senator S.Braunbək tərəfindən edilmişdi. ABŞ Senatının Xarici işlər üzrə komitəsi 1999-cu ilin 23 martında onun təklif etdiyi «İpək Yolu strategiyası haqqında Akt» adlı qanun layihəsini təsdiqlədi.[1]

Bu qanun layihəsinə görə hökumət səviyyəsində 12,85 milyard dollar yardım ayrılırdı ki, bundan da Ermənistana 85 milyon, Gürcüstana 80 milyon dollar, Azərbaycana isə qeyri-hökumət təşkilatları üçün 25 milyon dollar maliyyə yardımı ayrılması nəzərdə tutulurdu. Ancaq ermənipərəst konqresmenlər Nansi Pellonzi və Co Nollenberq bu yardımın da verilməsinə mane olmaqdan ötrü yeni qanun layihəsi işləyəcəklərini bildirmişdilər.

Erməni diasporu belə böhranlı vəziyyətdə Azərbaycan və ABŞ arasında olan anlaşılmaz münasibətlərdən məharətlə istifadə edərək 1992-ci il oktyabrın 24-də Konqresin 102-ci çağırış 2-ci sessiyasında «Azadlığı Müdafiə Aktı» və ona 907-ci əlavəni qəbul etdirdi. Corc Buş senatın ona təqdim etdiyi qanun layihəsini tərəddüdsüz imzaladı və qanun qüvvəyə mindi. Qanuna görə keçmiş SSRİ-nin, Azərbaycan istisna olunmaqla, 12 respublikasına bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar yardım nəzərdə tutulurdu. E.Nəsirov bədnam 907-ci düzəlişin

[1] http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%202/sch.381-386.pdf

məzmununu izahlı şəkildə yazır: «Bu ya digər qanunvericilik aktları çərçivəsində Birləşmiş Ştatların Azərbaycana iqtisadi yardımı o zamana qədər mümkün olmayacaq ki, ABŞ prezidenti müəyyən etmiş olsun və bu haqda Konqresə xəbər çatdırsın ki, Azərbaycan hökuməti bütün blokadaları, Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücünün istifadəsini dayandırmaq üçün əməli iş görür. Qəbul olunduğu gündən bu günədək 907-ci əlavə ətrafında bir sıra layihələr Konqresdə müzakirə edilmişdir. Belə ki, 1995-ci ilin mayında Helm və Lüqarın birgə hazırladığı «Helms layihəsi», həmin ilin oktyabrında konqresmen Ç.Vilsonun, 1997-ci ilin iyul ayında konqresmen Piter Kinqin, 1998-ci ilin sentyabrında Bob Livinqstonun hazırladığı layihələr, 1999-cu ilin sentyabrında isə senator Sem Braun Bəkin «İpək yolu strategiyası», eləcə də 907-ci əlavənin ləğv edilməsi kimi düzəlişlər Konqresdə müzakirə olunmuşdu».[1]

Azərbaycan üçün ədalətsiz qərar olan «907-ci düzəliş» respublikanın üzv olduğu beynəlxalq təşkilatlar tərəfindən tənqid edilmişdir. 2000-ci ilin dekabrın 3-dən 9-dək Parisdə Ümumdünya Veteranlar Birliyinin Baş Assambleyasının toplantısında 907-ci düzəliş bəyənilməmiş və onun ləğvi ilə bağlı Konqresə müraciət ediləcəyi bildirilmişdi. Həmin illərdə Azərbaycan prezidenti H.Əliyev ABŞ-a etdiyi rəsmi və işgüzar səfərlərdə, ATƏT-in Lissabon sammitində, NATO-nun Madrid sammitində, nüfuzlu dövlət xadimləri ilə görüşlərində və kütləvi informasiya vasitələrinə müsahibələrində 907-ci düzəlişi pisləmiş, ölkəmiz üçün onun haqsız olduğunu bəyan etmişdi. Fəlsəfə doktoru, «Frontera Resorses Korporeyşn»nin vitse-prezidenti R.Berlisoğul bu qərarın ədalətsiz olduğunu qeyd edərək haqlı olaraq vurğulamışdır ki, «907-ci «düzəliş»in özü də düzəliş tələb edir».[2]

2000-ci ilin sentyabr ayının 6-da ABŞ-da keçirilmiş Minilliyin Zirvə Toplantısında iştirak edən Azərbaycanın dövlət başçısı

[1] Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri. Bakı: 1998, s. 23.
[2] Berls-oğul R. ABŞ erməni lobbisi Ermənistanın uzunmüddətli maraqlarına xidmət edirmi? // Dirçəliş XXI əsr, 1999, №18, s. 69-73.



H.Əliyev öz çıxışında Ermənistanın Azərbaycana qarşı başladığı təcavüzkar müharibə nəticəsində 20% torpaqlarımızın işğal olunduğunu bildirərək dünya dövlətlərini ədalətli mövqe nümayiş etdirməyə çağırmışdı. O, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının 822 (30 aprel), 853 (29 iyul), 874 (14 oktyabr), 884 (11 noyabr) nömrəli qətnamələrinə əməl olunmaması ilə bağlı narahatlıq hissi keçirdiyini və bu qətnamələrin yerinə yetirilməməsi ilə BMT-nin nüfuzunun azaldığını bildirmişdir.

Münaqişənin nizamlanmasının hüquqi və siyasi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. 2005-ci il 25 yanvar tarixində keçirilən AŞPA-nın qış sessiyasında «ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə» adlı 1416 saylı Qətnamə və 1690 saylı Tövsiyə qəbul olunmuşdur. Assambleya bir üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə pozulması demək olduğunu xatırlatmış və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq etmişdir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir.[1]

2001-ci il oktyabr ayında ABŞ prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək «907-ci düzəliş»in aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğulamışdır.

Bu proseslərdə 2001-ci ildəki ABŞ-da baş verən «11 sentyabr» terror hadisələrindən sonra ölkəmizin həyata keçirdiyi uğurlu xarici siyasətin və diaspor fəaliyyətinin təsiri danılmazdır.

[1] http://www.azerbaycanli.org/?page=11&lang=aze

Erməni lobbisinin ABŞ-dakı mövqeyini və nüfuzunu, Konqresə təsir imkanlarını nəzərə alsaq, 2002-ci ildə 907-ci düzəlişin qüvvəsinin dayandırılması ABŞ-dakı Azərbaycan diasporunun səmərəli fəaliyyəti, faydalı iş əmsalının artması və lobbi quruculuğu istiqamətindəki uğur kimi dəyərləndirə bilərik.

Qeyd edək ki, Ermənistanın hiyləgər hakimiyyəti diasporlarla effektiv əməkdaşlıq edən və onlar tərəfində əhəmiyyətli siyasi və iqtisadi dəstək alan İsrailin, Çinin və İrlandiyanın təcrübəsindən yararlanmağa çalışır. Ermənistan dövləti səviyyəsində fikirləşirlir ki, diaspor öz identikliyini təkcə öz keçmişi və milli mənsubiyyəti ilə deyil, eləcə də SSRİ-nin suqutundan sonra yaranmış müstəqil erməni dövləti ilə əlaqələndirməlidir.

Nəhayət, erməni icmalarında Ermənistanda iyirminci əsrin əvvəlində yaranan və öz aralarında rəqabətə davam gətirən siyasi partiyalar fəaliyyət göstərir.

Müəmmalı və sual doğuran məqam ondan ibarətdir ki, «Respublikada təqribən üç milyon erməni, xaricdə isə – yeddi milyondan çox yaşayır» (maksimal hesablamalara görə 10 milyonadək).

Ən böyük erməni icması Rusiyada yerləşir. Hələ, 1990-ci illərin əvvəllərində Rusiya Federasiyasının erməni diasporu digər millətlərin diasporları ilə müqayisədə kəmiyyət baxımından 15-ci yer tuturdu. SSRİ-in dağılmasından sonra RF-də ermənilərin sayı kəskin artdı və onlar ilk yerlərdən birinə keçdilər. Bu gün Rusiyada 2,5 milyon erməni yaşayır.

Erməni diasporunun qərb ölkələrdə sayı iki milyondan çoxdur. Hazırda ən iri erməni icmaları ABŞ-da (1 milyondan çox), Fransada (təqribən 500 min), İranda (180 min), Livanda (120 min) və Suriyada (120 min) yerləşir. Erməni icmalarının öz torpaqları, kilsələri, məktəbləri və qəzetləri var. Lakin bu icmalar Rusiyada və bütün postsovet məkanında yaşayan ermənilərlə müqayisədə daha yüksək səviyyədə parçalanmışdır. Bu yaşadıqları ölkələr arasında daha böyük fərqlərlə, «köhnə» və «yeni» miqrantların etnik-mədəni mühitə adaptasiya səviyyəsinin fərqli olması, qərb-erməni və şərq-erməni dilləri arasında mövcud



fərqlərlə izah edilə bilər.

Hərçənd ki, Ermənilərin utopik milli düşüncəsinə xidmət edən və diasporu mütəşəkkil qüvvə kimi kordinasiya edən erməni kilisəsi – «Eçimədzin institutu» da parçalanıb: Erməni apostol kilsəsinin iki rəqib katolikosu, Roma Papasına tabe olan erməni-katolik kilsəsi mövcuddur, son zamanlar isə sayı artan ermənilər müxtəlif sekta və yeni dini birləşmələrə qoşulur.[1]

Bizim «erməni məsələsi»nə faktlara söykənərək geniş yer verməkdə məqsədimiz emənilərin iç üzünü açmaq, onların siyası dairələrlə əlaqələrindən istifadə də məkirli planlarını üzə çıxarmaq və məskunlaşma mütənasibliyinin olmaması ilə əslində, Azərbaycanın tarixi torpaqlarında qurduqları işğalçı dövlətlərinin qeyri-müəyyən vəziyyətini qabartmaqdır.

Tədqiq etdiyimiz 20 illik dövrə nəzər salanda görürük ki, bu illər ərzində Azərbaycan Respublikasının xarici siyasətinin inkişafında, diplomatik imtiyaz və immunitetlərinin genişlənməsində və beynəlxalq əməkdaşlığının güclənməsində diaspor fəaliyyətinin özünəməxsus rolu vardır.

Azərbaycan-İsrail münasibətlərinin tarixindən danışarkən qeyd etmək yerinə düşər ki, ölkəmiz dünya yəhudi elitasının diqqətini 1810-cu ildən cəlb etməyə başlamışdır. Məhz Bakıda aşkenazların məskunlaşması bu dövrə təsadüf edir. 1832-ci ildə Bakıda ilk yəhudi ibadət evi inşa olunmuşdu. 1870-ci ildə Bakıda neft çıxarılmasına başlandıqdan sonra Azərbaycana yəhudi biznesi nümayəndələrinin axını başlamışdır. Burada onlardan A.Feyqel, A.Dembo, Q.Polyak, Q.Qinzburq, X.Kaqan geniş fəaliyyət göstərmişdilər. Hazırda Bakı şəhərində yəhudilərin üç sinaqoqu var, bir sinaqoq isə Azərbaycanın Quba rayonunda, dağ yəhudilərinin iri icmasının məskunlaşdığı Qırmızı Qəsəbədədir. Bura, keçmiş Sovet İttifaqı ərazisində yəhudilərin kompakt halında yaşadıqları olduqları yeganə yerdir. Həmişə Azərbaycanda yəhudilərə yaxşı münasibət bəslənilib və burada heç zaman anti-

[1] Крылов А. Армянская диаспора - важный фактор мировой политики // Новая Политика (интернет-журнал). Москва: 2004, 30 августа // http//www.novopol.ru/text306.html

semitizm halları yaşanmayıb. Hər iki ölkəni yaxınlaşdıran daha bir səbəb isə Azərbaycanda yəhudi diasporunun və İsraildə Azərbaycandan getmiş 80 mindən artıq yəhudinin yaşamasıdır. Dövlətlər arasında ikitərəfli siyasi münasibətlər 1991-ci ilin dekabrın 25-də İsrailin Azərbaycanın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik əlaqələrin (6 aprel 1992-ci il) qurulması ilə başlamışdır. 1993-cü ilin avqust ayından etibarən İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir.[1]

Azərbaycan-İsrail əlaqələrinin hərtərəfli inkişafında yəhudi diasporu əhəmiyyətli rol oynamışdır. Ötən əsrin sonlarında postsovet məkanında baş verən ictimai-siyasi proseslər və müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasında yaranan sosial və iqtisadi vəziyyət burada yaşayan yəhudilərin könüllü köçüb getməsi ilə nəticələnmişdir. Buna baxmayaraq, tarixən azərbaycanlılarla yəhudilərin mehriban şəraitdə yaşaması, mövcud qarşılıqlı əlaqələrin yenə də yüksək səviyyədə davam etməsinə imkan yaratmışdı. Bu münasibətlərin inkişafını vaxtilə buradan mühacirət etmiş yəhudi əsilli həmvətənlərimiz qoymuşdu. Son illərdə iki ölkə arasında müxtəlif sahələr üzrə əməkdaşlıq genişlənmişdir. Bu da İsraildəki diasporumuzu daha da ruhlandırmış, dünyadakı yəhudi lobbisinin Azərbaycan diasporuna yardımını artırmış və bir sıra məsələlərdə beynəlxalq tribunalarda Azərbaycan və İsrail diaspor təşkilatlarının eyni mövqedən çıxış etmələrinə səbəb olmuşdur.

Azərbaycan Respublikasında yəhudi icması ən çalışqan icmalardan hesab edilir. Onlar üç təşkilatda aktiv surətdə fəaliyyət göstərir:

1. Quba (Qırmızı Qəsəbə) və Bakıda yaşayan dağ yəhudiləri;
2. Bakı və Sumqayıtda yaşayan yəhudi aşkenazlar;
3. Gürcüstanla sərhəddə yaşayan Gürcüstan yəhudiləri.

Azərbaycanda «Soxnut» yəhudi agentliyi, «Coynt» və «Vaad-L-Xetzola» komitələri bu dövrdə də yəhudi adət-ənənələrinin qorunması və saxlanılması ilə məşğul olurdular. Həmçinin, «Yə-

[1] http://lib.aliyevheritage.org/az/8269149.html



hudi icması»nın mədəni mərkəzi, «Hesed-Qerşon» xeyriyyə cəmiyyəti, «Yeva» qadın cəmiyyəti, «Alef», «Kilel» gənclər klubu, «Mişpaxa» videoklubu, yəhudi dini məktəbləri – ieşivlər, «Xabad Or-Avner» orta məktəbi də fəaliyyət göstərirdi. Bakıda 2003-cü ildə açılmış sinaqoq Avropada ən böyük sinaqoqlardan biri sayılır. Quba rayonunun Qırmızı Qəsəbə ərazisində sinaqoq və dini ayinləri icra etmək üçün mikva mövcuddur. Azərbaycanda yəhudi dilində «Aziz», «Qüllə» və «Amişav» kimi qəzetlər nəşr olunur. İsraildə də Azərbaycandan gəlmə yəhudilər mədəni əlaqələrin saxlanılmasında çox fəal iştirak edirdilər. Burada Azərbaycan mədəniyyət guşəsi, Afula şəhərində Azərbaycan mədəniyyət mərkəzi, Azərbaycanda İsrail mədəniyyət mərkəzi fəaliyyət göstərirdi. 1991-ci ildə İsrailin Hayfa şəhərində Azərbaycandan gedən yəhudilər tərəfindən «Hayfa-Bakı» Cəmiyyəti yaradılmışdı.

2007-ci ilin aprelin 12-də İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası (AzIz) iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində böyük rol oynamışdı. Təşkilatın bu ölkədə 50 mindən çox üzvü vardı.[1]

Azərbaycan-İsrail Beynəlxalq Assosiyasının prezidenti İosif Şaqal «Azərbaycan» qəzetinə verdiyi müsahibəsində jurnalistin «Diaspor quruculuğu sahəsində İsrail dünyada ən yaxşı təcrübəyə malik ölkələrdən biri kimi tanınır. Bəs İsrailin özündə azərbaycanlıların bugünkü diaspor quruculuğunu və ümumi fəaliyyətini necə qiymətləndirmək olar?» sualını belə cavablandırmışdır: «Hazırda İsraildə ən güclü diaspor təşkilatlarından biri qismində məhz Azərbaycanın, bu ölkədən olan insanların diaspor qurumları çıxış edir. Bizim üzvlərin sayı artıq 55 minə çatır və biz heç kimdən çəkinmirik. İlk növbədə ona görə ki, aramızda möhkəm birlik var. Özümüzü azərbaycanlılar, ruslar, gürcülər və digər millətlər adı altında bölmürük. Hətta belə bir deyimimiz də var: *kim Azərbaycandandır, onlar bir-birinə qardaşdır*. Və bunun yaxşı hal olması hamı tərəfindən də qəbul olunur. İsraildə olan Azərbaycan icması öz fəallığı ilə də seçilir və onlar çox vacib mövqelərdə təmsil olu-

[1] http://lib.aliyevheritage.org/az/8269149.html

nurlar. Məsələn, elə Dünya azərbaycanlılarının III qurultayına İsraildən gələn nümayəndə heyətinin tərkibində şəhər merlərinin müavinləri vəzifəsini tutan üç nəfər var və həmin şəxslərin hər üçü azərbaycanlıdır. İsraildə olan ən böyük radionun direktor müavini yenə Bakıdan olan şəxsdir. Hazırda İsraildə yaşayıb fəaliyyət göstərən onlarla azərbaycanlı jurnalistin adını çəkmək olar. Azərbaycanlıların təmsil olunduğu digər vəzifə və iş yerlərinin siyahısını bir qədər də artırmaq mümkündür. Mən özüm də əslən Bakıdanam və İsrail parlamentinin sabiq deputatıyam».[1]

Göründüyü kimi, Azərbaycan diasporunun son illərdə müxtəlif ölkələrin siyasi dairələri ilə əlaqələr yaratması diplomatiyanın, dövlətlərarası münasibətlərin inkişafında müsbət rol oynamışdı. Eyni zamanda, soydaşlarımızın ictimai-siyasi fəallığı, parlament və hökumətdə təmsil olunmaları ölkəmiz haqqında doğru-düzgün təsəvvürün yaranmasına səbəb olmuşdur. Bu da milli diasporumuzun fəaliyyət imkanlarının genişlənməsinə yol açmışdı.

2011-ci ildə Azərbaycan diasporunun fəal üzvlərindən olan Estoniya Mərkəzçi Partiyasının nümayəndəsi Eldar Əfəndiyev üçüncü dəfə Estoniya Parlamentinin deputatı seçilmişdir. 2011-ci il martın 13-də Rusiya Federasiyası Dağıstan Respublikasında keçirilən parlament seçkilərində 4 nəfər azərbaycanlı deputat mandatı qazanmışdır. Bundan başqa, Türkiyədə keçirilən parlament seçkilərində 3 nəfər azərbaycanlı Türkiyə Böyük Millət Məclisinə deputat seçilmişdi.

2011-ci il fevralın 10-da «Dədə Qorqud» Milli Fondu və «Azərbaycan Dünyası» Beynəlxalq jurnalı Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzovu «Vətən övladı» ordeni ilə təltif etmişdi. Digər soydaşımız – Danimarkanın Glostrub xəstəxanasının professoru, Kopenhagen Universitetinin baş elmi işçisi Məsud Aşina 2011-ci ildə «Nevrologiya» sahəsi üzrə «Mogens Fog» mükafatına layiq

[1] Azərbaycan diasporu dünyanın bir sıra ölkələrinin siyasi həyatına təsir edəcək qüvvəyə çevrilmişdir / R.Bayramov // Azərbaycan qəzeti, 2011, 10 iyul, №148.



görülmüş və «Novo Nordisk» Fondundan Miqrenin öyrənilməsi sahəsində elmi tədqiqatlarını davam etdirmək üçün 2,5 milyon dollar qrant almışdır. Həmin ildə Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi diaspor təşkilatı kimi Berlin torpağının Məsləhətçi Şurasının ictimai təşkilatlar siyahısına daxil edilmişdir. Bununla da, AAKM Almaniyada mühacirətdə yaşayan əcnəbilərin təmsilçisi kimi Məsləhətçi Şuranın seçkilərində iştirak etmək hüququ qazanmışdır. 2011-ci ilin oktyabrında Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində «Diaspor və ya icma inteqrasiya prosesində: Almaniyada icma tarixinə dair» konfrans keçirilmişdir. Tədbirdə miqrantların yaşadığı ölkənin sosial və ictimai həyatına inteqrasiyası ilə bağlı məsələlər müzakirə edilmişdir. 2011-ci il dekabrın 5-də Berlin-Brandenburq İnteqrasiya və Miqrasiya Məsələləri üzrə Məsləhətçi Şuraya keçirilmiş seçkilərdə Berlində yaşayan soydaşımız, Türkiyə-Azərbaycan Birliyinin (TAB) İdarə Heyətinin üzvü Cəlili Maku Həbib öz namizədliyini irəli sürmüş və ona üzv seçilmişdir.

Bu sahəni koordinasiya edən Dövlət Komitəsinin dəstəyi ilə xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycanın qədim mədəniyyəti və zəngin irsinin də təbliği istiqamətində müxtəlif tədbirlər həyata keçirmiş, zəngin mədəniyyətimizi tanıtmaq məqsədilə Azərbaycan incəsənət xadimlərinin konsert proqramlarını təşkil etmişdilər.[1]

2011-ci il ərzində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icmalarından, habelə Azərbaycan Respublikası vətəndaşlarından Dövlət Komitəsinə müxtəlif məzmunlu müraciətlər daxil olmuşdu. Belə ki, 628 məktubdan 112-si Azərbaycan diaspor təşkilatlarından, 122-si vətəndaşlardan gəlmişdir. Daxil olan müraciətlər diqqətlə öyrənilmiş və onların böyük əksəriyyəti müsbət həll olunmuşdur.[2]

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.
[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi.

Ümumilikdə, dövlət və hökumət qurumlarından, müxtəlif orqanlardan, QHT-lərdən ünvanlanan məktubların əksəriyyəti məlumat, təklif və tövsiyələrdən ibarətdirsə, diasporlardan gələn məktublar maddi-mənəvi dəstək xarakterlidir.

Məsələn, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyindən göndərilən «xidməti istifadə üçün» sənədə əsasən «««Moskva və Moskva Vilayətinin Erməni Təşkilatları Forumu» 27 fevral 2010-cu il tarixində təsis olunub. Hazırda forumun tərkibində əsasən Moskva və Moskva vilayətindən olan 30 yaxın təşkilat daxildir. Forumun tərkibi müxtəlif istiqamətli ictimai birliklərdən ibarətdir: ictimai təşkilatlar, Ermənistanın müxtəlif bölgələrdən gələn həmyerlilər birliyi, gənclər, o cümlədən tələbə birlikləri, klublar, vəkil kontorları, qəzet və nəşriyyatlardan, teatrlardan olan erməni icmasının nümayəndələri» barədə məlumat verilmiş və 2010-cu ilin 25 dekabrında Səfirliyin «31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günün»nə həsr olunmuş tədbirində diaspor nümayəndələri ilə birgə Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqının təsis edilməsi qənaətinə gəlindiyi qeyd edilmişdir: «Diaspor fəaliyyəti istiqamətində işin ciddi və məqsədyönlü şəkildə aparılması üçün həmyerlilər birliklərinin, ictimai təşkilatların, qəzet nəşriyyatlarının, iş adamlarının, mədəniyyət xadimlərinin birləşdiyi və Səfirliklə sıx əlaqədə fəaliyyət göstərən Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqının yaradılmasına mühüm zərurət yaranmışdır».[1]

Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş konsulluğu fəaliyyəti dövründə «Qazaxıstanın qərb bölgəsində Azərbaycanın hərtərəfli təbliğatı, tanıdılması, Azərbaycan və Qazaxıstan xalqlarının tarixi köklərə bağlılarının, mədəniyyətlərinin, adət-ənənələrinin yaxınlığını geniş oxucu kütləsinə çat-

Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi 2011-ci ilin birinci yarımilində Təbliğat, informasiya və analitik təhlil şöbəsinə daxil olmuş məktubların siyahısı. 2011, 7 mart, daxil olma №118/6-11.



dırılması məqsədi ilə çox saylı tədbirlər təşkil etmiş, bir sıra layihələr həyata keçirmişdir. ...Azərbaycan diasporunun nümayəndələrinin Qazaxıstanın ictimai-siyasi həyatında oynadığı rolu daha qabarıq şəkildə göstərən «İki xalq – bir tale» kitabının hazırlanmasını bildirilmişdir».[1]

Almaniya Azərbaycanlıları Koordinasiya Mərkəzi alman dilində uşaq və gənclər üçün Xocalı hadisələrini əks etdirən cizgi filminin çəkilməsinin təşəbbüskarı kimi çıxış edərək, yaradıcılıq proseslərinin təşkilati koordinasiyasını üzərinə götürdüyünü vurğulamışlar. «Bu proyekt gələcək nəslin tərbiyəsində əhəmiyyətli rol oynayır və alman ictimaiyyətinin yeni dairələrinin diqqətini cəlb edə bilər. Hazır filmin ilk nümayişi 2012-ci il 26 fevral – Xocalı soyqırımının 20-ci ildönümü münasibətilə Berlində nəzərdə tutulur. Filmin tam gerçəkləşməsi üçün maliyyələşməyə etiyac vardır».[2]

Ukraynada fəaliyyət göstərən Beynəlxalq «Azərbaycançılıq İnstitutu» İctimai Təşkilatı (BAİ) Azərbaycan Respublikasının Prezidentinə ünvanladığı hesabat məzmunlu məktubunun surətində beynəlxalq səviyyədə Azərbaycanın milli mədəniyyəti, tarixi və ənənələrinin geniş öyrənilməsi və təbliği sahəsində ciddi işlər görmək niyyətlərini ifadə etmişlər: «««Azərbaycançılıq institutu» fəalları Ukraynanın dövlət qurumları ilə sıx etibarlı əməkdaşlıqlarının nəticəsidir ki, ehtiyac olarsa ən yüksək səviyyədə belə Azərbaycan naminə müvafiq məsələləri xalq diplomatiyası yolu ilə dostluq, qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirmək mümkündür».[3]

Azərbaycanlıların və digər Türk Xalqlarının Əməkdaşlıq Mərkəzi (ATXƏM), Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyası, Danimarka «Vətən» cəmiyyətində və başqalarından gələn məktublar da bu qəbildəndir.

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi 2011-ci ilin birinci yarımilində Təbliğat, informasiya və analitik təhlil şöbəsinə daxil olmuş məktubların siyahısı. 2011, 8 iyun, daxil olma №299/6-11.

[2] Yenə orada, 2011, 29 sentyabr, daxil olma №469/6-11.

[3] Yenə orada, 2011, 10 oktyabr, daxil olma №518/6-11.

Araşdırma apardığımız illərdə xaricdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərimizin yaşadılmasında, ölkəmizin maraqlarının qorunmasında fəal iştirakının təmin edilməsi dövlət gənclər siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Milli diaspor quruculuğu və Azərbaycan lobbisinin yaradılmasında gənclərin fəal iştirakı daha ciddi nailiyyətlər qazanmağa imkan yaratmışdır. Bu mühüm amili nəzərə almaq və onun real həyatda öz təsdiqini tapmasına stimul yaratmaq məqsədilə ötən dövrdə bir sıra əhəmiyyətli tədbirlər gerçəkləşdirilmişdir. Məsələn, 2010-cu il 28 noyabr tarixində Almaniyanın Frankfurt şəhərində keçirilən «The Westin Grand» otelində Dünya Azərbaycanlı Gənclərin I Konqresi keçirilmişdir. Tədbirdə Azərbaycandan 41 gənclər təşkilatının nümayəndəsi, dünyanın 23 ölkəsindən 131 gənclər təşkilatının nümayəndəsi, 25 ölkədən 41 diaspor təşkilatının rəhbəri iştirak etmişdir. I Konqresin qətnaməsi qəbul olunmuş, Azərbaycanlı gənclər təşkilatlarının diaspor quruculuğu, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli-mənəvi dəyərlərimizin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, mədəni irsimizin təbliği istiqamətində fəaliyyətinin koordinasiya edilməsi məqsədilə Dünya Azərbaycanlı Gəncləri Birliyinin (İttifaqı) təsis edilməsi ideyası dəstəklənilmiş və Dünya Azərbaycanlı Gəncləri Birliyinin təsis edilməsi ilə əlaqədar Təşəbbüs Qrupu yaradılmışdır.[1]

Azərbaycan diasporuna yeni ruhun verilməsi və bu gün xüsusi özəllik kəsb edən diaspor fəaliyyətinin gəncləşdirilməsi bir sıra strateji tərəfləri özündə cəmləşdirir. Gənclərin dinamik, mobil olmalarına və müasir informasiya texnologiyalarından istifadə etmək bacarıqlarına görə bu sahədə propaqanda aparmaq imkanları daha da asan, geniş və effektivdir.

2011-ci il yanvarın 17-dən 22-dək Macarıstanın paytaxtı Budapeştdə yerləşən Mərkəzi Avropa Universitetində təhsil alan azərbaycanlı tələbələr Beynəlxalq Mədəniyyət Festivalında ölkəmizin mədəniyyətini təbliğ etmişdilər. Dünyanın 30-dək ölkəsinin qatıldığı bu festivalda milli mətbəximiz, rəqslərimiz nümayiş olunmuş və paytaxtımızın görməli yerlərinin fotoşəkillərindən ibarət sərgi təşkil edilmişdir. Azərbaycanlı tələbələrin bu festivalda mədəniyyətimizi uğurla təbliğ etməsində Azərbaycanın Macarıstandakı səfirliyinin, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Macar-Azərbaycan Dostluq Cəmiyyətinin böyük rolu olmuşdur.

[1] http://diaspora.gov.az/index.php?options=content&id=383



2011-ci il fevralın 25-də Berlin Texniki Universitetində azərbaycanlı, türk və müxtəlif xarici ölkələrin tələbələrinin iştirakı ilə «Xocalıya ədalət» beynəlxalq kampaniyası çərçivəsində tədbir təşkil olunmuşdur. Tədbir zamanı Azərbaycan haqqında müxtəlif broşürlər, Xocalı həqiqətləri haqqında kitablar tələbələrə, professor və müəllimlərə paylanılmış, petisiyalar imzalanmışdır.[1]

2011-ci il fevral ayının 27-də Böyük Britaniyanın Liverpul şəhərində 1 bakalavr və 3 magistr təhsili alan azərbaycanlı tələbə tərəfindən «Liverpul Azərbaycan Cəmiyyəti» (LAC) təsis edilmişdir. Qeyd etmək lazımdır ki, LAC-ın əsas məqsədi Liverpulda yaşayan azərbaycanlılar arasında şəbəkələşməni sürətləndirmək və bu şəhərdə Azərbaycanın tarixini, mədəniyyətini təbliğ etməkdən ibarət olmalı idi. Bu dövrdə təşkilatın rəsmi olaraq Liverpulda diaspor təşkilatı kimi qeydiyyata alınması istiqamətində tələbələr tərəfindən lazımi prosedurlar həyata keçirilmişdir.

2011-ci il martın 10-11-də Fransanın Strasburq şəhərində Avropa Şurasının (AŞ) mənzil-qərargahında Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclər Təşkilatının (ASAİF) «Azərbaycan-20-Baxış-2020» adlı beynəlxalq forumu keçirilmişdir. Bura 25 ölkədən 240 nəfərdən çox xaricdə təhsil alan tələbələr və müxtəlif dövlətlərdə yaşayan gənclər qatılmışdır.

Bütün sadalanan faktlar diasporun ümummilli fəaliyyət ol-

[1] http://azertag.az/xeber/Berlin_Texniki_Universitetinde__quotXocaliya_Adalet_quot_kompaniyasi_cherchivesinde_tedbir_kechirilmisdir-513666

duğunu bir daha sübut edir. Əlalxüsus, gənclərdə bu təfəkkürün formalaşdırılmasına xüsusi əhəmiyyət verilir. Ona görə ki, onların əhatə dairəsi geniş olduğu üçün öz vətənlərini tanıtmaları və təmsil etmələrində daha da fəal iştirakları labüddür.

Beləliklə, diaspor sahəsində ən vacib və strateji məsələlərdən biri müxtəlif ölkələrin siyasi dairələri ilə əlaqələrin qurulmasıdır. Bu amil həm xalqlararası, həm də dövlətlərarası münasibətlərin inkişafında mühüm əhəmiyyətə malikdir. Bunun da məntiqi sonluğu dünyada sülhün və əmin-amanlığın əldə edilməsinə nail olmaqdır.

Tədqiqat zamanı açıq-aydın görünür ki, diaspor siyasəti qlobal miqyasda sosial-mədəni sferadan daha çox ictimai-siyasi sahədə özünü göstərmişdir. Bu fəaliyyət bir sıra məsələlərdə, dövlətlərin və xalqların yaxınlaşmasında və uzaqlaşmasında, etnik münaqişələrin yaranmaşında və həllində mühüm rol oynamışdı. Etnik münaqişələr müəyyən mənada cəmiyyətin inkişafının bütün mərhələlərində mövcud olmuşdur. Bunun əsas səbəblərini inkişafın qeyri-bərabərliyi, maddi-mənəvi həyat tərzinin və adət-ənənələrin müxtəlifliyi, ərazi, dil, din, milli mədəniyyətlərin özünəməxsusluğunun qorunması, təbii nemətlər əldə olunması sahəsindəki fərqlər, öz problemlərini digər xalqların hesabına həll etmək cəhdləri ilə izah etmək olar.

Bir etno-mədəni obyekt kimi diasporun həyati vacibliyi onun subyektlərinin mövcud olduqları dövlətin normativ-hüquqi aktlarının qayda-qanunlarına uyğun yaşamaq qabiliyyətindən asılıdır. Tədqiq etdiyimiz dövrün təhlili göstərir ki, diasporların yaratdıqları müvafiq institutlar yalnız o halda uğurla fəaliyyət göstərə bilər ki, onlar diaspor üzvlərinin arzu və istəklərini ifadə etməklə yanaşı, mövcud olduqları cəmiyyətin müxtəlif qurumları ilə də qarşılıqlı münasibətlər qursunlar və siyasi dairələrlə faydalı əlaqələr yaratmağa nail olsunlar. Bu yarımfəsildə 1991-2011-ci illərdə Azərbaycan diaspor təşkilatlarının ölkəmizin müvafiq problemlərinin həllinə yönəlmiş fəaliyyəti, xüsusilə Ukrayna, Litva, Rumıniya, Fransa, İsrail və başqa dövlətlərin siyasi dairələri ilə əlaqələri kompleks şəkildə öyrənilmişdir.



## 2.3. Diaspordan lobbiçiliyə doğru: Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyəti

Diaspor mövcud olduğu ölkənin tərkib hissəsi kimi, cəmiyyətin həyatının bütün sferalarına inteqrasiya olunmuş etno-sosial birlikdir. Diaspor fəaliyyəti sivil dövlətlərin siyasətinin tərkib hissəsi olmaqla, diplomatiyanın vacib ünsürlərindən hesab edilir. Tədqiq etdiyimiz dövrdə Azərbaycan Respublikası da xalqlararası sağlam əlaqələr yaratmaq və dövlətlərarası münasibətlərini inkişaf etdirmək üçün öz diaspor potensialından səmərəli istifadə etməyə çalışmışdı. Bu amil dövlətin xarici siyasət strategiyasında nəzərə alınmışdır. Məhz bu sahədə diaspordan bəhrələnmək üçün lobbiçilik fəaliyyətinə keçmək labüddür. Çünki, lobbi diasporun siyasiləşmiş institutudur.

Bəzən elmi ədəbiyyatda, kütləvi informasiya vasitələrində «diaspor» və «lobbi» terminləri sinonim anlayışlar kimi qəbul olunur. Lakin bu tamamilə yanlış fikirdir. Z.Əliyev bununla əlaqədar olaraq qeyd edir ki, «Bu iki struktur və onların fəaliyyətlərinin məzmunu və xarakteri arasında bütün oxşarlıqlar olmasına baxmayaraq, bildirmək olar ki, lobbi diaspor deyil».[1] Tamamı ilə doğrudur, çünki, lobbi bilavasitə dövlətin daha yüksək elitasına, diaspor isə ən yaxşı halda lobbinin özünə təsir göstərib onu yönəldir. Lobbiçiliyin əsas funksiyası diasporun qarşısında duran vəzifələrlə prinsip etibarilə üst-üstə düşür; ictimai vəkili və müdafiəçisi olduğu xalq və dövlət haqqında məskunlaşdığı ölkələrdə müsbət rəy qazanmaqdan ibarətdir. Diaspor və lobbi arasında analoji cəhətlərdən biri də hər iki sistemin aparıcı qüvvəsini müxtəlif kateqoriyadan olan ziyalılar, iş adamları, mətbuat işçiləri, mədəniyyət və incəsənət xadimləri,

[1] Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: «Yurd» NPB, 2007, 376 s.

ictimai mənşəyinə görə yuxarı və orta təbəqənin nümayəndələri və digər peşə sahiblərini təşkil etməsidir. «Lakin lobbi diasporun iştirakçısı olmadan da yarana bilir. Bu halda bütün ağırlıq hər iki tərəfin, maraqlı dövlətin və işin icraçısı olan lobbi şirkətlərinin üzərinə düşür. Bu iki anlayış arasında başqa bir fərq isə lobbi nümayəndələrinin bir qayda olaraq, əslində isə mütləq başqa millətlərdən ibarət olmasıdır».[1]

Fikirimizcə, **«Diaspor tarixən öz vətənindən köç edərək dünyanın müxtəlif ərazilərində məskunlaşan hər hansısa bir millətin sosiallaşmış bədənidirsə, lobbi onun siyasiləşmiş qoludur».**

«Lobbi» termininin son dövrlərdə daha geniş yayılmasına və istifadə edilməsinə baxmayaraq, o, hələ termin kimi tam mənası ilə işıqlandırılmamışdır. Ona görə ki, etnik lobbiçiliklə siyasi lobbiçiliyin fərqi düzgün izah edilməmişdir. Belə ki, etnik lobbiçilik kollektiv maraqları, siyasi lobbiçilik isə fərdi mənafeyi təmin edir. (Yəni, biri var hər hansısa bir etnik qrupun, xalqın öz milli maraqları naminə apardığı iş, biri də var hər hansısa bir məqsədli qrupun, şəxsin öz mənafeyi üçün apardığı fəaliyyət növü). Bu, daxili və xarici ünsür olmaqla istifadə olunan fərdi və kollektiv vasitədir. «Lobbi» anlayışı 1553-cü ildə İngiltərə monastırlarında «gözətçi meydançası» kimi işlədilirdi.[2] Başqa bir mənada lobbiçilik təşkilatlanmış maraqların dövlət orqanlarına və ayrı-ayrı rəsmi şəxslərə məqsədyönlü təsirini ifadə edir. Bir sözlə, lobbiçilik təkcə bu və ya digər qrupun sosial, siyasi və iqtisadi maraqlarının müdafiəsi olmayıb, əslində formal hakimiyyəti faktik hakimiyyətlə hesablaşmağa vadar edən bir mexanizmdir, anlayışdır. Əslində sivil qaydada həyata keçirilən lobbiçilik təkcə hər hansı qrup marağının müdafiəçisi olmayıb, həm də cəmiyyət və hakimiyyət münasibətlərinin tənzimlənmə sisteminin vacib elementidir. Tarix dönə-dönə sübut edib ki, bu

[1] Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: «Yurd» NPB. 2007, 376 s.

[2] Sadıqov F. Xarici lobbizm və dövlətlərin maraqları //Məşvərət, 2000, №27.: http://www.commission-anticorruption.gov.az/upload/file/Lobbicilik.pdf



keyfiyyətlərdən məhrum olan xalqlar gec-tez güclü millətlərin təsiri altına düşərək assimilyasiyaya məruz qalır və öz milli simasını itirir. Sovetlər dönəmində isə Qərb cəmiyyətində çox geniş yayılmış bu təcrübəni, yəni lobbizmi birtərəfli və təhrif olunmuş şəkildə təqdim edən kitablarda və məqalələrdə insanların şüuruna «lobbizm korrupsiyanın sinonimidir» kimi aşılanmışdı. Lobbizm, hər hansı bir qrupun maraqlarının nəzərə alınması məqsədilə hökumət qurumlarına birbaşa, yaxud dolayı yolla təsir etmə fəaliyyəti kimi də adlandırıla bilər. Bu cür adlandırma ümumi mahiyyətli olduğu üçün hər hansı ictimai, yaxud siyasi fəaliyyəti bura aid etmək olar. Ona görə də bir sıra məsələyə aydınlıq gətirilməsi üçün dəqiqləşdirmələrin aparılması vacibdir.

**Birincisi,** qurum dedikdə konkret olaraq vəzifəli şəxslər nəzərdə tutulur ki, qərarın qəbul edilib-edilməməsi onlardan asılı olur. Bu bir, yaxud bir neçə adam ola bilər. Məsələn, deputatlar qrupu, hökumət üzvü, yaxud administrasiyanın yüksək vəzifəli nümayəndəsi və s.

**İkincisi,** lobbiləşdirilmiş qərar həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Məlumdur ki, 1992-ci ilin oktyabrında ABŞ Konqresi keçmiş sovet respublikalarına dövlət yardımını tənzimləyən «Azadlığı Müdafiə Aktı» adlı qanun qəbul etmişdi. Lakin ABŞ-dakı erməni lobbisinin təsiri ilə bu qanuna edilən 907-ci düzəlişə əsasən ABŞ hökuməti tərəfindən Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olunmuşdur. Hazırda da erməni lobbisi Azərbaycana qarşı ədalətsiz və diskriminasiya xarakterli bu qərarın aradan qaldırılmaması üçün palata üzvlərinə bütün istiqamətlərdə təzyiq göstərir. Yəni, lobbi fəaliyyəti eyni vaxtda pozitiv və neqativ istiqamətə yönəldilə bilər.

**Üçüncüsü,** lobbiləşmə vəzifəli şəxslərin yalnız maddi stimullaşdırma prinsiplərinə əsaslanmasa da, bu metod lobbizmdə ən geniş yayılmış və təsirli amil hesab olunur. Primitiv mahiyyətli və qanunla təhdid olunan rüşvət vermə əvəzinə hazırda başqa metodlardan istifadə olunur; seçki fondlarına birdəfəlik yaxud mütəmadi yardım göstərilməsi, pulsuz xarici səfərlərin təşkil olunması, sərfəli mühazirə turları, vəzifəli şəxslərin qohum-

larının, köməkçilərinin ələ alınması və s.

**Dördüncüsü,** lobbizmi dövlət strukturları üzərində mafioz, klan, yaxud mason nəzarəti ilə qarışdırmaq düzgün olmazdı. Ona görə ki, dediklərimiz gizli və qanuna zidd mahiyyət daşıdığı üçün lobbizmdən tamamilə fərqlənir.

**Bütövlükdə isə** lobbizm məqsədə çatmaq üçün ciddi vasitə hesab olunur. O, istər hərəkət formasında (müxtəlif ictimai birliklərdə: qadınlar, gənclər və ya komitələrdə: etnik, mədəni və s.), istərsə də peşəkar fəaliyyətdə (siyasətdə, iqtisadiyyatda və s.) təzahür edir.[1]

Dünya tarixində «Şərq məsələsi»nin ən dəhşətli və saxta qolu olan «erməni məsələsi»ni mütəmadi faciələr mənbəyinə çevirən erməni diasporunun təmsilçiləri beynəlxalq təşkilatların da fəaliyyətinə müdaxilə edərək, onları səhv istiqamətə yönəltmişlər. «Erməni genosidi» və erməni-türk diasporlarının qarşıdurması, həmçinin, «907-ci düzəliş və erməni-Azərbaycan diasporlarının mübarizəsi» məsələlərində erməni diasporu təkcə mövcud olduğu ölkələrə deyil, eyni zamanda dünyanın aparıcı təşkilatları olan BMT, ATƏT, Aİ kimi təşkilatlara təsir göstərməyə çalışmış, öz iyrənc məqsədləri, maraq və mənafelərini gerçəkləşdirmək üçün hər cür vasitədən istifadə etmişdilər. Erməni diasporu qondarma «erməni genosidi»ni dünyanın müxtəlif dövlətlərinin qanunvericilik orqanları tərəfindən tanınmasına çalışmaqla yanaşı, beynəlxalq və qeyri-hökumət təşkilatlarında tanınmasından ötrü də ciddi mübarizə aparmışdılar. Bunun vasitəsi ilə beynəlxalq ictimaiyyətin diqqətini özlərinə cəlb etmək istəmiş və göründüyü kimi çox vaxt da buna nail olmuşdular. İlk dəfə olaraq 1973-cü ildə BMT-nin nəzdində «Azlıqda Qalan Millətlərin Hüququnun Müdafiə Edilmə Komitəsi»nə yol tapan erməni diasporu komitənin müzakirəsinə «erməni genosidi» məsələsini çıxartmağı bacarsa da, məsələnin qəbul edilməsinə nail ola bilməmişdi. 1978-ci ildə məsələ Komitədə səsvermə yolu ilə

[1] Sadıqov F. Xarici lobbizm və dövlətlərin maraqları //Məşvərət, 2000, №27.; http://www.commission-anticorruption.gov.az/upload/file/Lobbicilik.pdf



rədd edildi.[1]

Heç nədən çəkinməyən erməni diasporu bundan sonra inadkarlıqla geniş miqyaslı təbliğat kampaniyasına başlayaraq BMT-nin üzvü olan dövlətlərə, ABŞ konqresinə, ABŞ vitse-prezidentinə, ABŞ dövlət katibinə və ABŞ-ın digər dövlət idarələrinə «genosid»in tanınması ilə bağlı xüsusi memorandumlar göndərdilər.

1983-cü ildə BMT rəhbərliyi Londonda fəaliyyət göstərən Humanitar Assosiasiyanın direktoru Bencamin Uaterkerə XXXVIII sessiyada müxtəlif genosidlərlə bağlı raport hazırlanmasını tapşırmışdı. 1985-ci ilin avqustunda BMT-nin Baş Assambleyasının sessiyasında çıxış edən B.Uaterkerin erməni genosidi ilə bağlı raportu dinlənilmiş, nəzərə alınmış, ancaq onun İnsan Hüquqları üzrə Komissiyaya verilməsi ilə bu məsələyə nöqtə qoyulmuşdur. Sənəd arxivə göndərildikdən sonra erməni diasporu məğlubiyyətlərini büruzə verməməkdən ötrü yalan məlumatlarla dolu yazılarla özlərinə məxsus mətbuat səhifələrində çıxış etməyə başladılar. Onlar Fransanın «Jurnal dc Jenev» mətbuat orqanında lap irəliyə gedərək 1985-ci il avqust ayının 30-da «BMT İnsan Hüquqları Komitəsi tərəfindən: erməni genosidi tanınmışdır» adlı yalan məlumatlı məqalə də dərc etdirmişdilər.

Erməni diasporu Avropa Birliyinin daxilində də anti-türk təbliğatı aparmaqla yanaşı, saxta «erməni genosidi»nin bu qurum tərəfindən tanınması üçün dəridən-qabıqdan çıxırdı. Erməni diasporu üçün Avropa Birliyində lobbiçiliklə məşğul olan Van de Bruk Siyasi Komissiyanın üzvü olmasından istifadə edərək bütün iclaslarının müzakirəsinə sözügedən məsələni çıxartmağa çalışmışdı. Avropa Birliyinin Siyasi Komissiyası bu məsələni müzakirəyə çıxaracağı təqdirdə «erməni genosidi» faktını qəbul etmiş olurdu. Bu müzakirənin baş tutmaması üçün türk diasporu və hökuməti məsələnin müzakirə olunacağı təqdirdə Avropa Birliyi ilə Türkiyənin münasibətlərinin pozulacağına dair

[1] Abdullayev Ə. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı: Elm, 1994, s. 77.

bəyanat vermişdi. Əslində, Türkiyənin bu quruma və Avropanın müvafiq təşkilatlarına yaxın buraxılmaması üçün həm heç bir əsası olmayan «Kipr məsələsin»dən, «kürd kartın»dan və «erməni genosidin»dən məharətlə istifadə edilir, həm də vaxtaşırı onun birlik daxilində mövqeyinin arzuolunmazlığının büruzə verilməsinə çalışılırdı. Digər tərəfdən, Türkiyənin tam uzaqlaşdırılması da qurum üçün sərfəli deyil. Avropa Birliyi ölkələri ilə tərəddüdatlarla dolu Yaxın Şərq ölkələri arasında Türkiyə bir körpü rolunu oynayır və Avropa Birliyi bu yolun son nəticədə istiqaməti haqqında tam əminliklə proqnoz verə bilmirdi. «Erməni genosidi»nin «Domokl qılıncı» kimi Türkiyənin başı üzərində saxlanılması da bu tərəddüdlərdən irəli gəlirdi. Ancaq Avropanın baş bilən gücləri Türkiyənin bir çox üstünlüklərinə görə onu əldən də vermək fikirində deyillər. Yaxın Şərq və Avropa arasında körpü olan Türkiyənin Şərqə meyli Avropanı təşvişə salmışdı. Əgər, Türkiyə Şərqlə birləşsə, Avropa üçün təhlükə yarada bilərdi. Elə Avropa Birliyinin saxta «erməni genosidi»ni bəzən qəbul edib, bəzən də tərəddüdlər etməsi də bu səbəblə bağlıdır. Avropa Birliyinin Türkiyənin bəyanatını qəbul edib Van de Brukun layihəsini rədd etməsi də təsadüfi sayılmırdı.

1987-ci ildə Avropa Parlamenti Avropa Birliyinin əksinə olaraq erməni diasporunun təzyiqi nəticəsində «erməni genosidi» məsələsini müzakirəyə çıxartdı. Bu məsələ müzakirə olunan gün nümayəndələrin ¾ hissəsinin olmamasından istifadə edən erməni diasporunun təmsilçiləri 68 lehinə, 60 əleyhinə səs çoxluğu ilə «erməni genosidi» məsələsi ilə bağlı qətnamə qəbul edilməsinə nail oldular. Qətnamə qəbul edildikdən sonra Avropanın bir sıra böyük dövlətləri bəyanat verərək elan etdilər ki, Avropa Parlamentinin qəbul etdiyi qərarın onların xarici siyasəti ilə heç bir əlaqəsi yoxdur.[1]

2000-ci ilin noyabr ayında «erməni genosidi» məsələsi Avropa Parlament Assambleyasında yenidən müzakirəyə çıxarılsada, tanınmamışdı. Bu layihənin gündəliyə salınmasında «Yaşıllar Partiyası», «Xristian-Demokratlar Partiyası» və «Yunan Nümayəndəliyi» təkidli idi. Digər parlamentarilərlə birgə bu layihənin əleyhinə çıxan Avropa Parlamentinin üzvü Filip Mayron qurumun bu addımının Türkiyə ilə münasibətlərin pozulacağına gətirib çıxaracağını, belə bir şəraitdə Türkiyənin daha tədbirli olacağına və atılan addımın Avropaya inteqrasiyasında əngəl törətməyəcəyinə ümid etdiyini bildirmişdi. Əslində, bu tanınmanın «de-yure» (hüquqi) əsası olmayıb tövsiyə statusu daşıyırdı. Bu Avropa Parlamentinin Türkiyənin Avropa Birliyinə daxil olması ilə bağlı müəyyən etdiyi şərtlərdən biri idi.

[1]http://karabakhinfo.com/arasdirma/960-ermni-soyqrmnn-mahiyyti-v-dnyann-bu-msly-indiki-yanamas.html



Erməni diasporu uydurma «genosid» iddiaları ilə Ermənistanın Avropa Şurasına üzv qəbul olunmasından sonra bu təşkilatın Parlament Assambleyasında tanınmasına çalışmışdır. 2001-ci il aprel ayının 24-də Ermənistan Parlamentini təmsil edən deputatlar «erməni genosidi» ilə bağlı sənəd hazırlayaraq Avropa Şurası Parlament Assambleyasının (AŞPA) II sessiyasının gedişində deputatlar arasında yaymışdılar. Ermənistanın bu əsassız təbliğatına cavab olaraq AŞPA-da Azərbaycan Parlamentini təmsil edən deputatlar isə ermənilər tərəfindən ötən əsrin əvvəllərindən başlayaraq bu günə qədər davam edən azərbaycanlılara qarşı həyata keçirdikləri əsl genosid və təcavüz siyasəti haqqında, 31 mart Azərbaycanlıların soyqırımı, Azərbaycan Respublikasının ərazisinin 20%-nin işğal edilməsi və Xocalı soyqırımı ilə bağlı bəyannamə hazırlamışdı. Bu bəyannamə 2001-ci il aprel ayının 27-də AŞPA-nın deputatları arasında yayılmışdır. AŞPA-nın 29 deputatının imzaladığı «Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilən genosidin tanınması» ilk dəfə olaraq Beynəlxalq təşkilat səviyyəsində sənəd halında öz əksini tapmışdı. AŞPA-da Azərbaycan Respublikası Nümayəndə Heyətinin rəhbəri İ.Əliyev gələcəkdə də bu sənədin digər dövlətlərin parlamentlərində tanınması üçün işlər görüləcəyini bildirmişdir.

Göründüyü kimi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başladılan zamandan etibarən erməni diasporunun bütün təşkilatları da Azərbaycana qarşı beynəlxalq səviyyədə

mübarizəyə sövq edilmişdirlər. ABŞ-ın siyasi dairələrində Ermənistanın dəstəklənməsi və erməni soyqırımının rəsmi tanınması işində Amerika Erməni Milli Komitəsi (AEMK) böyük fəallıq göstərir. AEMK – erməni diasporunun Vaşinqtonda qərargahı olan ən güclü, institutlaşmış və şaxələnmiş təşkilatıdır. Öz məqsədlərinə nail olmaq üçün AEMK seçki kampaniyalarından uğurla istifadə edir. Bu vaxt Amerika qanunvericiləri seçicilərin müxtəlif birləşmələrinin, o cümlədən etnik birləşmələrin təzyiqlərinə daha diqqətli və həssas olur. 1992-ci ildə AEMK «Azadlığa dəstək aktı»na «907-ci düzəliş»in qəbul edilməsinə nail oldu ki, bu düzəlişə əsasən Amerika tərəfindən Azərbaycana iqtisadi yardım o, Ermənistana və Dağlıq Qarabağa qarşı blokada və digər aqressiv güc tətbiq etməyəcəyini sübut edən addımları atmayınca göstərilməyəcəkdir. Bu Akt ABŞ prezidenti C.Buş (ata) tərəfindən imzalandıqdan sonra qanuni status əldə etdi. İndiyə kimi, AEMK Vaşinqtondakı Azərbaycan və Türkiyə lobbisinin bu düzəlişi ləğv etmək səylərinə uğurla müqavimət göstərir.

2000-ci ilin oktyabr ayında AEMK ABŞ Nümayəndələr Palatasının Xarici İşlər üzrə Komitəsi tərəfində «erməni soyqırımı»nın tanınması haqqında 596 nömrəli qətnamənin qəbul edilməsinə nail oldu. Baxmayaraq ki, qətnamədə müasir Türkiyəni Osman İmperiyasının törətdiyi cinayətlərə görə məsuliyyətdən azad edən ifadələr işlədir. Təbii ki, buna Türkiyə hökumətinin reaksiyası həddindən artıq kəskin olmuşdur. B.Klinton administrasiyası Amerika-Türkiyə münasibətlərinin pisləşməsinə yol verməmək və qətnaməni ləğv etmək üçün təcili tədbirlər görmək məcburiyyətində qaldı. Qeyd etmək lazımdır ki, Nümayəndələr Palatası tərəfindən qətnamənin qəbul edilməsi heç də ABŞ tərəfindən erməni soyqırımının rəsmi tanınması demək deyildir.

Aşağı Palatanın qərarı birinci mərhələ olardı ki, ondan sonra Senatın, daha sonra prezidentin təsdiqi tələb olunardı. ABŞ konstitusiyasına görə prezident konqresin istənilən qanun layihəsinə veto qoymaq hüququna malikdir. Bu verilən



imkandan istifadə edərək B.Klinton administrasiyası Amerika-Türkiyə münasibətləri üçün təhlükəli olan qətnamənin müzakirəsini ilkin mərhələdə dayandırmağı zəruri hesab etdi.

Demokratların administrasiyadan məyus olan AEMK 2000-ci ildə ABŞ-dakı prezindent seçkilərində Respublikaçılara dəstək verdi. Seçki kampaniyası zamanı Corc Buş siyasi baxımdan möhkəm və yaxşı təşkil olunmuş milyonlu erməni icmasını öz tərəfinə cəlb etmək üçün söz vermişdir ki, qalib olduğu halda erməni soyqırımını tanıyacaq. Lakin qələbədən sonra o, öz sözünü yerinə yetirmədi. Çünki, bu istər-istəməz Amerika-Türkiyə münasibətlərinin böhranına gətirib çıxarardı.[1]

Hazırda belə adlanan, «erməni qrupuna» daxil olan Amerika konqresmenlərinin sayı 130 nəfər təşkil edir. SSRİ-nin süqutundan sonra erməni lobbisi MDB ölkələri arasında Ermənistan üçün dövlət xətti ilə ən böyük həcmdə humanitar yardımın ayrılmasına nail olmuşdur. 1990-cı illərin axırları 2000-ci illərin əvvəllərinə qədər ABŞ tərəfindən Ermənistana göstərilən humanitar yardım 239 mln dollar təşkil edirdi, Azərbaycana isə cəmi 91 mln 600 min dollar ayrılmışdır. Son illər ərzində Konqresdəki ermənipərəst qüvvələr Ermənistana ayrılan yardımın planlaşdırılmış azalmasına imkan vermədilər. Büdcənin Konqresdən keçməsi zamanı erməni lobbisi hər dəfə keçən illərdə göstərilən yardımın həcminə uyğun məbləğin bərpa olunmasına nail oldu.[2]

Bundan əlavə, 2003-cü il üçün ayırmalar haqqında qanuna Ermənistanın Türkiyə tərəfindən blokadasına qarşı əks-təsir göstərmək zərurətinə dair xüsusi qeyd əlavə olunmuşdur (bu blokadanın Ermənistan üçün illik zərəri 600-700 mln dollar həcmində qiymətləndirilir). ABŞ-ın icra hakimiyyətinin Ankara və ya Bakını blokadanı dayandırmağa məcbur edə bilməməyini nəzərə alaraq, AEMK-nın sədri A.Xabramyan yaxınlarda bildirmişdir ki, administrasiya buna görə məsuliyyəti öz üzərinə

---

[1] Крылов А. Армянская диаспора - важный фактор мировой политики // Новая Политика (интернет-журнал). Москва: 2004, 30 августа // http//www.novopol.ru/text306.html

[2] Yenə orada.

götürməlidir. AEMK-nın və Konqresdəki erməni lobbisinin fikrincə Vaşinqton yalnız Ermənistana göstərilən maliyyə yardımın həcminin keçmiş illərlə müqayisədə artırılması ilə bu məsələnin həll etməsində öz acizliyini kompensasiya edə bilər.

Son zamanlar ABŞ Konqresində erməni və yəhudi lobbisi arasında münasibətlər kəskinləşib. Yəhudi lobbisi Tükriyəni İsrailin yaxın şərqdə əsas tərəfdaşı kimi qiymətləndirir, 907-ci düzəlişin ləğvi və ABŞ tərəfindən Türkiyənin və Azərbaycanın hər cür dəstəklənməsi tərəfində çıxış edir. Yəhudi lobbisi Xolokost və erməni soyqırımı arasında hər hansı bir analogiyanın aparılmasını «ziyankar kampaniya» hesab edir, o, dünya yəhudilərinin maraqları naminə erməni maraqlarını qurban verməyə tam hazırlığını göstərir. Yəhudi lobbisinin tutduğu açıq Türkiyə tərəf mövqeyi ABŞ Konqresində erməni soyqırımı məsələsinin yenidən baxılmasına imkan vermədi.[1]

ABŞ erməniləri tək erməni soyqırımı məsələsində C.Buşun siyasəti deyil, eləcə də onların fikrincə ikitərəfli münasibətlərin qeyri-qənaətbəxş olması, Azərbaycana ABŞ tərəfindən göstərilən hərbi yardım, Dağlıq Qarabağ münaqişəsinə dair administrasiyanın mövqeyi ilə tamamilə məyus olublar. Hazırki seçkilərdə ABŞ-ın erməni diasporun bütün potensialı demokratlar tərəfindən Con Kerrini dəstəkləməyə yönəldilmişdir.[2]

Burada bir haşiyə çıxaq ki, yuxarıda sadalananlar son 10 il ərzində Azərbaycan dövləti tərəfindən aparılan ölçülüb-bicilmiş xarici siyasət nəticəsində artıq bu gün öz aktuallığını itirib, ikili standardların «nizamı»nın pozulmasına nail olunub və erməni diaspor-lobbisinin saxta, növbəti cəhdləri fiaskoya uğrayıb.

Tarixdən məlumdur ki, Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatı arasında əməkdaşlıq Sovet İttifaqı-nın dağılması və Azərbaycanın öz müstəqilliyini qazanmasından dərhal sonra bərqərar olmuşdur. Azərbaycan Respublikası 1992-ci

[1]Крылов А. Армянская диаспора - важный фактор мировой политики // Новая Политика (интернет-журнал). Москва: 2004, 30 августа // http//www.novopol.ru/text306.html

[2] Yenə orada.



ilin 2 mart tarixində BMT-nin üzvlüyünə qəbul edilmiş və həmin ilin may ayının 6-da Azərbaycanın BMT nəzdində daimi nümayəndəliyi açılmışdır.[1]

BMT ilə əməkdaşlığın ilk günündən başlayaraq, Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etməyə, Ermənistanın ədalətsiz mövqeyini və işğalçılıq siyasətini dünya birliyinə çatdırmağa və BMT-nin real və potensial imkanlarından istifadə etməklə sülh sazişinin əldə olunmasına çalışmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair çıxardığı – 822, 853, 874, 884 saylı qətnamələrə, atəşkəs rejimini nəzərdə tutan – 1994-cü il mayın 12-də imzalanan «Bişkek protokolu»na Azərbaycan tərəfinin əməl etməsinə və qəti surətdə münaqişənin sülh yolu ilə nizamlanmasının tərəfdarı olduğunu bildirməsinə baxmayaraq, Ermənistan tərəfindən bunların heç biri yerinə yetirilməmişdir. Ermənistan dövləti işğalçılıq siyasətini davam etdirərək, BMT-nin nizamnaməsini kobud surətdə pozur. Qeyd edilən qətnamələrdə Azərbaycan Respublikasının BMT-yə üzv olduğu vaxtdakı ərazi bütövlüyünü, toxunulmazlığını yenidən təsdiq edərək dərhal atəşkəs elan olunması, hərbi əməliyyatlara son qoyulması və işğalçı qüvvələrin ölkə ərazisindən çıxarılması tələblərini irəli sürsə də, lakin, indiyədək problem öz ədalətli həllini tapmamışdır. Məhz Azərbaycan diplomatiyasının səyi və diasporumuzun fəaliyyəti sayəsində 1996-cı ildən başlayaraq BMT Baş Assambleyası «BMT və ATƏT arasında əməkdaşlıq haqqında» qətnaməsində Azərbaycan Respublikasının ərazi bütövlüyünü yenidən təsdiqləmişdir. Azərbaycan diasporu məqsədyönlü fəaliyyəti və xarici siyasətimizin prioritetləri istiqamətində BMT Baş Assambleyasının işi çərçivəsində fəal iştirak etmişdi. Belə ki, 1994 və 1995-ci illərdə Baş Assambleyanın 49-cu və 50-ci Sessiyalarında Azərbaycan Respublikasını Heydər Əliyevin başçılıq

[1] Azərbaycan beynəlxalq aləmdə // http://files.preslib.az/projects/ azerbaijan/ gl9.pdf, 32.

etdiyi nümayəndə heyəti təmsil etmiş və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi BMT-nin tribunasından dünya ictimaiyyətinə bir daha bəyan olunmuşdur. Həmçinin, H.Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin «Millenium sammiti» adlanan Minilliyin Zirvə Toplantısında iştirakı zamanı çıxışında sözügedən təşkilatın məlum qətnamələrinin yerinə yetirilməməsindən narahat olduğunu bildirmiş və bu faktın aradan qaldırılmamasının BMT-nin beynəlxalq təşkilat kimi nüfuzunun aşağı düşəcəyinə gətirib çıxaracağını vurğulamışdır.[1]

Məlumdur ki, transmilli münaqişələrin həllində ATƏT-in rolu böyükdür. Azərbaycan ATƏM-in (sonralar ATƏT) üzvlüyünə 1992-ci ilin yanvar ayının 30-da qəbul olunmuşdur. 1992-ci ilin fevral ayından başlayaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ATƏM-in prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox diqqət obyektinə çevrilmişdir. Bu məqsədlə fevralın ortalarında ATƏM-in ilk xüsusi missiyası Azərbaycanda olmuş, ayın 27-28-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclasında ilk dəfə olaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılmışdır. Erməni diasporu və lobbisinin gərgin mübarizəsinə və təzyiqlərinə baxmayaraq, Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə sərhədlərin dəyişdirilməməsi şərtilə münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapmışdı. 1994-cü ilin dekabr ayının 5-6-da keçirilən Budapeşt Zirvə Toplantısının nəticəsinə əsasən ATƏM 1995-ci il yanvar ayının 1-dən etibarən əməkdaşlıq təşkilatına – ATƏT-ə çevrildi. ATƏT-in 1996-cı ilin 2-3 dekabr tarixlərində keçirilən Lissabon sammitində Azərbaycan diplomatiyası böyük uğur qazanaraq dünyanın 54 ölkəsinin iştirak etdiyi toplantıda Azərbaycan həqiqətlərini dünya ölkələrinə çatdıra bildi. Bunu xarici siyasətlə yanaşı, diasporun da nailiyyəti hesab etmək olar.

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 1993-2003-cü illər.; http://www.azerbaijan.az/portal/World Community/InterOrg/interOrg_01_a.html



Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in iştirakçı dövlətləri (Ermənistan Respublikasından başqa) aşağıdakı prinsiplərə razılıq vermişdi:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə statusunun verilməsi;
- Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı.[1]

Ə.Həsənov haqlı olaraq digər nüfuzlu beynəlxalq təşkilatlarla yanaşı, ATƏT-in də bir sıra transmilli münaqişələrin həlli istiqamətindəki təcrübəsindən və imkanlarından faydalanmağın vacibliyini hesab edir: «Azərbaycanın xarici siyasət prioritetləri sırasına, eyni zamanda dünyada beynəlxalq hüquq normalarına əsaslanan sivil birgəyaşayış normalarının bərqərar olması, dövlətlərin beynəlxalq hüquqlarının qorunması üçün fəal təsirli tədbirlərin görülməsi, beynəlxalq təşkilatların, xüsusən də BMT, ATƏT, NATO kimi qurumların dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında daha yaxından iştirakının artırılması və s. məsələlər daxildir».[2]

ATƏT-in Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli Helsinki, 1994-cü il 6 dekabr tarixli Budapeşt, 1995-ci il 8 dekabr tarixli Budapeşt, 1996-cı il 3 dekabr tarixli Lissabon, 1999-cu il 19 noyabr tarixli İstanbul, 2001-ci il 4 dekabr tarixli Buxarest, 2002-ci il 7 dekabr tarixli Porto görüşlərinin yekun sənədlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi əsas müzakirə obyekti kimi nəzərdən keçirilmiş, lakin münaqişənin sülh yolu ilə nizamlanması üzrə fəaliyyət göstərən Minsk qrupunun səyləri bu günədək bir nəticə verməmişdir.

[1] http://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası - Azərbaycan beynəlxalq aləmdə. s. 15.

[2] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. s. 219-247.

Erməni diasporunun nümayəndələri öz din və qan qardaşlarının dəstəyinə arxalanaraq, bu missiyanın qarşısını hər vəchlə almağa çalışmışlar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilat olan Avropa Şurasının da apardığı siyasətin əsas prioritet vəzifələrdən hesab olunurdu. 1992-ci il yanvar ayının 24-də Azərbaycan Parlamenti «Xüsusi dəvət edilmiş qonaq» statusu almaq üçün Avropa Şurasına müraciət etmişdi. Bu torpaqların Ermənistana məxsus olması iddiasını erməni diasporu Avropa Birliyi ölkələri arasında da hər cür vasitə ilə təbliğ edərək, Avropa İttifaqı tərəfindən Dağlıq Qarabağa dair 1992-ci ilin 22 may, 18 iyun, 1993-cü ilin 7 aprel, 24 iyun, 3 sentyabr və 9 noyabr tarixli Brüssel Bəyanatlarını yerinə yetirilməməsinə çalışır. Sonrakı illərdə Azərbaycanın Şura ilə əlaqələri genişlənərək möhkəmlənmişdi. Avropa Şurası Parlament Assambleyası erməni diasporu və lobbisinin təzyiqlərinə baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 1994-cü ildə 1047 və 1251 saylı qətnamələr və tövsiyələr hazırlamışdı. Həmçinin, 1997-ci il aprel ayının 22-də AŞPA-nın yaz sessiyasında Cənubi Qafqaz münaqişələri ilə əlaqədar olaraq sərhədlərin toxunulmazlığı ilə bağlı hüquqi prinsipləri özündə əks etdirən 1119 saylı qətnamə qəbul edilmişdir. Avropa İttifaqı ilə əməkdaşlığı Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən biri hesab etmək olardı. Erməni diasporu Avropa Birliyində də Azərbaycana qarşı təbliğat apararaq Avropa İttifaqına üzv dövlətlərin Azərbaycanla siyasi və iqtisadi münasibətlərinin qarşısını almağa cəhd edirdi. Erməni diasporu və lobbisi güclü informasiya-təbliğat mexanizmi yaradaraq özlərini təşkilata üzv olan dövlətlər qarşısında təcavüzə uğrayan dövlət kimi qələmə verirdilər. Erməni diasporunun ədalətsizliyinin baş alıb gedə bilməsində, dünya ictimaiyyətini çaşdırmaq bacarığında zamanında lobbiçilik fəaliyyətlərinin geniş və səmərəli qura bilmələri çox böyük rol oynayır. Tədqiq olunan dövrdə Ermənistanın apardığı dövlət siyasətinin istiqamətlərini elə erməni lobbisi təyin edirdi. Həm Türkiyəyə, həm də Azərbaycana qarşı mübarizələrində Avropa Birliyində lobbiçiliklə məşğul olan Van de Brukun maddi və mənəvi dəstəyindən hər an istifadə edilirdi.



Ermənistan-Azərbaycan diasporları arasındakı mübarizə İslam Konfransı Təşkilatının qətnamələrinin qəbul edilməsində də özünü göstərmişdi. Zəngin tarixi keçmişi, dini və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın 1991-ci ilin dekabr ayında İslam Konfransı Təşkilatına (İKT) (hazırda İslam Əməkdaşlıq Təşkilatı – İƏT) üzv olması beynəlxalq aləmdə onun qarşısında yeni üfüqlər açdı. Bununla, Azərbaycan Ermənistanla ədalətsiz qarşıdurmasında İKT və ona üzv olan dövlətlərin ardıcıl dəstəyinə nail olundu. Belə ki, ilk vaxtlar İslam Konfransı Baş Katibliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, daha sonrakı mərhələdə İKT konfransları erməni diasporunun təzyiqlərinə məhəl qoymayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında kəsərli qətnamələr qəbul etmişdi. Bu qətnamələrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi diasporumuzun düzgün təbliğatı sayəsində birmənalı şəkildə Ermənistanın Azərbaycana qarşı təcavüzü kimi qiymətləndirilmişdi. İKT Xarici İşlər Nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistanla Azərbaycan arasında münaqişələr haqqında qətnamələr qəbul etmişdir. İKT Xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü» adlandırılmışdı. Onu da qeyd etmək lazımdır ki, erməni diasporunun və lobbisinin anti-Azərbaycan təbliğatlarına baxmayaraq, İKT dövlət və hökumət başçılarının 1997-ci ildə İran İslam Respublikasının Tehran şəhərində VIII, 2000-ci ildə Qətərin Doha şəhərində IX və 2003-cü ildə Malayziyanın Rutraçaya şəhərində keçirilmiş X konfransları eyniadlı qətnamə qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq son qətnamələr xeyli təkmilləşdirilmiş və aşağıda təqdim etdiyimiz

yeni bəndlər əlavə olunmuşdur:

- bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır;
- İKT-yə üzv dövlətin ərazisi hərbi təchizatın tranziti üçün istifadə edilməməlidir;
- İKT ona üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycanın işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadə etməyə dəvət edir;
- Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyəti Ermənistanın üzərinə qoyur;
- bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırkı sədrinə məlumat verməsini İKT baş katibliyindən tələb edir və s.[1]

Yeri gəlmişkən, öz tolerantlıq mühiti ilə nümunəyə çevrilən, çoxkonfessiyalı ölkəmiz dinlərarası dialoqa daim öz töhfəsini verir. 2009-cu ildə Bakı şəhəri «İslam mədəniyyətinin paytaxtı» elan olunmuşdur.

*Qeyd: 2017-ci ilin may ayının 12-22-də Bakı şəhərində İslam Həmrəyliyi Oyunlarının keçirilməsi təsdiqlənmişdir.*

Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair gördüyü tədbirlərə baxmayaraq, təcavüzkar Ermənistan dövlətinin və erməni lobbisinin avantürist mövqeyi nəticəsində bunlar heç bir effekt verməmişdir. «Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə» İstanbulda keçirilən beynəlxalq müşavirədə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev bu məsələyə münasibətini belə ifadə etmişdir: «Ərazimizin 20%-i Ermənistanın işğalı altındadır. Bu vəziyyət hələ də davam edir.

[1] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası - Azərbaycan beynəlxalq aləmdə. s. 30.; http://files.preslib.az/projects/-azerbaijan/gl9.pdf



Biz etnik təmizləmə siyasətinə məruz qalmışıq. Hazırda işğal olunmuş ərazilərdə heç bir yerli sakin yoxdur. Orada etnik təmizləmə aparılır. Həmin yerlərdə bütün tikililər, o cümlədən ictimai binalar, yaşayış evləri, məktəblər, ulu babalarımızın məzarları, dini inanc yerlərimiz, məscidlərimiz və digər tarixi irsimiz dağıdılıb. Biz beynəlxalq təşkilatların qərar və qətnamələrinin Ermənistan tərəfindən icrasını tələb edirik. BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Lakin bu qətnamələr hələ də yerinə yetirilməyibdir. BMT-nin Baş Məclisinin qətnamələri, ATƏT-in qərarları, İslam Konfransı Təşkilatının qətnamələri, Avropa Şurası və Avropa Parlamentinin, eləcə də digər beynəlxalq təşkilatların qərarları yerinə yetirilməyib. Əgər beynəlxalq hüququn normaları işləmirsə, onda beynəlxalq ictimaiyyət üçün hansı durumdan söhbət gedə bilər. Əgər, həmin qərarlar qəbul olunmursa və icra edilmirsə, onda beynəlxalq təşkilatlara olan etimad da azalacaqdır».[1]

XXI əsrin informasiya əsri olduğunu nəzərə alsaq, 2009-cu ildə bu sahədə əlamətdar hadisələrdən biri də Diasporla İş üzrə Dövlət Komitəsinin yeni internet saytının istifadəyə verilməsidir. Dövlət Komitəsinin fəaliyyətinin tam əks olunduğu portalla – www.diaspora.gov.az[2] ünvanında tanış olmaq mümkündür. Yeni yaradılan saytda Azərbaycan dövləti və xalqı haqqında geniş məlumat verilir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız buradan Azərbaycanın dövlət quruluşu, tarixi, mədəniyyəti, milli xüsusiyyətləri, adət-ənənələri, folkloru, mətbəxi, coğrafiyası, əhalisi, təhsil sistemi, iqtisadiyyatı, turizm imkanları, idman sahəsindəki uğurları və s. barədə hərtərəfli bilgi almaq imkanı əldə edirlər. Azərbaycan diasporu barədə məlumat isə ayrıca bölmədədir. Burada oxucular diasporumuzun tarixi, soydaşlarımızın məskunlaşma coğrafiyası, eləcə də xarici

[1] Avropa Azərbaycanlıları Konqresinin fəaliyyət proqramı (2007-2009-cu illər). Bakı: «Yurd» NPB, 2007, 12 s.

[2] http://www.diaspora.gov.az/

ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları ilə tanış ola bilərlər. Bundan başqa, yeni sayda yerləşdirilmiş diaspor sahəsinə aid qanunvericilik həmvətənlərimizin bu məsələdə vahid mənbədən məlumat almalarını təkmilləşdirmək məqsədi daşıyır. Azərbaycan diasporuna dövlət səviyyəsində verilən əhəmiyyət və dəstək isə «Dövlət və diaspor» bölməsində geniş təqdim olunmuşdu.

2010-cu ilin əvvəlində Azərbaycan dövlətinin diasporumuzun inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs edən «Azərbaycan diasporuna dövlət qayğısı» adlı 3 müxtəlif kitab işıq üzü görmüşdü. Burada, İ.Əliyevin diaspor quruculuğu işinin təkmilləşdirilməsinə, xarici ölkələrdə yaşayan soydaşlarımızın problem və qayğılarının həllinə xidmət edən fərman və sərəncamları, dünya azərbaycanlılarına, eləcə də diaspor təşkilatlarının toplantılarına müraciətləri və digər mühüm sənədlər, habelə forum və qurultaylardakı çıxışları, diaspor nümayəndələri ilə görüşlərinə dair məlumatlar toplanmışdır.

Tədqiq edilən dövrdə Azərbaycan diasporu milli maraqlarımızın müdafiəsi işində də fəal iştirak etmişdi. Azərbaycana qarşı müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yol verilmiş ədalətsizliklərə diaspor təşkilatları dərhal kəskin etirazlarını bildirmişdi. Belə ki, 2009-cu il ərzində regionda baş vermiş bir sıra mühüm hadisələr, xüsusilə də həmin ilin oktyabr ayının 10-da Türkiyə və Ermənistan arasında «Diplomatik münasibətlərin qurulmasına dair» və «İkitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair» protokolların imzalanması Azərbaycan və türk diaspor təşkilatları tərəfindən ciddi narahatlıq və etirazla qarşılanmışdı. Diaspor təşkilatları öz mövqelərini ortaya qoymuşdular. Avropada Azərbaycan və türk diasporları digər ölkələrin müttəfiq diaspor təşkilatları ilə danışıqlar aparmışlar. Türk təşkilatları özləri hazırda Türkiyənin Ermənistanla sərhədləri açmasına etirazlarını bildirmişlər. İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası irəli sürməsi zəminində yarandığını, Azərbaycan tarixi-etnik torpaqlarının 20 faizi, yəni,



Dağlıq Qarabağ ərazisi və ona bitişik 7 rayon Ermənistan silahlı qüvvələrinin işğalı altında haqlı olaraq təsdiq etmişlər. Bəllidir ki, 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə ediblər və o vaxtdan bəri ATƏT-in Minsk qrupunun himayəsi altında, (əvvəlcə Rusiya və Finlandiya) Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır. Türkiyə və Ermənistan arasında diplomatik münasibətlər mövcud deyil, iki ölkə arasında sərhədlər 1993-cü ildən bağlıdır. Buna səbəb ermənilərin «soyqırım» iddiası və bunu dünya səviyyəsində tanıtmaq cəhdləri, o cümlədən, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal etməsidir.

2009-cu ilin noyabr ayında Almaniyanın Frankfurt şəhərində Avropa Azərbaycanlıları Konqresi və Azərbaycan-Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının birgə toplantısı keçirilmişdir. Toplantıda diaspor təşkilatları birmənalı şəkildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll edilmədən Türkiyə-Ermənistan sərhədlərinin açılmasının yolverilməz olduğunu və bu məsələdə Azərbaycan Respublikasının mövqeyini dəstəklədiklərini bildirmişlər. Müzakirələrin yekunu olaraq toplantı iştirakçıları adından Azərbaycan və Türkiyə prezidentlərinə müraciət qəbul edilmişdir.

Bununla əlaqədar diaspor təşkilatlarımızdan Dövlət Komitəsinə çoxsaylı müraciətlər daxil olmuşdur. Bu hadisə diasporumuzun uğurlu fəaliyyəti və lobbiçiliyə doğru irəliləməsi kimi dəyərləndirilə bilər.

Bu xüsusda, 2010-cu ildə Çexiyanın Lidiçe şəhərindəki küçələrdən birinin Xocalı, gələcəkdə isə Xocalı şəhərində küçələrdən birinin Lidiçe adının daşıması haqqında qərar verilmişdir. 2010-cu il martın 1-də Xocalı Şəhər İcra Hakimiyyəti ilə Lidiçe Xatirə Kompleksi və onun tabeçiliyində olan NKP Lejaki Memorialı arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanmışdı. Memoranduma əsasən, Lidiçe Xatirə Kompleksi və Xocalı Şəhər İcra Hakimiyyətinin əməkdaşlığı çərçivəsində qarşılıqlı təbliğat-təşviqat işləri aparılmalı, hər iki şəhərdə baş vermiş faciəyə dair sərgilər, Lidiçe

sakinlərinin və Xocalı faciəsi şahidlərinin görüşləri təşkil edilməli idi. Sənəddə həmçinin arxiv materiallarından istifadə üçün şəraitin yaradılması, soyqırıma aid nəşrlərin mübadiləsi, eləcə də birgə çap məhsullarının hazırlanması nəzərdə tutulurdu. Uşaq, yeniyetmə və gənclər üçün tədris xarakterli yarış və müsabiqələrin keçirilməsi də memorandumda öz əksini tapmışdır. Təbliğat işində müxtəlif ölkələrdə azərbaycanlıların çoxluq təşkil etdikləri regionlarda fəaliyyət göstərən KİV-lərin Azərbaycan haqqında dəqiq və zəngin məlumata malik olmasının təmin edilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri idi. Bu dövrdə, «Rusiya, Ukrayna, Belarus, Moldova, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, İngiltərə, Norveç, Niderland, Almaniya, İspaniya, İtaliya, Belçika, Bolqarıstan, Çexiya, Finlandiya, Estoniya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, ABŞ, İsveç və Fransada Azərbaycan icma və birliklərin nəzdində 27 qəzet, 10 jurnal və 11 radio studiyası fəaliyyət göstərirdi. Rusiyadakı «İnter-Azərbaycan» televiziyası ölkəmiz haqqında həqiqətlərin yayılmasında, milli-mədəni dəyərlərimizin təbliğində fəal rol oynayırdı».[1]

2010-cu ilin mayında İsrailin Təl-Əviv şəhərində «KİV və regional münaqişələr» mövzusunda beynəlxalq konfrans keçirilmişdi. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının birgə təşkil etdiyi konfransda dövlət rəsmilərinin, regiondakı prosesləri dərindən bilən ekspertlərin, habelə Azərbaycan, İsrail, ABŞ, Ukrayna və Rusiyada fəaliyyət göstərən rusdilli kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə «medianın münaqişələrin həllində roluna dair» müzakirələr aparılmışdı. Həmin ilin may ayının 6-da İsrailin Hadera şəhərində Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin adını daşıyacaq xiyabanın təməlqoyma mərasimi olmuş, burada gələcəkdə musiqi məktəbinin açılacağı və müvafiq kompleksin yaradılacağı

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.



nəzərdə tutulmuşdur. H.Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında qərarı İsraildə fəaliyyət göstərən «Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası»nın (AzİS) müraciəti əsasında Hadera şəhər bələdiyyəsi qəbul etmişdir.[1]

2010-cu ildə Ukraynada yaşayan azərbaycanlı gənclərin I forumu keçirilmişdir. Krım Muxtar Respublikası daxil olmaqla Ukraynanın 24 vilayət və şəhərindən 700-dən çox gəncin qatıldığı forumda ermənilərin ideoloji təxribatlarına cavab vermək məqsədilə hər ilin 24 aprel tarixi Ukraynada yaşayan azərbaycanlı gənclərin həmrəylik günü elan olunmuşdur. Tədbirdə Ukraynada yaşayan azərbaycanlı gənclərin Əlaqələndirmə Şurası yaradılmışdır. Eyni zamanda, 2010-cu ildə İsveç Krallığında yaşayan azərbaycanlı gənclərin yeni təşkilatı «İsveçin gənc azərbaycanlıları» adlandırılmışdır.[2]

Tədqiq etdiyimiz dövrdə dünyanın beş qitəsində 400-dən çox Azərbaycan icması fəaliyyət göstərirdi. Yeni inkişaf mərhələsinə qədəm qoyan diasporumuz öz məqsəd və məramını açıq şəkildə bəyan edərək lobbiçilik fəaliyyətinə keçmişdir. Bu da Azərbaycanın dünyada daha da yaxından tanınmasına öz müsbət təsirini göstərirdi. Bir sözlə, transmilli münaqişələrin həllində diaspor fəaliyyətindən lobbiçiliyə keçmək olduqca böyük əhəmiyyət kəsb edir və onların yeritdiyi sülhsevər fəaliyyətin bu münaqişələrin tənzimlənməsinə təsiri danılmaz faktdır. İyirmi birinci yüzillikdə planetdəki baş verən tendensiyalar təkcə geosiyasi baxımdan deyil, eyni zamanda elmi texnologiyalar baxımından dəyişikliklərin baş verməsinə və sosial sferada yeni münasibətlər sisteminin yaranmasına səbəb olmuşdu. Müasiri olduğumuz dövr elm və texnologiyanın inkişafının, xüsusən elektron informasiya sistemlərinin geniş vüsət almasının dünyaya çıxışını asanlaşdırmış, **«insanlar arasındakı məsafəni qısaltmış»**, əla-

[1] http://azerbaijan.az/portal/StatePower/Committee/committeeConcern_06_a.html

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

qələri genişləndirmişdi. Bununla da yeni texnologiyalar vasitəsilə virtual tanışlıq meydana çıxmışdır ki, bu da sırf müvafiq vasitələrlə həyata keçirilir. İnformasiyanın bolluğunda yaşadığımız dövrdə dünya nizamının saxlanılmasının əsas şərtlərindən biri insanların öz etnik mədəniyyətini, milli kimliyini qoruyub saxlamaq, onu dünyaya transformasiya etdirilməsində şərəfli vətəndaşlıq missiyasını həyata keçirməsidir. Bir daha xatırlatmaq yerinə düşər ki, keçmiş postsovet məkanında vahid ideologiyanın təbliğ olunmasının məcburi xarakter daşıması, informasiya mübadiləsinin məhdudluğu insanları dar çərçivədə saxlamış və öz milli kimliyindən uzaqlaşmağa sövq etmişdir. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının «Azərbaycan həqiqətlərinin təbliği» adlı 10-cu maddəsində qeyd edildiyi kimi, «İnformasiya cəmiyyətinin müasir tələblərinə uyğun olaraq, diaspor təşkilatları dünya azərbaycanlılarının həmrəyliyinin informasiya təminatı istiqamətində ana dilində və ya yaşadıqları ölkələrin dövlət dilində kütləvi informasiya vasitələri təsis etmək, milli icma üzvləri və yerli əhali arasında təbliğat və maarifçilik işi aparmaq hüququna malikdirlər. Azərbaycanlı icmaların fəaliyyət göstərdikləri ölkələrin KİV-ləri ilə əlaqələri yaxşılaşdırılmalı, yeni müstəqil qəzet, jurnal, radio, televiziya və informasiya agentliklərinin yaradılması prosesi davam etdiril-məli, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak edən və Azərbaycan lobbisinin təşkilinə yardım göstərə biləcək alim, siyasətçi və jurnalistlərlə, soydaşlarımızın yaşadıqları ölkələrin və digər dövlətlərin qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə sıx əlaqələr qurulmalı, onlarla məqsədyönlü iş aparılmalıdır».[1]

XXI əsrdə dəyişən dünya mənzərəsi milli və bəşəri problemlərin həllinə başqa tərzdə, daha iti ağılla yanaşmanı tələb edir. Bir çox alimlər bir məsələdə həmfikirdirlər ki, əgər milli müxtəliflik insanlığın sonrakı inkişafı üçün katalizator rolunu oynayırsa, onda nəyə görə bu katalizatordan dünyada sosial, mədəni, iqtisadi, siyasi, ekoloji və s. vəziyyətin stabilliyi üçün istifadə olunmasın! İkitərəfli və çoxtərəfli əlaqələrin genişlənməsi insanların qarşılaşdığı qlobal problemlərin həllində əsas faktorlardan biri ola bilər. Bu cür yanaşma orijinallığı ilə seçilməsə də, onun səmərə verəcəyi şübhə doğurmur. Bunun reallığı öz aralarında bir-biri ilə sıx bağlılığı olan yuxarıda sadalanan iki qrup məsələnin araşdırdığımız illərdə birgə fəaliyyətində öz əksini tapırdı. Dünyada baş verən qlobal inteqrasiya proseslərində siyasi amillərlə yanaşı, ictimai rəy də çox mühüm əhəmiyyət kəsb edirdi. Tədqiq edilən dövrdə «xalq diplomatiyası» və «beynəlxalq icma» anlamına gələn diaspor, lobbi fəaliyyəti artıq xalqlar və dövlətlər arası münasibətlərin inkişafında **«vasitəçi»** statusu qazanmışdır.

1991-2011-ci illərdə planetimizin yeni mənzərəsi formalaşmış, yeni tələblər meydana çıxmış, informasiya, texnologiya, iqtisadi, sənaye, enerji, maliyyə qruplaşmalarından ibarət qlobal strukturlar, beynəlxalq icmalar, milli birliklər və digər bu kimi təşkilatlar yaranmışdır. Buna bənzər proseslər planetin hər nöqtəsində, hər bir ölkənin daxilində getməyə başlamışdır. Bunlarla yanaşı, milli ideologiyanı gerçəkləşdirmək üçün yeni diasporlar və təyinatlı lobbilər formalaşdırmağa doğru irəliləyirdilər. Bir sıra sənədlərdə də qeyd edildiyi kimi, qeyri-hökumət təşkilatlarının diasporla bağlı fəaliyyətinə geniş imkanlar yaradılmış, bu sahədə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması istiqamətində tədbirlər görülmüşdür. Eyni zamanda, müstəqil ekspertlər, mütəxəssislər, tədqiqatçılar işə cəlb edilmişdir. Digər xalqların dias-porları ilə əlaqələr gücləndirilmiş və müvafiq komissiyalar, koordinasiya və ekspert şuraları, işçi qrupları yaradılmışdır.

R.Əsgər «ABŞ-da lobbi hərəkatı» adlı məqaləsində lobbiçilik fəaliyyətində daha çox istifadə olunan formaları belə sıralamışdır:

1. Kütləvi informasiya vasitələrinə müsahibə vermək.
2. Konqresmenlərə və senatorlara məktub yazmaq.

[1] Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. 2009, avqust.; http://diaspora.gov.az/ index.php?options= press&id=184/

3. Məsələyə təcili müdaxilə üçün teleqram vurmaq.
4. Nümayişə çıxmaq.
5. Siyasi xadimlərə zəng etmək və imkan olsa, şəxsən görüşmək.[1]

Müəllif ABŞ vətəndaşı olan həmvətənlərimizin seçki kampaniyaları zamanı ancaq azərbaycanlı seçicilərdən ibarət xüsusi komitə yaratmaları və namizədlərlə danışığa girərək bizə daha çox vəd edənə səs vermələrini məsləhət görürdü.

Dünya siyasətində mühüm amilə çevrilən lobbiçilik bu dövrdə Azərbaycan diasporu üçün daha prioritet olmuşdu, çünki ötən əsrin sonlarından başlayaraq dünya azərbaycanlılarının tarixi vətəni olan Azərbaycan böyük ədalətsizliyə və təcavüzlərə məruz qalmışdır. Bu da milli heysiyyəti olan hər bir vətəndaşımızın, soydaşımızın, həmvətənimizin lobbiçi olmasına əsas verirdi. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov müasir dövrdə lobbiçilik işinin aktual olduğunu açıqlamışdı: «Bütün dünyada güclü Azərbaycan lobbisinin formalaşdırılması Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Burada türk diaspora təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi böyük rol oynayır».[2]

Ötən əsrin 80-ci illərinin ortalarından etibarən SSRİ rəhbərliyinin tərəfkeşliyi ilə Azərbaycanda törədilən milli münaqişə tarixin açılmaz «Qordi düyünü»nə çevrilərək, minlərlə insanın həyatına son qoymuşdur. Nəticədə, erməni quldurları tərəfindən Azərbaycanın etnik-tarixi ərazisi, ata-baba yurdu, ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf rayonlar işğal zonasına çevrilmişdir. Ermənistan rəhbərliyi nəinki Azərbaycan dövlətinin yeritdiyi sülhsevər siyasəti rədd edir, hətta münaqişəni daha da dərinləşdirərək dünya birliyinin problemin sülh yolu ilə həll olunmasına dair qəbul etdiyi heç bir sənədə məhəl qoymur. Ermənistan prezidenti S.Sarkisyan 2010-cu ildə Gorus şəhərində etdiyi çıxışda saxta faktlara əsaslanan fikirlər irəli sürmüş və

[1] Əsgər R. ABŞ-da lobbi hərəkatı // Odlar Yurdu, 1991, mart, №6.
[2] http://www.1news.az/politics/20110705022307384.html



dünyanın ayrı-ayrı ölkələrindən gəlmiş erməni diaspor nümayəndələrini yeni əks-təbliğatla silahlandırmışdır. Bu görüşü «Absurd teatr mövsümü» adlandıran akademik R.Mehdiyev eyniadlı əsərində zəngin tarixi faktlarla ermənilərin cəfəng uydurmalarını və əsassız iddialarını rədd edir.[1]

Azərbaycanın ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması bu dövrdə də ölkəmizin milli təhlükəsizliyi ilə bağlı narahatlıq doğuran təxirəsalınmaz tədbir və xarici siyasətimizin bir nömrəli problemi hesab olunurdu. Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi danışıqların ilk günlərindən dəyişməz olaraq qalmışdı. Azərbaycan diasporunun təmsilçiləri münaqişənin ədalətli həlli üçün nə qədər düzgün və obyektiv mövqe tutsa da, ermənilər Avropa ölkələrində və ABŞ-da bir o qədər səhv və qərəzli təbliğatla məşğul olurdular. Bu təbliğat təkcə Azərbaycana qarşı deyil, bütün türk dünyasına qarşı yönəldilməkdə idi. Erməni diplomatiyasının və diasporunun qarşısına əsas hədəf kimi iki məsələ qoyulmuşdu:

1) dünya ictimaiyyəti, xüsusilə də böyük dövlətlər vasitəsi ilə XX əsrin birinci əsas genosidi kimi ermənilərin uydurma 1915-ci il soyqırımını Türkiyə hökumətindən tanımağı *tələb etmək*;
2) beynəlxalq aləmdə, xüsusilə də öz havadarlarının köməyi ilə Dağlıq Qarabağın Ermənistan torpağı olması iddiasını hər bir vasitəylə yeritməklə, bu ərazini Azərbaycandan qoparmaq.

1965-ci ildə erməni diasporunun Ermənistanın paytaxtı İrəvanda «soyqırım» hadisəsinin 50 illiyi münasibətilə abidə ucaltmağa nail olmaları sonrakı saxtakar fəaliyyətləri üçün onlara qol-qanad verdi. Beynəlxalq ictimaiyyəti öz iyrənc siyasətləri ilə aldadan erməni diasporu Türkiyə diplomatlarına qarşı geniş terror əməliyyatına başladı. 1973-cü ildən açıq terror kampaniyası-

[1] Mehdiyev R. Gorus-2010: Absurd teatrı mövsümü. Bakı: Şərq-Qərb, 2010, 96 s.

na başlayan ermənilər Amerikada iki türk diplomatını – Mehmet Baydarı və Bahadur Dəmiri öldürdülər. «Armenakan» (1885), «Hnçaq» (1887), «Daşnaksutyun» (1890), «Erməni soyqırım ədalət komandosları» (1972), «Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu – ASALA» (1975), «Erməni azadlıq cəbhəsi» (1979), «İntiharçılar eskadronu» (1981), «Orli qrupu» (1981), «İntiharçılar eskadronu» (1981), «Erməni birliyi» (1988), «Gənc ermənilər ittifaqı» (1990), «9 iyun qrupu» (1991), «Erməni azadlıq hərəkatı – AOD» (1991), «Geqaron» (2001), «Apostol» (2001) və s.[1] erməni terror təşkilatlarının qanlı cinayətlərinin beynəlxalq aləmdə qarşısı alınmamışdı. Erməni diasporuna terror fəaliyyəti ilə bağlı bir neçə dövlətin xəbərdarlığı olsa da, bu nəinki nəticə verməmiş, əksinə xəbərdarlıq edən ölkələrin özləri belə bu terrorun qurbanına çevrilməkdən ehtiyat etmişlər.

Dünya ictimaiyyətinə uydurma «soyqırım» sindromu aşılamağa çalışan erməni diasporu artıq bu sahədə uğurlar əldə etməyə nail olmuşdur. 1975-ci ilin aprelində ABŞ Senatı tərəfindən ermənilərə qarşı törədilmiş «soyqırım»ın 60 illiyinin anma günü kimi qeyd edilməsinə dair qətnamənin qəbul edilməsi erməni diasporunun nailiyyəti idi. 1980-cı ilin aprel ayında da erməni diasporu özlərinə məxsus hiyləgərliklə genosid qurbanları üçün rəsmi mərasimin keçirilməsinə nail oldular.[2]

1979-cu ildə İtaliyanın Bolonya şəhərində yaradılan və Avropa dövlətləri tərəfindən heç də yaxşı qəbul edilməyən «Xalqlar tribunalı» adlı qurumda 1984-cü ildə «erməni soyqırımı» məsələsi müzakirə olunmuş və qurum Türkiyədə «soyqırım» törədildiyini rəsmi şəkildə elan edərək, erməni xalqından üzr istəməklə yanaşı, ermənilərə dəyən zərəri də ödəməyi tələb etmişdi. «Xalqlar tribunalı»nın bu tələbi Avropa dövlətləri tərəfindən qeyri-obyektiv və hüquqi əsası olmayan bir sənəd kimi qəbul edilmişdi.[3]

---

[1] http://www.mns.gov.az/az/pages/61-63.html

[2] Şenol K. Ermeni Lobisi: ABD'de Ermeni Diasporası'nın Oluşması ve Lobi Faaliyetleri. Ermeni Araştırmaları Dergisi, mayıs, 2001, s. 139-169.

[3] http://www.ihr-az.org/index.php?lang=2&ind=publ&id=149



İki yüz ilə yaxındır ki, saxta və məkirli planları ilə dünya içtimaiyyətini çaşqın salan fitnəkar erməni diasporu (lobbisi) hələ də bu pis niyyətindən əl çəkmək istəmirlər.

«Hətta erməni lobbisi xarici ölkələrdə parlament seçkilərindən də bir vasitə kimi istifadə edir və həmin seçkilər zamanı səs verəcək bir şərt kimi qəbul etdirməyə və bununla da «Dənizdən-dənizə Böyük Ermənistan» yaratmaq planının reallaşdırmağa çalışırlar. Ona görə də hər vasitədən istifadə edib soyqırıma məruz qalan bir xalq olmaları haqda dünya ictimaiyyətində fikir yaratmaq siyasətlərini davam etdirirlər. Bu məqsədlə hətta 1986-cı il aprel ayının 22-də Kölndə (AFR) «*Erməni məsələsi unudulub*» adlı 45 dəqiqəlik filmin göstərilməsinə nail olmuşlar. Həmin filmdə erməni soyqırımını təsdiqedici bir fakt kimi hələ 1971-ci ildə rus rəssamı Verşaginin «müharibənin dəhşətləri»ni təsvir edən kartinasından həyasızcasına istifadə edilmişdi. Ancaq bu fakt rus kilsəsinin mitropoliti Paulus tərəfindən qəti surətdə rədd edilmiş və bu haqlı olaraq Goebbels təbliğatı adlandırılmışdır».[1]

Rusiyada «erməni soyqırımı» 1995-ci ilin aprel ayının 14-də Dövlət Duması tərəfindən pislənilmişdi. Bu addım erməni diasporunu ruhlandırmış, onlar dünya dövlətlərinə Rusiyanın mövqeyinin doğru olduğunu sübut etməyə çalışmışlar. Lakin Dövlət Dumasında heç bir reallığa söykənməyən hadisə müzakirə olunmayaraq geri qaytarılmışdır. Bu işdə Beynəlxalq Münasibətlər Komitəsinin sədri Dmitri Roqozinin böyük rolu olmuşdur. O, müasir Türkiyənin Osmanlı imperatorluğunun atdığı addıma cavabdeh olmadığını bildirmişdir.

«Erməni soyqırımı» məsələsini müzakirə edən Belçika senatı 26 mart 1998-ci il tarixli iclasında 1-736/3 saylı qətnamə qəbul etmişdi. Qətnamənin məzmununda senat «erməni soyqırım»ını tanıdığını bəyan edərək türklərlə ermənilərin barışdırıl-

---

[1] Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavü tarixindən bəzi məqamlar. Bakı: «İqtisad Universiteti», 2011, s. 85.

masını Avropa Parlamentində tövsiyə etmişdir.[1]

Ermənistana və ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən erməni diaspor təşkilatlarına bu dövrdə antitürk fəaliyyəti yönümündə beynəlxalq səviyyədə dəstək verildiyinin şahidi oluruq. Bu fəaliyyətilə də erməni diasporu Türkiyənin və Azərbaycanın beynəlxalq vəziyyətini çətinləşdirməyə çalışırdı. Erməni diasporu Avropa ictimaiyyətini inandırmağa səy göstərirdi ki, Türkiyə Avropa Birliyi sıralarına qatıla bilməz, ona görə ki, bu ölkə birliyin standartlarını ödəmir. Yalnız, rəsmi şəkildə «erməni soyqırımı»nı tanıyandan, təzminat ödəyəndən, Ermənistanla sərhədləri açandan, öz ərazisində yaşayan erməni milli və dini azlıqlarının hüquqlarının qorunmasına təminat verəndən sonra Türkiyə bu birliyə daxil ola bilər. Erməni diasporunun Türkiyə əleyhinə apardığı təbliğat Avropa ictimaiyyətinin bu ölkəyə mənfi münasibəti ilə müşayiət olunurdu. Bu məsələ ilə məşğul olan politoloqların apardığı müvafiq sorğunun nəticələrinə əsasən Avropa İttifaqına üzv dövlətlərin, xüsusilə Fransanın əhalisi Türkiyənin bu birliyə daxil olması əleyhinə səs vermişlər. Erməni diasporunun siyasi fəallığı sayəsində İsveçrə parlamenti 2000-ci ilin martında «erməni soyqırımı»nın beynəlxalq miqyasda araşdırılması ilə bağlı qərar qəbul etmiş, 2000-ci ilin noyabrında Avropa Parlamenti Türkiyənin Avropa Birliyinə daxil olması məsələsinə yenidən baxarkən Türkiyə hökumətinə erməni azlığını müdafiə etmək, «erməni soyqırımı»nı ümumi şəkildə tanımaq təklifi ilə müraciət etmişdi. İsveçrə parlamenti tərəfindən «erməni soyqırımı»nın tanınması üçün ermənilər ciddi çətinliklə üzləşmişlər. Yunan əsilli deputat Jozef Zisyadis 2001-ci il mart ayının 13-də «1915-ci ildə Şərqi Anadoluda ermənilərin genosidə məruz qalması» ilə bağlı layihə hazırlayaraq senata təqdim etmişdir. Deputat Zisyadislə bərabər 4 partiyanın – Sosialist, Xristian-Demorkat, Liberal və «Yaşıllar» partiyalarının hərəsindən bir nəfər olmaqla layihənin lehinə çıxış etmişdir.

[1] http://www.mns.gov.az/az/pages/61-63.ht; http://karabakhinfo.com/arasdirma/960-ermni-soyqrmnn-mahiyyti-v-dnyarn-bu-msly-indiki-yanamas.html



Ancaq məsələ 2000-ci ilin iyun ayında olduğu kimi, 70 səsə qarşı 73 səslə rədd edilmişdir. Qətnamənin qəbul edilməsinə çalışanlardan Anjelika Fankəfatzer bir neçə dəfə Ermənistanda olmuşdu.[1]

Avstriyada «erməni soyqırımı»nın tanınmasını erməni lobbiçiliyi ilə məşğul olan «Yaşıllar» partiyası həyata keçirmişdir. Bu partiya 2000-ci il mart ayının 16-da parlamentin İnsan Hüquqları Komitəsinə «soyqırım»ın tanınması üçün sənəd göndərmiş, erməni mənşəli lobbist Madlen Petroviç parlamentdən «soyqırım» faktının təsdiqlənməsini tələb etmiş və məsələ aprel ayında müzakirəyə çıxarılsa da, təxirə salınmışdır. İsveç parlamentində 2000-ci ilin mart ayının 31-də «erməni soyqırımı» müzakirə olunmuş və qəbul edilən sənəddə «soyqırım» faktı pislənmişdir.

Həmin vaxt İtaliya parlamenti də erməni diasporunun və lobbisinin təsiri altında antitürk məzmunlu qətnamə qəbul etmişdi. 2000-ci il oktyabr ayının 27-də İtaliya parlamentinin deputatı C.Poliriani 136 nəfər deputatın imzasını toplayaraq «erməni soyqırımı» məsələsinin parlamentin gündəliyinə salınmasına nail olmuşdu. Saxta ekspertlər qrupu erməni diasporunun təsiri altında Türkiyəni onun ərazisində yaşayan azsaylı xalqların hüquqlarını pozan dövlət kimi qələmə verməyə çalışmışdı. Ekspertlərin təsdiqləməsindən sonra «erməni soyqırımı» 2000-ci il noyabr ayının 13-14-də parlamentdə müzakirəyə qoyularaq qəbul edilmişdi. Bu qərarın qəbul edilməsindən sonra İtaliya-Türkiyə münasibətlərində soyuqluq yaranmış, qətnamənin müəllifləri olan Cikarlo Poliriani və Sandra Fey sənədin tanınmasından sonra arxivlərin açılaraq Türkiyənin «fakt»lar qarşısında qoyulmasını tələb etmişdilər.

Erməni diasporunun daha böyük üstünlüyə malik olduğu Fransada müxtəlif vaxtlarda dəfələrlə «erməni soyqırımı» məsələsinin parlamentdə müzakirəyə çıxarılmasına çalışılsa da, Senat məsələni rədd etmişdir. Z.Əliyev tarixi vətəni olmayan

[1] http://www.mns.gov.az/az/pages/61-63.ht

ermənilərin Türkiyədə və Fransada məskunlaşma şəraiti barədə yazır: «Fransada 450 min erməni yaşayır və bu erməniləri Türkiyədə yaşayan *65 min erməni ilə müqayisə edək.* Türkiyədə yaşayan 65 min ermənininin 42 kilsəsi, 18 məktəbi və həftəlik nəşr edilən qəzet və jurnalları vardır. 1468-ci ildə Sultan Mehmet tərəfindən əsası qoyulmuş erməni kilsəsi bu gün də fəaliyyət göstərir. Buradakı ermənilər öz dədə-baba soyadlarını daşıyır. Fransada yaşayan 450 min ermənininin 20 kilsədən başqa nə bir məktəbi, nə də nəşr edilən qəzet-jurnalı vardır. Fransa ermənilərinin 80%-i fransız soyadlarını qəbul etmişlər».[1]

Fransa «erməni soyqırımı» məsələsinə ikili münasibət bildirmişdir: «Fransa bugünkü Türk hökumətini 70 il qabaq törətdiyi işə görə günahlandıra bilməz».[2]

1998-ci il may ayının 29-da Milli Məclis «erməni soyqırımı»nı tanıdıqdan sonra Senata təsdiqlənməyə göndərmiş, ancaq senat məsələni 2000-ci ilin mart ayının sonlarında 172 səs əleyhinə, 130 səs lehinə olmaqla tanımayaraq geri qaytarmışdır. Lakin 2000-ci ilin oktyabr-noyabr aylarında məsələ yenidən Milli Məclisdə müzakirəyə çıxarılmış, noyabr ayının 7-də uzun sürən müzakirələrdən sonra 164 lehinə, 64 əleyhinə və 4 nəfər bitərəf qalmaqla, Milli Məclis «soyqırımı» tanımış və sənədi Senata təsdiqlənməyə göndərmişdir. Layihənin müəllifləri Jan Kold Qden və Frans Kanbuland olmuşlar. Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi Fransa Respublikasının Xarici İşlər Nazirliyinə verdiyi rəsmi notaya baxmayaraq, Senat 2001-ci il yanvar ayının 18-də cəmi bir sətirdən – «Fransa 1915-ci ildə ermənilərin soyqırıma məruz qaldığını rəsmən qəbul edir» ibarət olan layihəni tanımışdır. «Genosid» layihəsi tanındıqdan sonra rəsmən təsdiqlənmək üçün prezident Jak Şiraka göndərilmişdir. Fransa Konstitusiyasının tələblərini nəzərə alaraq, layihəyə veto qoymaq hüququna malik olmadığından, 2001-ci il yanvar ayının 29-da prezident sənədi imzalamışdır. Bununla da, Türkiyəni «erməni soyqırımı» törətməkdə ittiham edən Fransa 50 il əvvəl Əlcəzairdə, Tunisdə, Mərakeşdə ərəblərə qarşı törətdiyi qanlı qətliyamları unudaraq, 100 il əvvəl olmuş və hələ təsdiqini tapmamış qondarma soyqırımında «ədalətli hakim» rolunda çıxış etməyə çalışmışdı. Fransa dövləti tarixi səhvə imza ataraq öz xristian qardaşlarını müdafiə etmiş və yanlış addımıyla Türkiyə-Fransa diplomatik münasibətlərinə ciddi ziyan vurmuşdur. Türkiyə hökuməti haqlı olaraq, Fransa ilə Türkiyə arasında imzalanmış iqtisadi və mədəni müqavilələrini pozaraq Ermənistana qarşı təzyiqi daha da gücləndirmişdir.

A.Krılova görə, Ermənistanın ən böyük üstünlüyü əsas xarici siyasi problemlərə dair erməni millətinin müxtəlif tərkib hissələri arasında fikir ayrılığının olmamasıdır: «Onlar hamısı dünya ictimaiyyətindən və Türkiyə hakimiyyətindən 1915-1921-ci illərin erməni soyqırımının 20-ci əsrin ilk soyqırımı kimi tanınmasını tələb edir. Dağlıq Qarabağın («HKP») Azərbaycandan ayrılmasını istəyir, beynəlxalq arenada Ermənistana və «HKP»-yə dəstək göstərir. Bundan əlavə, erməni diasporu Türkiyə və Azərbaycanın beynəlxalq vəziyyətini mürəkkəbləşdirməyə çalışır. Onlar Avropanın hakim dairələrini və bütövlükdə cəmiyyəti inandırmağa çalışır ki, Türkiyə Avropa Birliyinə qəbul edilə bilməz, çünki o, bu təşkilatın üzvlərinə qarşı qoyulan tələblərə cavab vermir. Avropada fəaliyyət göstərən erməni təşkilatları Türkiyənin AB-yə qəbul olunmasının aşağıdakı şərtlərini irəli sürür: Ankara tərəfində erməni soyqırımının rəsmi tanınması, Ermənistanın blokadasının aradan qaldırılması və ölkədə yaşayan milli və dini azlıqların hüquq və azadlıqlarının qorunmasına zəmanət verilməsi.

Türkiyəyə qarşı geniş kampaniya və Türkiyənin Avropa Birliyinə girməməsi üçün erməni diasporu tərəfindən təşkil edilən kütləvi nümayişlər avropalıların ictimai rəyinə böyük təsir göstərdi. Rəsmi sosioloji sorğular zamanı əldə olunan məlumatlara əsasən, Fransa və bir sıra digər Avropa ölkələrinin əhalisinin əksəriyyəti Türkiyənin Avropa Birliyinə üzvlüyünün əleyhinədir. Avropa parlamenti erməni soyqırımının tanınması tələbi ilə

[1] Əliyev Z. Dünya diasporları: nəzəriyyə və təcrübə, s. 53.
[2] http://files.preslib.az/projects/khojali/azkhojali/glava3/2014.pdf;

dəfələrlə Türkiyəyə müraciət edib və bu «fakt» hələ də Türkiyənin AB-yə qəbul olunmasının əsas şərtlərindən biri olaraq qalır.

Erməni diasporunun siyasi fəaliyyəti nəticəsində 2000-ci ilin mart ayında İsveç parlamenti «erməni xalqının soyqırımının qərəzsiz, müstəqil beynəlxalq araşdırması»nın aparılmasının zəruri oduluğu haqqında qətnamə qəbul etmişdir. 2000-ci ilin noyabr ayında Avropa Parlamenti Türkiyənin Avropa Birliyinə qəbul edilməsinin növbəti müzakirəsində Türkiyə hakimiyyətinə «türk cəmiyyətinin vacib tərkib hissəsi olan erməni milli azlığına dəstəyin gücləndirilməsini, o cümlədən müasir türk dövləti yaranandan əvvəl erməni azlığının məruz qalmış soyqırımın rəsmi tanınması vasitəsi ilə» təklif etmişdir. O zaman analoji qətnaməni İtaliya parlamenti qəbul etmişdir. Roma-Katolik Kilsəsi də erməni soyqırımını tanımışdır.

Papa II İohann Pavel və Erməni Apostol Kilsəsinin başçısı Katolikos II Qaregin birgə bəyanatında vurğulanmışdır ki, «erməni soyqırımı sonrakı dəhşətlərə müqəddimə olmuşdur: milyonlarla möminlərin həyatının itirilməsi ilə nəticələnən iki dünya müharibəsi, saysız regional münaqişələr və insanların məhv edilməsi üzrə əvvəlcədən təşkil olunmuş kampaniyalar».

Bundan əlavə, Fransa Senatı və Milli Assambleyası 2000-ci ildə erməni soyqırımın tanıdı. 2001-ci ilin əvvəlində isə yarım milyonluq erməni diasporun təzyiqi altında Fransa prezidenti J.Şirak soyqırımın tanınması haqqında qanun imzaladı. Bu Qanun qəbul ediləndən sonra soyqırım qurbanlarının nəsilləri olan Fransa vətəndaşları Ankara hökumətindən maddi təzminatları tələb etmək imkanını əldə etdilər. Fransa ermənilərinin ardınca bunu digər ölkələrinin erməniləri edə bilər. Hesablamalara əsasən, təzminatların ümumi məbləği triliyon dolları keçə bilər, bu da soyqırım faktının inkar edilməsində Türkiyənin (haqlı olduğunu) əzmkarlığını izah edir. Həmçinin belə Qanunun qəbul edilməsi ilə «ərazi» təzminatını və ermənilərə Türkiyədəki tarixi ərazilərin qaytarılmasını tələb edən erməni dairələri də əhəmiyyətli dəstək əldə etdilər. Qanunun qəbul edilməsi Fransa-Türkiyə münasibətlərinin kəskin pisləşməsinə



gətirib çıxardı, Ankara-Paris ilə iqtisadi və hərbi-texniki əməkdaşlığın miqyasını kəskin məhdudlaşdırdı».[1]

Avropa Birliyi ölkələrinin hər hadisədə özlərinə və diasporlarına bəraət qazandırmaq bacarığı bədnam qonşularımızın yüksəlişinə yol açmışdır. Ancaq hər halda erməni diasporunun gecə-gündüz öz məqsədləri yolunda saxtakarlıqla məşğul olan (dəstəkləndikləri faktların yalan, iftiradan başqa bir şey olmasına, bir millət kimi etibarsız, naqis xislətə malik olmalarına baxmayaraq), bu zor dünyasında hətta «saman çöpündən» yapışıb qalmaq prinsipi, lap pis mənada olsa da, örnək götürüləsi məsələdir, çünki onlar, ağıllı və uzun müddətə hesablanmış taktiki planla işləyir. Elə bircə onu demək kifayətdir ki, Rusiyanın elə bir telekanalı yoxdur ki, orada rəhbər vəzifələrdə ermənilər işləməsinlər və bu kanallar vasitəsi ilə ermənilər «haqsızlıqlara məruz qalmış əzilən bir xalq» kimi təbliğ olunmasınlar. Avropa klassiklərinin məşhur, sevilən əsərləri ssenariləşdirilərkən, bircə nəfər erməni aktyor filmdə yer alırsa, hansı yolla olur-olsun, bu filmə qulaqları öyrəşdirmək üçün bir «Ermənistan» ifadəsinin salınmasına nail olurlar. Məlumdur ki, bunların hamısı böyük maliyyə vəsaiti – pullar tələb edir. Amma erməni birliyinin məqsəd, milli ideologiya yolunda hər vasitədən istifadə etməyə hazır olduğunu həmişə müşahidə edirik. Buna əsas səbəb budur.

ABŞ-da da Ermənistana siyasi dəstək və «erməni soyqırımı»nın tanınması ilə bağlı fəaliyyət göstərən Amerika Erməni Milli Komitəsi böyük iş görmüşdü. Vaşinqtonda güclü erməni mənzil-qərargahı kimi fəaliyyət göstərən bu diaspor təşkilatı öz məqsədinə nail olmaq üçün etnik məsələlərin gündəmə gətirildiyi seçki kampaniyasından istifadə etmişdi. 1975-ci ildən ABŞ-da güclənən erməni diasporu əvvəlcə ABŞ-ın ştatlarında «soyqırım» hadisəsini təsdiqləmək üçün fəaliyyətə başlamışdı. Erməni diasporu Amerikanın Massaçussets (1978), Kaliforniya

[1] Крылов А. Армянская диаспора - важный фактор мировой политики // Новая Политика (интернет-журнал). Москва: 2004, 30 августа // http//www.novopol.ru/text306.html

(1981, 1985. 1995), Nyu-Cersi (1984, 1985), Viskonsin (1985), Nyu-York (1987, 1995), İllinoys (1995), Miçiqan (1995), Pensilvaniya (1995), Rodaylind (1995), Virciniya (1995) ştatlarında «erməni soyqırımı»nın müzakirəyə çıxarılmasına və tanınmasına nail olmuşdu.

«Ermənilər ABŞ-a XX əsrin əvvəllərindən gəlməyə başlamışlar. Təkcə 1924-cü ildə Sovet İttifaqından və Türkiyədən 100 minə yaxın erməni ABŞ-a köçmüşdür. İndi ermənilər əsasən Kaliforniya, Massaçusest və Nyu-York ştatlarında yaşayırlar. Ümumiyyətlə, ABŞ-da 800 minə qədər erməni yaşayır. Bəzi mənbələrdə bu rəqəmin 1 milyon olduğu göstərilir. Yeri gəlmişkən, ABŞ-a köçüb gedən və daimi yaşayış üçün (XIX əsrin 90-cı illərində) ABŞ vətəndaşlığını qəbul edən ermənilərin sayı 80 min nəfər idi. 1999-2000-ci illərdə isə bu rəqəm 650-700 min nəfərə çatıb. Bu da Ermənistan əhalisinin 20 faizini təşkil edir. Ermənilər orada bir çox məktəb, kitabxana, xəstəxana, dini, mədəni cəmiyyətlər yaratmış, universitetlərdə erməni dili və tarixi kafedraları açmışlar. Deməli olar ki, bütün sahələrdə xeyli kadrları var. ABŞ-dakı erməni lobbisi iki əsas istiqamətdə fəaliyyət göstərir:

1. Ermənizm ideyaları yaymaq, erməni mədəniyyətini qorumaq və inkişaf etdirmək, ABŞ-da mühüm siyasi-iqtisadi mövqe qazanmaq.
2. Türk və azərbaycanlılar əleyhinə mübarizə aparmaq, Türkiyə və Azərbaycan ilə ABŞ-ın münasibətlərini pozmaq».[1]

Erməni diasporunun bütün cəhdlərinə baxmayaraq, ABŞ-ın bir çox siyasətçiləri (K.Ponel, B.Livinqson, C.Calomon, S.Sobars) o illərin tarixi sənədləri ilə tanış olmamış soyqırımın tanınmasını türk xalqına qarşı atılmış səhv addım kimi qiymətləndirmişlər. Məhz onların səyi nəticəsində 1987 və 1996-cı illərdə Senat tərəfindən «erməni soyqırımı» ilə bağlı olan 132 saylı qətnamə rədd edilmişdir.[1] 2000-ci ildən etibarən Türkiyə erməni diasporuna qarşı ABŞ-da diplomatik fəaliyyətini gücləndirmişdir. Bu məsələ ilə əlaqədar ABŞ prezidenti Bill Klintona rəsmi müraciət göndərilərək problemin obyektiv qiymətləndirilməsi istənilmişdir. Münaqişənin təhlili ilə məşğul olan siyasətçilərin verdiyi məlumata görə məktubun təşəbbüskarları ABŞ-da Türkiyənin maraqlarını müdafiə edən sabiq konqresmenlərdən olan B.Livinqson, C.Calomon, S.Sobars və başqaları olmuşlar.

Qeyd etdiyimiz kimi, erməni diasporu «soyqırım» məsələsini müzakirəyə çıxarmaqdan ötrü müxtəlif vasitələrə əl atırdı. 2000-ci ildə keçirilmiş prezident seçkiləri ərəfəsində «soyqırımın» gündəmə gətirilməsi ilə bağlı onlara çoxlu vədlər verilmişdi. Ermənilərin «398 №-li Komitə»si 2000-ci ilin sentyabr ayının 21-də Konqresin İnsan Hüquqları Komissiyasında «erməni soyqırımı»nın tanınmasına nail olmuşdur.

2000-ci ilin oktyabrında Amerika Erməni Milli Komitəsi Palatanın Xarici İşlər üzrə Komitəsinin nümayəndələri tərəfindən erməni soyqırımının tanınması ilə bağlı qəbul edilmiş 596 №-li qətnaməsinin bəyənilməsinə nail olmuşdu. Qətnamə müzakirə olunmaq üçün hər iki palatanın müzakirəsinə çıxarılmışdı. Lakin Bill Klinton administrasiyası Amerika-Türkiyə münasibətlərinin zəifləməsindən ehtiyat edərək onun müzakirədən uzaqlaşdırılmasına nail oldu. Erməni diasporu məqsədlərinə nail olmaq üçün 2000-ci ilin prezident seçkilərində respublikaçıları müdafiə etdi. Seçki kampaniyası dövründə Corc Buş (oğul) gedişatı öz xeyrinə həll etmək üçün erməni icmasına vəd vermişdi ki, əgər o, seçkilərdə qələbə qazanarsa, «erməni soyqırımı»nı rəsmi şəkildə tanıyacaqdır. Lakin prezident seçildikdən sonra bu addımın Amerika-Türkiyə münasibətlərində böhrana gətirib çıxaracağından ehtiyat edərək o, verdiyi vədə əməl etmədi.

Tədqiqat apardığımız illərdə Amerika konqresmenləri sırasında erməni qruplaşmasını 130 nəfər təmsil edirdi. SSRİ dağıldıqdan sonra dövlət xətti ilə ən böyük humanitar kömək Ermə-

[1] Qazıyev Y. Erməni Məsələsi yalanlar və gerçəklər. Bakı: «Nurlar» NPM, 2009, s. 134.



[1] Saleh bəy Qarabağlı. Dünyanın taleyi. Bakı: Elm, 1998, s. 397.

stana istiqamətləndirilmişdi. 1990-cı illərin sonu – 2000-ci ilin əvvəllərində ABŞ-ın Ermənistana maliyyə yardımının həcmi 239 milyon dollar, Azərbaycanın Ermənistandan 2 dəfə çox əhalisinin olmasına baxmayaraq, ona göstərilən maddi yardım isə ancaq 91 milyon 600 min dollar təşkil etmişdir. Dövlət büdcəsinin təyinatında erməni lobbisi Konqres vasitəsilə yardımın ildən-ilə artırılmasına nail olmuşdu.

Y.Qazıyev öz məlumatında bildirir ki, «Azərbaycana və ümumən türk xalqlarına qarşı dünyada 869 irili-xırdalı erməni təşkilatı vardır. Xeyriyyəçilik adı altında fəaliyyət göstərən bu hərbi-siyasi, strateji qurumların maliyyə yardımları, proqram və sənədləri, dünyaya «diplomatik» çıxışları bilavasitə aşağıdakı erməni diaspor mərkəzləri tərəfindən tənzimlənir:

- Erməni Katolik Kilsəsi (dünyanın 56 ölkəsində mərkəzi var. 2001-ci ilin iyun ayının 4-dən Xankəndində özəyi yaradıldı);
- Amerikanın Erməni Assambleyası (iyirmi iki ştatı əhatə edir. 2001-ci il iyul ayının 14-də Dağlıq Qarabağda mərkəzi yaradılıb);
- Erməni Hüquqçularının Assambleyası (Avropa Ölkələri üzrə);
- Erməni Ümumi Xeyriyyə İttifaqı (mərkəzi Nyu-York, London. 2001-ci il iyul ayının 29-da Dağlıq Qarabağda şöbəsi yaradılıb);
- Erməni Ümumdünya Yevangelist Şurası (Avropa ölkələri üzrə);
- Amerikanın Erməni Missioner Assosiasiyası (MDB ölkələri istiqamətində 2001-ci il avqust ayının 3-də Dağlıq Qarabağda yaradıldı);
- Amerikanın Erməni Milli Komitəsi;
- Humanitar yardım göstərilməsi üzrə Şimali Amerika Erməni Cəmiyyəti (Dağlıq Qarabağda 2001-ci il martın 3-də yaradılıb);
- Erməni Apostol Kilsəsinin Şərqi Yeporxiyası;
- Erməni Apostol Kilsəsinin Qərbi Yeporxiyası;



- Vartan cəngavərləri (2001-ci ildə Dağlıq Qarabağda rəsmi qaydada – leqal şəkildə fəaliyyətə başladı).

Erməni lobbisi dünya siyasətinə ciddi şəkildə nüfuz edir. Hər vasitə ilə «Əzabkeş» xalqın qeydinə qalır. Erməni maraq və mənafeyinə lazım olan iqtisadi və siyasi yardım etməkdən çəkinmirlər. Dağlıq Qarabağ probleminin dinc yolla həllinə mane olurlar, erməni təcavüzünə haqq qazandırmağa çalışaraq Azərbaycanı təcavüzkar adlandırırlar».[1]

Bunları göstərməkdə məqsədimiz çoxfunksiyalı məkirli erməni lobbisinin mütəşəkkil fəaliyyətinə və spekulyativ hərəkətlərinə diqqət çəkməkdir. Bunun müqabilində, biz zaman-zaman öz haqqımıza sahib çıxmamışıq və sonda onların yalan təbliğatlarının əsirinə çevrilmişik. Onlar yalanı həqiqət kimi dünya ictimaiyyətinə sıraya biliblər, biz, həqiqəti qəbul etdirə bilməmişik. Artıq, nəticə çıxarmağın vaxtıdır.

Tədqiq etdiyimiz dövrün son illərində ABŞ Konqresində erməni və yəhudi lobbiləri arasında münasibətlər gərginləşmişdir. Yəhudi lobbisi Türkiyəni Yaxın Şərqdə əsas müttəfiq kimi gördüyündən 907-ci düzəlişin aradan qaldırılması, Türkiyə və Azərbaycanın ABŞ tərəfindən dəstəklənməsi şüarı ilə çıxış edirdi. ABŞ erməniləri Azərbaycanla Amerikanın ikitərəfli münasibətlərindən, ABŞ-ın Azərbaycana hərbi dəstəyindən və Dağlıq Qarabağ münaqişəsinin həllində Corc Buş administrasiyasının mövqeyindən narazı olduqlarından növbəti seçkilərdə erməni diasporu demokratların namizədi Con Kerrinin namizədliyini dəstəkləmişdilər. Göründüyü kimi, Ermənistan Respublikasının və beynəlxalq erməni diasporunun fəaliyyəti nəinki dövlətlərarası münaqişələri öz maraqlarına uyğun istədikləri kimi tənzimləyir, hətta katalizator rolunu oynayaraq bu etnik münaqişələri öz məqsədlərinə uyğun olaraq daha da alovlandırırdılar. Türkiyə və Azərbaycana qarşı yönəlmiş erməni və yunan diasporlarının fəaliyyətlərinə dünyanın müxtəlif ölkələrindəki diasporumuz layiqli

[1] Qazıyev Y. Erməni Məsələsi yalanlar və gerçəklər. Bakı: «Nurlar» NPM, 2009, s. 134.

cavab vermiş, Azərbaycan torpaqlarında ermənilərin törətdiyi vandalizm fərqli vasitələrlə dünya ictimaiyyətinə çatdırılmışdır. Bu məqsədlə ABŞ-da «907-ci düzəliş», «erməni soyqırımı», «kürd» və «Kipr» problemlərinə qarşı mübarizədə Azərbaycan və türk diasporları birgə hərəkət edirdilər. Amerikanın ayrı-ayrı ştatlarında Azərbaycan və Türkiyəni təbliğ edən kütləvi tədbirlər, forumlar, konfranslar, simpoziumlar, sərgilər və digər mərasimlər ənənəvi xarakter almışdır.

Dağlıq Qarabağ münaqişəsinin bu vaxta qədər həll olunmaması ilk növbədə SSRİ-nin məhvindən sonra Cənubi Qafqazda öz nüfuzunu itirmək istəməyən qüvvələrin ermənilərə dəstəyi ilə bağlıdır. 1985-ci ildə SSRİ-də Mixail Qorbaçovun siyasi hakimiyyətə gəlişi ilə erməni diasporunun nüfuzu artdı və «Qarabağ problemi» gündəmə gəldi. ABŞ-dakı erməni diasporu tərəfindən M.Qorbaçovun həyat yoldaşı Raisa Qorbaçovanın rəğbətlə qarşılanması, aldığı hədiyyələr onu ermənilərə güzəştlər getməyə təhrik edən amillərdən biri olmuşdur. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olan H.Əliyevin işdən çıxarılmasının erməni diasporunun fəaliyyətinin nəticəsi olduğu da təsdiqlənmişdir.[1]

Diaspor təşkilatlarının fəaliyyətində Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması mühüm əhəmiyyət kəsb etmişdir. 2002-ci ilin fevral ayında Xocalı soyqırımının 10-cu ildönümü ilə bağlı Türkiyə-Azərbaycan Dərnəyi (TAD) və Türkiyə Strateji Araşdırmalar Mərkəzi (TÜRKSAM) Türkiyənin bir sıra şəhərlərində tədbirlər keçirmiş, konfranslar, etiraz aksiyaları və anım mərasimləri təşkil olunmuşdu.[2]

2007-ci il fevralın 17-18-də Amerika-Azərbaycan Şurası tərəfindən ABŞ konqresmenlərinə Xocalı soyqırımından bəhs edən məktublar göndərilmişdi. 2011-ci ildə Florida Beynəlxalq Universitetində (Mayami) «Amerika-Azərbaycan Mədəniyyət Mərkəzi» tərəfindən Xocalı qırğınına həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan diasporunun üzvləri universitetin tələbə və müəllim heyəti qarşısında Xocalı soyqırımı haqqında məruzələr etmişlər.

[1] Асадов С. Миф о Великой Армении. Баку: Азербайджан, 1994, с. 85.

[2] http://www.diaspora.gov.az/



2007-ci ilin fevral ayının 19-da Ukraynanın Xarkov şəhərində Ukraynada İslam Konfransı Təşkilatının Gənclər Forumu, Ukrayna Azərbaycanlı Gənclər Birliyi, Ukrayna Azərbaycanlıları Konqresinin Xarkov bölməsinin Xocalı soyqırımının 19-cu ildönümünə həsr edilmiş tədbiri keçirilmişdi. «Xocalıya ədalət» şüarı altında keçirilən tədbirdə Xarkov vilayəti administrasiyasının rəsmi şəxsləri, Azərbaycan diasporunun fəalları, KİV nümayəndələri, türk, gürcü diaspor nümayəndələri iştirak etmişlər. Tədbir zamanı Heydər Əliyev Fondunun təşəbbüsü ilə çəkilmiş «Xocalı qətliyamı» filmi nümayiş etdirilmişdir.[1]

2008-ci il fevralın 19-da Almaniyanın Şenebek şəhərində təşkil olunan boks və kikboks turnirində Almaniyada yaşayan azərbaycanlı boksçu Bəxtiyar İsgəndərzadə öz döyüşünü Xocalı soyqırımı qurbanlarına həsr etmişdir.[2]

2011-ci il fevralın 21-dən başlayaraq Dünya Azərbaycanlıları Konqresinin (DAK) təşkilatçılığı ilə Xocalı soyqırımının 19-cu ildönümü ilə əlaqədar Türkiyə Cümhuriyyətində «Xocalı həftəsi» keçirilmişdi. Həmin ilin fevral ayının 22-də Birləşmiş Ərəb Əmirliyində fəaliyyət göstərən «Azərbaycan» cəmiyyətinin sədri Samir İmanov Xocalı soyqırımının 19-cu ildönümü ərəfəsində AUGAF – Milli, xeyriyyəçilik və islam məsələləri üzrə nazir Hamad Bin Əl-Şeyx Əhməd Əl-Şaibani ilə görüşmüşdür. Nazirliyin digər rəhbər vəzifəli əməkdaşlarının da iştirak etdiyi görüşdə Qarabağ münaqişəsi, Xocalı soyqırımı haqqında BƏƏ rəsmilərinə məlumat verilmişdir.[3]

1992-2012-ci illərdə Türkiyə Strateji Araşdırmalar Mərkəzi ilə müştərək konfranslar təşkil olunmuş, faciə ilə bağlı yüksək ti-

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2007.

[2] Yenə orada, 2008.

[3] Yenə orada, 2011.

rajlı mətbuatda müxtəlif məqalələr dərc edilmişdir. Bütün bunlarla yanaşı, Türkiyənin Samsun, Adana və Kayseri şəhərlərində də Azərbaycan səfirliyinin dəstəyi və diasporunun təşkilatçılığı ilə Xocalı soyqırımının ildönümü münasibətilə tədbirlər reallaşdırılmışdır. Soyqırımı qurbanlarının xatirəsinə həsr olunan tədbirlərə yerli kütləvi informasiya vasitələri cəlb edilmiş və həmin tədbirlər yerli mətbuatda işıqlandırılmışdı. Tədbirlərdə Türkiyədə təhsil alan universitet tələbələri, müvəqqəti diaspor nümayəndələri də iştirak etmişdir. «Xocalıya ədalət» beynəlxalq kampaniyası çərçivəsində Xocalı soyqırımının insanlığa qarşı cinayət kimi tanınması məqsədilə imza toplanması da təşkil edilmişdir.

*Qeyd: «Xocalıya ədalət» beynəlxalq kampaniyası 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmışdır.*

2011-ci ilin fevralın 23-də Kiyev şəhərində Ukrayna Azərbaycanlıları Konqresi və Azərbaycan Respublikasının Ukraynadakı Səfirliyi ilə birgə Diplomatiya Akademiyasında Ukrayna ictimaiyyəti, Azərbaycan diaspor təşkilatları nümayəndələrinin iştirakı ilə «Regional konfliktlər və onların həlli yolları» mövzusunda beynəlxalq «dəyirmi masa» keçirilmişdir.[1]

Kiyev şəhərində Rəssamlar İttifaqının sərgi salonunda Xocalı soyqırımına həsr edilmiş sərgi də təşkil olunmuşdur. Kanadanın Toronto Universitetində Azərbaycanlı Tələbələr Assosiasiyası Universitet ilə birgə, Almaniyanın Drezden şəhərində isə Almaniya-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımının 19-cu ildönümünə həsr olunmuş tədbirlər keçirilmişdi. Tədbirlərə ziyalılar, ictimai icmaların üzvləri, siyasi partiyaların nümayəndələri, şəhər meriyasının rəsmi şəxsləri, şəhər dumasının deputatları, yəhudi və rus icmalarının nümayəndələri də qatılmışlar. Tədbirdə Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilmiş «Xocalı həqiqətləri» sənədli filmi və «Xocalıya ədalət»

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.; http://www.mfa.gov.az/



klipi nümayiş olunmuşdur. Tədbir zamanı Xocalı soyqırımı ilə bağlı Almaniya və Kanada hökumətinə müraciət də qəbul olunmuşdu.[1]

Xocalı soyqırımı İtaliyanın Busto Garolfo şəhərində də qeyd edilmişdir. «Azəri» Azərbaycan Mədəniyyət Assosiasiyası, Orizon məktəbi və şəhər bələdiyyəsinin təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan Respublikasının İtaliyadakı səfirliyinin əməkdaşları, şəhərin rəhbərliyi, jurnalistlər, Torino və başqa şəhərlərdən olan həmyerlilərimiz və yerli ictimaiyyət nümayəndələri iştirak etmişdir.

İsrailin Netaniya şəhərində bu məsələ ilə əlaqədar keçirilən tədbirdə «İsrail-Azərbaycan» Beynəlxalq Assosiasiyasının prezidenti İosif Şaqal və politoloq Arye Qut çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən danışmış, bu münaqişədən bəhs edən sənədli film nümayiş olunmuşdur. İştirakçılar Heydər Əliyev Fondu tərəfindən hazırlanmış «Qarabağ haqqında həqiqi faktlar» seriyasından olan kitabçalarla və bir neçə dildə çapdan çıxmış «Xocalı soyqırımı (sənədlərdə, faktlarda və xarici mətbuatda)», «Xocalı soyqırımı», «Erməni mifi», «Erməni ekstremizmi: onun səbəbləri və tarixi məzmunu» və «Erməni (mənimsənilmiş) xalq nağılları» kitablarla tanış olmuşlar. «Xocalı uşaqların gözü ilə» və Xocalı soyqırımının dəhşətlərini əks etdirən foto-sərgi nümayiş etdirilmişdir.

2011-ci il fevralın 26-da Ukraynanın müxtəlif şəhərlərindən gəlmiş gənclərin iştirakı ilə «Xocalıya ədalət» şüarı altında Kiyev şəhərinədək avtoyürüş təşkil edilmişdir. Yürüş iştirakçıları Ukraynadakı BMT-nin ofisi və ATƏT-in nümayəndəliyi önündə piket keçirmiş və Xocalı soyqırımı ilə bağlı bu beynəlxalq təşkilatlara qətnamə təqdim etmişlər.

2011-ci ilin fevralında Haaqa şəhərində Xocalı soyqırımına həsr edilmiş abidənin önündə Niderland Krallığında fəaliyyət göstərən diaspor təşkilatları tərəfindən Xocalı soyqırımının 19-cu

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

ildönümünə aid anım mərasimi və İnsan Haqları Məhkəməsinin qarşısında nümayiş keçirilmişdir. Aksiya iştirakçıları Niderland Parlamentinə Xocalı soyqırımının tanıdılması xahişini əks etdirən müraciət qəbul etmişlər. Benilüks Azərbaycanlıları Konqresinin (BAK) mətbu orqanı olan «Azerbaijan Benelux News» qəzetinin ingilis dilində nəşr olunan fevral buraxılışı Xocalı soyqırımının 19-cu ildönümünə həsr olunmuş və nüfuzlu ictimai xadimlərin ünvanına göndərilmişdir. Belə tədbir Qazaxıstanın Astana və Almatı şəhərlərində də keçirilmişdir. Tədbirdə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, Dağlıq Qarabağ münaqişəsinin tarixi, ermənilər tərəfindən azərbaycanlılara qarşı vaxtaşırı törədilən terror aktları haqqında Heydər Əliyev Fondu tərəfindən çəkilmiş sənədli filmin təqdimatı olmuşdur.

2011-ci ilin mart ayında Amerika Azərbaycanlıları Şəbəkəsinin (USAN) səyləri nəticəsində Texas ştatının Nümayəndələr Palatasında Xocalı soyqırımının tanınmasına dair HR 535 nömrəli qətnamə qəbul olunmuşdur. Qətnamədə Xocalı şəhərinin dinc sakinlərinin erməni silahlı qüvvələri tərəfindən qətlə yetirilməsi öz əksini tapmışdır.[1]

Faktiki olaraq, Xocalıda baş verənlər ötən əsrin ən böyük faciəsi, iyrənc, dəhşətli vandalizmidir. Erməni xislətinin eybəcərliyini, xəstə ruhunun təbəddülatlarını tanımaq üçün elə bir gecədə onların Xocalı əhalisinə yaşatdıqlarını bilmək yetərlidir. Ancaq çox təəssüf ki, hələ də hər şeydə, hər hadisədə öz mənfəətinin dərəcəsini götür-qoy etməyə başı qarışan dünyanın əksəriyyət böyük ölkələrinin bu cür vəhşiliklərə etiraz etmək *ikibaşlı* siyasətləri üçün sərfəli deyildir. Ermənilər yüz il bundan əvvəl heç nə ilə sübut olunmamış qondarma «soyqırımlarını» – «timsah göz yaşıyla» az qala dünyanın yarısına qəbul etdirməyə nail olub. Hər il ABŞ kimi fövqəladə bir gücün dövlət və hökumət rəhbərliyini, konqresini buna təhrik etmək üçün hər

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.; http://www.mfa.gov.az/



vasitəyə əl ataraq bəşəriyyətin gözü qarşısında yalanlarını yerində bilib. Amma özləri hamının gözü qarşısında, elə yaşadığımız zamanda öz doğma yurdlarında insanları ağlasığmaz işgəncələrlə qətlə yetirdiklərini həyasızcasına danırlar. Bu «əzabkeş» xalqın heç olmasa əsl simasını çox vaxt «nahaqqın haqqa qalib gəldiyi dünyada» diasporumuz açıb göstərməyə çalışmışdır. Dünyanın beş qitəsində fəallaşmağa başlayan diasporumuzun bu sahədəki uğurlarında isə təkanverici qüvvə kimi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü və sözügedən fondun fəaliyyətə başlamasının 6 illiyi münasibətilə keçirilən mərasimdəki hesabat xarakterli çıxışında qeyd etdiyi kimi, «...Heydər Əliyev Fondu tərəfindən hazırlanmış və Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq istiqamətində aparılan işlər nəticəsində nəşr olunmuş yüzlərlə kitablar, broşürlər, foto və video albomlardır. Bu, Fondun dəstəyi ilə keçirilən və zəngin mədəni və tarixi irsimizin təbliğinə yönələn beynəlxalq simpoziumlar, festivallar, elmi konfranslardır».[1]

2011-ci il mart ayında 9 yaşlı uşağın, azərbaycanlı Fariz Bədəlovun Ermənistan Silahlı Qüvvələrinin snayperi tərəfindən öldürülməsinə qarşı Azərbaycan diaspor təşkilatları öz etiraz səslərini ucaltmış, Türkiyə, İsveç, Danimarka, Fransa, Latviya, Belçika, Niderland, Rusiya, Ukrayna, Gürcüstan və digər ölkələrdə etiraz aksiyaları keçirilmiş, müxtəlif ölkələrin parlament üzvlərinə, ictimai və siyasi xadimlərə müraciətlər ünvanlanmışdı. Həmin il martın 16-da İsveçin Lund Universitetində Azərbaycan Respublikasının İsveç Krallığındakı səfirliyi, İsveçdə təhsil alan azərbaycanlı tələbələr və bu ölkədə yaşayan fəal soydaşlarımızın təşkilatçılığı ilə «Avropada dondurulmuş münaqişələr, Dağlıq

[1] http://www.heydar-aliyev-foundation.org/az/

Qarabağ məsələsi» adlı konfrans keçirilmişdir.[1]

1918-ci ilin martın 31-dən aprelin 4-dək Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdiyi qətliamlarda 20 mindən çox azərbaycanlı əhalinin məhv edilməsi əsl soyqırım idi. Soyqırım faktını təsdiqləyən dəlil və sübutları, arxiv materiallarını kütləviləşdirmək, dünya ictimaiyyətinin müzakirəsinə təqdim etmək alim və ziyalılarımızın qarşısında duran ən aktual məsələlərdəndir. Sözügedən istiqamətdə fəaliyyət göstərmək üçün bu elementin diasporlarımızın da perspektiv iş plana daxil olması strateji əhəmiyyət daşıdığı kimi, işin xeyri naminə vahid layihə əsasında fəaliyyət göstərmələri də daha vacibdir. 2011-ci il martın 31-də İqdır şəhərində Türkiyə Azərbaycan Dərnəyinin (TAD) və Türkiyə Beynəlxalq Əlaqələr və Strateji Tədqiqatlar Mərkəzinin (TURKSAM) təşkilatçılığı ilə 1918-ci il martın 31-də erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırıma həsr olunmuş «İqdır və bölgədə Azərbaycanlılara qarşı soyqırımlar və erməni iddiaları» mövzusunda konfrans keçirilmişdir. Həmin ilin oktyabr ayında Türkiyənin nüfuzlu «Eko Avrasya» jurnalının xüsusi buraxılışı Azərbaycana həsr olunmuşdur. Sözügedən Jurnalda Azərbaycanın iqtisadiyyatı, neft sənayesi, xarici siyasəti, Qafqazdakı geosiyasi rolu, Azərbaycan-Türkiyə, Azərbaycan-Avropa Birliyi münasibətlərinə dair məqalələr dərc edilmişdir. Nəşrdə mövcud əlaqələrə xüsusi toxunulmuş və bu əməkdaşlığın iki ölkə arasında imzalanmış «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə» ilə daha yüksək səviyyəyə çatdığı qeyd olunmuşdur. TÜRKSAM və TAD tərəfindən Ankarada «Azərbaycanlılara qarşı soyqırımlar törədən Ermənistanın Türkiyə əleyhinə uydurma soyqırım iddiaları» mövzusunda konfrans keçirilmişdir.[2]

---

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

[2] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) //



«31 mart – Azərbaycanlıların soyqırımı günü» ilə əlaqədar 2010-cu ildə də dünyanın bir sıra ölkələrində Azərbaycan diasporunun təşkilatçılığı ilə müxtəlif tədbirlər keçirilmişdir. Ümumrusiya Azərbaycanlıları Konqresinin və onun Rusiyanın ayrı-ayrı bölgələrindəki regional təşkilatlarının keçirdikləri tədbirlərdə 1918-ci ilin mart-aprel aylarında erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı törədilmiş vəhşiliklər pislənilmiş və dünya ictimaiyyətindən bu cinayətə hüquqi qiymət verilməsi tələb olunmuşdur.[1]

Brüsseldə Azərbaycan diasporu Avropa Parlamentinin binası qarşısında etiraz aksiyası keçirərək dünya birliyini Ermənistanın işğalçı siyasətinə, 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə göz yummamağa çağırmışdı. Aksiya iştirakçıları Ermənistan Silahlı Qüvvələrinin snayperinin Ağdam rayonunun Orta Qərvənd kənd sakini Fariz Bədəlovu qətlə yetirməsini də ermənilərin cəzasız qalacaqlarına arxayınlığından irəli gəldiyini qeyd etmişlər.

Danimarka azərbaycanlıları «Vətən» cəmiyyətinin BMT-nin Baş katibinə ünvanladığı müraciətdə deyildiyi kimi, «...Nə qədər acınacaqlı olsa da, cəbhə xəttində əsgərlərin həlak olması gözləniləndir, lakin uşağın snayper tərəfindən öldürülməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesindəki durumdan asılı olmayaraq yolverilməzdir. Biz BMT-dən xahiş edirik ki, Etrmənistanın BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə əməl etməsi və işğalçı qüvvələrin Azərbaycan torpaqlarından çıxması üçün Ermənistana təzyiq göstərsin».[2]

Buxarestdə Rumıniya Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının Azərbaycanın bu ölkədəki səfirliyi ilə birgə keçirdiyi dəyirmi masada azərbaycanlıların soyqırımının erməni-

---

http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

[2] http://az.trend.az/news_print.php?news_id=1844989

rin məqsədyönlü surətdə həyata keçirdikləri, bunun etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğu vurğulanmışdır. ABŞ-dakı Azərbaycan diasporu məktub göndərmə kampaniyası vasitəsi ilə Amerika konqresmenlərinə, yerli hakimiyyət orqanlarına erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli cinayətlə bağlı məlumat vermişdir. 2010-cu il martın 31-də Almaniyadakı Ermənistan Səfirliyinin qarşısında azərbaycanlıların soyqırımı gününə həsr edilmiş etiraz aksiyası keçirilmişdi. Etiraz aksiyasında Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri, «Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi», «Azərbaycan-Alman Akademiklər Birliyi», «Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyası», «Saksen-Anhalt üzrə Alman-Azərbaycan Mədəniyyət Cəmiyyəti», «Azərbaycan-Alman Həmrəyliyi Cəmiyyəti», «Avropa Azərbaycanlıları Konqresi», «Azərbaycan Diasporunun Almaniyadakı Mərkəzi Şurası», «Güney Azərbaycan Türk Akademləri Cəmiyyəti» (GÜNATA E.V.), «Alman-Azərbaycan Mədəniyyəti Dostları Cəmiyyəti», «Almaniya Türk Konseyi», Azərbaycan və türk diaspor nümayəndələri iştirak etmişlər. Etiraz aksiyasının sonunda qəbul edilmiş bəyanat Ermənistan səfirliyinə təqdim edilmişdir.[1]

Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi «31 mart – Azərbaycanlıların soyqırımı günü» ilə bağlı Almaniyanın müxtəlif ictimai-siyasi qurumlarına, dövlət və qeyri-hökumət təşkilatlarına mətbuat açıqlaması göndərmişdir. 2011-ci ildə Estoniya mətbuatında azərbaycanlıların soyqırımı gününə həsr olunmuş məqalə dərc edilmişdir. «Külauudised» qəzetindəki məqalədə Estoniyanın Tallin, Tartu və Koxtla Yarva şəhərlərində azərbaycanlıların soyqırımı ilə əlaqədar tədbirlərin keçirilməsi barədə məlumat verilmiş, eyni zamanda bu vaxt çoxlu sayda qadın, uşaq və qoca da daxil olmaqla 25 000 nəfərdən artıq azərbaycanlının və 3000-dək yəhudinin qətlə yetirildiyi də

[1]Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.



göstərilmişdir.[1]

ABŞ-ın Texas ştatından olan konqresmen Con Zervas Amerika Azərbaycanlıları Şəbəkəsinin 1918-ci ilin mart ayında ermənilər tərəfindən genosidə məruz qalmış azərbaycanlıların xatirəsinin anılması ilə əlaqədar tədbirlərin keçirilməsinə dair ona müraciətinə cavab olaraq yaydığı bəyanatda 1918-ci ilin martında Bakı, Şamaxı, Quba, Şuşa, İrəvan və Naxçıvanda erməni millətçiləri və bolşeviklər tərəfindən amansızlıqla qətlə yetirilmiş 20 mindən çox azərbaycanlı, yəhudi, fars, kürd, ləzgi və avarı xatırlamışdı. Konqresmen Con Zervasın bəyanatında qeyd olunmuşdur ki, hər il martın 31-də soyqırımına məruz qalmış azərbaycanlıların xatirəsi Texas ştatında yad ediləcəkdir.[2]

Hər ilin may ayında Almaniyanın Drezden şəhərində fəaliyyət göstərən «Alm.Az» cəmiyyəti tərəfindən Şuşa şəhərinin işğalı gününə həsr olunmuş tədbirlərin keçirilməsi ənənəyə çevrilmişdir. Həmin tədbirlərdə Azərbaycan diasporu ilə yanaşı türk, yəhudi, alman və rus diasporlarının nümayəndələri də qatılmışdılar. Tədbir iştirakçıları Şuşanın işğalı, erməni təcavüzkarları tərəfindən BMT-nin 4 qətnaməsinə məhəl qoyulmadan atəşkəsin daima pozulması, sərhədyanı ərazilərdə yaşayan dinc əhalinin snayper atəşinə tutulması, xüsusilə də azyaşlı uşaqların qətlə yetirilməsi haqqında məlumat vermiş və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının işğalından bəhs edən sənədli film nümayiş etdirmişlər.

Berlin-Bakı Qalereyasında Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin təşkilatçılığı ilə «Şuşa – səssiz nalələr şəhəri» adı altında tədbir keçirilmiş, Azərbaycan tarixinin və mədəniyyətinin mirvarisi sayılan Şuşa şəhərinin Ermənistanın tapdağı altında qaldığı bildirilmişdir. Tədbirdə Azərbaycan Respublika-

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.

[2] http://www.liveinternet.ru/users/russian_mafia-eng/rubric/1981675/ page2.html

sının Almaniyadakı səfirliyinin nümayəndələri də iştirak etmişlər. Dağlıq Qarabağ münaqişəsindən əvvəl Şuşa şəhərinin tarixi abidələrini və müharibə nəticəsində dağıdılmış bu şəhərin görünüşünü əks etdirən təqdimat göstərilmişdir. Eyni zamanda, əslən Şuşadan olan musiqiçilərimizin əsərləri səsləndirilmişdir. Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən «Azərbaycan» cəmiyyətinin sədri Samir İmanov ABŞ və Fransa prezidentləri Barak Obama və Nikolya Sarkoziyə, ABŞ Dövlət Departamentinə məktubla müraciət edərək, onları Azərbaycana təcavüzünü dayandırması üçün Ermənistana təzyiq göstərməyə çağırmışdır.

Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi (AAKM) Uruqvayın xarici işlər naziri Luis Almagronun 2011-ci ilin sentyabr ayının 9-da «Ermənistan-Uruqvay ikitərəfli münasibətlərində imkanlar və problemlər» mövzusunda təşkil olunmuş konfrans zamanı «Dağlıq Qarabağın Ermənistanın tarixi hissəsi və Dağlıq Qarabağ münaqişəsinin yeganə həlli kimi onun Ermənistanla birləşməsinin ən uyğun yol olduğu» barədə bəyanatına cavab olaraq etiraz məktubu ilə çıxış etmişdir. Məktubda 20 ildən bəri davam edən münaqişənin tarixi, onun səbəbləri və hazırkı vəziyyəti haqqında məlumat verilmiş və Ermənistanın Azərbaycan ərazilərini 1991-cü ildən bəri işğal altında saxladığı, Xocalı soyqırımında yüzlərlə azərbaycanlının vəhşicəsinə qətlə yetirildiyi bildirilmişdir.[1]

2011-ci il sentyabr ayının 16-dan 22-dək Almaniya Federativ Respublikasında «Ermənistan mədəniyyət günləri» çərçivəsində erməni separatçıları tərəfindən qondarma «Dağlıq Qarabağ Respublikası – 20 il» adlı konsert proqramı həyata keçirilmişdir. Buna cavab olaraq iyul ayından başlayaraq Almaniya Federativ Respublikasında ermənilərin «saxta» tədbirinə qarşı etiraz piketi təşkil edilmişdir. Bu aksiya rəsmi qurumların məqsədyönlü fəaliyyəti ilə başlayaraq, diaspor cəmiyyətlərini əhatə etməklə, şəxsi təşəbbüsləri də özündə birləşdirmişdir.

Piketdən əvvəlki dövrdə həyata keçirilən addımların, təşkil

[1] http://www.mfa.gov.az/



olunan kütləvi yazılı etiraz aksiyasının səmərəli nəticəsi olmuşdur:

- Baden Vürtemberq əyalətinin və Ştutqart şəhərinin hakimiyyət dairələrindən Azərbaycan diasporunun etiraz məktublarına izahatlı cavablar verilmiş;
- BV əyalətinin hakimiyyət dairələrinin konsertə himayədarlıq etmədikləri bildirilmiş;
- internet səhifələrindən qondarma «Dağlıq Qarabağ Respublikası»nın təmsilçisi»nin adı konsert təşkilatçıları tərəfindən çıxarılmış;
- Alman ictimaiyyətinin, rəsmi və siyasi orqanlarının heç bir nümayəndəsi erməniləri salamlamaq və yaxud təbrik etmək məqsədilə konsertə gəlməmiş;
- etiraz məktublarından sonra BV əyalətinin hakimiyyət orqanları konsertin təşkilatçılarından siyasi uzaqlaşmış və məsafə götürmüş;
- Ştutqart şəhərinin bələdiyyə rəisi konsertin təşkilatçılarına kəskin məktubla müraciət edərək konsertdə iştirakdan imtina etmiş;
- Baden Vürtemberq əyalətinin hakimiyyət orqanları konserti nə maddi, nə də məzmun cəhətdən dəstəkləmədiklərini bildirmişlər.

Nəticədə piketdə iştirak edən Azərbaycan diaspor nümayəndələrinin sayı Bad-Kanştadt rayonunun Kurzalının konsert salonunda keçirilən tədbirə gələn təxminən 30 nəfər qonağın sayından çox olmuşdur.[1]

2011-ci ilin oktyabr-noyabr aylarında İsveç-Azərbaycan Akademik Cəmiyyətinin (SAAS) təşəbbüsü ilə İsveç parlamentində qətnamə qəbul edilmişdir. İsveçdəki Azərbaycan diasporunun nümayəndələri tərəfindən hazırlanmış sayca ikinci olan bu qətnamə layihəsində Ermənistan-Azərbaycan münaqişəsinin tarixçəsi barədə məlumat verilmiş, müharibənin Ermənistan Respublikası ilə Dağlıq Qarabağdakı ermənilərin separatçı

[1] http://www.diaspora.gov.az/index php?options=news&id=11&news_id=1189

fəaliyyətinin nəticəsi olduğu və 1 milyon azərbaycanlının öz doğma yurd-yuvalarında qaçqına-köçkünə çevrildikləri bildirilmişdir. BMT, Aİ və AŞPA qətnamələrində beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü tanıması, bütün erməni silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxmasını tələb etməsi və bütün köçkün düşmüş insanların evlərinə qayıtmaq haqqı olduğu da qətnamə layihəsində qeyd edilmişdir.[1]

Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin təşəbbüsü ilə ARTE kanalında Azərbaycan haqqında iki sənədli film nümayiş etdirilmişdir. 2011-ci ilin noyabr ayında Azərbaycan diaspor təşkilatları Rusiyanın «Vesti FM» radiostansiyasının efirində jurnalist Vladimir Solovyovun çoxmillətli Azərbaycan xalqının ünvanına təhqirlər səsləndirməsi ilə əlaqədar etiraz kampaniyası təşkil etmiş, Rusiya Federasiyasının rəhbərliyinə, eləcə də xarici ölkələrdə fəaliyyət göstərən Rusiya diplomatik nümayəndəliklərinə etiraz məktubları ünvanlamışlar. Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən «Azərbaycan» cəmiyyətinin sədri Samir İmanov Fransa Senatının prezidenti Jan Pyer Belə və Milli Assambleyasının prezidenti Bernard Accoyerə bu ölkənin parlamentində qondarma «erməni soyqırımı» ətrafında müzakirələrin aparılmasına qarşı etiraz məktubu ünvanlamışdır. Məktubda Fransa parlamentində qondarma «erməni soyqırımı» ətrafında müzakirələrin dayandırılması tələb olunmuşdur.

2011-ci il dekabrın 22-də Finlandiyada fəaliyyət göstərən Azərbaycan və türk diasporları Fransa parlamentinə müraciət göndərmişlər. Müraciət müəllifləri qondarma «erməni soyqırımı» ilə bağlı qanun layihəsinin müzakirəyə çıxarılmasından narahatlıqlarını ifadə edərək, bunun Fransa-Türkiyə münasibətləri ilə yanaşı, Fransa-Azərbaycan münasibətlərinə də mənfi təsir göstərəcəyini bəyan etmişdilər. Bu hadisə ilə əlaqədar dünyanın bir çox ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor

[1] Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər) // http://www.diaspora.gov.az/index.php?options=press&id=6, 2011.



təşkilatları tərəfindən bəyanat və müraciətlər qəbul edilmiş, etiraz aksiyaları keçirilmişdir.

Ə.Həsənov haqlı olaraq bu məsələdə Azərbaycan diasporunun rolunu ön plana çəkərək öz fikirlərini belə ifadə edir: «...bu gün Türkiyə artıq meydanda tək deyil. Regionda mövqelərini kifayət qədər möhkəmləndirmiş, aktiv xarici siyasət yürüdən, xaricdə mütəşəkkil diaspora təşkilatları ilə proseslərə aktiv təsir göstərmək iqtidarında olan Azərbaycan kimi müttəfiqi var. Bilirsiniz ki, bir neçə il əvvəl Fransa parlamentində qəbul edilmiş «soyqırımın» danılmasını kriminallaşdıran qanunun sonradan qüvvəsini itirməsində Azərbaycan həm rəsmi şəkildə, həm də bu ölkədəki diaspora təşkilatlarının köməyi ilə çox mühüm rol oynadı»[1].

Qeyd edək ki, erməni diasporunun saxta soyqırımı iddialarına, öz lobbi fəaliyyətləri ilə manipuliyasiya edərək uydurma soyqırımı dünya ictimaiyyətinə sırımaqlarına geniş yer verməkdə niyyətimiz onların anormal hərəkətlərini göstərmək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin istər xarici siyasətimizin, istərsə də diaspor fəaliyyətimizin əsas prioriteti olduğunu önə çəkməkdir.

XX əsrin sonlarında baş verən proseslər, millətlərarası münaqişələrin kəskinləşməsi Azərbaycan diasporunun fəaliyyətinin siyasiləşməsini zərurətə çevirdi. Xüsusilə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsi və münaqişənin həllində dövlət siyasətinin təbliğini diaspor təşkilatlarının özünün birinci növbəli prioritet vəzifəsi kimi qarşısına qoyması bu prosesi daha da sürətləndirdi. Azərbaycanın ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması Azərbaycan dövlətinin və diasporunun qarşısında duran təxirəsalınmaz vəzifə elan olunmuşdur. Bunu milli təhlükəsizlik baxımından «həyati vacib maraq», regional və beynəlxalq səviyyədə isə kəskin problem olduğunu vurğulayan xarici işlər naziri E.Məmmədyarov Azərbaycan diplomatiyasının 90 illik yubileyi-

[1] http://az.trend.az/azerbaijan/politics/2267427.html

nə həsr etdiyi «Azərbaycanın xarici siyasəti: təsir edən amillər və prioritetlər» adlı məqaləsində qeyd edir: «Biz münaqişənin həlli üçün erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın pozulmuş suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, Azərbaycanın Dağlıq Qarabağ regionunda ölkənin hərtərəfli iqtisadi inkişafı çərçivəsində kommunikasiyaların bərpası və sosial-iqtisadi inkişaf üçün şərtlərin müəyyən olunması, qanuni və demokratik proses çərçivəsində bu regionda azərbaycanlı və erməni icmalarının dinc yanaşı yaşaması və Azərbaycan Respublikasının tərkibində muxtariyyətini təmin edəcək statusun müəyyənləşdirilməsindən başqa bir yol görmürük. Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi yalnız etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz doğma yurdlarına qaytarılmasından sonra və yalnız Azərbaycan tərkibində mümkündür. Azərbaycan heç bir zaman öz ərazi bütövlüyünü müzakirə obyektinə çevirməyəcəkdir».[1]

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi milli heysiyyəti olan hər bir azərbaycanlı üçün ən həssas məqam və ən başlıca problem hesab edilir. Bu münaqişə dövlətimizin istər daxili, istərsə də xarici siyasətinin ən prioritet məsələlərdən biri olmuşdu. Bu da dəfələrlə yerli, regional və beynəlxalq tədbirlərin hamısında ən yüksək səviyyədə qeyd edilmişdi. 2010-cu il iyun ayının 8-də İstanbulda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə dövlət və hökumət başçılarının III Sammitində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi Ermənistanın işğalı altında olduğu və bir milyon azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü vurğulanmışdı. Bu vəziyyətin hələ də davam etdiyi və beynəlxalq ictimaiyyətin susduğu hiddətlə səsləndirilmişdir. Etnik təmizləmə siyasətinə məruz qaldığımız və işğal olunmuş ərazilərdə heç bir yerli sakinin olmadığı buna əyani sübutdur. Həmin Sammitdə çıxış edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev dövlətimizin haqlı mövqeyini belə müdafiə etmişdir: «BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Lakin bu qətnamələr hələ də yerinə yetirilməyib. BMT-nin Baş Məclisinin qətnamələri, Avropa Şurası və Avropa Parlamentinin, eləcə də digər beynəlxalq təşkilatların qərarları yerinə yetirilməyib. Biz beynəlxalq təşkilatların üzvüyük və onların qəbul etdiyi qərarlara hörmətlə yanaşmalıyıq. Əgər, həmin qərarlar qəbul olunursa və icra edilmirsə, onda beynəlxalq təşkilatlara olan etimad da azalacaqdır».[1]

ABŞ-da fəaliyyət göstərən erməni diasporunun və lobbisinin Azərbaycana qarşı barışmaz mövqeyini Kanadanın Karlton *Universitetinin* Avropa, Rusiya və Avrasiya Tədqiqatları İnstitutunun baş elmi işçisi Robert Katler bu sözlərlə şərh edir: «Amerika Erməni Milli Komitəsi açıq şəkildə müdaxilə edərək 2009-cu ilin avqust ayında dövlət katibi H.Klintona açıq məktub göndərib və mətbuatda yazılanlara görə, Xəzərin enerji məsələlərində iyirmi illik təcrübəsi olan peşəkar diplomatın Azərbaycana səfir təyin olunmasına etirazlarını bildirmək üçün ondan görüş istəyib».[2]

1988-ci ildən başlayaraq, Ermənistan SSR-nin Azərbaycan SSR-yə qarşı irəli sürdüyü əsassız ərazi iddialarına əsaslanan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1991-1994-cü illərdə Azərbaycanın tarixi torpaqları üstündə Ermənistanla Azərbaycan arasında şiddətli hərbi ixtilafa gətirib çıxarmışdır.

1994-cü ilin may ayının 12-də Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəslə hərbi əməliyyatların aktiv fazası dayandırılmışdır. Müharibə nəticəsində, 30.000-nə yaxın insan həlak olmuş, 800 mindən çox insan evsiz-eşiksiz qalmış, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafında yerləşən 7 inzibati

---

[1] http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_iyul2009/84844.htm



[1] Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 2003-2011-ci illər.

[2] http://www.liveinternet.ru/users/russian_mafia-eng/rubric/1981675/page2.html

rayonu Ermənistan silahlı qüvvələrinin işğalına məruz qalmışdır.

Bundan əvvəl, şovinist Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovularaq Azərbaycana pənah gətirmişdir.[1]

Atəşkəs dövrü olmasına baxmayaraq, sözügedən münaqişə öz ədalətli həllini tapmadığına görə Dağlıq Qarabağ ətrafında hələ də müharibə davam edir və ətraf ərazilərdə belə dinc insanlar rahat yaşaya bilmir. Beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan silahlı qüvvələri tərəfindən hər il mülki əhali daxil olmaqla onlarla insan öldürülür. Razılaşdırılmış atəşkəsdən sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı. 1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən zirvə toplantısında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çevik diplomatiyasının təsiri ilə «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» barədə qərar qəbul olundu. Qərarda münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə də öz əksini tapdı.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil edən sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin gərgin əməyi və diplomatik səyi sayəsində zirvə toplantısında münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bəyanat qəbul edildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in

---

[1] «Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (13 iyul 2004-cü il, №94) // Azərbaycan Respublikası Qanunvericilik Toplusu. 2004, №7.



fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kottinin adından verilən bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun sənədlərinə əlavə edildi.

ATƏT-in Lissabon zirvə görüşündən sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət – yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etmişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin «paket» (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin «mərhələli» (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan prezidenti həmin planlarla tam razı olmasa da, həmsədrlərin bu iki təklifini qəbul etdi, Ermənistan tərəfi isə qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı. 1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbul edilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan «ümumi dövlət» ideyasına əsaslanırdı.[1]

ATƏT-in Minsk qrupu «ümumi dövlət» təklifi yalnız erməni dövlətinin mənafeyinə xidmət etdiyi üçün iflasa uğramışdır.

Lakin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dediyi kimi unutmaq olmaz ki: «Dağlıq Qarabağ münaqişəsinin həlli bölgədə sülhün təmin edilməsi üçün birinci və başlıca şərtdir. Bu məsələ həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz».

---

[1] Əhmədov E. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması Azərbaycanın xarici siyasətində prioritet istiqamətdir // Xalq qəzeti, 2009, 3 dekabr, №268.

Ermənistan isə yenə də öz maraqlarına uyğun olaraq, Dağlıq Qarabağdan qoşunların çıxarılması və Dağlıq Qarabağın Azərbaycan vasitəsilə deyil, birbaşa dünya dövlətləri ilə əlaqəsinin təmin olunması və s. kimi müxtəlif variantlar təklif edir. İstər ermənilər, istərsə də onun bir sıra havadarları, o cümlədən bəzi beynəlxalq təşkilatlar problemə yalnız ikili standartla yanaşaraq münaqişənin həllini qəsdən dolaşığa salır, həlli müşkül olan problemə çevirirlər. Təbii ki, ümumi dövlət ideyası ilə bağlı layihəni ümummilli lider Heydər Əliyev «qaradan da qara» sayaraq, mahiyyətində Azərbaycanda ikinci erməni dövləti yaratmaq niyyəti duran bu təklifi qətiyyətlə rədd etmişdir.[1]

Azərbaycan Respublikası Prezidenti xalqın yekdil fikirini dəfələrlə ifadə edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllini tapmalı və status-kvonun dəyişilməli olduğunu bildirmişdir. Bunun yeganə mümkün variantı mərhələli şəkildə həyata keçirilməsidir. Azərbaycan Respublikasının, ölkə əhalisinin, istərsə də dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların mövqeyi qətidir: Dağlıq Qarabağın Azərbaycana tabeçiliyindən başqa digər formalarda onunla münasibət saxlanılacağının mümkün olması heç bir halda müzakirə mövzusu ola bilməz. Birmənalı şəkildə qeyd etmək olar ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi işğal olunmuş torpaqlarımızın, Dağlıq Qarabağ və ətraf rayonların geri qaytarılması ilə həll edilə bilər.

Hazırda biz informasiyanın sürətlə hərəkət etdiyi və dominanta çevrildiyi bir dövrdə yaşayırıq. Buna görə də diaspor sahəsində müasir dövrün tələblərinə cavab verən yeni təsisatların təşkili və KİV-lərin, internetin imkanlarından maksimum dərəcədə istifadə etmək lazımdır. Bu istiqamətdə vahid strategiya qəbul olunmalı, məlumat bazası yaradılmalı və ictimai informasiyalar «**bir pəncərə**»dən keçirilməlidir. Beynəlxalq çərçivədə fəaliyyətin qurulması, tarixi əlqələrimiz olan xalqların diasporları ilə münasibətlərin gücləndirilməsi və əməkdaşlıq protokollarının imzalanması vacibdir.

[1] Vahidov F.Q., Ağayev T.B. Sosiologiya: Ali məktəblər üçün dərslik. Bakı: «Təknur» nəşriyyatı. 2008, s. 68.



N.Əlisoyun «Yəhudi xalqı və yəhudi lobbisi» adlı məqaləsində bu məsələ yəhudi xalqının timsalında belə xarakterizə olunur: «...Dövlətlərdə diasporun fəaliyyətini gücləndirmək, yəhudi milləti arasında təşkilatlandırma işi aparmaq, həmin ölkələrdə olan yəhudi icmalarına sionizmin, yəhudi millətçiliyinin əsas məqsəd və məramını aşılamaq, müvafiq dövlətin yəhudi lobbisinin sosial-siyasi, iqtisadi mühitinə təsirini gücləndirmək, həmin dövlətin maliyyə strukturlarından «bərk-bərk yapışmaq», icmalar arasında institutlar təşkil etmək və bu institutlarda milli şüurun yüksəldilməsi, gələcək yəhudi icmaları üçün yeni əsaslar hazırlamaq və bu ideyanı həm yəhudilər, həm də qeyri-yəhudilər arasında təbliğ etmək və s. bu kimi işlər görülməli idi».[1]

Lobbiçilik istiqamətində irəliləyən Azərbaycan diasporunun dövlət dəstəyinə daim ehtiyacı vardır. Diaspora dövlətin dəstəyi dolayısıyla arzuolunan olsa da, ona dövlətin birbaşa nəzarəti arzuolunmazdır. Diaspor daha çox ölkəni müxtəlif səbəblər üzündən tərk edən vətəndaşların birliyidir. Ona görə də onların işinə yersiz müdaxilələr edəndə narazılıq yaranır ki, bu da milli nöqteyi-nəzərdən arzuolunmaz mənzərə yaradır. Eləcə də hakimiyyət faktorun nəzərə alsaq, diasporun istər daxildə, istərsə də xaricdə siyasiləşməsi sonradan parçalanmağa gətirib çıxarır.

Fikirimizcə, diaspor işində ən vacib məsələlərdən biri vahid milli ideologiyanın formalaşması və onu həyata keçirən milli institutun olmasıdır. Lobbiçiliyə doğru inkişaf edən diaspor fəaliyyətimiz milli dövlətçiliyimiz üçün strateji hesab edilməli, yaxın perspektivdə milli lobbi institutları təsis edilməli, müvafiq proqramlar hazırlanmalı və onların icra mexanizmi yaradılmalıdır. Bu həm azərbaycanlıların intellektual potensialının yüksəldilməsinə, həm də Azərbaycanın dünyada mövqeyinin dəstəklənməsinə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətin dünya ictimaiyyətinə düzgün çatdırılmasına,

[1] Əlisoy N. Yəhudi xalqı və yəhudi lobbisi // Qanun, 1998, №5, s. 65.

bir sözlə, diplomatiyanın, xarici siyasətin, beynəlxalq münasibətlərin inkişafına töhfə verə bilər.



# NƏTİCƏ

XX əsrin 90-cı illərində planetin quru hissəsinin 22.402 min $km^2$-ni əhatə edən, dünya əhalisinin isə 293 milyon nəfərini təşkil edən SSRİ-nin[1] və onun təsiri altında olan sosializm sisteminin dağılması dünyanın siyasi xəritəsində dəyişikliklərin baş verməsinə səbəb oldu. Bununla da, xalqların öz soy-kökünə qayıdışı ilə milli spesifikalarında yeni səhifə açılmağa başlandı. Başqa postsovet respublikaları kimi, bu hadisə həm milli oyanış və dirçəliş, həm də xalqımızın əzəli və əbədi arzusu və istəyi – öz istiqlalına qovuşması kimi dünya və Azərbaycan tarixinə daxil olmuşdur. Bu dövrdə Azərbaycan diasporu da keyfiyyət və kəmiyyət dəyişikliyi yaşamış, yeniləşməyə qədəm qoymuşdu. Azərbaycan diasporunun dövləti hərtərəfli tanıtmağa və müdafiə etməyə güclü potensialının olması onun suverenliyinin əsas atributlarından birinə çevrilməklə inkişafına stimul verdi. Azərbaycan Respublikasının xarici siyasətində ayrı-ayrı dövlətlərlə mövcud münasibətlərin genişlənməsində və yeni-yeni əlaqələrin yaranmasında diaspor fəaliyyətinin müsbət rolu artdı.

XXI əsrin əvvəllərində dünyada baş verən köklü dəyişikliklər, qloballaşma və inteqrasiya prosesləri, transmilli şəbəkələrin formatının yeniləşməsinə və maştabının böyüməsi diasporların dünyadakı yerinə və roluna yenidən baxmağa, onların sosial, mədəni, iqtisadi, siyasi imkanlarını nəzərdən keçirməyə sövq etdi. Hal-hazırda diaspor öz ənənəvi funksiyasını dəyişərək sosial-mədəni sferadan daha çox mühüm ictimai-siyasi, hətta iqtisadi amil də kimi qəbul olunur. Bu potensialdan yeni əlaqələndirici simvol kimi beynəlxalq aləmdə maksimum şəkildə istifadə etməyə çalışırlar.

Təsadüfi deyil ki, İ.Əliyev Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşdəki çıxışında bildirmişdir: «Mən, demək olar, səfər etdiyim əksər ölkələrdə

[1]https://az.wikipedia.org/wiki/Sovet_Sosialist_Respublikalar%C4%B1_%C4%B0ttifaq%C4%B1

Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən onları qorumalı, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni bu bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər».[1]

Yeni dünya nizamında insan hüquq və azadlıqlarının ön plana keçməsi yeni ictimai yanaşmanın və etnik təmayüllü birliklərin meydana gəlməsini başlıca tələb kimi ortaya qoymuşdu. Cəmiyyətdə coğrafi məkanın, etnik mənşənin, dini mənsubiyyətin, siyasi dünyagörüşün fərqi qabarıq şəkildə görünməyə başlamışdı. Mövcud dövrdə prioritet sayılan, daim gündəmdə yer alan diaspor və lobbi fəaliyyəti dünyanın hər yerində aktuallıq kəsb etmişdi. Məhz xarici siyasətdə «diaspor» (lobbi) anlayışını tarixi səpgidə və Azərbaycan kontekstində tədqiq etmək də bu zərurətdən irəli gəlmişdi. Bunun əsas təzahürü diasporların beynəlxalq hüququn elementinə və diplomatiyanın subyektinə çevrilməsində idi. Baxmayaraq ki, beynəlxalq normativ-hüquqi aktlarda diaspor anlayışı hələ də öz dəqiq ifadəsini tapmamışdır. Müasir diasporların daxili və xarici siyasi proseslərə təsiri ciddi təhlillər tələb edir. Bu zaman geniş spektrli sahələrin tədqiqatçılarının bu məsələ ilə bağlı apardığı tədqiqatlar diaspor faktorunun beynəlxalq əlaqələrdə, dövlətin xarici siyasətində yeri və rolunun daha dəqiq müəyyənləşdirilməsinə kömək edir. «Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011)» adlı monoqrafiya da, bu istiqamətdə atılan müsbət addımlardan biridir, burada diaspor (lobbi) fəaliyyətinin tarixinə nəzər salınmış və onun funksiyasının ətraflı şəkildə izahı verilmişdir.

Tədqiqat zamanı gəldiyimiz nəticələri aşağıdakı kimi sıralaya bilərik:

- **Azərbaycan diasporunun təşəkkülü və inkişafı dərindən araşdırılmışdır;**
- **diaspor anlayışına və tarixinə ümumi baxış ətraflı öyrənilmişdir;**
- **xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətləri tədqiq edilmişdir;**
- **Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi əsaslı şəkildə təhlil olunmuşdur;**
- **beynəlxalq əlaqələrə diasporun təsiri işıqlandırılmışdır;**
- **Azərbaycanın xarici siyasətində diaspor amili nəzərdən keçirilmişdir;**
- **Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələrinə kompleks halda diqqətə yetirilmişdir;**
- **diaspordan lobbiçiliyə doğru: Azərbaycan diasporunun ölkəmizin təbliği, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinə toxunulmuşdur.**

Tədqiq edilən mövzuda klassik yəhudi, yunan, erməni, çin diasporları ilə bağlı fərqli cəhətlər də nəzərə çatdırılmışdır. Monoqrafiyada gəlinən qənaətə görə, dövlətlər elə siyasət yürütməlidir ki, hüdudlarından kənarda olan diasporlar qarşıdurmaya deyil, yaxınlaşmaya xidmət etsinlər. Eyni zamanda, ən həssas məqama toxunaraq bildirilir ki, hər bir dövlət xaricdə yaşayan öz soydaşlarının hüquqlarını müdafiə etməyə borcludur. Tədqiqat işində belə nəticəyə gəlinir ki, diasporçunun, lobbiçinin və onların missioner təşkilatlarının əsas məqsədi və vəzifəsi yaşadığı və mövcud olduğu yerin qanunlarına riayət etməklə, mənşə ölkələrinin donor dövlətlərlə qarşılıqlı əlaqələrinin yaranmasına kömək göstərmək olmalıdır. Geosiyasi hadisələrin gərgin xarakter aldığı yeni dünya mənzərəsində sülhün və əmin-amanlığın əldə olunması, onun qorunub saxlanması istiqamətində hər bir dövlətin xarici siyasətinin əsas istiqamətlərindən birini

[1] http://azleadersays.com/az/razdel/30_Diaspora-haqqinda/page_2

diaspor və lobbi amili təşkil etməlidir. Ümumilikdə, indiki qeyri-nizamlı beynəlxalq münasibətlər sistemində könüllü, yaxud məcburi yerdəyişmələrin çoxalması etnik birliklərin və milli icmaların çoxalması ilə nəticələnir. Bütün bunlar isə elə idarəolunmalıdır ki, xalqların bir-biri ilə əlaqələrinin qurulmasına və cəmiyyətlərə yeni nəfəs verməsinə xidmət etsin. Nəticədə, meydana çıxan diasporların və lobbilərin yaranma səbəblərini, fəaliyyətini və inkişafı istiqamətlərini öyrənmək üçün onların elmi təhlili zərurəti ortaya çıxır. Dünya və Azərbaycan tarixşünaslığı üçün yeni və mühüm əhəmiyyət daşıyan praktikada köç, miqrasiya, mühacirət, qovulma, sürgün, icma, birlik, ictimai təşkilatlar, lobbiçilik və digər anlayışlarla eyniləşdirilən «diaspor» termininə tədqiqatımızda forma və məzmun baxımından aydınlıq gətirilmiş, bu sahənin görkəmli tədqiqatçılarının fikirlərinə söykənərək «diaspor» anlayışının mahiyyəti izah edilmişdir. Tədqiqat işində ümumi mənası ilə bağlı «diaspor» anlayışı bir sıra xüsusi incəliklə araşdırılmışdır:

- **tarixi vətəndən könüllü və ya məcburi, bir və ya bir neçə xarici ölkələrə mühacirət etmək-səpələnmək;**
- **fərqli səbəblərlə, əsasən iş tapmaq məqsədilə və ya vətənində müxtəlif təqiblərə məruz qalmaqla öz tarixi vətənlərini tərk edərək digər ərazilərə köçmək-yayılmaq;**
- **etnik-tarixi vətənlərinin hərtərəfli (sosial, mədəni, iqtisadi, siyasi və d.) inkişafı üçün birgə fəaliyyət göstərmək;**
- **məskunlaşdıqları ölkələrin sosial-mədəni, iqtisadi-siyasi və s. mühitinə adaptasiya;**
- **xarici ölkələrdə yaşayan həmvətənləri ilə etnik bağları qoruyub saxlamaq, qarşılıqlı münasibət yaratmaq və əlaqələr qurmaq.**

Diaspor titul dövlətin (gəldiyi dövlətin) hüdudlarından kənarda yaşayan və müəyyən cəhətlərə (tarixi vətənlə əlaqələr, etnik eyniləşmə, milli dəyərləri qorumaq, tarixi vətənin maraqlarını təmin etmək üçün təşkilati imkanlara sahib olmaq



və s.) malik etnik qruplar əsasında yaranan etno-mədəni və etno-siyasi fenomen kimi nəzərdən keçirilmişdir. Dövlət diaspor fəaliyyətini həyata keçirərkən müxtəlif ölkələrdəki diaspor təşkilatlarının sosial, mədəni, siyasi, iqtisadi potensialından öz milli mentalitetini mühafizə etmək və gələcək nəslə ötürmək üçün müvafiq işlər görməlidir.

Monoqrafiyada Azərbaycan diasporunun fəaliyyəti Azərbaycan Respublikasının yürütdüyü xarici siyasət aspektində incələnərək elmi dəqiqliklə təhlil edilmişdir. Bir sıra xalqların diaspor fəaliyyətinin spesifik xüsusiyyətlərinin xalqlararası və dövlətlərarası münasibətlərin inkişafında rolundan bəhs edilmişdir. Diasporun fəaliyyətində effektiv nəticə əldə etmək üçün **«3Y» – «yayılmaq» – «yurdlaşmaq» – «yüksəlmək»** prinsipi üzrə hərəkət edilməsi qənaətinə gəlinmişdir.

Mühüm məsələlərdən biri də milli diasporun yad sosial-mədəni mühitdə assimilyasiya təhlükəsinin qarşısını almaq üçün onların institusional quruculuq məsələsidir. Göstərilən məqsədə *nail olmaqdan ötrü diaspor təşkilatlarının fəaliyyətinin* koordinasiya edilməsi sahəsində dövlətin müvafiq strukturlarının, xüsusilə, DİDK-nin imkanları genişləndirilməlidir.

Tədqiqat işində diasporun münaqişə yaratmaqda katalizator funksiyası kimi məkirli fəaliyyəti də əks olunmuşdur. Misal olaraq, erməni diasporunun forması və məzmunu, saxtakarlığı tarixi bir neçə faktlarla izah edilmişdir. Tədqiqatın məzmunundan göründüyü kimi, hər bir dövlət qarşısına diasporun etno-mədəni fenomen kimi saxlanılması məqsədini qoyaraq, siyasi vəzifə kimi də ondan istifadə etməklə diasporun mənşə ölkəsi ilə əlaqələrinin möhkəmləndirilməsi strategiyasını yaradılmalıdır. Buna nail olmaq üçün isə dövlətin diasporla iş üzrə rəsmi proqram və konsepsiyası olmalıdır. Mütləq diaspor təşkilatları ilə birgə fəaliyyət planı işlənməli və onun koordinasiyası təşkil edilməlidir.

Monoqrafiyada dövlət-diaspor münasibətlərinin genişlənməsinin diaspor siyasətində əsas götürülməsi bir sıra faktorlarla əlaqələndirilmişdir:

- **milli birlik, tarix, maddi-mənəvi mədəniyyət (identik-**

**lik), dil və din amili;**

- **milli dövlətçilik və suverenlik, azadlıq amili;**
- **milli zülmə və avtoritarizmə qarşı müqavimət, eləcə də demokratiya və insan hüquqları uğrunda mübarizə amili;**
- **milli faciələrin məhz diaspor tərəfindən öz faciələri kimi qarşılanıb birliyin və həmrəyliyin açıq şəkildə ifadə olunması amili;**
- **milli dövlətin himayədarlığına daim ehtiyac amili.**

Tədqiqat işində H.Əliyevin Azərbaycan Respublikası Prezidenti kimi çoxsaylı xarici səfərlərində dünyanın müxtəlif ölkələrindəki Azərbaycanın milli icmaları, diaspor nümayəndələri ilə görüşü, onları tarixi vətənləri və milli mənafeləri ətrafında sıx birliyə və həmrəyliyə çağırışları, hər il 31 dekabr – Dünya azərbaycanlılarının həmrəylik günü onlara müraciət ənənəsinin əsasını qoyduğu da qeyd edilmişdir. Bunlarla yanaşı, Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi və sair tədbirlərin reallaşdırılmasındakı rolundan ətraflı söhbət açılmışdır. Hələ, 1995-ci il 29 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İsveçrədə – paytaxt Berndə yaşayan soydaşlarımızla görüşdə uzaqgörənliklə bidirmişdir ki, «Azərbaycanın müstəqilliyi qorunacaqdır. Xalqın milli azadlıq ruhu bundan sonra da yüksələcək və Azərbaycan bütün bu bəlalardan keçəcək, qısa müddətdə zəngin bir dövlət olacaqdır. Buna tam əmin olun. Ona görə də burada yaşayın, işləyin, amma Vətən həmişə qəlbinizdə olsun, onu unutmayın. İndi yollar açıqdır, həmişə Vətənə gələ bilərsiniz. Hər birinizin gəlib Vətəndə yaşamağa, onu ziyarət etməyə, qohum-əqrəbanızla görüşməyə imkanınız var»[1] fikirinin reallığa çevrildiyi

[1] http://lib.aliyev-heritage.org/print.php?lang=az&page=9389127



təsdiq edilmişdir. Monoqrafiyada bu sahədə daha da effektiv nəticə əldə etmək üçün müxtəlif təkliflər irəli sürülmüş, **«Diaspor fondu»**nun, **«Azərbaycan evləri»**nin və **«Lobbi institutları»**nın yaradılması tövsiyə olunmuşdur.

Məlumdur ki, dünyada dövlətlərin yarandığı və təşəkkül tapdığı dövrdən etibarən fikir ayrılığı, ziddiyyətlər və müharibələr meydana gəlmişdir. Bunların tənzimlənməsinə təsir mexanizmi diaspor nəzəriyyəsinin əsas mövzularındandır.

Monoqrafiyada Erməni-türk problemi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi mənşəyi, diaspor təşkilatlarının qeyd olunan məsələlərdə mövqeyi və onların həllinə təsiri zəngin faktlarla izah edilmişdir. Erməni diasporunun əsassız torpaq iddiaları, «erməni soyqırımı» uydurmaları, bunların dövlətlərarası münasibətləri gərginləşdirərək xarici əlaqələrə mənfi təsiri elmi dəlillərlə sübuta yetirilmişdir. Həmçinin, diasporun beynəlxalq təşkilatların, BMT-nin, İKT-nin, ATƏT-in və Aİ-nın yeritdiyi siyasətə təsiri məsələlərindən də söhbət açılır. Erməni diasporunun (lobbisinin) erməni-türk probleminin, Ermənistan-Azərbaycan münaqişəsinin həllindəki məkirli hərəkətlərindən və beynəlxalq təşkilatları yalan məlumatlarla müvafiq qərarlar verməyə təhrik etməsindən danışılır.

Tədqiqat işində göstərilən dəlilləri və müasir dövrdə lobbiçiliyin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan lobbisinin inkişaf etdirilməsi vacib xarakter daşıdığı da ön planda çəkilmişdir. Bunun üçün isə ilk növbədə yeni mexanizmin işlənib hazırlanması, proqramların qəbul olunması, qanunvericilik bazasının formalaşdırılması və müasir tələblərə cavab verən institutlar yaradılmasının zəruriliyi qeyd edilmişdir. O cümlədən, azərbaycanlıların kompakt yaşadıqları yerlərdə lobbi institutlarının təsis edilməsi və kütləvi informasiya vasitələrinin, internetin-virtual aləmin real imkanlarından maksimum dərəcədə istifadə olunması nəzərə çatdırılmışdır. Göstərilmişdir ki, diasporun birliyi tam qorunmalı, onun lobbiyə çevrilməsi istiqamətində səylər artırılmalıdır. Bir ölkə daxilində ayrı-ayrılıqda fəaliyyət göstərən icma və qurumların vahid mərkəzdə koordinasiya şuralarının ya-

radılması, diaspor təşkilatlarının regional və beynəlxalq səviyyədə birləşdirilməsi prosesi davam etdirilməlidir. Eləcə də, Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının müvafiq bəndində öz əksini tapan «Qitələr üzrə diaspor təşkilatlarının birləşdirilməsi prosesi başa çatdıqdan sonra dünya azərbaycanlılarının vahid təşkilatının yaradılması istiqamətində iş aparılması» ideyası reallaşdırılmalıdır.

Monoqrafiyada müasir dünyada baş verən siyasi proseslərdə milli-mədəni müxtəlifliyin qorunub saxlanılmasının mühüm əhəmiyyət kəsb etdiyi də öz əksini tapmışdır. İstər xalqlararası, istərsə də dövlətlərarası münasibətlərdə hər hansı bir etnik qrupun milli maraqları hər şeydən üstün tutulmalı və bu məqsədlərin reallaşması üçün diaspor potensialından səmərəli istifadə olunmalıdır. Bu məsələlərin gerçəkləşdirilməsində ictimaiyyətin üzərinə böyük iş düşür. Məhz «beynəlxalq icma» statusu qazanmış diaspor faktoru bu boşluğun doldurulmasında xüsusi missiyanı reallaşdıra bilər. Bunun üçün isə sözügedən əlaqələrdə «xalq diplomatiyası» rolunu oynayan diasporun fəaliyyətinə şərait yaradılmalı və onun inkişafı üçün dəstək verilməlidir.

Tədqiqat nəticəsində Azərbaycanın milli maraqlarının uyğun qorunması məqsədilə xarici siyasətin həyata keçirilməsində diaspor fəaliyyətinin öyrənilməsi sahəsində qarşıda bir sıra mühüm vəzifələrin durduğu da üzə çıxarılmışdır. Bunlar aşağıdakılardır:

- **Azərbaycan dövlətinin və diaspor təşkilatlarının qarşılıqlı münasibətlərinin inkişafını özündə ehtiva edən yeni siyasi xəttin əsas konturlarının müəyyənləşdirilməsi;**
- **Azərbaycan dövlətinin, onun ayrı-ayrı strukturlarının diaspor təşkilatları ilə konstruktiv əlaqələrinin yaradılması üçün yolların və üsulların tapılması;**
- **Azərbaycan diasporunun müvafiq ölkələrin həyatında iştirakının genişləndirilməsi, azərbaycanlıların milli identikikliyinin, etnik dəyərlərə sadiqliyinin qorunması, assimilyasiyadan mühafizə edilməsi üçün optimal idarəetmə üsulunun yaradılması;**
- **diasporumuzun dövlətimizin xarici siyasət strategiyasının həyata keçirilməsində yerinin və rolunun əsaslandırılması;**
- **diaspor nümayəndələrinin Azərbaycanın dövlət və hökumət komissiyalarının, qeyri-hökumət təşkilatlarının müxtəlif ölkələrdəki fəaliyyətinə cəlb edilməsi mexanizmi və formalarının toplanması;**
- **müxtəlif dövlətlərin (diasporun olduğu yer) diasporla qarşılıqlı əlaqələrinin tarixi təcrübəsinin öyrənilməsi və bundann diaspor siyasətində tətbiq edilməsi;**
- **dövlət-diaspor münasibətlərinin tədqiqi sahəsində son dövrlərdə Azərbaycanda aparılmış tədqiqatlarla yanaşı, göstərilən problemlərə dair daha geniş səpkidə digər elm sahələrinin mütəxəssisləri də cəlb edilməklə araşdırmaların aparılması.**

Xarici dövlətlərin diasporla qarşılıqlı əlaqələrinin əsas istiqamətlərinin təhlili bu sahədə son dövrlərdə bir sıra meyllərin olduğunu göstərir. Buraya birinci növbədə, diaspora münasibətdə repatriasiya modelindən imtina edilməsini göstərmək olar. Rusiya istisna olmaqla, əksər dövlətlər milli diasporun yaşadıqları ölkələrdə möhkəmlənməsinə, ondan öz milli maraqlarının həyata keçirilməsi amili kimi istifadə edilməməsinə üstünlük verirlər. Məhz diasporlar vasitəsilə dövlətlər onun üçün mühüm geosiyasi və geostrateji əhəmiyyət daşıyan ölkələrdə və regionlarda öz siyasi, iqtisadi, sosial, mədəni iştirakını təmin etməyə can atırlar. İsrail, Yunanıstan, Macarıstan, Çin, Yaponiya, Braziliya kimi dövlətlər öz diasporlarının potensialından beynəlxalq əlaqələrdə, xarici siyasətdə, dövlətlərarası münasibətlərin inkişafında və ondan körpü kimi istifadə edilməsində ciddi təcrübə qazanmışlar. Azərbaycan dövləti bu təcrübədən yararlanmaq üçün onu dərindən təhlil etməli, öyrənməli və aidiyyati üzrə tətbiq etməlidir. Diaspor işinin başlıca pirinsiplərindən biri də diaspor-dövlət münasibətlərinin legitimləşdirilməsidir ki, bu da ilk növbədə dövlətin xarici siyasətində diaspor fəaliyyətinin əsas

prinsiplərinin müəyyənləşdirilməsini tələb edir.

Qeyd edilən problemlərin həllinə nail olmaq üçün bu tövsiyələrin nəzərdən keçirilməsi qənaətindəyik:

1. **Azərbaycan diasporunun digər diasporlarla müqayisədə sosial, iqtisadi, siyasi imkanlarının kifayət qədər geniş olmadığını Azərbaycan dövləti müvafiq ölkələrlə münasibətlərində nəzərə almalıdır. Güclü bazası, insan potensialı və maliyyə əsasları olan diaspor təşkilatları yaradılmalıdır.**
2. **Azərbaycan diasporunun vahid ad altında birləşməsi, beynəlxalq təşkilatlara nüfuz etməsi və burada müşahidəçi statusa yiyələnməsi üçün işlər aparılmalıdır.**
3. **Azərbaycan diasporu monolit orduya çevrilməli, «diaspor şüuru»nun yaranması üçün sadədən mürəkkəbə doğru addım atılmalı və diaspor nümayəndələrinin ictimai mənşəyinə görə ayrı-seçkilik edilməməlidir.**
4. **Xarici ölkələrdə yaşayan azərbaycanlıların, diasporun nüfuzlu üzvləri Azərbaycan Respublikası Prezidentinin xaricə rəsmi və işgüzar səfərləri zamanı protokola, eləcə də dövlətlərarası və hökumətlərarası işçi qruplarına, komissiyalara salınmalıdır.**
5. **Səfirliklərdə diaspor fəallarından ibarət ictimai şuraların yaradılmalı və xaricə səfər edən dövlət rəsmilərinin onlarla görüşlər təşkil olunmalıdır.**
6. **Bu sahənin davamlı inkişafı ilə əlaqədar xüsusi dövlət strategiyaları, proqramları, konsepsiyaları işlənib hazırlanmalı və icra mexanizmi qurulmalıdır.**
7. **Diasporun intellektual, sosial, mədəni, siyasi, iqtisadi potensialını qiymətləndirmək üçün geniş tədqiqatlar aparılmalı və aidiyyəti üzrə sorğular keçirilməlidir. Bu tədqiqatların nəticəsi olaraq, «Azərbaycan diasporunun göstəricilər bankı» yaradılmalıdır.**
8. **Azərbaycanın milli qanunvericiliyində ikili vətəndaşlıq nəzərdə tutulmadığından, diasporun ölkəmizlə**



**əlaqələrinin genişləndirilməsi üçün müxtəlif yolların, vasitələrin axtarılıb tapılması və onlar üçün güzəştlərin tətbiq edilməsi məsələsi nəzərdən keçirilməlidir.**

9. **Azərbaycan diasporunun ölkəmizin siyasi həyatında iştirakını təmin etmək üçün normativ-hüquqi aktlar qəbul olunmalıdır.**
10. **Müxtəlif ölkələrdə mövcud olan diasporun potensialından milli problemlərin həllində istifadə etmək üçün kompleks tədbirlər planları hazırlanmalı, bu məqsədlə onlar müvafiq əyani vəsaitlərlə, (televiziya verilişləri, filmləri və s.) ədəbiyyatla geniş şəkildə təmin edilməlidir.**
11. **Dünyada etnik-siyasi, sosial-siyasi anlaşılmamazlıqların adi hal aldığı vaxtda xarici ölkələrin ali təhsil müəssələrində «Azərbaycan multikulturalizmi» kursunun tədrisi daha da genişləndirilməlidir.**
12. **Bakı şəhərində dünya azərbaycanlılarının həmrəyliyi mərkəzi və xatirə muzeyi açılmalıdır.**

Məlumdur ki, hər bir xalqın və dövlətin öz milli mövcudluğunu qoruyub saxlaması, inkişaf etdirməsi sistemli səciyyə daşıyan bir sıra fundamental ünsürlərlə bağlıdır. Burada etnik identiklik, spesifiklik, özünüdərk və özünüifadə məsələləri ön planda durur. Bu faktorlar hər bir millətin, xalqın birliyinin mövcudluğunu və həmrəyliyini təmin edən həyati vacib məsələdir. Sözügedən cizgilərin yaşadılması və gələcək nəslə ötürülməsi də diasporda təzahür edir. Hazırda diaspor milli atributa çevrilərək müasir reallıqlar kontekstində xalq diplomatiyasının əsas elementi kimi beynəlxalq münasibətlərin subyeki qismində özünü göstərir. Məhz elə diaspor amilinin üstünlüklərindən bir də milli bütövlüyü təmin edərək etnik kimliyi qoruyub saxlayan universal mexanizm qismində çıxış etməsidir.

Hazırkı qeyri-sabit beynəlxalq vəziyyətdə, siyasi-ideoloji proseslər, sosial-iqtisadi problemlər və etnik-dini qarşıdurmalar fonunda Azərbaycan Respublikasının xarici siyasətində diaspor potensialından geniş istifadə etdirilməsi və dövlətin milli ma-

raqlarına uyğun şəkildə yönəldilməsi olduqca mühüm xarakter daşıyır. İctimai həyatın müxtəlif sahələri üzrə xalqlararası və dövlətlərarası münasibətlər inkişaf etdikcə belə bir fikir formalaşdı ki, bəşəriyyətin inkişafı vahid tarixi prosesi ifadə edir. Müsbət mənada, bunun bir-birilə əlaqəli iki tərəfi vardır:

1. **birbaşa ölkənin inkişafı;**
2. **dolayısı dünyanın inkişafı.**

Göründüyü kimi, konkret zamanla məhdudlaşmayan, mütəmadi olaraq fəallıq tələb edən və qloballaşmanın vacib çağırışlarından biri hesab edilən diaspor hazırda diplomatiyanın əsas elementi kimi ikitərəfli və çoxtərəfli əməkdaşlıqda mühüm əhəmiyyət daşıyır. Məhz bu səbəblərdən diaspor birbaşa və dolayı olaraq xarici siyasətin lazımi atributu kimi diqqətdə saxlanılmalı və zamanın vacib tələblərindən biri kimi prioritet hesab edilməlidir.

Yer kürəsi fırlandıqca cəmiyyət bir yerdə dayanmır, daim tərəqqi edir. Bəşəriyyət inkişaf etdikcə ictimai həyatın müxtəlif sahələrində gedən proseslərin yeniləşməsi və dəyişməsi xarici siyasətə, ikitərəfli və çoxtərəfli münasibətlərə də öz təsirini göstərmişdi. Nəticədə, beynəlxalq əlaqələr sistemində yeni prinsiplərə söykənən yeni metodlar yaranmağa başlamışdı. Dünyada baş verən qlobal proseslərin sürətlənməyi sosial münasibətlərin yeni formatda inkişafı və genişlənməsinə səbəb olmuşdu. Təcrübə göstərir ki, qlobusdan ayrılan, sivilizasiyalararası dialoqda, mədəniyyətlərarası əməkdaşlıqda iştirak etməyən, bir sözlə, **«dünyəvi inkişafla ayaqlaşmayan»** dövlətlər tənəzzülə məhkum olurlar. Əksinə, **«qlobal tendensiyalarla ayaqlaşan»** dövlətlər tərəqqi edərək həm milli, həm də bəşəri inkişafa öz töhfəsini verirlər.



## AZƏRBAYCAN DİASPORU: YENİ ÇAĞIRIŞLAR VƏ YENİ İMKANLAR

Yeni dünya siyasətində və mövcud beynəlxalq münasibətlər sistemində diasporun olduqca əhəmiyyətli obyektə çevrilməsi Azərbaycanın ayrı-ayrı diaspor subyektlərinin fəaliyyətinin gücləndirilməsini zəruri edir. Diaspor artıq milli və bəşəri koloritləri özündə cəmləşdirən fenomen kimi dünya səviyyəsində söz sahibi hesab olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan diasporunun çoxşaxəli və xoşniyyətli fəaliyyəti ölkəmizin milli mənafeyinin geniş şəkildə qorunmasında vacib rol oynayır. Tədqiq edilən dövrdə olduğu kimi, bu sahədəki tədbirlərin müasir dövrün çağırışlarını və imkanlarını nəzərə alınaraq, sonrakı vaxtlarda da davam etdirilməsi təqdirəlayiqdir. Dünya azərbaycanlılarının Azərbaycan həqiqətlərinin yaşadıqları cəmiyyətdə təbliği sahəsində işlərin gücləndiyini görürük. Azərbaycan üçün əhəmiyyətli tədbirlərin, təqvimdəki xüsusi günlərin qeyd olunduğunun şahidi oluruq.

2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsindəki nitqi də bunu deməyə əsas verir. O, bu məsələyə belə münasibət bildirmişdir: «Azərbaycanın diaspor təşkilatlarının sayı artır, onların fəaliyyətinin keyfiyyəti yüksəlir. Dünyada vaxtaşırı keçirilən nümayişlər, etiraz piketləri, tədbirlər, konfranslar göstərir ki, biz doğrudan da güclü diaspor təşkilatları yarada bilmişik və səfirliklər də diaspor təşkilatları ilə sıx əlaqədə olmalıdırlar. Əksər hallarda bu, belədir, istərdim ki, hər bir yerdə belə olsun. Çünki bu, bizim gücümüzü daha da artırır, xaricdə yaşayan azərbaycanlıları öz Vətəninə daha da bağlayır. Bir tərəfdən, biz xaricdə yaşayan azərbaycanlılara daha da böyük dəstək göstəririk. Onlar da bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti vardır. Bizim üçün diaspor təşkilatlarının fəaliyyəti, xüsusilə Ermənistan-Azərbaycan məsələsi ilə bağlı çox önəmlidir. Bu istiqamət daim diqqət mərkəzində olmalıdır».

Yeni çağırışların nəzərə alınması və Azərbaycan diasporunun konseptual inkişaf konsepsiyası ilə əlaqədar N.Məmmədovun «Xarici siyasət: reallıqlar və gələcəyə baxış» kitabında bir çox maraqlı və strateji məqamlar dərindən təhlil edilmiş və dəyərli təkliflər irəli sürülmüşdür. Ən diqqət çəkən məqam isə diaspora yeni statusla – beynəlxalq himayədarlıqla bağlı verilən təklifdir. «Mən Ulu öndəri (Heydər Əliyev) xarici səfərlərdə müşayiət edən bir şəxs kimi deyə bilərəm ki, Ulu öndər diaspora məsələsinə son dərəcədə diqqətlə yanaşırdı. Diaspor məsələsi müasir dövrdə beynəlxalq himayə mexanizmlərinin yaradılmasında iki aspektdə prinsipal rol oynaya bilər.

**Birincisi,** diaspor Vətəndən kənarda xalqın mədəniyyətini təmsil edir. Azərbaycanlılar yaşadıqları ölkələrdə mədəni mühitə uyğunlaşmaqla yanaşı, öz milli-mənəvi dəyərlərini qorumalı və təbliğ etməlidirlər.

**İkincisi,** diaspora mövcud olduğu ölkədə cəmiyyətin yüksək təbəqələri ilə münasibətləri inkişaf etdirməli və rəsmi orqanlarda nümayəndələrlə təmsil olunmalıdır».

Təsadüfi deyil ki, müstəqillik dövründə Azərbaycan Respublikasının xarici siyasətinin milli maraqlarına uyğun şəkildə yürüdülməsi diasporumuzun da fəaliyyətinin genişlənməsi və güclənməsinə də rəvac verir. Şübhəsiz ki, bütün bunların təməlində Azərbaycanın qədim dövlətçilik ənənələrinin olması, tarixən formalaşmış diplomatik institutuların nəzəri detallarının öyrənilməsi və praktikada tətbiq edilməsi kimi mühüm faktorlar da dayanır. Müasir Azərbaycan Respublikasının varisi olduğu Qafqaz Albaniyası, Şirvanşahlar, Eldənizlər, Ağqoyunlular, Səfəvilər və Azərbaycan Xalq Cümhuriyyəti kimi tarixi dövlətlərin bir sıra Şərq və Qərb ölkələri ilə diplomatik münasibətlər qurması sadalananların reallığını əks etdirməkdə çox mühüm yer tutur.

2012-ci il 7 iyun tarixində İsrailin Təl-Əviv şəhərində «Azİz» – Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının II Qurultayı keçirilmişdir. Qurultayda Azərbaycan Respublikasının



dövlət və hökumət nümayəndələri, millət vəkilləri, İsrailin Baş nazirinin müavini, Xarici işlər naziri Aviqdor Liberman, Absorbsiya naziri Sofa Landver, Turizm naziri Stas Misejnikov, «Bizim evimiz – İsrail» partiyasının baş katibi Faina Kirşenbaum, Knessetin təhsil, mədəniyyət və idman komitəsinin sədri Aleks Miller, bu ölkənin Belarusdakı səfiri İosif Şaqal, israilli deputatlar Orit Zuareç, Nino Abesadze, Rusiya Yəhudi Konqresinin vitse-prezidenti German Zaxaryayevin rəhbərlik etdiyi nümayəndə heyəti və diaspor təşkilatları iştirak etmişdir. Ümumilikdə qurultayın işinə İsrailin 18 şəhərindən 159 nümayəndə qatılmışdır.

2012-ci il 5 iyul tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 10-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov toplantı iştirakçıların salamlayaraq Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Sərəncamı ilə yaradılmış Dövlət Komitəsinin ötən 10 il ərzində gördüyü işlər barədə məlumat vermişdir. O, ümummilli lider Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin diqqəti və qayğısı sayəsində Azərbaycan diasporunun inkişaf edərək milli maraqlarımızı əzmlə qoruyan bir qüvvəyə çevrildiyini bildirmişdir. Tədbir zamanı ötən on il ərzində Dövlət Komitəsi tərəfindən və onun dəstəyi ilə 63 kitabın, 13 sənədli filmin hazırlandığını qeyd edilmişdir. Tədbir çərçivəsində Azərbaycan diasporunun tarixi, məskunlaşma coğrafiyası, görkəmli şəxsiyyətləri barədə geniş məlumatı əks etdirən «Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu»nun təqdimatı olmuşdur. Mübaliğəsiz, diaspor fəaliyyətində belə əyani vəsaitlərin nəşr etdirilməsi olduqca zəruridir.

Yeri gəlmişkən, Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması təkcə diasporun koordinasiyasında deyil, eyni zamanda mədəni-kütləvi tədbirlərin keçirilməsində və ictimai təşkilatlarla əməkdaşlıq edərək Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında da xüsusi önəm daşıyır.

Azərbaycan Respublikasının Prezidenti 2012-ci il 6 iyul ta-

rixində Azərbaycanın diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdır. Sərəncamda qeyd edildiyi kimi, «Azərbaycan Respublikası öz dövlət müstəqilliyinin bərpasına nail olduqdan sonra xaricdəki soydaşlarımızın təşkilatlanması, Azərbaycan icmalarının fəaliyyətinin əlaqələndirilməsi və onların digər diaspor təşkilatları ilə əməkdaşlığının dərinləşdirilməsi sahəsində mühüm addımlar atılmışdır».

Əlalxüsus, ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə 2001-ci ildə Dünya Azərbaycanlılarının Bakı şəhərində keçirilən birinci qurultayı ölkəmizin və xaricdə yaşayan həmvətənlərimizin həyatında xüsusi ictimai-siyasi əhəmiyyətə malik hadisə olmaqla, diaspor təşkilatlarımızın təşəkkül tapmasına sanballı töhfə vermişdir. Diasporumuzun daha mütəşəkkil qüvvəyə çevrilməsində və yeni mərhələdə onun fəaliyyətinin başlıca istiqamətlərinin müəyyənləşdirilməsində dünya azərbaycanlılarının respublikamızın paytaxtında keçirilmiş ikinci və üçüncü qurultaylarının müstəsna rolu vardır. Bu gün ayrı-ayrı ölkələrdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xalqımızın zəngin mədəni irsinin, misilsiz tarixi nailiyyətlərinin təbliğinin genişləndirilməsi üçün çox sayda tədbirlər gerçəkləşdirilir. Azərbaycan dövlətinin milli inkişaf strategiyasının əsas prinsiplərini rəhbər tutmaqla hazırda respublikamızın hüdudlarından kənarda yaşayan soydaşlarımızın problemlərinin həllinə yönələn iri miqyaslı layihələr həyata keçirilməkdədir. Görülən bütün bu işlərin uğurla davam etdirilməsi və diaspor quruculuğunun müasir reallıqlara uyğun şəkildə aparılmasının təmin olunması məqsədi ilə, Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat fondundan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə 3,0 (üç) milyon manat ayrılmışdır.

2012-ci il mart ayının 12-də Bakıda, «Gülüstan» sarayında Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayı keçirilmişdir. Qurultayda hökumət və dövlət nümayəndələrindən, xaricdə yaşayan azərbaycanlı gənclər tərəfindən təsis edilmiş və respublikada fəaliyyət göstərən vətəndaş cəmiyyətinin təmsilçilərindən, dünyanın nüfuzlu ali məktəblərində təhsil alan fəal azərbaycanlı tələbələrdən, həmçinin Azərbaycan diaspor təşkilatlarının rəhbərlərindən ibarət 500-dən artıq nümayəndə və qonaq iştirak etmişdir. Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurul-tayına Azərbaycan Respublikası da daxil olmaqla, dünyanın 34 ölkəsindən 356 nümayəndə seçilmişdir. Qurultayda Azərbaycan Respublikasında fəaliyyət göstərən gənclər təşkilatlarından 130 nümayəndə, qonaq qismində isə 17 ölkədə fəaliyyət göstərən 28 Azərbaycan diaspor təşkilatlarının rəhbərləri iştirak etmişdirlər. Qurultay nümayəndələrinin 234 nəfərini xarici ölkələrdə yaşayan gənclər, 134 nəfərini isə Azərbaycan cəmiyyət və təşkilatlarının rəhbərləri təşkil etmişdir. Dünya Azərbaycanlı Gənclər Birliyinin Təsis Qurultayı iştirakçılarının 35 nəfəri elm xadimləri, təhsil və səhiyyə işçiləri, 113 nəfəri isə xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələr olmuşdur. Nümayəndələrdən 7 nəfəri Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarına layiq görülmüş gənclər idi. Xarici ölkələrdə azərbaycanlı gənclərin təşkilatlanmasına, diaspor quruculuğu işinə cəlb olunmasına daim dəstək verən bir sıra nüfuzlu ictimai xadimlər də qurultaya dəvət olunmuşdur. Qurultay nümayəndələrinin 129 nəfəri qadınlardan ibarət olmuşdur. Azərbaycan gəncliyinin tarixində mühüm əhəmiyyətə malik olan bu qurultayın gedişini yerli və xarici kütləvi informasiya vasitələrinin 56 nümayəndəsi işıqlandırmışdır. İclasda məruzələr ətrafında müzakirələr aparılmış, çıxışlar dinlənilmişdir. Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayının qətnaməsi qəbul olunmuşdur. Qurultayda Dünya Azərbaycanlı Gənclər Birliyinin beynəlxalq gənclər təşkilatlarına, Dünya Azərbaycanlı Gənclər Birliyinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə müraciəti də təqdim edilmişdir. (Müraciətdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat öz əksini tapmışdır. Müraciətdə həmçinin gənclər təşkilatları Cənubi Qafqaz regionunun

əmin-amanlığı, bu bölgədə yaşayan insanların təhlükəsizliyi, uşaqların gələcəyi naminə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün iş aparmağa çağırılır. Qurultayda təşkilatın Nizamnaməsi və Fəaliyyət Proqramı da təsdiqlənmiş, qəbul olunmuşdur. Dünya Azərbaycanlı Gənclər Birliyinin sədri və Mərkəzi Şurası, həmçinin, Birliyin Nəzarət Təftiş Komissiyası seçilmişdir.

2012-ci il avqustun 5-də Türkiyənin Bodrum şəhərində «Xarici ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyası: mövcud vəziyyət və perspektiv gözləntilər» mövzusunda forum keçirilmişdir. Forumda Azərbaycanın dövlət, hökumət və parlament nümayəndələri, Rusiya və Türkiyə rəsmiləri iştirak etmişlər. Forumun işində 26 ölkədən 172 diaspor təşkilatının 200 nəfər nümayəndəsi iştirak etmişdir ki, onların 157 nəfəri xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin rəhbərləridir. Forum çərçivəsindəki bölmələrdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Dünya azərbaycanlılarının III qurultayındakı nitqində Azərbaycan diasporunun qarşısında qoyduğu bir sıra vəzifələrə dair məsələlər müzakirə edilmişdir.

Forumda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Ə.Həsənov çıxış edərək dövlətimizin diaspor və lobbi quruculuğu sahəsində siyasətinin əsas aspektlərini, istiqamət və prioritetlərini təhlil etmiş, qarşıda duran vəzifələr haqqında fikirlərini söyləmişdir.

Bölmə müzakirələrində çıxış edən məruzəçilər azərbaycanlıların təşkilatlanması, hüquq və əsas azadlıqlarının qorunması sahəsində bir sıra uğurlu tədbirlərin həyata keçirildiyini və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xaricdə təhsil alan tələbələrin xüsusi fəallıq göstərdiyini diqqətə çatdırmışdır.

2013-cü il mayın 6-8-də Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə Cənubi Qafqaz Forumu təşkil etmişdir. Forumda İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Bey-



nəlxalq Mərkəzinin həmsədri olan Dr. İsmayıl Serageldin bildirib ki, «Biz alimlər olaraq həqiqəti gələcək nəsillərə və cəmiyyətə təhrif olunmadan çatdırmalıyıq. İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana olan torpaq iddiaları ilə başlayıb. Dağlıq Qarabağ və ona aid olan yeddi rayon – ümumilikdə Azərbaycanın 20 faiz ərazisi erməni silahlı qüvvələrinin nəzarəti altındadır». Bunun özü olduqca vacib nüansdır. Onun fikrincə, elm həmişə ideologiyaya qalib gələcəkdir, alimlər həqiqətləri müəyyənləşdirərək cəmiyyətə çatdırmaqla şərq və qərb arasında bir körpü yaratmış olur.

Xatırladaq ki, Azərbaycan elm və mədəniyyətinin görkəmli nümayəndəsi, dahi şair, mütəfəkkir Nizami Gəncəvinin irsinin araşdırılması və onun dünyada təbliğ olunması məqsədi ilə fəaliyyət göstərən beynəlxalq, qeyri-kommersiya və qeyri-siyasi beynəlxalq təşkilat olan «Nizami Gəncəvi Beynəlxalq Mərkəzi» müxtəlif hökumətlər, hökumətlərarası təşkilatlar və ictimai təşkilatlarla fərqli mövzularda sıx əməkdaşlıq etməkdədir. Məhz Diasporla İş üzrə Dövlət Komitəsinin bu mərkəzin fəaliyyətinə dəstək verməsi milli mənafeyimiz baxımından təqdirəlayiqdir.

Son illər diasporumuzun fəaliyyəti sosial-mədəni sferadan çıxaraq ictimai-siyasi fəaliyyət müstəvisinə keçmiş, bu da lobbiçiliyin təkamülü və inkişafına əsas yaratmışdır. Beynəlxalq əlaqələrimizin genişlənməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın möhkəmlənməsi, Azərbaycanın xaricdəki rəsmi və qeyri-rəsmi nümayəndiklərinin açılması diasporun şaxələnməsinə təkan verir. Bununla əlaqədar bir neçə faktı sadalamaq kifayət edər. Amerika-Azərbaycan Ticarət Palatası birbaşa olmasa da dolayısı ilə diasporumuzu təmsil edir və lobbiçilik fəaliyyəti gerçəkləşdirir. Yaxud da, Fransadakı «Azərbaycan Evi» Azərbaycanla bağlı Fransa ictimaiyyətində doğru-düzgün təsəvvür yaratmaqla yanaşı, xalqlar və dövlətlər arasında münasibətlərə yeni düzən verən milli ünvanımızdır.

Eyni zamanda, Azərbaycan Respublikasının 2011-ci ildə dünyada geniş auditoriyaya malik nüfuzlu Avroviziya Mahnı Müsabiqəsində qələbəsi, 2013-cü ildə 155 dövlətin səsin

qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2014-cü ildə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Davos İqtisadi Forumuna, Birinci Cənubi Qafqaz Forumuna ev sahibliyi etməsi, habelə 2015-ci ildə ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi həm dövlətimizin, həm də daimi və müvəqqəti milli diasporumuzun və lobbimizin uğuru hesab etmək olar. Bu tədbirlərin davamlı olaraq, yəni, 2016-cı ildə «Çoxqütblü dünyaya doğru» IV Qlobal Bakı Forumunun, Formula 1 «Avropa Qran Prisi»nin, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə təşkil edilməsi dünya azərbaycanlılarında ruh yüksəkliyinə səbəb olan amillərdir. Sadalananlar və sadalanmayanlar hər azərbaycanlıya vətəndaş mövqeyinin gücləndirməsinə stimul verməli, onda diaspor şüuru formalaşdırmalı və vətəndaşlıq missiyasını şərəflə daşımalıdır. Unutmayaq ki, Vətən inkişaf etdikcə onun vətəndaşları da inkişaf edir. Vətənlə birgə inkişaf edən isə əsl vətəndaşa çevrilir. Öz ölkəsinə layiq olan şəxs bəşəriyyətə daha çox yararlı olur.

Tarixin sınaqlarından çıxmış, artıq mahiyyətcə və keyfiyyətcə yeni dövrünü yaşayan Azərbaycan diasporu özünün mütəşəkkilliyinə və möhkəmlənməsinə qədəm qoymuşdur. Diasporun qüdrətini müəyyən etmək üçün müxtəlif ərazilərdə yaşayan və müvafiq qurumlarda təmsil olunan, birləşən həmvətənlərimizin ümumi məqsədlər və milli mənafe əsasında vəhdətinin olması bu sahədə əsas şərtlərdəndir. Əvvəlki qurultaylarda gəlinən qərara əsasən, beş ildən bir keçirilməsi nəzərdə tutulan Dünya azərbaycanlılarının IV qurultayı da cari ilin (2016) iyun ayının 3-4-də ənənəvi olaraq Bakı şəhərində reallaşdı. İki gün davam edən Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir. Onların içərisində xarici ölkələrin Azərbaycana dost münasibətilə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksək vəzifəli şəxsləri, parlament üzvləri də var idi. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, qurultayın işinə Azərbaycanın müxtəlif dövlət və



hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, *təhsil, mədəniyyət və digər* yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti də qatılmışdır. Qurultayda diaspor rəhbərləri müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparılmış, rəy və təkliflərini səsləndirmişdir. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olunmuşdur.

Qurultay qabağı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi üçün 3 (üç) milyon manat ayrılmış, Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə bir qrup şəxslər təltiflər edilmiş və fəxri adlar verilmişdir.

Azərbaycan diasporu üçün olduqca əhəmiyyətli olan bu qurultay yeni çağırışlar fonunda diasporun yeni mərhələdə təşəkkülünə geniş imkanlar açacağına əminlik yaradır. Azərbaycan Respublikası Prezidentinin qurultaydakı çıxışı da bunu deməyə və onun xaricdəki diaspor təşkilatımızın 462-yə, müxtəlif ölkələrdəki fəaliyyət göstərən həftəsonu məktəblərinin 160-a çatması ruh yüksəkliyi ilə danışmağa əsas verir. «...Azərbaycanda 15 il ərzində diaspor təşkilatları ilə qurulan iş, əlaqələr tam yeni bir vəziyyətə gətirib çıxardı. Bu gün biz dünyanın müxtəlif yerlərində istənilən tədbiri keçirə, dünya ictimaiyyətini Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış edə bilərik və bunu edirik. Əlbəttə, əminəm ki, qurultayda səslənəcək *fikirlər, aparılacaq müzakirələr bizim imkanlarımızı daha da*

genişləndirəcək»[1].

Diaspor milli varlığın və bəşəri vəhdətin nümunəsidir. Vətənə qarşılıqsız xidmətdir. Xalqın bütövlüyün özündə əks etdirən, dövlətin gücünü göstərən fenomendir. Diaspor müasir dünyanın çağırışı, hər bir xalqın potensialıdır. Dövlətin xarici siyasətində mühüm atributudur. Dövlətin maraqlarını məharətlə müdafiə etmək üçün xarici siyasətin qarşısında duran vəzifələrinin düzgün müəyyənləşdirilməsində mühüm vasitədir. Eyni zamanda, məqsədə çatmaq üçün səmərəli və müasir diplomatik mexanizmlər sırasında qərarlaşan diaspor fəaliyyətindən yararlanmaq gərəkdir. Bu faktor yeni dünya nizamında xarici siyasət kursunda prioritet və beynəlxalq proseslərdə istiqamətverici rol oynayır. Müstəqil dövlətin milli strategiyası dünyanın müxtəlif yerlərində yaşayan vətəndaşlarının mühafizəsini, diaspor sahəsini əhatə etməsə, onun hərtərəfli inkişafına və beynəlxalq münasibətlərinə təsirsiz ötüşməyəcəkdir. Yuxarıda qeyd edilənlər, məhz bu məntiqdə – **«Dövlətin qüdrəti onun bütövlükdə soydaşlarının tarixi vətən naminə həmrəy olmaları ilə ölçülür»** təcəlla edir.

Azərbaycan tarixi kimi diasporunun da təşəkkülünün qədim kökləri vardır. Planetin beş qitəsində məskunlaşan azərbaycanlılar vahid bədənin müxtəlif əzalarını təşkil edir. Bu bədənin sağlam olması üçün bütün əzalar qorunmalıdır.

Tarixən Azərbaycan insanı özünün yüksək potensialı ilə seçilib. Azərbaycanlılar çox xoşbəxt və bəxtəvərdirlər ki, bu xalq öz tarixi şəxsiyyətləri, ictimai-siyasi xadimlərinin adı-sanı ilə dünyada özünəməxsus yerə malikdir. Onların nümunə götürəcək idealları var. Onları özlərinə örnək kimi qəbul edirlər. Hər bir soydaşımız faydalı iş əmsalını, sosial-ictimai yararlılığı, mübarizliyi və müdrikliyi Atropat, Cavanşir, Şəmsəddin Eldəniz, Qara Yusif, Uzun Həsən, Sara Xatun, Şah İsmayıl, Nadir şah Əfşar, Hacı Zeynalabdin Tağıyev, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov və müasir Azərbaycanın qurucusu Heydər Əliyev fəlsəfəsindən öyrənir. Xaricdə yaşayan

[1] http://president.az/articles/20192



azərbaycanlılar bu nəsillərin davamçısı olmaqla öz savadı, dünyagörüşü və müsbət keyfiyyətləri ilə seçilməlidir. Onlar yaşadıqları cəmiyyətə inteqrasiya etməklə, xalqımıza xas xüsusiyyətlərin, tarixi-mədəni irsimizin yaşadılmasında, milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasında və gələcək nəslə ötürülməsində körpü rolunu oynamalıdır. İstər ölkəmizdə, istərsə də onun sərhədlərinin hüdudlarında yaşayan – milli heysiyyəti olan Azərbaycan insanı üçün vətənini sevmək, layiqincə təbliğ və təmsil etmək əsl vətəndaşlıq borcudur.

Zəngin tariximiz, milli xüsusiyyətlərimiz bizi ikiqat məsuliyyətli olmağa sövq edir. Hər birimiz böyük mütəfəkkirlərə məxsus bir xalqın nümayəndəsi olduğumuzu dərk etməli və Balasaqunlu, Miyanəçi, Təbrizi, Tusi, Urməvi, Həmədani, Nizami, Nəsimi, Xurşidbanu Natəvan, Heyran xanım, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə və başqalarından ilham almalıyıq. Ölkəmiz zəngin və müzəffər keçmişə sahib olmaqla yanaşı, keşməkeşli tarixə, əlverişli coğrafi vəziyyəti ilə yanaşı, həssas məkana, çoxtərkibli mədəniyyətlə yanaşı, mürəkkəb sivilizasiyaların qovuşduğu bir əraziyə malikdir. Bu da bizləri güvənc və fəxarət hissini gücləndirməklə daha da hazırlıqlı, inamlı və iradəli olmağa vadar edir.

Azərbaycan insanı milli düşüncəyə hakim olmalı, müstəqilliyimizin keşiyində durmalıdır. Hər birimizin, ictimai mənşəyimizdən, sosial vəziyyətimizdən, peşəmizdən asılı olmayaraq ən böyük məqsəd və vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyinə xidmət etmək olmalıdır. Bu yolda həmrəy olmalıyıq. Gəlin, Vətənimiz Azərbaycan uğruna bir olaq. Həmrəyliyimiz gələcəyimizin təminatıdır. Diaspor olaraq, «**3Y**» prinsipinə əməl edək: **yayılaq, yurdlaşaq və yüksələk!**

Göründüyü kimi, diaspor milli və bəşəri nöqteyi-nəzərdən olduqca aktual, vacib və lazımlı məsələyə çevrilibdir. Bu səbəbdən mövcud problemlər, qazanılan nailiyyətlər və gələcək perspektivlər «Azərbaycan diaspor institutu»nun formalaşmasına zəmin yaradır. Məhz dövlət müstəqilliyimizin bərpasının 25 illiyinin qeyd olmasını nəzərə alsaq, bu sahənin fəaliyyəti

təkmilləşdirilərək gələcəkdə mütəşəkkil və mütərəqqi şəkildə həyata keçiriləcəyinə əminlik hissi yaradır. Beləliklə, bu bizə ulu tarixin verdiyi dərslə yanaşı, müdrik əcdadlarımızdan miras qalan mənəvi haqqımızdır.



## BİBLİOQRAFİYA

### *Azərbaycan dilində:*


1. Abdullayev Ə. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı: Elm, 1994, 125 s.
2. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüz tarixindən bəzi məqamlar. Bakı: «İqtisad Universiteti», 2011, 449 s.
3. Amerikada yəhudi diasporu və təşkilatları //
4. Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporu // Azərbaycan Diasporu: tarix və nəzəriyyə. I buraxılış, Bakı: 2005, 92 s.
5. Arzumanlı V. Azərbaycan Diasporu: reallıq, qayğılar, problemlər. Bakı: Qartal, 2001, 800 s.
6. Avropa Azərbaycanlıları Konqresinin fəaliyyət proqramı (2007-2009-cu illər). Bakı: «Yurd» NPB, 2007, 12 s.
7. Azərbaycan beynəlxalq aləmdə //
8. Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu. Bakı: «Səs» MMC, 2012, 654 s.
9. Azərbaycan diasporu: böyük yolun başlanğıcı /tərtib edən N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, 208 s.
10. Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış. /red. Y.Mahmudov, elmi red. M.Seyidbəyli./ Bakı: «Aspoliqraf LTD» MMC, 2005, 89 s.
11. Azərbaycan diasporuna dövlət qayğısı. Heydər Əliyevin çıxışları. Bakı: Çaşıoğlu, 2003, 301 s.
12. Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ. /tərtibçi N.Qurbanov və b./ Bakı: Çaşıoğlu, 2006, 171 s.
13. Azərbaycan diasporuna dövlət qayğısı. İkinci nəşr. Bakı: Çaşıoğlu, 2006, 301 s.
14. Azərbaycan diasporuna dövlət qayğısı. /burax. məsul, ön söz N.İbrahimov; tərtibçilər: N.Qurbanov, E.Miraləm./ Bakı: Adiloğlu, 2009, 284 s.
15. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitə-

sinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər).
16. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi 2011-ci ilin birinci yarımilində Təbliğat, informasiya və analitik təhlil şöbəsinə daxil olmuş məktubların siyahısı. Bakı: 2011, yanvar-dekabr.
17. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi. f. 1, siy, 63, iş 86, pr, №20, &5, м. 13-18;
18. Azərbaycan Respublikası Dövlət Arxivi, f.2693, siy.1, sax.vah. 132, v.49.
19. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası // Azərbaycan qəzeti, 2007, 24 may, №112.
20. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin ölkənin sərhəd buraxılış məntəqələrində keçirdiyi «Miqrasiya proseslərinin öyrənilməsinə dair» seçmə statistik müayinə. 2010, mart.
21. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi //
22. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə. Bakı: 2009, 14 may.
23. «Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (13 iyul 2004-cü il, №94) // Azərbaycan Respublikası Qanunvericilik Toplusu. 2004, №7.
24. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər). // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2006, №7.
25. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
26. Azərbaycan Sovet Ensiklopediyası. IV cild. Bakı: ASE, 1980, 592 s.
27. Azərbaycan Sovet Ensiklopediyası. VI cild. Bakı: ASE, 1982, 608 s.



28. Azərbaycan diasporu dünyanın bir sıra ölkələrinin siyasi həyatına təsir edəcək qüvvəyə çevrilmişdir / R. Bayramov // Azərbaycan qəzeti, 2011, 10 iyul, №148.
29. Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası. Bakı: Adiloğlu, 2009, 42 s.
30. Babanlı Y. Heydər Əliyev və Azərbaycan diasporu // İki sahil qəzeti, 2009, 13 iyun, №109.
31. Babanlı Y. Müasir tarixdə lobbi amili // Palitra qəzeti, 2009, 22 dekabr, №139.
32. Babanlı Y. İlham Əliyev və Azərbaycan diasporu // Respublika qəzeti, 2009, 30 dekabr, №291.
33. Babanlı Y. Xalqların köçü və ya miqrasiya // H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin Elmi Əsərlər Məcmuəsi, 2010, №2 (15), s. 14-21.
34. Babanlı Y. Dövlətlərarası münasibətlərin inkişafında diaspor amili // H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin Elmi Əsərlər Məcmuəsi, 2011, №1(16), s. 16-19.
35. Bayramlı N. Azərbaycan dünya azərbaycanlılarının vətənidir // Yeni Azərbaycan qəzeti, 2011, 19 fevral, №37.
36. Berls-oğul R. ABŞ erməni lobbisi Ermənistanın uzunmüddətli maraqlarına xidmət edirmi? // Dirçəliş XXI əsr, 1999, №18, s. 69-73.
37. Cəfərov F. Azərbaycan diasporu aktual problem və nəhəng qüvvə kimi // Dirçəliş XXI əsr, 1999, №8-9. s. 10-22.
38. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: Bakı Universiteti, 2001, 120 s.
39. Daşsalahlı R. Azərbaycan-Litva münasibətləri yüksələn xətlə inkişaf edir // Yeni Azərbaycan qəzeti, 2011, 11 fevral, №26.
40. Daşsalahlı R. Azərbaycan-Rumıniya arasında strateji tərəfdaşlığın möhkəm təməli qurulub // Yeni Azərbaycan qəzeti, 2011, 19 fevral, №32.
41. Diaspor və lobbiçilik / Z. Əliyev // Euro Xəbər qəzeti, 2008, 16 sentyabr, 30 sentyabr, №17.
42. Diaspor, milli şüur və millətçilik //

43. Dünya Azərbaycanlıları Konqresinin Əsasnaməsi //
44. Dünya azərbaycanlıları: məlumat kitabı. /tərt. M.N.Bağıyeva; red. Q.M.Əliyev; elmi red. Ə.M.Həsənov./ I cild. Bakı: Azərbaycan nəşriyyatı, 2006, 424 s.
45. Dünya Azərbaycanlıları: tarix və müasirlik // Elmi-nəzəri toplu. I buraxılış, Y.Mahmudovun red. altında./ Bakı: BDU, 2003, 155 s.
46. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Bakı: 2009, avqust.
47. Dünya Azərbaycanlılarının I Qurultayı: Bakı şəhəri, 9-10 noyabr 2001-ci il / bur. məsul R.Ə.Mehdiyev; tərt. Ə.M.Həsənov./ Bakı: Azərbaycan nəşriyyatı, 2002, 351 s.
48. Dünya Azərbaycanlılarının II Qurultayı. /tərtib edən: N.Qurbanov və b. Bakı: Çaşıoğlu, 2006, 191 s.
49. Əhmədov E. Dağlıq Qarabağ münaqişəsinin nizama salın ması Azərbaycanın xarici siyasətində prioritet istiqamətdir // Xalq qəzeti, 2009, 3 dekabr, №268.
50. Əlisoy N. Yəhudi xalqı və yəhudi lobbisi // «Qanun» jurnalı, 1998, №5.
51. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 1993-2003-cü illər.
52. Əliyev H. Azərbaycançılıq - birliyimizin əsasıdır. 2001-ci il noyabrın 9-10-da keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayında və «Gülüstan» sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı: Azərbaycan nəşriyyatı, 2002, 34 s.
53. Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 2003-2011-ci illər.
54. Əliyev İ. Dünya Azərbaycanlılarının II qurultayında nitq // Azərbaycan qəzeti, 2006, 17 mart, №58.
55. Əliyev İ. Dünya Azərbaycanlılarının III qurultayında nitq // Azərbaycan qəzeti, 2011, 6 iyul, №144.
56. Əliyeva İ. Məsləkinə sadiq böyük mücahid // Azərbaycan



qəzeti, 2015, 22 iyul, №154.
57. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, 150 s.
58. Əliyev Z. Almaniyada Azərbaycan diasporu. AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. «Sosial-siyasi problemlər» jurnalı, XIII Buraxılış. Bakı: «Qismət» mətbəəsi, 2005, s. 162-171.
59. Əliyev Z. Dünya diasporları: nəzəriyyə və təcrübə. Bakı: Qismət, 2005, 349 s.
60. Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: «Yurd» NPB, 2007, 376 s.
61. Əliyev Z. Türkdilli xalqların diasporları. Bakı: Adiloğlu, 2009, 296 s.
62. Əmrahov M. İkinci dünya müharibəsi: 1939-1945. Bakı: Mütərcim, 2010, 525 s.
63. Əsgər R. ABŞ-da lobbi hərəkatı // Odlar Yurdu, 1991, mart, №6.
64. Hacıyev R. Azərbaycanın geo-politik təhlükəsizliyi Rusiyanın Qafqaz maraqları kontekstində // Qanun, 1999, №4 (60).
65. Herodot. Tarix. Bakı: Azərnəşr, 1998, 329 s.
66. Heyerdal T. Azərbaycan qafqazlıların yayılma mərkəzidir // Yeni fikir qəzeti, 1981, 8 avqust, 5 sentyabr.
67. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 358 s.
68. Həbiboğlu V. Azərbaycan diasporu yeni mərhələdə. Bakı: Elm, 2006, 260 s.
69. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.
70. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: «Letterpress» Nəşriyyat Evi, 2011, 440 s.
71. Həşimova A. XX əsrin I yarısında Azərbaycan mühacirəti. Bakı: Birlik, 1992, 169 s.
72. Xaricdə yaşayan azərbaycanlılar üçün yaddaş. Məlumat ki-

tabı, Bakı: Adiloğlu, 2009, 440 s.
73. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 dekabr 2002-ci il, №413-IIQ.
74. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi sahəsində görülmüş işlər haqqında məlumat. XÖYAİDK. Bakı: «Yurd» NPB, 2006, 62 s.
75. Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu, 2009, 58 s.
76. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm və təhsil, 2012, 371 s.
77. İkinci dünya müharibəsində azərbaycanlıların iştirakı və Azərbaycan diasporunun fəaliyyəti //
78. Kəbutər. Rusiya ilə Azərbaycan arasında humanitar sahədə mövcud olan əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoyub // Yeni Azərbaycan qəzeti, 2011, 9 fevral, №24.
79. Kərimli E. Azərbaycan diasporu: nəzəriyyə və praktika. Bakı: Şuşa, 2001, 239 s.
80. Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: BDU, 2006, 608 s.
81. Qasımov C., Nağıyev N. İzahlı Siyasi Terminlər Lüğəti. Bakı: 2007, 224 s.
82. Qazıyev Y. Erməni Məsələsi yalanlar və gerçəklər. Bakı: «Nurlar» NPM, 2009, 344 s.
83. Quliyeva G.S. Birinci Pyotrun dövründə erməni xadimlərinin Azərbaycan ərazisində dövlət yaratmaq cəhdləri (Q.A.Ezovun «Böyük Pyotrun erməni xalqı ilə münasibətləri» əsəri üzrə). Bakı: Təhsil, 2009.
84. Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: Təhsil, 2011, 548 s.
85. Mayevski M.C. Erməni lobbisi ingilis barmağında // Azərbaycan, 1990, №1.
86. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2000, 286 s.



87. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı, 2006, 622 s.
88. Mehdiyev R. Gorus-2010: Absurd teatrı mövsümü. Bakı: Şərq-Qərb, 2010, 96 s.
89. Məhərrəmov A. Uydurma erməni iddialarını ifşa edən fundamental elmi araşdırma // Azərbaycan qəzeti, 2010, 1 dekabr, №263.
90. Məmmədli H. Azərbaycan-Ukrayna əlaqələri yüksək səviyyədədir // Yeni Azərbaycan qəzeti, 2011, 2 fevral, №19.
91. Məmmədov R. Azərbaycan diasporu və milli mətbuat. Bakı: Qartal, 2004, 168 s.
92. Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli // Xalq qəzeti, 2010, 9 may, №100.
93. Məmmədov N. Geosiyasətə giriş. I cild: Geosiyasətin nəzəri əsasları. Bakı: Azərbaycan nəşriyyatı, 2011, 576 s.
94. Məmmədov N. Geosiyasətə giriş. II cild: Müasir geosiyasi proseslər. Bakı: Azərbaycan nəşriyyatı, 2011, 416 s.
95. Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun nəşriyyatı, 2013, 264 s.
96. Müasir miqrasiya proseslərinin xüsusiyyətləri, etnik status fenomeninin formalaşması // Aspirant və axtarış, 2004, №3.
97. Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri. Bakı: 1998, 136 s.
98. Paşayev H. Bir səfirin manifesti. Bakı: Şərq-Qərb, 2007, 248 s.
99. Paşayeva Q. Azərbaycan dövlətinin xarici siyasətində diaspora problemi. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2009.
100. Politologiya: izahlı lüğət. (baş red. və ön söz. R.Mehdiyev; Bakı: Şərq-Qərb, 2007, 352 s.
101. Rəhmanzadə F. Yol: (tarixi-publisistik qeydlər). I kitab, Bakı: 1994, 592 s.

102. Rizvan N. Azərbaycan diasporası tarixindən: I cild. Bakı: «Borçalı» NPM, 2002, 208 s.
103. Rusiyada Azərbaycan diasporu / Z. Əliyev // Euro Xəbər qəzeti, 2008, 15 iyul, 30 iyul, №13.
104. Robert Livinqston: «907-ci düzəlişi ləğv etmək mümkündür»: «907-ci düzəlişin ləğvi təkcə Azərbaycanın deyil, ABŞ-ın da milli maraqlarına cavab verir»: ABŞ Nümayəndələr Palatasının sabiq spikeri Robert Livinqstonun APA-nın ABŞ bürosuna müsahibəsi // 525-ci qəzet, 2009, 20 may, №89.
105. Sadıqov F. Xarici lobbizm və dövlətlərin maraqları //Məşvərət, 2000, №27.
106. Saleh bəy Qarabağlı. Dünyanın taleyi. Bakı: Elm, 1998, 688 s.
107. Sərdarov M. Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsində miqrasiya proseslərinin tənzimlənməsinin rolu // Dirçəliş XXI əsr, 2004, №76-77.
108. Siyasi tarix: Mühazirə kursu /Müəlliflər kollektivinin rəhbəri və elmi red. S. Qəndilov; Bakı: ADPU, 1993, 481 s.
109. Şahinoğlu A. Azərbaycan Fransa ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir // Yeni Azərbaycan qəzeti, 2011, 16 fevral, №29.
110. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: Qismət, 2002, 310 s.
111. Şüküroğlu L. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I cild. Bakı: Şirvannəşr, 2000, 296 s.
112. Tahirli A. Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri. Bakı: «Tural-Ə» NPM, 2001, 344 s.
113. Talıblı M., Fərzəliyev A. Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni təşkilatları. Bakı: 2001, 71 s.
114. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya: Ali məktəblər üçün dərslik. Bakı: «Təknur» nəşriyyatı, 2008, 334 s.
115. Yaqublu N. Azərbaycan legionerləri. Bakı: Çıraq, 2005, 332 s.
116. Yaqublu N. Azərbaycan mühacirəti. Bakı: Elm və təhsil, 2011, 232 s.
117. 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı. Naxçıvan şəhəri, 16 dekabr 1991-ci il.

***Türk dilində:***

118. Attar (Haşimzade) A. İran'ın etnik yapısı: yakındönem ve günümüzde. Ankara: Divan Yayıncılık, 2006, 388 s.
119. Dindar A. Japonya Türk-Tatar Diasporası // Modern Türklük Araştırmaları Dergisi, kasım, 2004, s. 75-89.
120. Şenol K. Ermeni Lobisi: ABD'de Ermeni Diasporası'nın Oluşması ve Lobi Faaliyetleri. Ermeni Araştırmaları Dergisi, mayıs, 2001, s. 139-169.
121. Tayyar A. Amerika'da Siyasal Yapı, Lobiler ve Dış Politika. İstanbul: Alfa Yay, 2009, 327 s.

***Rus dilində:***

122. Абдулатипов Р. Государственное регулирование национальной политики. Москва: Мысль, 2001, 205 с.
123. Азербайджанская эмиграция у истоков становления диаспоры //
124. Арутюнов С. Диаспора - это процесс // Этнографическое обозрение. Москва: 2000, №2, с. 74-78.
125. Арутюнов С.А., Козлов С.Я. Диаспоры: скрытая угроза или дополнительный ресурс // Независимая газета, 2005, 23 ноябр.
126. Асадов С. Миф о Великой Армении. Баку: Азербайджан, 1994, 280 с.
127. Аствацатурова М. Диаспоры в концептах государственной и региональной национальной политики. Москва: 2002. 231 с.
128. Бабанлы Я. Влияние восстановления государственной независимости Азербайджанской Республики на формирование и развитие диаспор // «Gileya» (scientific bulletin). Kiyev: 2013, №42, с. 124-126.

129. Быковская Ю. Политика Государства Израиль в Центральной Азии: освоение новых рынков // Востоковедный сборник. Выпуск 5, 2003.
130. Величко В. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 224 с.
131. Вишневский А. Распад СССР: этнические миграции и проблема диаспор // Общественные науки и современность. 2000, №3. с. 115-130.
132. Гумилев Л. Древние тюрки. Москва: Наука, 1967, 560 с.
133. Геевский И.О. Черновная С.А. Национальный вопрос в общественно-политической жизни США. Москва: Наука, 1985, 273 с.
134. Глушенко Г. Транснационализм мигрантов и перспективы глобального развития // Мировая экономика и международные отношения. 2005, т. 12, с. 50-57.
135. Государство Израиль. Становление и развитие: /пер. с иврит./ отв. ред. Ицхак Орен; сост. Н.Прат, А.Финкельберг/. Иерусалим: Библиотека-Алия, 1991.
136. Градировский С., Тупицин А. Диаспоры в меняющемся мире // Независимая газета, 1998, 8 июль.
137. Демографический ежегодник СССР, 1990 год. Москва: Финансы и статистика, 1990, 513 с.
138. Дробязко С.И. Вторая Мировая война 1939-1945. Восточные легионы и казачьи части в Вермахте. Москва: АСТ, 1999, 218 с.
139. Дятлов В. Диаспора: попытка определиться в понятиях // «Диаспоры», 1999, №1, с. 8-23.
140. Дятлов В. Диаспора: экспансия термина в общественную практику современной России // «Диаспоры». 2004, №3, с. 126-138.
141. Жорж де Малевил. Армянская трагедия. 1915 года. Баку: Элм, 1990, 128 с.
142. Кандель Ф. Земля под ногами: Из истории заселения и освоения Эрец Исраэль с начала девятнадцатого века





до конца Первой мировой войны. Иерусалим: Тарбут, 1999, 321 с.
143. Кац Ш. Земля раздора: Действительность и фантазии в Эрец-Исраэль. Тель-Авив: Карни, 1992, 326 с.
144. Кокшаров А. Европа на игле иммиграции // Эксперт, 2002, 7 октября. 37 (343)
145. Константинов А., Андреев Ю. Евреи в США глазами американцев. Москва: Изд-во агентства печати «Новости», 1985, 76 с.
146. Конфликт в Нагорном Карабахе. Баку: Азернешр, 1990, 269 с.
147. Крылов А. Армянская диаспора - важный фактор мировой политики // Новая Политика (интернет-журнал). Москва: 2004, 30 августа //
148. Левин З. Менталитет диаспоры (системный и социокультурный анализ): Москва: 2001, 170 с.
149. Лебедева Н. Новая русская диаспора: социально-психологический анализ. Москва: Наука, 1995, 172 с.
150. Международный опыт защиты соотечественников за рубежом. Мировая и отечественная практика. Москва: Классике стиль, 2003, 125 с.
151. Моджорян Л. Международный сионизм на службе империалистической реакции: Правовой аспект. Москва: «Международные отношения» 1984, 176 с.
152. Милитарев А. О содержании термина «диаспора» (к разработке дефиниции) // «Диаспоры», 1999, №1, с. 24-33.
153. Национальной состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г., Москва: Республиканский информационно-издательский центр, 1990, 747 с.
154. Национальный состав населения. /Национальный состав населения и владения языками гражданство/. Книга 1. Том. IV. Итоги Всероссийской переписи населения 2002 года в XIV томах. Москва: ИИЦ Статистика России, 2004, 348 с.

155. Назаров Б. Азербайджанская диаспора важный фактор международной политики //
156. Новиков А. Отношения Израиля со странами бывшего СССР. /Институт Ближнего Востока. Москва: 2005.
157. Новрузова Г. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг). Автореферат диссертации на соискание ученой степени доктора философии по истории. Баку: 2010, 28 с.
158. Платонов Ю. Этнический фактор. Геополитика и психология. Санкт-Петербург: Речь, 2002, 519 с.
159. Полоскова Т. Диаспоры в системе международных связей. Москва: 1998, 199 с.
160. Полоскова Т. Современные диаспоры. Внутриполитические и международные аспекты. Москва: 1999, 252 с.
161. Полоскова Т. Диаспора: фактор конфликта или сближения? // Дружба Народов, №3, 2000, с. 152-169.
162. Попков В. Феномен этнических диаспор. РАН. Институт социологии. Москва: 2003, 340 с.
163. Прудин И. Сионистское лобби в США. Беларус. Москва: 1984, 63 с.
164. Рыжо И. Внешняя политика Государства Израиль: основные направления и приоритеты (1948-2000 гг.). Нижний Новгород: ИСИННГУ: Векто Тис, 2008, 175 с.
165. Саядов С. Азербайджан: международные связи и взаимопонимание. Баку: 1991, 221 с.
166. Саноян Д., Эпштейн А. Новые «постсионистские» диаспоры: израильтяне в зарубежных странах // «Диаспоры», 2006, №1, с. 200-203.
167. Сафран У. Сравнительный анализ диаспор. Размышления о книге Робина Коэна «Мировые диаспоры» // «Диаспоры», 2004, №4, с. 138-162.
168. Сеидбейли М. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития. 1988-2007 гг. Баку: Элм, 2009, 396 с.



169. Семенченко Н. Россия-СНГ-Израиль. Проблемы и перспективы сотрудничества. Москва: Наука, 1993, 171 с.
170. Сионизм - теория и практика. Минц И.И. (рук. кол.) Москва: Полит-издат. 1973, 240 с.
171. Стратегия развития диаспоры // НГ-Содружество, 1998, №5.
172. Софокл. Трагедии. /Пер. С.В.Шервинского, ред. и примеч. Ф.А.Петровского. Москва: Гослитиздат, 1954, 472 с.
173. Телушкин Дж. Еврейский мир. Москва: Лехам, 1998, 575 с.
174. Тихканен А. Эмиграция в свете статистики // Спектр, 2004, 3 октября.
175. Тишков В. Миграция и новые диаспоры в постсоветских государствах. Москва: Наука, 1996, 118 с.
176. Тишков В. Исторический феномен диаспоры // Этнографическое обозрение, 2000, №2, с.45-53.
177. Факты об Израиле. Иерусалим. 1992, 286 с.
178. Ханбабян А. Диаспора как инструмент сотрудничества // Независимая газета, 2000, 29 март, с. 14.
179. Шапиро Ф. Иврит-русский словарь: Около 28000 слов / Под редакцией Б. М Гранде. Москва: 1963, 768 с.
180. Шеффер Г. Диаспоры в мировой политике // «Диаспоры», Москва: 2003, №1, с. 162-184.
181. Шнирельман В. Мифы диаспоры // «Диаспоры», 1999, №2,3, с. 6-33.
182. Зив-Ав И. Говорят, есть страна... Иерусалим: Б-ка Алия, 1991, 306 с.

### *İngilis dilində:*

183. Armstrong S. Mobilized and proletarian diasporas // American political Science review - Wash. 1976, Vol. 70, №2, p. 393-408.
184. Brah A. Cartographies of Diaspora. Contesting Identities, London and New-York, 1993.

185. Brubaker R. The «diaspora» diaspora // Ethnic and Racial Studies. N.Y. 2005, Vol. 28, №1, p. 1-19.
186. Cohen R. Global Diasporas An Introduction, Seattle: // Global diasporas. Ed. by R.Cohen. -Second edition. N.Y. 2008, 219 p.
187. Diaspora // Encyclopedia Britannica, 2006.
188. Esman J. Diasporas and International Relations // Modern Diasporas in International Politics. -N.Y., 1986, p. 333-349.
189. Sheffer G. Diaspora politics: At home abroad. Cambridge, 2003, 208 p.

***İnternet resursları:***

190. http://www.anl.az/
191. http://www.apa.az/
192. http://www.arxiv.az/
193. http://www.aze.embrus-az.com/
194. http://www.azerbaijan.az/
195. http://www.azerbaijans.com/
196. http://www.azerbaijans-congress.com/
197. http://www.azerbaycanli.org/
198. http://www.azertag.az/
199. http://www.azleadersays.com/
200. http://www.az.trend.az/
201. http://www.az.wikipedia.org/
202. http://www.bakuforum.az/
203. http://www.blogs.voanews.com/
204. http://www.britannica.com/
205. http://www.commission-anticorruption.gov.az/
206. http://www.dak.az/.
207. http://www.diaspora.az/
208. http://www.diaspora.gov.az/
209. http://www.diasporaalliance.org/
210. http://www.files.preslib.az/
211. http://www.gomap.az/



212. http://www.haber365.com/
213. http://www.heydar-aliyev-foundation.org/
214. http://www.hemrey.az/
215. http://www.xalqqazeti.com/
216. http://www.iimes.ru/
217. http://www.intersci.ss.uci.edu/
218. http://www.in.org./
219. http://www.ihr-az.org/
220. http://www.karabakhinfo.com/
221. http://www.lib.aliyev-heritage.org/
222. http://www.liveinternet.ru/
223. http://www.modern.az/
224. http://www.mfa.gov.az/
225. http://www.migration.gov.az/
226. http://www.mns.gov.az/
227. http://www.nakhchivan.az/
228. http://www.nauka-shop.com/
229. http://www.noravank.am/
230. http//www.novopol.ru/
231. http://www.prezident.az/
232. http://www.presarchive.gov.az/
233. http://www.sia.az/
234. http://www.static.bsu.az/
235. http//www.tatar.ru/
236. http://www.vakrf.ru/
237. http:// www.zaur.azeriblog.com/
238. http://www.1news.az/

Я.М.Бабанлы

# ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ДИАСПОРСКАЯ ДЕЯТЕЛЬНОСТЬ (1991-2011)

## Резюме

В конце 80-х годов XX века в результате общественно-политических изменений, происходящих на планете, распался СССР, а вместе с ним потерпела крах и мировая социалистическая система. Наряду с другими республиками, Азербайджан также восстановил независимость и суверенитет, что позволило повысить внимание к проблемам азербайджанцев, проживающих в зарубежных странах.

В современный период глобализации важным инструментом экономического развития стали миграция, диаспора и лобби. Опыт показывает, что при миграции начинают меняться облики стран и формироваться многокультурные общества. А это, в свою очередь, открывает путь к серьезным социальным изменениям.

В настоящее время одной из основных задач, стоящих перед независимой Азербайджанской Республикой, является организационное становление и привлечение азербайджанцев за рубежом в дело защиты общенациональных интересов нашей страны. Сегодня актуальной темой для исследователей становится изучение формирования и развития азербайджанской диаспоры. Как известно, диаспора имеет важное значение в пропаганде истории каждого народа, этнической самобытности, культурного наследия, искусства и др.

В монографии исследована история возникновения понятия «диаспора», ее сущность, а также ряд особенностей, связанных с классической диаспорой. Дан анализ истории диаспоры разных народов мира, их возникновение, направ-

ления деятельности, взаимоотношения и взаимовлияния диаспор. Также нашли свое отражение этапы из истории азербайджанской диаспоры, истории ее распространения, проблем, освещена государственная забота о диаспоре в период независимости. В монографии показано, что трудности, с которыми сталкивались азербайджанцы в первые годы суверенитета, а также социально-экономические, общественно-политические проблемы сделали необходимым создание между жившими за рубежом азербайджанцами национального единства и солидарности.

Большое значение для консолидации национальной диаспоры имело возвращение к власти общенационального лидера Гейдара Алиева, который во время своих визитов в различные страны мира проводил встречи с представителями диаспоры, призывая их к тесному единству и солидарности с исторической родиной. По его инициативе 31 декабря был объявлен Днем солидарности азербайджанцев мира.

Наряду с этим подробно освещено проведение Iсъезда азербайджанцев мира, создание Государственного Комитета по работе с соотечественниками, проживающими за рубежом (в настоящее время – Госкомитет по работе с диаспорой), принятие Закона Азербайджанской Республики «О работе с азербайджанцами, проживающими за рубежом».

В своей внешней политике Г.Алиев придавал особое внимание роли диаспоры, проявлял заботу по укреплению связей Азербайджанского государства с азербайджанцами мира. В настоящее время этот курс продолжает Президент Азербайджанской Республики Ильхам Алиев. В монографии освещена роль II и III съездов азербайджанцев мира, как отражения государственной заботы о проживающих за рубежом азербайджанцах.

В монографии были отражены причины армяно-турецкого и армяно-азербайджанского нагорно-карабахского конфликтов, позиции диаспорских организаций в этих вопросах. Научными аргументами обосновано негативное влия-



ние на межгосударственные отношения необоснованных территориальных претензий армян, раздувание темы «армянского геноцида». Показано влияние на международную политику позиции ООН, ОИС, ОБСЕ и ЕС в вопросах армяно-турецких отношений и армяно-азербайджанского конфликта.

В монографии также дан анализ связей азербайджанской диаспоры с политическими кругами разных стран, переход от диаспоры к лоббизму: пропаганда азербайджанской диаспорой нашей страны, доведение до мировой общественности справедливой позиции по армяно-азербайджанскому нагорно-карабахскому конфликту.

**Y.M.Babanli**

# FOREIGN POLICY OF THE REPUBLIC OF AZERBAIJAN AND DIASPORA ACTIVITIES (1991-2011)


## Summary

As a result of the social and political changes occurring at the end of the 80s of the XX century in the world, the former Soviet Union and the world socialist system collapsed. Like other republics being parts of this state the restoration of independence of the Republic of Azerbaijan and its development as a sovereign state created an opportunity to give much heed to the problems of Azerbaijanis living abroad.

In the modern era of globalization the migration, Diaspora, lobbying has become the important means for economic development. Experience shows that due to migration the countries are changing, the multicultural societies begin to be formed. This in turn, leads to serious social changes.

Currently, one of the main objectives of the independent Azerbaijan Republic is the organizational development of Azerbaijanis living abroad and their involvement to the defense of country's national interests. Today study of formation and development of Azerbaijani Diaspora becomes a topical for researchers. As we know, the Diaspora plays an important role in promoting the history of a nation, its ethnic features, cultural heritage, art and so on.

The history of origin of the concept of Diaspora, its essence, as well as a number of features of classic Diasporas have been considered in the monograph. History of Diasporas of different nations around the world, necessity for their formation, directions of their activities and their impact on bilateral and multilateral relations has been analyzed. Here also, is spoken about history of the Azerbaijani Diaspora, the area of its sprea-

ding, problems that it faced, and about the state care to it. A number of difficulties faced by Azerbaijan, as well as the socio-economic and political challenges occurring in the first years of sovereignty, as well as the socio-economic problems made the creation of unity and solidarity among the Azerbaijanis living abroad necessary. It was stated that just meetings of National leader Heydar Aliyev with national communities of Azerbaijan and the Diaspora representatives during his visits to different countries after his return to power, his challenges to close unity and solidarity for their historical homeland and national interests and the tradition of appealing to them every year, on «31 December – the day of solidarity of World Azerbaijanis» contributed to the foundation of it.

Furthermore, conduction of the I Congress of World Azerbaijanis, the establishment of State Committee on Work with Azerbaijanis Living Abroad (currently, the State Committee for Work with the Diaspora), the adoption of the state Law of the Republic of Azerbaijan «On the state policy regarding the Azerbaijanis living abroad» are highlighted in detailes.

Heydar Aliyev always paid a big attention to the role of Diaspora, contributed to the strengthening of relations of the Azerbaijani state with world Azerbaijanis. Today, Heydar Aliyev's strategy in this area is continued by President of Azerbaijan Ilham Aliyev. Here is made the scientific analysis on the importance of appropriate decisions adopted by the Head of the state on the holding of the II and III Congresses of World Azerbaijanis.

In the monograph the reasons of the Armenian-Turkish and Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, the position of the Diaspora organizations of the parties in the above-mentioned issues and the influence on their solution have been illuminated with rich facts. The negative impact of unfounded territorial claims of the Armenian Diaspora, allegations on «Armenian genocide» on interstate relations has been proven through scientific arguments. Along with this, here is spoken



about the influence of the Diaspora in the policy pursued by international organizations, such as the UN (United Nations), and ICT (Information and Communication Technology), the OSCE (Organization for Security and Cooperation in Europe) and the EU (European Union) on Armenian-Turkish relations and Armenian-Azerbaijani Nagorno-Karabakh conflict.

In the monograph relations of the Azerbaijani Diaspora with political circles in various countries, from the Diaspora to lobbying: the activity of the Azerbaijani Diaspora in the popularization of our country and in the informing of the world community about the position regarding the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict has been analyzed.

# İXTİSARLAR

| | |
|---|---|
| AACF | Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası |
| AAF | Alman-Azərbaycan Forumu |
| AAK | Avropa Azərbaycanlıları Konqresi |
| AATDC | Azərbaycan-Avstraliya-Türk Dostluq Cəmiyyəti |
| AAKM | Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi |
| ABD | Amerika Birləşik Devletleri |
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| ADPU | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| AEMK | Amerika Erməni Milli Komitəsi |
| AFGA | Azərbaycan-Fransa Gənclik Assosiasiyası |
| AGM | Azərbaycan Gənclər Mərkəzi |
| AGT | Qazaxıstanda Azərbaycanlı Gənclər Təşkilatı |
| AFR | Almaniya Federativ Respublikası |
| AXC | Azərbaycan Xalq Cümhuriyyəti |
| Aİ | Avropa İttifaqı |
| AİDC | Azərbaycan-İsveç Dostluq cəmiyyəti |
| AKDC | Azərbaycan-Kanada Dostluq Cəmiyyəti |
| AKTA | Azərbaycan-Kanada-Türk Assosiasiyası |
| AQŞ | Azərbaycan Qadınlar Şurası |
| AMEA | Azərbaycan Milli Elmlər Akademiyası |
| AMİDF | Azərbaycan Mədəniyyətinin İnkişafı və Dirçəlişi Fondu |
| AMMA | Özbəkistanda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası |
| AOD | **Terrorçu** «Erməni azadlıq hərəkatı» təşkilatı |
| AP | Avropa Parlamenti |
| ASAİF | Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclər Təşkilatı |

| | |
|---|---|
| ASALA | **Terrorçu** «Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu» təşkilatı |
| ASE | Azərbaycan Sovet Ensiklopediyası |
| AŞ | Avropa Şurası |
| AŞPA | Avropa Şurası Parlament Assambleyası |
| ATƏM | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| ATMM | Azərbaycan Təhsil və Mədəniyyət Mərkəzi |
| AzərRos | Rusiya azərbaycanlıları təşkilatı |
| Azİz | Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası |
| BAK | Benilüks Azərbaycanlıları Konqresi |
| BƏƏ | Birləşmiş Ərəb Əmirlikləri |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| DAK | Dünya Azərbaycanlıları Konqresi |
| DİDK | Diasporla İş üzrə Dövlət Komitəsi |
| f.ü.f.d. | Filologiya üzrə fəlsəfə doktoru |
| GÜNATA | Güney Azərbaycan Türk Akademləri |
| E.V. | Cəmiyyəti |
| XÖYAİDK | Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi |
| İAF | İsveç-Azərbaycan Federasiyası |
| İKT/İƏT | İslam Konfransı Təşkilatı/İslam Əməkdaşlıq Təşkilatı |
| İNALKO | Fransa Şərq Mədəniyyətləri və Dilləri İnstitutu |
| KAA | Kanada Azərbaycan Alyansı |
| KAA | Kvebek Azərbaycanlıları Assosiasiyası |
| KAƏA | Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyası |
| KAQA | Kanada-Azərbaycan Qadınlar Assosiasiyası |
| KİV | kütləvi informasiya vasitələri |
| KP MK | Kommunist Partiyasının Mərkəzi Komitəsi |
| LAC | Liverpul Azərbaycan Cəmiyyəti |



| | |
|---|---|
| LTD | limitlənmiş |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MK | Mərkəzi Komitə |
| MMC | Məhdud Məsuliyyətli Cəmiyyət |
| MR | Muxtar Respublika |
| NATO | Şimali Atlantika Müqavilə Təşkilatı |
| NAYO | Norveç Azərbaycanlıları Gənclər Təşkilatı |
| NKP | Lejaki Memorialının adı |
| NPM | Nəşriyyat-Poliqrafiya Mərkəzi |
| OAC | Ontario Azərbaycanlıları Cəmiyyəti |
| ön söz. | ön sözün müəllifi |
| RAGT | Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı |
| red. | Redaktor |
| RF | Rusiya Federasiyası |
| s. | səhifə |
| SAAS | İsveç-Azərbaycan Akademik Cəmiyyəti |
| s.e.ü.f.d. | Siyasi elmlər üzrə fəlsəfə doktoru |
| SSR | Sovet Sosialist Respublikası |
| SSRİ | Sovet Sosialist Respublikaları İttifaqı |
| Sov.İKP | Sovet İttifaqı Kommunust Partiyası |
| ŞKTC | Şimali Kipr Türk Cümhuriyyəti |
| TAB | Türkiyə-Azərbaycan Birliyi |
| TAD | Türkiyə-Azərbaycan Dərnəyi |
| TÖSDF | Qırğızıstan Respublikasında «Türkdilli *Ölkələrin* Siyasətinə Dəstək Fondu» |
| TURKSAM | Türkiyə Beynəlxalq Əlaqələr və Strateji Tədqiqatlar Mərkəzi |
| t.ü.e.d. | tarix üzrə elmlər doktoru |
| t.ü.f.d. | tarix üzrə fəlsəfə doktoru |
| TÜRKSAM | Türkiyə Strateji Araşdırmalar Mərkəzi |
| TÜRKSAM | Türkiyə Beynəlxalq Münasibətlər və Strateji Analizlər Mərkəzi |
| USAN | Amerika Azərbaycanlıları Şəbəkəsi |
| VBDDAU | Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik |

| | |
|---|---|
| YUNESKO | BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı |
| Ed. | Editor |
| N.Y. | New York |
| NSDAP | Nationalsozialistische Deutsche Arbeiterpartei |
| p. | Page |
| USAN | U.S. Azeris Network |
| Vol. | Volum |
| Wash. | Washington |
| Азернешр | Азербайджанское Государственное издательство |
| г., гг. | год, годы |
| Гослитиздат | Государственное литературное издательство |
| изд-во, изд. | издательство |
| ИИЦ | Информационно-издательский центр |
| ИСИ ННГУ | Институт стратегических исследований Нижегородского государственного университета им. Н.И. Лобачевского |
| НГ | Независимая газета |
| НГ-Содружество | Приложение к «Независимой газете» |
| Пер. | Перевод |
| РАН | Российская Академия Наук |
| РСФСР | Российская Советская Федеративная Социалистическая Республика |
| с. | Страница |
| СНГ | Содружество Независимых Государств |
| СССР | Союз Советских Социалистических Республик |
| США | Соединенные Штаты Америки |



# ƏLAVƏLƏR

*1993-cü ildən ənənəvi olaraq, hər il dekabrın 31-də Azərbaycan Respublikasının Prezidentləri tərəfindən Dünya azərbaycanlılarına müraciət ünvanlanır.*

*O cümlədən, Dünya azərbaycanlılarının qurultaylarında bir qayda olaraq, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası yaradılır.*

*Bunlar istisna olmaqla, Xaricdə yaşayan azərbaycanlıların - Azərbaycan diasporunun təşkilatlanması, formalaşması, genişlənməsi, inkişafı sahəsində xüsusi əhəmiyyət kəsb edən aidiyyəti üzrə qərar, sərəncam və fərmanlar verilmişdir.*

## 31 dekabr
## Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, uzun əsrlik tarixə malik olan Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış və parçalanmış, dövlət müstəqilliyi və istiqlaliyyəti əlindən alınmışdır. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan türkləri və onun tarixi ərazisi bir daha parçalanaraq, Rusiya ilə İran dövlətləri arasında mənafe dairələrinə bölünmüşdür.

Lakin dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da iqtisadi, siyasi və mədəni bütövlüyü, milli dövlət quruluşu ləğv edilsə də. Azərbaycan türkləri müstəqillik və bütövlük yolunda mübarizəsini dayandırmamış, iyirminci yüzilliyin əvvəllərində yaranmış mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini bərpa etmək yolunda mühüm addımlar atmışlar. İmperiya zülmündən azad olan quzey Azərbaycan türkləri 1918-ci il mayın 28-dədövlət müstəqilliyi qazanaraq öz tarixi ərazisində milli dövlət quruluşu – Azərbaycan Demokratik Cümhuriyyətini təşkil etdilər. Şox keçmədən Azərbaycan dövlət müstəqilliyi və ərazi bütövlüyü yeni təcavüzə – bolşevik Rusiyanın silahlı müdaxiləsinə məruz qaldı. Beləliklə, qanuni seçilmiş hakimiyyət orqanı zorakılıqla devrildi və Azərbaycan türklərinin çox böyük qurbanalr bahasına qazandığı müstəqilliyə son qoyuldu. Azərbaycanın quzeyi 1804-1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən ilhaq edildi. Xalqın demokartik və istiqlalçı qüvvələrin əksəriyyəti repressiyaya məruz qaldı, bir qismi isə mühacirət etməyə məcbur oldu.

Sovet imperiyası tərkibinə qaldığı 70 mil ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan türkləri təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışlar.İmperiya siyasəti dünya türklərini bir-birindən təcrid etmək məqsədilə pantürkizm məfhumunu şərq aləmində təhlükli bir ideya kimi təbliğ edərək dünya türklərini və o cümlədən sovetlər ittifaqında yaşayan türklərinarasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bu siyasətin təzahürü kimi qanunsuz çəkilən sərhəd çəpərləri Azərbaycan türklərini ikiyə parçaladı. Bütün bunlara baxmayaarq, Azərbaycan türkləri milli dövlət quruculuğu, milli-mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər.

Son illərdə xalqın milli özünüdərki güclənmiş, ictimai demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində Muxtar Respublikada ziyalılar və demokratik qüvvələri vahid milli birlik və üstəqillik ideyası uğrunda mübarizə ətrafınd abirləşdirən siaysi dərnəklər və ictimai birliklər yaranmışdır. Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsinin 1989-cu ilin noyabrında keçirilən məclisi xalqın iradəsini bir daha ifadə edərək zorakılqıla

ikiyə bölünmüş güney və quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi.

Sovet İttifaqı Kommunist Partiyası, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitələri və onların yerli orqanları, ölkənin sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi-siyasi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq, Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsi ardıcıl olaraq «Sərhəd hərəkatı» adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən demokratik hərəkatının nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu ilin dekabrın 31-i Dünya Azərbaycan Türklərinin həmrəyliyi bayramına çevrildi. 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

Naxçıvan Muxtar Respublikasından başlanılıb Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu ümumxalq hərəkatına imperiya və hegemonluq mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar. Bu məqsədlə əsassız olaraq sərhəd zonasında fövqəladə vəziyyət rejimi yaradıldı. Sərhəd hərəkatı ilə bağlı kommunist rəhbərlərinin göstərişinə əsasən üzvlərinə qarşı repressiya daha da gücləndi , onlardan bir neçəsi əsassız həbs olundu, işdən çıxarıldı, bir çox yerlərdə sökülmüş sərhəd çəpərləri bərpa olundu.

Kommunist ruhlu kütləvi informasiya vasitələri var gücü ilə sərhədlərin sökülməsini vəhşilik adlandırdı, nəyin bahasına olursa olsun xalqın iradəsini, inamını qırmağa cəhd göstərdilər. Lakin qonşu ölkələrin dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan türklərinin, ümumən türk dünyasının bu prosesə parçalanmış xalqların təbii birləşmə meyl kimi baxması və müdafiə etməsi, onu ölkədə və dünyada gedən demokratik proseslər mövqeyindən qiymətləndirilməsi xalqımıza qarşı yönəldilmiş mürtəce təbliğatın qarşısını qismən aldı. 1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk Dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real nəticəsi kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü.

**Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:**

1. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin.
2. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü



kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.
3. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.
4. Akademik Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan EA Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsil nazirliyinə tapşırılsın ki, 31 dekabr dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününə həsr olunmuş elmi konfrans keçirsinlər.
5. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və onların ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.
6. Bu qərarın dünya Azərbaycan türklərinə çatdırılması təmin edilsin.

**Heydər Əliyev**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri**
**Naxçıvan şəhəri, 16 dekabr 1991-ci il.**

**Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Bu il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə – Azərbaycanın dövlət müstəqilliyinin 10-illik yubileyi geniş qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 mart tarixli fərmanı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr edilən tədbirlər planı təsdiq olunmuş və onun həyata keçirilməsi üçün ölkəmizin bütün guşələrində əməli işlər aparılır. Azərbaycanın onillik müstəqil inkişaf yolunun təhlilinə həsr olunmuş elmi simpozium və konfranslar keçirilir, bu müddət ərzində əldə olunmuş nailiyyətləri əks etdirən sərgilər, kinofilmlər nümayiş etdirilir, çap məmulatı hazırlanır, müxtəlif kütləvi tədbirlər təşkil edilir.

Bütün obyektiv çətinliklərə, bu və ya digər problemlərə baxmayaraq, tarixi baxımdan olduqca qısa bir müddət – on il ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, Ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahələrində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan yaratmışdır. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycanda artıq sosial-iqtisadi inkişafın yeni mərhələsinin möhkəm təməli qoyulmuş və ölkəmiz müstəqil inkişaf yolu ilə inamla irəliləyir. Azərbaycan müstəqil dövlət kimi bütün dünyada tanınır və dünya birliyində öz layiqli yerini tutur. Müstəqilliyimiz sarsılmaz, dönməz xarakter almışdır.

Müstəqil inkişaf yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin nikbinlik və böyük inamla baxmağa ruhlandırır, ona yeni güc, qüvvət verir. Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur. Bütün dünya azərbaycanlılarının əcdadlarının məskəni, tarixi vətəni olan Azərbaycan soydaşlarımızın daim diqqət mərkəzindədir.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı var. Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir, Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hal-hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada. Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 16 dekabr tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü təntənə ilə qeyd olunur. Bu bayramı ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını günü-gündən möhkəmləndirir. Azərbaycan icmalarının ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən cəmiyyətləri, klub və dərnəkləri soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinə məqsədyönlü xarakter verilməsi yolunda faydalı iş aparır, məskunlaşdıqları ölkələrdə Azərbaycanı daha yaxından tanıtmaq üçün müxtəlif tədbirlər görür. Bu qurumlar bir-biri ilə, habelə Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələr yaradır, əməkdaşlıq etməyə səy göstərirlər. Müstəqil Azərbaycan Respublikası isə bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə tarixi missiyanı yerinə yetirməyə çalışır. Həmin yolda bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin məqsədyönlü və uğurlu yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edilib müvafiq strateji proqramın hazırlanmasını tələb edir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya

azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq qərara alıram:

**1.** 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlarının I Qurultayı keçirilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi məqsədilə işçi qrupu yaratsın, iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 may 2001-ci il.**

*Qeyd: Dünya Azərbaycanlılarının Qurultayı – Xaricdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi ən yüksək səviyyəli tədbirdir.*

*Dünya Azərbaycanlılarının Qurultayının çağırılması ilə bağlı ilk təşəbbüs 1992-ci ildə olmuşdur. «Dünya azərbaycanlılarının qurultayının çağırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 1992-ci il tarixli Sərəncamına əsasən Bakı şəhərində dünya azərbaycanlılarının qurultayının çağırılması qərara alınmışdır. Həmin Sərəncamla Dünya azərbaycanlılarının qurultayını keçirmək üçün Azərbaycan Respublikasının Prezidentinin sədrliyi ilə Təşkilat Komitəsi yaradılmışdır. «Dünya azərbaycanlılarının qurultayını keçirmək üçün yaradılmış təşkilat komitəsinin tərkibinə əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 1993-cü il tarixli Sərəncamına əsasən Təşkilat Komitəsinin tərkibinə əlavələr edilmişdir. Lakin qurultay baş tutmamışdır. Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli Sərəncamına əsasən «Dünya azərbaycanlılarının qurultayının çağırılması haqqında» 24 dekabr 1992-ci il tarixli və «Dünya azərbaycanlılarının qurultayını keçirmək üçün yaradılmış Təşkilat Komitəsinin tərkibinə əlavələr edilməsi haqqında» 30 yanvar 1993-cü il tarixli Sərəncamları qüvvədən düşmüş hesab edilmişdir.*



## Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin yeddinci bəndinə uyğun olaraq qərara alıram:

**1.** Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı 10 gün müddətində Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi öz səlahiyyətləri çərçivəsində Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin qurulması üçün zəruri olan köməkliyin göstərilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 iyul 2002-ci il.**

## «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş xaricdə yaşayan azərbaycanlılara və onların təşkilatlarına maddi yardım edilməsi məqsədi ilə yaradılan dövlət fondlarının vəsaitlərindən istifadə qaydalarını müəyyən etsin;

həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»na dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 6.4-cü və 9.3-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi həyata keçirir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 fevral 2003-cü il.**



## Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Müstəqillik dövründə Azərbaycan Respublikası milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirmiş, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun lider dövlətinə çevrilmişdir.

Qazanılmış nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuşdur. Ölkəmizin irəliyə doğru atdığı hər bir addım, qazandığı nailiyyət dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandırmış, onların müstəqil dövlətimizə inamını, milli hisslərini və gələcəyə ümidlərini artırmış, Azərbaycan Respublikasının milli maraqları ətrafında sıx birləşmələri üçün zəmin yaratmışdır.

Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi ümummilli liderimiz Heydər Əliyev olmuşdur. O, xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, müxtəlif xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmışdır. Heydər Əliyevin Sərəncamı ilə 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

Qurultaydan bir neçə ay sonra, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, 2002-ci il dekabr ayının 27-də isə Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqındaAzərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Dünyada fəaliyyət göstərən Azərbaycan icmaları ilə məşğul olan dövlət orqanının yaradılması və müvafiq qanunun qəbulu dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da sürətləndirmiş, soydaşlarımızın öz tarixi Vətəni ilə əlaqələrinin genişləndirilməsini təmin etmiş, ölkəmizin tarixi və müasir həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına stimul vermişdir.

Azərbaycan Respublikası xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələri dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan etmişdir. Diaspor quruculuğu konkret bir dövrlə məhdudlaşmayan, strateji əhəmiyyətə malik, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Elə buna görə də bu sahədə qazanılmış nailiyyətləri və qarşıda duran vəzifələri vaxtaşırı müzakirə etməyə ehtiyac yaranır.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etmək, Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmlənməsi, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi ilə qərara alıram:

**1.** 2006-cı il mart ayının 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə qurultayın keçirilməsi məqsədi ilə iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 fevral 2006-cı il.**



**Dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətlərinə görə bir qrup ictimai xadimin təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin SƏRƏNCAMI**

Dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətlərinə görə aşağıda adları çəkilən ictimai xadimlər təltif edilsinlər:

**«Şöhrət» ordeni ilə**

Bağırov Natiq Nadir oğlu
Əfəndiyev Oqtay Ziya oğlu
Əliyev Məmmədbağır Cavad oğlu
Tomris Azəri
Yücel Artantaş

**«Tərəqqi» medalı ilə**

Abbasov Qurbanəli Həsən oğlu
Abdullayev Sərdar Süleyman oğlu
Ağalarov Araz İsgəndər oğlu
Ağamirov Natiq İsmayıl oğlu
Akkan Suver
Başar Ali Kemal oğlu Kömür
Bəhram Atabəyli
Cavad Dərəxti
Erix Fayql
Əfəndiyev Eldar Faiq oğlu
Gülməmmədov Akif Çərkəz oğlu
Heybətov Əşrəf Nəzir oğlu
Həmzəyev Mahir Canmirzə oğlu
Xəlilov İsgəndər Ağasəlim oğlu
İsmailoff Səid Kamil oğlu
İsmayılov Telman Mərdanoviç
Qulamrza Səbri Təbrizi
Qurbanov Seyfəddin Əli oğlu
Məmişov Vaqif İmam oğlu
Məmmədov Sərraf Əbilfət oğlu
Miron Fel
Nüreddin Aras
Sadıqov Söyün Qasım oğlu
Səfərov Firudin Səttar oğlu
Səid İrandust

Şamil Ayrım
Şıxlinski Şahin Mutvəli oğlu
Yevdayev Nobert

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 13 mart 2006-cı il.**



**Azərbaycan Respublikasının**
**Diaspor ilə İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında**
**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Azərbaycan Respublikasında dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin Əsasnaməsinin layihəsini, komitənin strukturunu, xərclər smetasını və işçilərin ümumi say tərkibi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. qüvvədə olan normativ hüquqi aktların bu Sərəncama uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 noyabr 2008-ci il.**

**Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında**
**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

*2011-ci il oktyabrın 18-də* Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin iyirminci ildönümü tamam olur. Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir.

Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin strategiyasına uyğun respublikamızda həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdı.

SSRİ-nin süqutunun qaçılmaz şəkil alması onun tərkibinə daxil olan bütün müttəfiq respublikalara müstəqillik əldə etmək imkanı yaratdı. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də qəbul etdiyi «Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı» ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edərək öz dövlət müstəqilliyini və suverenliyini beynəlxalq aləmə bildirdi. Qısa bir müddətdə dünya birliyi ölkələri və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmaqla o, beynəlxalq hüququn subyektinə çevrildi. Həmin gün tariximizə dövlət müstəqilliyinin bərpası günü kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, himni və gerbi dövlət atributları kimi qəbul edildi və onun yarandığı 28 may günü Respublika günü kimi qeyd olunmağa başladı.

Müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi-sosial böhranla nəticələndi. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı.

1994-cü ildə imzalanan «Əsrin müqaviləsi» Azərbaycanın neft strategiyasının reallaşması üçün imkan verdi və Xəzər hövzəsində irimiqyaslı layihələrin uğurla həyata keçirilməsini təmin etdi. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin fəaliyyətə başlaması böyük strateji uğur və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolunda həlledici amil oldu.

1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsi ilə ölkədə dövlət quruculuğu üçün zəruri hüquqi baza formalaşdı. Ölkəmizin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun olaraq quruldu. Bu illər ərzində Azərbaycanda bütün istiqamətlərdə dövlət quruculuğu prosesi uğurla həyata keçirilmiş, dövlətçilik ənənələri zənginləşdirilmişdir.

Keçid dövrünü başa vuran respublikamız bu gün özünün uzunmüddətli inkişaf strategiyasının istiqamətlərini müəyyən edən bir ölkədir. Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkə kimi tanınır. Respublikamızda neft və qeyri-neft sektorlarının yüksəlişi, çoxşaxəli iqtisadiyyatın ahəngdar inkişafı təmin olunmuşdur. Ümumi daxili məhsul, büdcə və valyuta ehtiyatları ildən-ilə artmaqdadır. Güclü sahibkarlar sinfi və orta təbəqə yaranır. Azərbaycanın enerji təhlükəsizliyi təmin olunmuşdur. Yeni infrastruktur formalaşır, beynəlxalq aeroportlar istismara verilir, minlərlə kilometr yol və müasir körpülər salınır. Mühüm sosial əhəmiyyətə malik obyekt olan Oğuz-Qəbələ-Bakı su kəməri istismara verilmişdir. Tarixi İpək Yolunun bərpası ilə bağlı Bakı-Tbilisi-Qars dəmir yolu və yeni limanın tikilməsi kimi irimiqyaslı strateji layihələr gerçəkləşdirilir.

Azərbaycanda ordu quruculuğu prosesi böyük uğurla gedir. Silahlı Qüvvələrimizin peşəkar hazırlıq səviyyəsi, maddi-texniki bazası və döyüş qabiliyyəti möhkəmləndirilir. Ölkəmizdə müdafiə sənayesi inkişaf etdirilir, ilk süni peykimizlə bağlı layihə həyata keçirilir. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunan nailiyyətlər informasiya cəmiyyətinin qurulması üçün möhkəm zəmin yaradır.

Regionların inkişafı proqramı çərçivəsində böyük nailiyyətlər əldə edilmişdir. Təhsil, səhiyyə, mədəniyyət və sosial həyatda qazanılan müvəffəqiyyətlərin miqyasının parlaq göstəricisi tikilən yüzlərlə məktəb, yaranan tibb müəssisələri, yenilənən mədəniyyət ocaqları, muzeylər, parklar, qurulan idman kompleksləri və olimpiya mərkəzləridir. Aparılan quruculuq və abadlıq işləri sayəsində bu gün paytaxtımız yeni görkəm almaqdadır, şəhər və rayonlarımız ildən-ilə gözəlləşir. Ölkəmizin ərzaq təhlükəsizliyi təmin olunmuş, yeni iş yerləri açılaraq yoxsulluğun səviyyəsi bir neçə dəfə azaldılmışdır.

Azərbaycan çoxsaylı uğurlara hələ də yaşadığı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi şəraitində nail olmuşdur. Beynəlxalq qurumların qəbul etdiyi qərar və qətnamələrə baxmayaraq ölkəmizin ərazi bütövlüyü *indiyədək bərpa olunmamışdır. Danışıqlar prosesində* Azərbaycanın tələbi ölkəmizin zəbt olunmuş torpaqlarının işğaldan beynəlxalq hüquq normaları çərçivəsində azad olunması və ərazi bütövlüyümüzün bərpa edilməsindən ibarətdir. Bu, Azərbaycanın qəti və dəyişməz mövqeyidir. Hazırda ölkəmizin zəbt olunmuş torpaqlarının işğalına son qoymaqdan daha vacib vəzifəmiz yoxdur.

Münaqişə öz həllini tapana qədər məcburi köçkünlərin sosial müdafiəsi təmin olunmaqdadır. Bu gün Azərbaycan ərazisində çadır şəhərciyi qalmayıbdır. Məcburi köçkünlər üçün yeni qəsəbələr salınıb, evlər tikilib və bu istiqamətdə görülən işlər davam etdirilir.

İyirmi illik inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu

gün Azərbaycan, sözün əsl mənasında, artıq tam müstəqil ölkədir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim Azərbaycan xalqının maraqlarına xidmət göstərir.

2010-cu ildə Azərbaycanda Dövlət Bayrağı meydanının açılışı olmuş və dünyanın ən yüksək bayrağı ucaldılmışdır. Bu meydan Azərbaycanın son iyirmi ildə keçdiyi inkişaf yolunun rəmzinə çevrilmişdir.

Azərbaycanın dövlət müstəqilliyi respublikamızın hər bir vətəndaşı üçün ən böyük sərvətdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının iyirmiillik yubileyinin ölkəmizin həyatında müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisə olduğunu nəzərə alaraq, müstəqillik illərində Azərbaycan Respublikasının keçdiyi zəngin inkişaf yolunda qazandığı parlaq nailiyyətlərin təbliğini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ölkəmizdə dövlət səviyyəsində təntənəli surətdə qeyd olunsun.

**2.** «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tədbirlər Planı» təsdiq edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 yanvar 2011-ci il.**



**Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı**
**TƏDBİRLƏR PLANINDAN ÇIXARIŞ**

**I. Təşkilati tədbirlər**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| I. (4). | Müxtəlif ölkələrdə «Azərbaycan günü»nün keçirilməsi (xüsusi qrafik üzrə) | Xarici İşlər Nazirliyi | Elmar Məmmədyarov | il ərzində |
| | | Mədəniyyət və Turizm Nazirliyi | Əbülfəs Qarayev | |
| | | Diasporla İş üzrə Dövlət Komitəsi | Nazim İbrahimov | |
| II. (8). | Dünya azərbaycanlılarının qurultayının keçirilməsi | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | Əli Həsənov | iyun-iyul 2011-ci il |
| | | Diasporla İş üzrə Dövlət Komitəsi | Nazim İbrahimov | |

**II. Kütləvi tədbirlər**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| III. (3). | Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilatlarda nümayəndəlikləri və diaspor qurumları vasitəsilə Azərbaycan dövlətinin müstəqillik illərindəki nailiyyətlərini nümayiş etdirmək məqsədilə sərgi, konsert və konfransların təşkil olunması, müxtəlif nüfuzlu çap və elektron informasiya vasitələrində müvafiq məlumatların yayılması (xüsusi qrafik üzrə) | Nazirlər Kabineti | Yaqub Eyyubov | aprel-oktyabr 2011-ci il |
| | | Xarici İşlər Nazirliyi | Elmar Məmmədyarov | |
| | | Mədəniyyət və Turizm Nazirliyi | Əbülfəs Qarayev | |
| | | Diasporla İş üzrə Dövlət Komitəsi | Nazim İbrahimov | |

***Qeyd:*** *Tədbirlər Planı Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.*

**Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**«Dostluq» ordeni ilə**

Başar Ali Kemal oğlu Kömür
Eldar Faiq oğlu Əfəndiyev
Ertan Demirtaş
İosif Semyonoviç Şaqal
Mehmet Akkan Suver
Suat Günsel
Vladimir İvanoviç Kolesnikov

**«Tərəqqi» medalı ilə**

Adil Toğrul oğlu Bağırov
Ahmet Şafak
Akif Ənvər oğlu Ağatalıbov
Bilal Dündar
Ədalət Abuş oğlu Hüseynov
Əlzaman Sabir oğlu Rəhimov
Fazil Şəmistan oğlu Həsənov
Hüseyn Sözlü
Hüseynbala Yəhya oğlu Hüseynov
İqbal Vahid oğlu Hacıyev
İlhan Aküzüm
İlqar Hümbət oğlu Hacıyev
İslam Rövşən oğlu Hüseynov
Quram Rajdenoviç Marxuliya
Qod Semyonoviç Nissanov
Leyla İlham qızı Əliyeva
Məzahir Əbülfəz oğlu Həsənov
Mirkazım Heydər oğlu Seyidov
Murad Ənvər oğlu Ömərov
Niyazi Oqtay oğlu Hacıyev



Nüsrət Musa oğlu Məmmədov
Roman Səyyaf oğlu Əliyev
Sahil Məmmədyar oğlu Qasımov
Samir Adil oğlu İmanov
Samirə Telman qızı Patzer-İsmailova
Settar Sayın Sevigin
Seyran Hacı oğlu Rəhimov
Sinan Oğan
Tale Kəmaləddin oğlu Heydərov
Turqut Arat
Vidadi Koroğlu oğlu Salahov
Vüqar Şahmar oğlu Novruzov
Yusif Həsən oğlu Cəfərov

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 4 iyul 2011-ci il.**

**Azərbaycanın diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan Respublikası öz dövlət müstəqilliyinin bərpasına nail olduqdan sonra xaricdəki soydaşlarımızın təşkilatlanması, Azərbaycan icmalarının fəaliyyətinin əlaqələndirilməsi və onların digər diaspor təşkilatları ilə əməkdaşlığının dərinləşdirilməsi sahəsində mühüm addımlar atılmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Dünya Azərbaycanlılarının Bakı şəhərində 2001-ci ildə keçirilən birinci qurultayı ölkəmizin və xaricdə yaşayan həmvətənlərimizin həyatında xüsusi ictimai-siyasi əhəmiyyətə malik hadisə olmaqla, diaspor təşkilatlarımızın təşəkkül tapmasına sanballı töhfələr vermişdir.

Diasporumuzun daha mütəşəkkil qüvvəyə çevrilməsində və yeni mərhələdə onun fəaliyyətinin başlıca istiqamətlərinin müəyyənləşdirilməsində Dünya Azərbaycanlılarının respublikamızın paytaxtında keçirilmiş ikinci və üçüncü qurultaylarının müstəsna rolu vardır.

Bu gün ayrı-ayrı ölkələrdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xalqımızın zəngin mədəni irsinin, misilsiz tarixi nailiyyətlərinin təbliğinin genişləndirilməsi üçün çox sayda tədbirlər gerçəkləşdirilir. Azərbaycan dövlətinin milli inkişaf strategiyasının əsas prinsiplərini rəhbər tutmaqla hazırda respublikamızın hüdudlarından kənarda yaşayan soydaşlarımızın problemlərinin həllinə yönələn iri miqyaslı layihələr həyata keçirilməkdədir. Görülən bütün bu işlərin uğurla davam etdirilməsi və diaspor quruculuğunun müasir reallıqlara uyğun şəkildə aparılmasının təmin olunması məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycanın diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 iyul 2012-ci il.**



**Azərbaycanın diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası bu gün dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla həmvətənimizi ümumi məqsəd və vahid amal ətrafında birləşdirən milli məfkurə kimi qəbul olunur. 2001-ci ildə ulu öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən Dünya Azərbaycanlılarının I qurultayından sonra qısa müddət ərzində xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin hüquqi əsasları müəyyənləşdirildi, yüzlərlə yeni diaspor təşkilatı təsis edildi, ölkənin milli maraqlarının müdafiəsinə xidmət edən layihələr həyata keçirildi, diaspor təşkilatlarının fəaliyyət strategiyasını müəyyən edən konseptual sənəd – Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edildi.

Dəyişən dünyanın yeni reallıqları şəraitində Azərbaycan diasporunun potensialından daha səmərəli istifadə olunması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə müasir informasiya texnologiyaları vasitəsilə çatdırılması, xalqımızın qədim tarixinin və zəngin mədəni irsinin təbliği, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması, cəmiyyətə inteqrasiyasının sürətləndirilməsinə xidmət edən layihələrə dövlət dəstəyinin artırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycanın diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 2 iyun 2016-cı il.**

**Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə bir qrup şəxsə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elm, mədəniyyət, incəsənət və jurnalistika sahəsindəki nailiyyətlərinə, Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**«Əməkdar elm xadimi»**

Məmmədov Əmirullah Məmmədəli oğlu

**«Əməkdar jurnalist»**

Bağıyeva Mətanət Nəbi qızı
Məmmədov Nizami Zilli oğlu

**«Əməkdar rəssam»**

Zeynalov Yaşar Ələkbər oğlu
Səmədov Asim Rəsul oğlu

**«Əməkdar artist»**

İsmayılova Elnarə Telman qızı
Manafov İslam Atabala oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 iyun 2016-cı il.**



**Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə**

Attar Aygün
Bayramov Elman Bayram oğlu
Fətəliyeva Mirvari Mətləb qızı
Xəlilov İsgəndər Ağasəlim oğlu
Nisanov Qod Semyonoviç
Patzer-İsmailova Samirə Telman qızı
Rzayev Teymur Rəsul oğlu

**«Tərəqqi» medalı ilə**

Abdullayeva Svetlana Əli qızı
Axundov İlham Sənan oğlu
Axundova İradə İbrahim qızı
Aşkin İlhan İbrahim oğlu
Babayev Ağahüseyn Nadir oğlu
Babayev Mehrac Yusif oğlu
Babayev Şahverdi Ağadadaş oğlu
Bayramov Vaqif Deyruş oğlu
Bədirov Əziz Məhərrəm oğlu
Cavadov Hikmət Əlövsət oğlu
Əliyev Sayad İsbar oğlu
Fərtaş Səməd Ələskər oğlu
Hacıyev Emin Məcid oğlu
Hollenbrand Nadir Təvəkkül oğlu
Xamedov Əbilfas Müslüm oğlu
İsmayılov İlham Surxay oğlu
Karakoyunlu Səfər Fərman oğlu
Kaya Bahattin
Kravets Leonid Markoviç
Qarayev Tofiq Hüseyn oğlu

Qasımov İmaməddin Xanbaba oğlu
Qəhrəmanov İdris İsrafil oğlu
Quliyev Arif Cəmil oğlu
Qurbanov Zümrüd Hacı oğlu
Məmmədov Elsevər Məmməd oğlu
Məmmədov Mehdi Bahadur oğlu
Məmmədov Mobil Yaqub oğlu
Millnitts Yaşar Yadulla oğlu
Mirişov İrahid Hacıverdi oğlu
Musayev Elmar Rasim oğlu
Nəzərova Təranə Xanmirzə qızı
Novruzov Mərdan Nəriman oğlu
Sadiqi Səfər Məmi oğlu
Salman Yana
Seyidov Azad Ramazan oğlu
Spivak Lev
Süleymanov Azər Mirzə oğlu
Tağıyev Rövşən Surxay oğlu
Tağıyeva Təranə Tağı qızı
Turanlı Fərhad Qardaşxan oğlu
Zaxaryayev German Raşbiloviç

**«Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə**

Quliyev Ruslan Namiq oğlu
Kərimov Fuad Qalib oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 iyun 2016-cı il.**



**Xarici ölkələrdə yaşayan azərbaycanlıların sayı (diaspor potensialı)**

*Cədvəl 1.1.*
*(Təqribi)*

| № | Ölkənin adı | Qeyri-rəsmi məlumat | Azərbaycanlıların məskunlaşdığı ölkələrin dövlət orqanlarının açıqladığı rəsmi məlumat |
|---|---|---|---|
| 1. | ABŞ | 400 000-450 000 nəfər | |
| 2. | Almaniya | 200 000 nəfər | 13 444 nəfər |
| 3. | Avstraliya | 8 000 nəfər | 7 500 nəfər |
| 4. | Avstriya | 3 000 nəfər | |
| 5. | Belçika | 3 000 nəfər | |
| 6. | Belarus | 7 000 nəfər | 5 567 nəfər |
| 7. | Böyük Britaniya | 17 000 nəfər | |
| 8. | Çexiya | 2 000 nəfər | |
| 9. | Çin | 30 000 nəfər | |
| 10. | Danimarka | 6 000 nəfər | |
| 11. | Finlandiya | 3 000 nəfər | |
| 12. | Fransa | 70 000 nəfər | |
| 13. | Estoniya | 1 800 nəfər | |
| 14. | Gürcüstan | 500 000 nəfər<br>***Qeyd:*** *Borçalı azərbaycanlıların etnik-tarixi torpağı olduğu üçün orada yaşayanlar diaspor sayılmır.* | 284.800 nəfər |
| 15. | İraq | 800 000 nəfər | |
| 16. | İran | 30 000 000 nəfər<br>***Qeyd:*** *Cənubi Azərbaycan azərbaycanlıların etnik-tarixi torpağı olduğu üçün orada yaşayanlar diaspor sayılmır.* | 16 000 000 nəfər |
| 17. | İsveç | 30 000 nəfər | |
| 18. | İsveçrə | 4 000 nəfər | |
| 19. | İspaniya | 5 000 nəfər | |
| 20. | İsrail | 75 000 nəfər | |
| 21. | İtaliya | 2 000 nəfər | |
| 22. | Qazaxıstan | 90 000 nəfər | 85 292 nəfər |
| 23. | Qırğızıstan | 20 000 nəfər | 18 900 nəfər |

| | | | |
|---|---|---|---|
| 24. | Kanada | 170 000 nəfər | |
| 25. | Latviya | 4 000 nəfər | 2 237 nəfər |
| 26. | Litva | 1 500 nəfər | 648 nəfər |
| 27. | Meksika | | |
| 28. | Moldova | 6 000 nəfər | |
| 29. | Niderland | 20 000 nəfər | |
| 30. | Norveç | 3 000 nəfər | |
| 31. | Özbəkistan | 68 000 nəfər | 35848 nəfər |
| 32. | Polşa | 2 000 nəfər | |
| 33. | Rumıniya | 2 000 nəfər | |
| 34. | Rusiya | 2 000 000 nəfər<br>***Qeyd:*** *Dərbənd azərbaycanlıların etnik-tarixi torpağı olduğu üçün orada yaşayanlar diaspor sayılmır.* | 603 070 nəfər |
| 35. | Suriya | 45000 nəfər | |
| 36. | Şimali Kipr | 1000 nəfər | |
| 37. | Türkiyə | 3 000 000 nəfər | |
| 38. | Türkmənistan | 48 000 nəfər | |
| 39. | Tacikistan | 5800 nəfər | |
| 40. | Ukrayna | 280 000 nəfər | 45176 nəfər |
| 41. | Yaponiya | 10 000 nəfər | |
| 42. | Yeni Zelandiya | 2 000 nəfər | |

***Qeyd:*** *Xarici ölkələrdə yaşayan azərbaycanlıların sayı barədə statistika beynəlxalq qeyri-hökumət təşkilatlarının hesabatları, azərbaycanlıların məskunlaşdığı ölkələrin müvafiq dövlət orqanlarının rəsmi sənədləri, Diasporla İş üzrə Dövlət Komitəsinin apardığı araşdırmalar, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin və Azərbaycan diaspor təşkilatlarının verdiyi məlumatlar, Dünya Azərbaycanlılarının I Qurultayının Hesabat məruzəsi, habelə bu mövzuya həsr olunmuş elmi-tədqiqat əsərlərində əksini tapmış informasiyalar əsasında hazırlanıb.*



# AZƏRBAYCAN DÖVLƏT-DİASPOR MÜNASİBƏTLƏRİ FOTOLARDA





Şəkil 1.2. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması mərhələsi





Şəkil 1.2. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması mərhələsi





Şəkil 1.2. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması mərhələsi





Şəkil 1.2. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin təmin olunması






Şəkil 1.2. Dünya azərbaycanlılarının birinci qurultayı





Şəkil 1.2. Dünya azərbaycanlılarının hüquq və azadlıqlarının qorunması





Şəkil 1.2. Azərbaycan diasporunun formalaşması mərhələsi





Şəkil 1.2. Azərbaycan diasporunun formalaşması mərhələsi





Şəkil 1.2. Azərbaycan diasporunun formalaşması mərhələsi





Şəkil 1.2. Dünya azərbaycanlılarının ikinci qurultayı





Şəkil 1.2. Azərbaycan diasporunun inkişafı mərhələsi






Şəkil 1.2. Azərbaycan diaspor fəaliyyətinin genişlənməsi mərhələsi






Şəkil 1.2. Dünya azərbaycanlılarının üçüncü qurultayı





Şəkil 1.2. Azərbaycan diasporunun inkişafı mərhələsi





Şəkil 1.2. Azərbaycan diplomatiyasının diaspor işinə sövq edilməsi






Şəkil 1.2. Dünya azərbaycanlılarının dördüncü qurultayı

## MÜNDƏRİCAT

**MİLLİ DƏYƏRLƏR VƏ MÜASİR MEYLLƏR** .......... 3

**GİRİŞ** .......... 7

**I FƏSİL. AZƏRBAYCAN DİASPORUNUN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI** .......... 27

1.1. Diaspor anlayışına və tarixinə ümumi baxış .......... 29
1.2. Xarici ölkələrdə Azərbaycan icmalarının yaranması və səciyyəvi xüsusiyyətləri .......... 41
1.3. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi: diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi .......... 87

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ƏLAQƏLƏRİNƏ DİASPORUN TƏSİRİ** .......... 127

2.1. Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili .......... 129
2.2. Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələri .......... 139
2.3. Diaspordan lobbiçiliyə doğru: Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyəti .......... 167

**NƏTİCƏ** .......... 225

**AZƏRBAYCAN DİASPORU: YENİ ÇAĞIRIŞLAR VƏ YENİ İMKANLAR** .......... 237

**BİBLİOQRAFİYA** .......... 249

**ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ДИАСПОРСКАЯ ДЕЯТЕЛЬНОСТ (1991-2011). Резюме** .......... 265

**FOREIGN POLICY OF THE REPUBLIC OF AZERBAIJAN AND DIASPORA ACTIVITIES (1991-2011). Summary** .......... 269

İXTİSARLAR ........................................................................................ 273

ƏLAVƏLƏR .......................................................................................... 277

AZƏRBAYCAN DÖVLƏT -
DİASPOR MÜNASİBƏTLƏRİ FOTOLARDA ....................................... 305

**Babanlı Yəhya Məmməd oğlu**

# Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti

**(1991-2011)**

Texniki redaktor: **F.Ə.Qurbanov**
Kompüter yığımı: **S.E.Əlisoy**
Kompüter dizaynı: **T.Vaqifqızı**

Yığılmağa verilmişdir: **05 may 2016**
Çapa imzalanmışdır: **05 iyun 2016**

Formatı: ***60/84 - $^1/_{16}$.*** Həcmi: ***20,5 ç.v.*** Tirajı: ***500***
Qarnitur: ***«Times New Roman»***

Kitab «Turxan» Nəşriyyat-Poliqrafiya Birliyində
hazır diapozitivlərdən çap edilmişdir.
Telefon: **497-16-32; 427-44-61; 417-41-89**